İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ ON SƏKKİZİNCİ KİTAB

## FEVRAL 2022 - APREL 2022

AZƏRNƏŞR
BAKI - 2022

# İLHAM ƏLİYEV

**ÇIXIŞLAR ✵ NİTQLƏR**

**BƏYANATLAR ✵ MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR ✵ MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR**

AZƏRNƏŞR
BAKI - 2022

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2022, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının TASS agentliyində Rusiya Federasiyasının aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə aparılan görüş zamanı çıxışları verilmişdir. Dövlət başçısının bütün çıxışlarında Azərbaycanın tarixi və bugünkü reallıqlarına, multikultural dəyərlərə verdiyi qiymət əsas yer tutmuşdur.

Kitabda, həmçinin dövlət başçısının 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına, Suqovuşanda bayram tonqalının başından Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik müraciətləri, o cümlədən cari ilin yekunlarına həsr olunmuş müşavirədə çıxış və yekun nitqi də verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

Ə $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2022}}$ **BBK - 32**

© Azərnəşr, 2022

## TASS AGENTLİYİNDƏ RUSİYA FEDERASİYASININ APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Moskva*

*23 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də TASS agentliyində Rusiya Federasiyasının aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşmüşdür.*

*Görüşdə Mehriban xanım Əliyeva da iştirak etmişdir.*

**Sergey Mixaylov** (*TASS agentliyinin baş direktoru*): Salam, həmkarlar. Biz sizin hamınızı burada görməyə şadıq. Əlbəttə, pandemiya üzərində qələbə elan edə bilmərik, lakin yavaş-yavaş TASS-ın məşhur «TASS-ın baş redaktorları klubu»nu bərpa edirik. Ona görə yox ki, biz əlifba sırası ilə «A» hərfindən başlamağı qərara almışıq, sadəcə, belə alınıb. TASS agentliyinə gəldiyinizə görə çox sağ olun. Cənab Prezident, biz çox şadıq, Siz burada həmişə çox əziz qonaqsınız və 10 il bundan əvvəlki görüş yadımızdadır, Mehriban xanım da burada olmuşdu. Ümumiyyətlə, nisbətən yaxın vaxtlarda, 5-6 il bundan əvvəl. Adətən, bizim görüşlər səmimi dostluq

şəraitində keçir. İstənilən sualları verə bilərsiniz. Siz nə isə demək istəyirsinizmi?

**İlham Əliyev:** Çox sağ olun. Mən Rusiyanın aparıcı media rəhbərləri ilə görüşmək imkanı yaratdığına görə TASS rəhbərliyinə təşəkkür etmək istərdim. Zənnimcə, mənim Rusiyaya rəsmi səfərimin formatı və xüsusən dünən qarşılıqlı müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması nəzərə alınmaqla, əsl münasib vaxtdır. Rusiya ilə Azərbaycan arasında çoxsaylı sənədlər imzalanıb – 200-dən artıq. Lakin bu, xüsusi sənəddir, çünki dövlətlərarası münasibətlərin qurulmasından 30 il keçdikdən sonra biz müttəfiqlik səviyyəsinə çatdıq. Əslində mən deyərdim ki, biz bunu rəsmən təsbit etdik. Ona görə ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin xarakteri, fikrimcə, uzun illər boyu müttəfiq münasibətlərin bütün parametrlərinə cavab verirdi. Yəni bu sənəd təkcə böyük işə yekun vurmaqla qalmayıb, həm də Rusiya ilə Azərbaycanın gələcək qarşılıqlı əlaqələri üçün, müsbət regional inkişaf üçün böyük perspektivlər açır. Bu sənəd imzalandıqdan heç bir gün keçməmiş mən buradayam. Qeyd edildiyi kimi, mən buraya ilk dəfə gəlməmişəm və bu divarlar mənə doğma olub. Xüsusən TASS-da həmişə mövcud olan sərbəstlik şəraitini, fikir mübadiləsi aparmaq və bəzən rəsmi bəyanatların çərçivəsindən kənarda olan müəyyən məsələləri aydınlaşdırmaq imkanını vurğulamaq istərdim.

Dünən Rusiya Prezidenti və mən rəsmi bəyanatlar verdik. Həmin bəyanatlar Azərbaycan mətbuatında tam şəkildə dərc edilib. Fikrimcə, onlarla tanış

olmaq imkanınız olub. Buna görə təkrarçılıq etmək istəməzdim. Sadəcə, bizim söhbətimiz üçün daha çox vaxt ayırmaq lazımdır. Beləliklə, sizin hamınızı görməyə çox şadam. Sağ olun ki, gəlməyə, vaxtınızı bu görüşə sərf etməyə imkan tapmısınız. Mən bunu çox yüksək qiymətləndirirəm.

**S e r g e y  M i x a y l o v:** Buyurun, həmkarlar.

**V l a d i s l a v  F r o n i n** (*«Rossiyskaya qazeta»nın baş redaktoru*): **Onda Bəyannaməyə aid birinci sual yaranır. Bəyannamədə 43 bənd vardır. Ümumi sözlərlə «ümumi səviyyə» deməsək, yeni səviyyə daha konkret olaraq nə deməkdir? Xahiş edirəm izah edin – iqtisadiyyatda, mədəniyyətdə, qarşılıqlı fəaliyyətin digər sahələrində yeni səviyyə nədən ibarətdir? Axı bizdə neçə illərdir ki, müqavilə mövcuddur. Bəs bu nə deməkdir, müqavilədən yüksək sənəddirmi?**

**İ l h a m  Ə l i y e v**: Fikrimcə, elədir. Bu, müqavilədən yüksəkdir, ona görə ki, müqavilə dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında idi, lakin o, müttəfiqlər kimi münasibətlərin formatını müəyyən etmirdi. Uzun illər boyu Rusiya ilə Azərbaycan arasında münasibətləri mən də, Prezident Putin də strateji tərəfdaşların münasibətləri kimi xarakterizə etmişik. Münasibətlərin indiki formatı ali formatdır. Yəni bundan yüksək format praktiki olaraq, yoxdur. Dövlətlərarası münasibətlərdə bu, belə demək mümkünsə, aysberqin zirvəsidir. Azərbaycanın Xarici İşlər Nazirliyi Bəyannamənin tam mətnini öz saytında yerləşdirib ki, hər kəs onunla tanış ola bilsin. Dünən qeyd etdiyim kimi, orada 43 bənd vardır. Əlbəttə, bütün bəndləri şərh etmək həddən artıq vaxt aparar.

Bir də ki, buna ehtiyac yoxdur, baxmaq olar. Lakin bu Bəyannamənin adının özü çox şeydən xəbər verir. Bu, dediyim kimi, qarşılıqlı fəaliyyət səviyyəsinin artırılması üzrə uzun illər boyu aparılmış çox ciddi işin nəticəsi, Rusiya və Azərbaycan nümayəndələrindən ibarət qrupun bir ildən artıq müddətdə – keçən ilin yanvar ayından – bu Bəyannamənin mətni üzərində konkret işinin nəticəsidir. Bəyannamə həyat fəaliyyətinin praktiki olaraq, bütün sahələrini ehtiva edir. Əlbəttə, bu Bəyannaməni müxtəlif istiqamətlər üzrə konkret sazişlərlə möhkəmlədəcək silsilə sənədlər də işlənib hazırlanma mərhələsindədir.

Onu da deməliyəm ki, Rusiya və Azərbaycan tərəfindən müxtəlif istiqamətlər – ticari-iqtisadi, nəqliyyat, humanitar fəaliyyət və digər istiqamətlər üzrə qəbul edilmiş 8 «Yol xəritəsi» reallaşma mərhələsindədir. Yəni münasibətlər o dərəcədə şaxələndirilib ki, bizim hansı sahələrdə əməkdaşlıq etməyimizi müəyyənləşdirməkdənsə, hansı sahələrdə əməkdaşlıq etmədiyimizi göstərmək və ya söyləmək daha asandır. Hesab edirəm ki, iki qonşu ölkə üçün bu səviyyəni qarşılıqlı müttəfiqlik səviyyəsi kimi müəyyən etmək böyük nailiyyətdir və əlbəttə, böyük məsuliyyətdir. Biz gələcəkdə də həmişə bu yüksək səviyyəyə uyğun olmalıyıq.

**Dmitri Kiselyov** (*«Rossiya Seqodnya» Beynəlxalq İnformasiya agentliyinin baş direktoru*): **İlham Heydər oğlu, müttəfiqlik münasibətləri bir şəraitdə və bir Rusiya ilə hazırlanıb, lakin dünyada vəziyyətin keyfiyyətcə dəyişdiyi və Rusiyanın da keyfiyyətcə dəyişdiyi məqamda imzalanıb. Biz hamımız nə barədə**

**danışdığımızı bilirik. Bu dəyişmiş şəraitdə Rusiya ilə müttəfiqlik münasibətləri nə deməkdir? Bu, vəziyyəti – bizim müttəfiqlik münasibətlərimizi nə dərəcədə dəyişir və Siz bu şəraitdə həmin münasibətləri necə açıqlayırsınız?**

**İ l h a m Ə l i y e v:** Bütün bunlar o qədər yaxın vaxtda baş verib ki, bunu hələ yenidən dərk etmək lazımdır. Lakin deməliyəm ki, Bəyannamənin mətni bir neçə ay bundan əvvəl hazır idi. Yəni son mətn hazır idi, sadəcə, prezidentlərin şəxsən görüşməsi lazım idi. Əlbəttə, pandemiya ilə bağlı bütün məhdudiyyətlər və prezidentlərin iş qrafiki nəzərə alınmaqla. Hələ mənim Moskvaya bundan əvvəlki səfərim zamanı – noyabrın axırlarında razılıq əldə edilmişdi ki, bu görüş cari ilin əvvəlində olacaq. Hətta Rusiya tərəfi görüşün tarixini də təklif etmişdi. Təklif edilən tarix imzalanma günündən təqribən 20 gün əvvəl idi və biz həmin təklifi qəbul etmişdik. Təbii ki, mən bu tarixi təshih etmək imkanını heç nəzərdən keçirməmişdim, ona görə ki, sizin haqqında dediyiniz hadisələr ayın 21-də, mən təyyarə ilə buraya uçanda baş verdi. Hətta mən hələ Bakıda olsaydım belə, buraya uçub gələrdim. Buna görə də bizim münasibətlərimizdə heç nə dəyişməyib və dəyişməməlidir. Biz bundan sonra da Bəyannamədə əks olunmuş və uzun illər boyu işlədiyimiz istiqamətlərdə çalışacağıq. Biz uzun illər boyu beynəlxalq arenada həmişə bir-birimizi dəstəkləyirik. Saxta təvazökarlıq olmasın, deyə bilərəm ki, bu yolun əsasını mən qoymuşam, AŞPA-da Azərbaycan parlamentinin nümayəndə heyətinin sədri olarkən. Biz oraya seçiləndə bizim təşəbbüsümüzlə

Rusiya nümayəndə heyəti ilə görüş təşkil etdik və razılığa gəldik ki, bütün məsələlər barədə bir-birimizi dəstəkləyəcəyik və həmişə həmrəylər kimi səs vermişik. Bu ənənə sonradan başqa beynəlxalq strukturlara da transformasiya edib. Bunu hətta mütəxəssis olmayanlar da izləyə bilərlər. Odur ki, biz dünən sadəcə, olanları rəsmiləşdirdik, bunu lazım olduğu şəkildə, bizim münasibətlərimizin ruhuna uyğun şəkildə adlandırdıq və bundan sonra da bu istiqamətdə işləyəcəyik. Əminəm ki, bizim regionda baş vermiş və hələ baş verə biləcək hadisələrlə əlaqədar istər Azərbaycan tərəfindən, istərsə də Rusiya tərəfindən heç bir düzəliş olmayacaq.

**M i x a i l K o m i s s a r** (*İnterfax agentliyinin baş direktoru*): **Elə bu mövzunun davamı kimi və eyni zamanda, yaxın vaxtlarda Qarabağda vəziyyətin müəyyən dərəcədə nizamlanmasını nəzərə alaraq, Siz necə hesab edirsiniz, indi Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Şanxay Əməkdaşlıq Təşkilatına tərəf meyil edə bilərmi? Belə planlar varmı?**

**İ l h a m Ə l i y e v:** Şanxay Əməkdaşlıq Təşkilatına gəldikdə, biz müəyyən mənada artıq fəaliyyətə başlamışıq. Artıq neçə ildir ki, dialoq üzrə tərəfdaşıq. Bu, birinci pillədir. İkinci pillə – müşahidəçilərdir. Bir neçə il bundan əvvəl öz statusumuzu müşahidəçi statusuna qədər yüksəltmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının Katibliyinə rəsmən müraciət etmişik. Təəssüf ki, bu məsələ indiyə qədər həll edilməyib. Mənim Rusiya rəhbərliyi ilə, Çin Xalq Respublikasının rəhbərliyi ilə və Şanxay Əməkdaşlıq Təşkilatının

digər üzvləri ilə bu kontekstdə əlaqələrim onu göstərir ki, bizim statusumuzu yüksəltməmək üçün heç bir səbəb yoxdur. Lakin bizə məlum olmayan səbəblərə görə bu məsələ indiyə qədər baş tutmur.

Digər inteqrasiya layihələrinə gəldikdə, biz bunun məqsədəuyğunluğunu və milli maraqlarımıza nə dərəcədə cavab verməsini əsas götürürük. Fikrimcə, heç kəs üçün sirr deyil ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında aparıcı rol Rusiyaya məxsusdur. Bu, yaxın vaxtlarda MDB məkanında nümayiş etdirildi və hətta Qazaxıstan hadisələrindən əvvəl də hamıya aydın idi. Rusiya Federasiyası ilə müttəfiqlik münasibətləri, habelə 43 bənddən ikisi – 6-cı və 16-cı bəndlər zəruri hallarda hərbi yardım göstərilməsi ilə bağlı məsələlərə birbaşa dəlalət edir. Fikrimcə, bu tamamilə kifayətdir. Axı aydındır ki, KTMT-ni KTMT edən Rusiyanın orada olmasıdır. Əgər Rusiya KTMT-də olmasa, KTMT heç kəsin yadına düşməz. Hər şey bundan irəli gəlir. Rusiya ilə Azərbaycan arasında hərbi-siyasi əməkdaşlığın səviyyəsinin artırılması istiqamətində bir addım artıq atılıb. Ermənistan istisna olmaqla, KTMT-nin digər üzvləri ilə bizim çox etimadlı, yaxın dostluq münasibətlərimiz vardır. Fikrimcə, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Ermənistanla münasibətlər də normallaşacaq. Hər halda, biz Ermənistan ilə sülh müqaviləsi bağlamaq arzusunda olduğumuzu rəsmən bəyan etmişik. Yəqin ki, müəyyən mərhələdə bu, baş tutacaq. Lakin indiki geosiyasi reallıqlarda biz realist olmalı, əldə edilməsi mümkün olmayanı arzu etməməliyik. Biz Qafqazda möhkəm sülhün bərqərar olması istiqa-

mətində irəliləməliyik. Buna görə düşünürəm ki, dünənki sənəd sizin sualınıza müəyyən dərəcədə cavab verir. Növbəti mövzuları qabaqcadan duyaraq deyə bilərəm ki, eyni sözlər Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı ilə bağlı suala da aiddir. Həm ekspertlər cəmiyyətində, həm də siyasi müstəvidə bu barədə də çoxdan diskussiya gedir. Lakin biz burada da onu əsas götürürük ki, bu bizim iqtisadi maraqlarımıza nə dərəcədə cavab verəcək, çünki bizim strategiyamız və taktiki addımlarımız həmişə öz resurslarımıza, nəyə malik olmağımıza əsaslanıb. Biz özünəyetərli iqtisadiyyat yaratmağa və istər beynəlxalq maliyyə təsisatlarından, istərsə də hər hansı başqa maliyyə mədaxilindən asılı olmamağı bacarmışıq.

Buna görə də biz hər şeyi praqmatik baxımdan təhlil edəcəyik. Dünən Rusiya Federasiyası Hökumətinin başçısı ilə görüşdə bu mövzu müzakirə edildi. Bizim mövqemiz Rusiya tərəfinə açıq çatdırıldı ki, biz, necə deyərlər, qarşımıza iki kağız vərəqi qoymalıyıq – harada müsbət cəhətlər, harada müəyyən məhdudiyyətlər ola bilər və ya bizim iqtisadi suverenliyimizə müəyyən dərəcədə düzəliş edilə bilər. Təbii ki, lehinə və əleyhinə olan məqamları təhlil edəndən sonra bizə sərfəli olan qərar qəbul ediləcək. Bununla yanaşı, deməliyəm ki, MDB üzvü olan bütün ölkələrlə – təbii ki, Ermənistan istisna olmaqla – azad ticarət haqqında, o cümlədən Rusiya ilə müqavilələr imzalanıb. İqtisadi və gömrük baryerlərinin yumşaldılması istiqamətində addım atılıb. Sonrasını isə necə deyərlər, yaşayarıq, görərik. Heç nəyi tapmaca kimi tapmaq olmaz və biz heç vaxt qısa

müddətdə əldə edilməsi mümkün olmayan hansısa hədəflər elan etməmişik. Lakin təbii ki, bu bizim komandamızın daxilində müzakirələr çərçivəsində gündəlikdədir.

**Marqarita Simonyan** (*RT telekanalının və «Rossiya seqodnya» Beynəlxalq İnformasiya agentliyinin baş redaktoru*): **İlham Heydər oğlu, biz yeni-yeni sanksiyaların, o cümlədən personal sanksiyaların müzakirə olunduğu prosesdəyik, burada iştirak edənlərin bəzilərinin, məsələn, Dmitrinin Avropaya girişi artıq qadağan edilib, mənim kimi bəzilərinə isə yəqin ki, bu gün qadağan ediləcək. Biz insanların nəyi isə etdiklərinə və ya etmədiklərinə görə, yaxud Dmitri ilə mənim kimi nəyi isə dediyimizə və ya demədiyimizə görə harayasa getməyin qadağan edilməsinə dair çox nümunə gətirə bilərik. Biz həmçinin vətəndaşlıq əsasında ölkəyə girişə qadağa qoyulmasına dair çox nümunə göstərə bilərik, çünki müxtəlif ölkələr arasında münasibətlər müxtəlif olur. Lakin dünyada etnik əlamətinə görə ölkəyə girişə qadağa qoyulmasına aid nümunələr, demək olar ki, yoxdur. Biz hamımız bilirik ki, ermənilərin Azərbaycana girişinə qadağa qoyulub. Adətən, bu, təhlükəsizlik mülahizələri ilə izah olunur. Beləliklə, Azərbaycan xalqı qəribə də olsa, pis şəkildə təqdim olunur. Mənim üçün inanmaq çətindir və mən inanmıram ki, insanlar Azərbaycanda canlı etnik erməni görərsə onun üstünə atılar və onu tikə-tikə edərlər, hər halda, orta əsrlərdə yaşamırıq. Siz bu məsələyə sivil, mədəni münasibət nümunəsi göstərmək və bu cəfəng status-kvonu sadəcə, ləğv etmək istəməzdinizmi?**

**İlham Əliyev:** Birincisi, deməliyəm ki, bizimlə bölüşdüyünüz informasiya yumşaq desək, həqiqətə uyğun deyil. Bizdə etnik prinsipə görə ölkəyə girişə qadağa yoxdur və erməni xalqının nümayəndələrinin Azərbaycana çoxsaylı səfərləri buna sübutdur. Onlar Avropa oyunları kimi idman tədbirlərində iştirak edirlər. Ermənistandan olan komanda iştirak edib, mən hətta xatırlayıram ki, Ukraynanın milliyyətcə erməni olan bir nümayəndəsinə gümüş medalı şəxsən özüm təqdim etmişəm. O, qızıl medal qazanan azərbaycanlı boksçu ilə fəxri kürsüdə yanaşı dayanmışdı. Mən onun da əlini sıxıb təbrik etdim və bu, zaldakı adamların ürəyincə olmasa da, onlar məni uzun müddət alqışladılar.

**Marqarita Simonyan:** Mən bu əhvalatı bilirəm.

**İlham Əliyev:** Bax, görürsünüz. Deməli, sizin dediklərinizdə hər halda, müəyyən qərəzlilik var. Ermənistan nümayəndələri, hətta etnik ermənilər Azərbaycana müxtəlif tədbirlərə gələndə də eyni vəziyyət baş verir. Bir neçə il bundan əvvəl Katolikos Qareginin səfəri olub, mən öz iş kabinetimdə onunla görüşmüşəm. O, Bakının mərkəzində erməni kilsəsində oldu və bu kilsədə erməni dilində 5000-dən çox kitabı qoruyub saxlamağımıza təəccübləndi, o özü buna şahiddir. Mən belə nümunələri çox misal gətirə bilərəm – erməni soylu deputatlar, ictimai xadimlər, digər ölkələrin vətəndaşları. Bizdə qadağa yoxdur. Narahatlıq var, daha doğrusu, vardı ki, belə hallar xaotik şəkildə baş verəndə hansısa insidentlərin ola biləcəyi barədə müəyyən risk var. Çünki təqribən 30 il ərzində

Qarabağda və Zəngəzurda bütün Azərbaycan mədəniyyəti, tarixi, dini irsi məhv edilib. Mən özümlə kitab gətirmişəm, bu, hətta kitab deyil, «Qarabağ işğaldan əvvəl və sonra» adlı fotoalbomdur. Mən onu sizə təqdim edəcəyəm, baxarsınız, bu hər bir sözdən yaxşıdır, orada nə baş verib və təbii ki, çoxlu zərərçəkən, valideynlərindən, yaxınlarından məhrum olan çoxlu insanlar var. Bizdə indiyədək itkin düşənlərimizin sayı təqribən 4000-dir. Əfsuslar olsun ki, onlar bizə qaytarılmır və kütləvi məzarlıqların yerləri bildirilmir.

Biz öz vətəndaşlarımızın və qonaqlarımızın təhlükəsizliyinə cavabdehik. Buna görə xahişimiz ondan ibarətdir ki, ya Ermənistan vətəndaşları, ya da erməni soyadlı vətəndaşlar Azərbaycana gələndə müvafiq orqanlar məlumatlandırılsın. Xüsusi halda, Rusiyadan söhbət gedirsə, səfirlik və səfir Polad Bülbüloğlu bu təlimatları bilir. Azərbaycana gəlməyə rədd cavabı verilən hallar olub. Lakin belə hallar məhz ona görə olub ki, bu formal qaydalara riayət edilməyib.

Erməni silahlı dəstələrinin nəzarəti altında olan əraziyə təsadüfən düşmüş, öz evlərinə getmək istəyən və tutulub saxlanılmış, sonra əsir götürülmüş və işgəncələrə məruz qalmış azərbaycanlıların başına gələnlər barədə danışmaq istəmirəm. Bu, başqa mövzudur. Lakin düşünürəm ki, müharibə başa çatandan sonra əgər Ermənistan rəhbərliyi sülh müqaviləsi üzərində işləməyə başlamaq barədə bizim ideyaları qəbul etsə, belə səfərlər müharibədən əvvəl olduğu kimi, adi hal ala bilər. İrəvandan fərqli olaraq, Bakı həmişə çoxmillətli şəhər olub. Monoetnik dövlət olan, praktiki surətdə bütün milli azlıqların,

ilk növbədə, azərbaycanlıların deportasiya edildiyi, qovulduğu Ermənistandan fərqli olaraq, Azərbaycan indiyə qədər çoxmillətli dövlətdir. Buna görə də Azərbaycanda multikulturalizm ruhu praktiki olaraq, hər yerdə görünür və üstəlik, Azərbaycanda erməni millətindən olan minlərlə Azərbaycan vətəndaşı yaşayır. Onların sayı deyilən 30 mindən azdır. Yəqin ki, 30 min 10-15 il bundan əvvəl olub, bununla belə, onlar var, yaşayırlar və normal yaşayırlar, heç kəs onlara heç bir iddia irəli sürmür. Buna görə də sizin sualınıza cavab vermək imkanından istifadə edərək, sizi Azərbaycana gəlməyə dəvət etmək istərdim. Siz görərdiniz ki, heç bir məhdudiyyət yoxdur.

**Marqarita Simonyan**: Siz dediniz ki, mənim sualımda qərəzlilik var. İnanın, qərəzlilik yoxdur. Sizin dediyiniz halları mən bilirəm. Siz deyirsiniz ki, hər halda, bunlar xüsusi hallardır. Onlar ölkənin Prezidentinə məlumdur – idman tədbirləri, siyasi, ictimai tədbirlər. Amma, məsələn, mənim bu sistemdə işlədiyim 20 il ərzində heç kəs oraya erməni soyadlı səs rejissorunun da daxil olduğu çəkiliş qrupu göndərə bilməyib. Əgər indi belə deyilsə, Siz erməni soyadlı məni dəvət edirsinizsə, bəlkə mən özümlə daha bir neçə həmkarımı götürüm, onlar məmnuniyyətlə gələrdilər. Mən Sizi düz başa düşdümsə, belə hallarda, əgər biz oraya qrup şəklində gəliriksə, müraciət etmək olar?

**İlham Əliyev:** Bəli.

**Mixail Qusman**: Bu o demək deyil ki, Marqaritanın başçılıq etdiyi qrupda işləyənlərin hamısı ermənidir. Xeyr, bu o demək deyil.

**İlham Əliyev:** Amma mən fikirləşirəm ki, onların əksəriyyəti ermənilərdir.

**Marqarita Simonyan**: Siz yanılırsınız.

**İlham Əliyev:** Siz də indicə yanıldınız.

**Marqarita Simonyan:** Mənim 6000 işçim var. Onların əksəriyyəti ingilis və amerikalıdır. Mən düz başa düşürəmmi ki, biz oraya gələ bilərik? İlham Heydər oğlu, mənim beşinci nəslim rusiyalıdır.

**İlham Əliyev:** Bəli, lakin mən belə başa düşdüm ki, siz indi erməni kimi sual verdiniz.

**Marqarita Simonyan:** Mən öz əməkdaşlarını yalnız etnik əlamətə görə iki ölkəyə – erməni soyadlı insanları Azərbaycana və gürcü soyadlı insanları Abxaziyaya göndərə bilməməklə üzləşən təşkilatın rəhbəri kimi sual verdim. Sadəcə, mənə elə gəlir ki, müasir dünyada bu, düzgün deyil və indi Sizinlə söhbətimizdə hansısa etnik səviyyəyə keçməyimiz də düzgün deyil.

**İlham Əliyev:** Siz başladınız, mən sadəcə, düzəliş vermək istədim, bildirdim ki, sizin dediyiniz düz deyil. Mən yüzlərlə belə misal göstərə bilərəm, erməni soyadlı insanlar həm çəkiliş qrupunun tərkibində, həm rəsmi nümayəndə heyətlərinin tərkibində, o cümlədən Rusiyadan, digər ölkələrdən – Fransadan, ABŞ-dan gəlirlər. Belə hallar çox olub, sadəcə, yəqin bu barədə sizin məlumatınız yoxdur. Lakin düşünürəm ki, siz öz qrupunuzla gəlsəniz, bunu yəqin edərsiniz.

**Mehriban Əliyeva** (*Azərbaycanın Birinci vitse-prezidenti*): Olarmı, mən Marqaritanın dediklərinə bir az əlavə edim?

**İ l h a m  Ə l i y e v**: Əlbəttə, olar.

**M e h r i b a n  Ə l i y e v a**: Bizim Moskvaya səfərimiz ərəfəsində Azərbaycan televiziyasında bir sənədli film göstərildi. Film bir ahıl qadın haqqında idi. Onun 79 yaşı var, Ağdama, işğaldan azad edilmiş Ağdama gəlib, öz evini axtarır. Qadın həqiqətən, çox qoca idi, çətinliklə yeriyirdi və 30 dəqiqə ərzində o, praktiki olaraq, göz yaşları tökə-tökə öz emosiyaları barədə, təbii ki, heç nə tapmaması barədə danışmağa çalışırdı. O hətta evinin xarabalığını da tapmadı, yəni o heç olmasa həmin sahəni tapmağa çalışırdı. Bu həqiqətən, tamamilə dəhşətli mənzərədir. Düşünürəm, indi imkan yaranıb, mən sizin hamınızı dəvət etmək istəyirəm. Ona görə ki, cənab Prezident kitab barədə də danışdı, lakin bunları öz gözünüzlə görmək lazımdır. Nə üçün indi bu barədə danışıram – o qadın öz sərgüzəştini danışdı və paralel olaraq, birinci müharibədən əvvəl çəkilmiş kadrlar göstərildi. O vaxt o qadının ailəsində toy olub – onlar bu toyu həyətdə necə qeyd ediblər, gənc gəlini qəbul ediblər və indiki, bugünkü kadrlar. Onun gözlərindən sevinc yaşı axırdı: nəhayət ki, bu torpağa qovuşub. O deyirdi: «Mən bu günü gördüm. Xoşbəxtəm ki, bu günə qədər yaşadım». Sonda həmin qadın bir ovuc torpağı götürüb öpür. İndi mən bunu ona görə danışıram ki, bunları çatdırmaq çətindir, yəqin bunu görmək, hiss etmək lazımdır. Belə insanlar çoxdur. Birinci müharibə illərində bizdə 1 milyondan çox qaçqın olub. Bu günü görmək arzusu ilə yaşayanların çoxu dünyasını dəyişib, sağ qalanlar üçün isə indi, əlbəttə, xoşbəxt günlərdir. Təbii ki, bu insanların ailələri var, tanışları

var. Belə vəziyyətlər yarananda, həqiqətən, Prezidentin vurğuladığı kimi, ilk növbədə, onları qorumaq lazımdır. Ona görə ki, çox vaxt biz böyük problemlərdən söz açanda ümumi şəkildə danışırıq və insanı görmürük – bu bəlkə də təbiidir. Hər bir problemin arxasında yəqin ki, konkret insan dayanır, onun həyat tarixçəsi, emosiyaları dayanır və təəssüf ki, insanlar da, onların emosional fonu da fərqlidir. Məhz bu səbəbdən dövlət – indiki halda, Prezident Azərbaycan dövlətinin adından danışır – Azərbaycana gələn hər kəsi qorumalıdır. Lakin dövlət insanların hansı emosiyalarla yaşadığını da bilir. Mən məktəbdə oxuyanda bizim sinif çoxmillətli idi – ermənilər, ruslar, yəhudilər, azərbaycanlılar... Hətta deyə bilmərəm ki, mənim sinifimdə azərbaycanlılar əksəriyyət təşkil edirdi – yadınızdadırsa o vaxt bir sinifdə 45 şagird olurdu. Biz hamımız dostluq edirdik, əlbir idik, heç bir pislik gözləmirdik. Hesab edirəm ki, bu məziyyət Azərbaycan xalqının ən yaxşı cəhətlərindən biridir və o, yox ola bilməz. Bu gün belə olması tamamilə izah edilə biləndir və təəssüf ki, bunun baş verməsinin tarixi səbəbləri vardır.

**Marqarita Simonyan:** Sizinlə bir sinifdə oxuyan ermənilər yəqin ki, artıq Azərbaycanda yaşamırlar, onlar gələ bilərlərmi? Mən bunu soruşuram. İndi mən tarixə varmaq istəmirəm.

**Mehriban Əliyeva:** Əlbəttə, Marqarita, gələ bilərlər.

**Marqarita Simonyan:** Yəni onlar səfirliyə müraciət etməlidirlər və gələ bilərlər.

**T i m u r V a y n ş t e y n** (*NTV telekanalının baş prodüseri*): **Marqarita, bu mövzuda biz səninlə danışmışıq. Hətta dedim ki, mən Mehriban xanımın oxuduğu məktəbdən təqribən 150 metr məsafədə yerləşən 160 nömrəli məktəbdə oxumuşam. Bizim sinifdə də müxtəlif millətlərdən 45 nəfər var idi, özü də o zaman hələ bilmirdilər, sonralar kimin hansı millətdən olmasını öyrənməyə başladılar. Mənim erməni millətindən olan məktəbli yoldaşım bilirəm ki, bir neçə il əvvəl Bakıda olub, o zaman səfirliyə müraciət edib. Bütün bunlar rəsmidir. Aydındır ki, bizim eşitdiyimiz hallar da yəqin var. Sadəcə, hadisələr olur, təəssüf ki, sosial şəbəkələrə çıxır. Lakin qlobal olaraq mümkündür. Mən yaxın vaxtlarda öz məktəbimdə oldum. Orada hər şey gözəldir. Mən hətta oxuduğum illərdə həmin məktəbdə işləmiş pedaqoqlara rast gəldim. Hərçənd mən məktəbi bitirəndən 30 ildən çox vaxt keçib. Əlbəttə, mənim diqqət yetirdiyim, heyrətamiz faktlardan biri də odur ki, məktəb indi də rus dilində işləyir. Siz dünən Vladimir Vladimiroviçlə bunu müzakirə etdiniz ki, Azərbaycanda tədrisin rus dilində aparıldığı 300-dən çox məktəb – 340 məktəb və təqribən 20 ali təhsil müəssisəsi, o cümlədən Rusiyanın məşhur universitetlərinin filialları vardır. Mənə elə gəlir ki, biz bu gün Rusiyanın müxtəlif ölkələrlə münasibətindən danışanda, vacib məsələlərdən biri məhz müttəfiqlikdir. Çünki bir çox ölkələr, təəssüf ki, ötən əsrin 90-cı illərində rus dilində təhsil imkanlarının və ünsiyyətin qarşısını kifayət qədər sərt şəkildə kəsdilər. Bu gün isə biz ümumilikdə Rusiyanın bu ölkələrlə kifayət qədər mürəkkəb münasibətlərini gö-**

**rürük, mən keçmiş Sovet İttifaqı ölkələrindən danışıram. Siz necə hesab edirsiniz, bu tendensiya, ümumiyyətlə, necə davam edəcəkdir?**

**İ l h a m Ə l i y e v:** Bu, dövlət siyasətinin bir hissəsidir. Lakin sizin suala cavab verməzdən əvvəl mən söhbətimizin mövzusu barədə kiçik bir arayış vermək istərdim. Lap elə bu günlərdə, hətta ola bilər elə bu gün Azərbaycan parlamentinin iki üzvü İrəvanda Avronestin sessiya iclasında olublar. Onların ora getməsi üçün biz Dövlət Təhlükəsizliyi Komitəsi və ya Nazirliyindən – mən bilmirəm Ermənistanda necə adlandırılır – bu adamların təhlükəsizliyi barədə zəmanət aldıq. Bəziləri biləndə ki, onlar Ermənistandadır, iğtişaşlar başlandı. İndi buna sosial şəbəkələrdə baxmaq olar, iğtişaşlar səngimir. Mənə bu gün məlumat verdilər ki, etirazçılardan 10 nəfəri saxlanılıb, onlar bizim deputatlarımız üçün təhlükə doğurur. Bundan başqa, bu iclasın iştirakçıları üçün naharın nəzərdə tutulduğu yerdə – orada isə təbii ki, təkcə bizim vətəndaşlar deyil, həm Avropa Parlamentinin üzvləri, həm «Şərq Tərəfdaşlığı» ölkələrindən olan üzvlər var – restoranın sahibləri azərbaycanlılara xidmət göstərməkdən imtina ediblər. Onlar Ermənistanın baş nazirini ittiham edirlər ki, guya o, «...azərbaycanlılar İrəvana gedəcək» deyən Əliyevin fikri ilə oturub-durur. Bəli, mən bunu demişəm. Onu da demişəm ki, tanklarda yox, tədbirlərə gedəcəyik. Bu ona görədir ki, onlar razılaşdırılmadan, bütün təhlükəsizlik tədbirləri olmadan Ermənistana getsəydilər, onların üzərində hansı linç mühakiməsinin qurulacağını və bütün bun-

ların nə ilə qurtaracağını təsəvvür etmək çətin deyil. Mən əminəm ki, ən azından hamının gözü qarşısında onların başlarını kəsərdilər. Buna görə biz də tədbirlər görürük. Bu mövzu, yeri gəlmişkən, Rusiya xarici siyasət idarəsinin rəhbəri Sergey Viktoroviç Lavrovun səfərləri zamanı müzakirə edilib. Mən o vaxt izah etməyə çalışdım ki, biz hər hansı ekssess baş verməsinə yol verə bilmərik. Onda bizi də ittiham edəcəklər ki, kimsə kiməsə hücum edib, daş atıb, buna görə də biz məsuliyyətli olmalıyıq. Əgər bunların hamısı təşkil edilib və razılaşdırılıbsa, onda buyurun, heç bir məhdudiyyət yoxdur. Üstəlik, Mehribanın dediyi tamamilə doğrudur, müharibənin yaraları sağalmayıb. Əgər bu yaralar bizdə 30 il ərzində sağalmayıbsa, təbii ki, ikinci müharibədə məğlubiyyətdən sonra erməni xalqının da yaraları indi sağalmayıb. Bunu da başa düşmək lazımdır. Biz axı hansısa vakuumda yaşamırıq, biz insanlar arasında yaşayırıq və buna məsuliyyətlə yanaşmalıyıq. Yeri gəlmişkən, bizim, o cümlədən mənim atdığım addımlar, erməni rəhbərliyindən fərqli olaraq, barışmalı olduğumuzu bəyan etməyimiz belə məsələlərin yaranmamasına, bunun adi hala çevrilməməsinə yönəlib. Yəqin ki, İkinci dünya müharibəsi qurtardıqdan sonrakı ilk ildə də almanlar və SSRİ vətəndaşları bir-birinə qonaq getməyiblər. Onda da yəqin ki, müəyyən vaxt lazım olub. Təsəvvür edin, deyək ki, Ukraynanın və ya Belarusun, yaxud Smolenskin işğalı dövründə Moskvaya almanlar gəlsəydilər, onlara nə edərdilər? Yəni bu analogiya, necə deyərlər, tam adekvatdır. Bu sözləri mövzuya qayıdaraq deyirəm.

Rus dilində təhsilə gəldikdə, bəli, bu, düşünülmüş siyasətdir. Təbii ki, biz bunu ilk növbədə, özümüz üçün edirik, rus dilində təhsil almaq istəyənlərin – həm azərbaycanlıların, həm qeyri-azərbaycanlıların belə imkanları olsun. Bizim məktəblərdə rus bölmələrinə tələbat çoxdur və dediyim kimi, həmin məktəblərdə həm azərbaycanlılar, həm də qeyri-azərbaycanlılar – 140 mindən çox şagird və ali məktəblərin rus bölmələrində 15 mindən çox Azərbaycan vətəndaşı təhsil alır. Arayış üçün deyim ki, Ermənistanda erməni uşaqlarının qeyri-erməni məktəblərində təhsil alması ya qanunvericiliklə, ya da hansısa təlimatlarla, ümumiyyətlə, qadağan edilib. Bildiyimə görə, Ermənistanda cəmi bir və ya iki rus məktəbi var, onlar da hərbçilər üçündür. Necə deyərlər, baxın görün kim kimdir. Odur ki, əlbəttə, dünən imzalanmış Bəyannamədə humanitar əməkdaşlıq haqqında bənd də var, bu, qarşılıqlı əməkdaşlıqdır. Moskvaya səfərdən əvvəl mənə arayış verildi, orada deyilir ki, Rusiyada da təqribən 80 məktəbdə Azərbaycan dili bölməsi vardır. Biz bunu çox alqışlayırıq ki, azərbaycanlılar və Rusiya vətəndaşları, burada işləyənlər, onların uşaqları öz dillərində təhsil ala bilsinlər. Yəni bu qarşılıqlı proses tamamilə əməkdaşlıq ruhundadır və düşünürəm ki, Timur dediyi kimi, postsovet məkanındakı digər ölkələrlə müqayisədə, bu, məsələyə necə yanaşmaq nümunəsidir. Bu, təkcə təhsilə yox, bütövlükdə rus dilinə münasibətə aiddir. Azərbaycanda dövlət ali təhsil müəssisəsi var – Slavyan Universiteti, orada ilk növbədə, rus dili öyrənilir, rus dili və digər slavyan dilləri üzrə müəllimlər hazırlanır.

Pandemiyaya qədər, demək olar, Bakıda hər həftə yaradıcı ziyalıların nümayəndələri çıxış edirdilər – tamaşalar, konsertlər olurdu, yəni biz qarşılıqlı əlaqədə yaşayırıq. Timur yaxşı bilir, birinci il deyil və çox vacibdir ki, bizim artıq bir dövlətdə olmadığımız illərdə yeni nəsil yetişib, biz bunu qorumağı bacardıq və bunu gələcəkdə də qorumaq üçün əlimizdən gələni edəcəyik.

**P a v e l  Q u s e v** (*«Moskovskiy komsomolets» qəzetinin baş redaktoru*): **Rusiyalıların nəzərində Türkiyə istirahət üçün çox populyar yerdir. Azərbaycan burada birinciliyə nail olmaq barədə düşünürmü? Alkoqollu içkilər daha yaxşı, dəniz pis deyil, meyvələr və yerdə qalan hər şey, çay – əladır. Mənə elə gəlir ki, Azərbaycan Türkiyə ilə güclü rəqabət apara bilərdi.**

**İ l h a m  Ə l i y e v:** Yox, düşünürəm, bu, ağlabatan deyil. Çünki birincisi, Türkiyənin turizm sənayesi, hesab edirəm, dünyada ən yaxşılarından biridir və əlbəttə, iqlim şəraiti də. Yəni sırf iqlim şəraiti səbəbindən bizim rəqabət aparmağımız tamamilə faydasızdır. Əlbəttə, düşünürəm ki, biz tamam başqa seqmenti təmin edərik. Biz buraya gələnlərin özlərini evlərində olduğu kimi hiss etmələrini təmin edərik. Türkiyəyə isə görməli yerlərə baxmaq, dənizdə çimmək, xizək sürmək üçün gedirlər. Bütün bunları Azərbaycanda da etmək olar, lakin rusiyalılar çox vaxt elə bil öz evlərinə gedirlər. Yeri gəlmişkən, pandemiyaya qədər 2019-cu ildə bizdə Rusiyanın 1 milyon vətəndaşı turist kimi səfərdə olub, onlar ilk növbədə, ona görə Azərbaycana gedirlər ki, özlərini rahat, öz mühitində,

o cümlədən dil mühitində hiss edirlər. Əlbəttə, sizin dedikləriniz də mövcuddur, lakin bütün başqa şərait olsaydı, amma bu ab-hava olmasaydı, onlar yəqin ki, gəlməzdilər. Biz hər il təqribən 15–20 faiz artım müşahidə edirdik, pandemiya bütün bunları dağıtdı, lakin ötən il yenə 15 faiz artım oldu. Odur ki, biz sadəcə, təkcə Moskvada deyil, Rusiyada daha fəal olmalı, imkanlarımızı göstərməliyik. Yəni Azərbaycanda istirahət ən müxtəlif formalardadır və düşünürəm ki, istənilən adam, necə deyərlər, özünə maraqlı məşğuliyyət tapa bilər, sadəcə, bunu yaxşı təqdim etmək lazımdır. Əlbəttə, turizm sənayesinin zəif olması bizim zəif yerimizdir. Lakin burada yəqin ki, həm də obyektiv səbəblər vardır. Çünki bu sahə bizim üçün nisbətən yenidir və burada kadrların hazırlığı, servis məsələləri mühüm rol oynayır. Lakin məsələn, indi Rusiya şəhərləri ilə Azərbaycan şəhərləri arasında həftədə 100 reys var, əlbəttə, bu, yaxşı göstəricidir. Mən fürsətdən istifadə edib sizin hamınızı Azərbaycana dəvət etmək istərdim, ya qrup şəklində, ya fərdi qaydada.

**Mixail Qusman:** Yaz gələndə, təbiət çiçək açanda – TASS-ın təcrübəsi var – biz bütün heyətlə Azərbaycana gələrik.

**Konstantin Remçukov** (*«Nezavisimaya qazeta»nın baş redaktoru*): Avropada olanda ATV kanalını tapdım və iki həftə hər gün xəbərlərə baxdım. Aydın oldu ki, bu, Azərbaycan xəbərləridir. Mənim o zaman türklərlə sizin əməkdaşlığınız haqqında belə geniş məlumatım yox idi: regional aeroport, avtostansiyalar açılır və insanlar danışır. Türkiyənin re-

gional güc kimi rolunun dinamizmini, bəzən Rusiyanın mənafeləri ilə kəsişən və ya üst-üstə düşən maraqlar, bəzən Suriyadakı kimi münaqişəli, Ukraynaya hərbi dronların tədarükü halında olduğu kimi məqamlar nəzərə alınmaqla, dünyanın bu hissəsində tərəfdaşlar kimi, Azərbaycan–Türkiyə münasibətlərini səciyyələndirməyinizi xahiş etmək istərdim.

**İ l h a m  Ə l i y e v:** Münasibətlər müttəfiqlik münasibətləridir. İşğaldan azad edilmiş Şuşa şəhərində ötən il iyunun 15-də mən və Prezident Ərdoğan tərəfindən müttəfiqlik barədə Bəyannamə imzalandı. Bu da bizim malik olduqlarımızın formallaşdırılması idi, çünki Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri birinci il deyildi ki, mövcud idi. Türkiyə Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk ölkə idi. Biz müstəqil dövlət kimi, ən birinci addımlardan Türkiyə tərəfindən mənəvi dəstəyi hiss etdik. Son illər ərzində Prezident Ərdoğanın prezidentliyi dövründə və mənim dövrümdə – bu dövrlər ümumilikdə daha çox üst-üstə düşür – biz faydalı əməkdaşlıq fəaliyyətimizin əmsalını əhəmiyyətli şəkildə artırmışıq. Belə bir misal çəkim: Azərbaycan Türkiyə iqtisadiyyatına 19 milyard dollar, Türkiyə isə Azərbaycana 13 milyard dollar sərmayə qoyub. Podratçı kimi, Türkiyə şirkətləri tərəfindən icra olunan çoxlu infrastruktur layihələri vardır. Təbii ki, mədəni yaxınlıq, dil, etnik yaxınlıq – bunlar çox vacibdir. Bu həmin bünövrədir ki, bizə bu münasibətləri misli görünməmiş səviyyəyə yüksəltməyə imkan verib.

Ancaq biz bilirik, etnik yaxınlıq, o cümlədən dil yaxınlığı, əfsuslar olsun ki, heç də həmişə sıx münasibətlərin rəhni deyil. Bizim vəziyyətdə buna nail olundu. Fikrimcə, uzun illər ərzində və indi də qorunub saxlanılan düzgün siyasət, bərabərhüquqlu münasibətlər sayəsində buna nail olduq. Əlbəttə, Türkiyə Azərbaycana İkinci Qarabağ müharibəsinin elə ilk günlərindən siyasi və mənəvi dəstək göstərən ölkə oldu. Həmçinin bu siyasi, mənəvi dəstəklə Türkiyə bəzi ölkələrdəki bir sıra dairələrin Azərbaycana münasibətdə düşməncəsinə hərəkətlərin birmənalı şəkildə qarşısını aldı. Biz bunu çox yüksək qiymətləndiririk. İkinci Qarabağ müharibəsinin ilk günündən, ilk saatlarından Prezident Ərdoğan bəyanatla çıxış etdi və sonra dəfələrlə Azərbaycanı dəstəkləyən bəyanatlar verdi. Təəccüblü deyil ki, indi Qarabağın və Şərqi Zəngəzurun bərpası işində ən başlıca rolu Türkiyə şirkətləri oynayır, onlar bizə çox kömək edirlər.

Deməliyəm ki, biz bütün bərpa işlərini yalnız öz vəsaitimiz hesabına görürük, heç kimdən nə kredit qismində, nə də hansısa müftə kömək kimi bir manat, rubl və ya dollar almamışıq. Biz hər şeyi öz hesabımıza edirik, lakin podratçı kimi, Türkiyə şirkətlərindən çox fəal istifadə edirik. Yeri gəlmişkən deməliyəm ki, Rusiyanın 14 şirkəti də onlara işğaldan azad edilmiş ərazilərdə işləmək imkanı yaradılması istəyi ilə bizə müraciət edib. Fikrimcə, əgər bizim nöqteyi-nəzərdən baxsaq, dünən imzalanmış sənəd mahiyyətcə tarixi nailiyyətdir. Çünki Azərbaycan iki böyük ölkə, iki qonşusu ilə müttəfiqlik münasibətlərinə malikdir. Düşünürəm ki, başqa heç bir ölkə

bununla öyünə bilməz. Mən hələ o barədə demirəm ki, NATO-ya üzv ölkə ilə və KTMT-nin de-fakto rəhbər ölkəsi ilə. Bu əslində nailiyyətdir və yəqin heç kim üçün sirr deyil ki, artıq əməkdaşlığın üçtərəfli formatı da de-fakto formalaşır. O hələ formalaşmayıb, prezidentlər də daxil olmaqla, hələ Xarici İşlər nazirlərinin görüşü baş tutmayıb, lakin o, artıq formalaşır. O, ümumi maraqlar, praqmatizm və oxşarlıq əsasında formalaşır. Bizim idarəetmə sisteminin oxşarlığı, tərəfdar olduğumuz dəyərlərin oxşarlığı heç kim üçün sirr deyil. Məsələn, bizə çox xoşdur ki, prezidentlər Ərdoğan və Putin arasında olduqca etibarlı münasibətlər mövcuddur. Onların hər ikisi bu barədə açıq şəkildə danışırlar. Beləliklə, mən fikirləşirəm ki, bu münasibətləri formalaşdıracağımız o gün artıq uzaqda deyil. Xüsusən ona görə ki, Azərbaycan Rusiyanın və Türkiyənin müttəfiqidir, burada, necə deyərlər, artıq növbəti addım tələb olunur. Ancaq bu bizim işimiz deyil, lakin biz öz tərəfimizdən iki ölkənin maraqlarının yaxınlaşdırılması üzərində həmişə işləmişik.

**Oleq Dobrodeyev** («*Ümumrusiya Dövlət Teleradio Yayımları» şirkətinin baş direktoru*): **İlham Heydər oğlu, Sizə bir sualım var. Mənim yəqin ki, ən ağır xatirələrimdən biri keçən əsrin 90-cı illərinin əvvəllərində Bakıda olanda gördüyüm yüz minlərlə qaçqın barədə idi, praktik olaraq, bütün şəhər, şəhərin bütün mərkəzi. Əlbəttə, Siz xatırlayırsınız. Mənim sualım belədir: Artıq 30 ildən çox müddət keçib. Aydındır ki, bu, ağlasığmaz ağrı, faciədir, lakin Siz haqlı olaraq dediniz, ən ağrılı odur ki, bu hər bir konkret insanın**

**üzərindən keçir. Onlar indi hansı fəallıqla geriyə qayıdırlar?**

**İ l h a m Ə l i y e v:** Hələ ki, qayıtmağa yer yoxdur, çünki birincisi, hər şey dağıdılıb və ikincisi, hər yer minalanıb. Müharibənin qurtarmasından keçən bir il üç ay ərzində minaların partlaması nəticəsində ölənlərin və əlil olanların sayı 200 nəfərdən çoxdur. Müharibə başa çatdıqdan sonra ilk aylarda Vladimir Vladimiroviç Putinin çağırışlarına baxmayaraq, baş nazir Paşinyan onlarda mina xəritələrinin olmaması barədə inadla danışırdı. Bu, yalan idi və biz bilirdik ki, minalanmış sahələrin xəritəsi var. Bir neçə aydan sonra artıq onlar etiraf etdilər ki, bəli, belə xəritələr mövcuddur, lakin onları bizə verməkdən imtina edirdilər. Əslində bununla beynəlxalq humanitar hüququ kobud şəkildə pozur və barələrində danışdığınız qaçqınları ölümə məhkum edirdilər. Çünki insanlar 30 il gözləmişdilər, hamının qarşısını almaq, hər yolda blok-postlar qurmaq da mümkün deyildi. Yəni dolayı yollar var, insanlar keçir, gedirlər, öz evlərinin heç olmasa xarabalığını axtarıb tapmaq istəyirlər və həlak olurlar. Minalanmış sahələrin xəritələri yekunda bizə təhvil verildi, lakin onların dəqiqliyi 25 faiz təşkil edir, yəni əslində yararsızdır. Bu, başlıca problemdir ki, niyə biz artıq indi insanları qaytara bilmirik. Buna baxmayaraq, biz indi pilot layihəni icra edirik, yəqin ki, bir neçə aydan sonra Zəngilan rayonunun kəndlərinin birində həyata keçiriləcək, ilk olaraq, təqribən 200 ailə artıq bu ilin yazında oraya qayıdacaq. Sadəcə, müqayisə üçün deyim ki, biz Livanın ərazisinə bərabər ərazini bərpa

etməliyik. Həmin ərazidə heç nə yoxdur, yəni sözün əsl mənasında, hər şey dağıdılıb. Ağdam şəhərində 30–40 min insan yaşayırdı, orada xarabalıqdan başqa heç nə yoxdur. Daşları daşıyıb, aparıb satıblar. Başdaşılarını sındırıb, aparıb və satıblar. Bu, misli görünməmiş, ağlasığmaz miqyasda vandallıqdır. Bütün bunlar beynəlxalq ictimaiyyətdən gizlədilib. Əfsuslar olsun ki, işğal altında olan ərazilərə dəfələrlə səfər edən ATƏT-in Minsk qrupu bunu görməməyi üstün tutub.

Beləliklə, bizim qarşıda böyük işlərimiz var – su, işıq, qaz, yollar, minalar, evlər. Biz başlamışıq, biz ötən il 1 milyard 300 milyon dollar ayırmışdıq, bu il isə eyni vəsaiti bərpa işlərinə ayırmışıq. Pilot layihə icra olunur, lakin bu, vaxt aparacaq. Deməliyəm ki, bununla paralel olaraq, işğal dövründə biz qaçqınlar üçün fəal şəkildə evlər tikmişik, hər il təxminən 5-6 min ailəni, təqribən 30 min insanı yerləşdirmişik. Yəni onlardan təqribən 70 faizi normal yaşayır. Biz Bakıda, Sumqayıtda, Gəncədə və bir çox şəhərlərdə evlər tikmişik. Lakin onların 30 faizi hələ də uyğunlaşdırılmayan binalarda, yataqxanalarda, uşaq bağçalarında və ağır şəraitdə yaşayır. Buna görə də, ilk növbədə, bu kateqoriyadan olan insanlar geri qaytarılacaq. Artıq bizim tərəfimizdən Ağdam, Füzuli, Şuşa şəhərlərinin tikintisinin baş planları işlənib hazırlanıb, digər şəhərlərinki də yaxın vaxtlarda təsdiqlənəcəkdir. Hər şey plan üzrə yerinə yetiriləcək, heç bir qarma-qarışıqlıq olmayacaq. «Yaşıl enerji» prinsipi əsas götürüləcək. Qarabağ və Şərqi Zəngəzurun bütün zonası «yaşıl enerji» zonası və

«ağıllı şəhər»lər, «ağıllı kənd»lər konsepsiyası olacaqdır. Bu insanlar çox gözləyiblər, bu səbəbdən onlar Azərbaycanda mümkün olan ən yaxşı şəraitdə yaşamalıdırlar. Mən konkret müddət deyə bilmərəm, hətta onlarla görüşlərdə belə, deyə bilmərəm, onları yanıltda bilmərəm. Biz bu prosesi sürətləndirmək üçün hər gün, hər saat hər şey edirik. Lakin bizə kömək lazımdır, məhz minalardan təmizlənmə baxımından, hətta maliyyə yardımı deyil, texniki yardım lazımdır. Sadəcə, biz fiziki cəhətdən çatdıra bilmirik. Bizim Minatəmizləmə Agentliyimiz var, Müdafiə Nazirliyində bir neçə batalyonumuz var, FHN qrupu var. Lakin fiziki baxımdan çatmır, çünki bu çox ləng prosesdir. Buna görə də biz beynəlxalq strukturlara kömək üçün müraciət etmişik. Lakin əfsuslar olsun ki, artıq bir il üç ay keçib, hələ də müraciətimiz cavabsız qalıb.

**Konstantin Ernest** (*«Birinci kanal»ın baş direktoru*): Minalardan təmizləmə işlərində Rusiya FHN-in böyük təcrübəsi var. Onlar Afrikada böyük müqavilələr bağlayırlar, onlarda təcrübə böyükdür.

**İlham Əliyev:** Onlar ilk növbədə, treninq üzrə pulsuz kömək qismində iştirak ediblər, çünki hər şeydən ziyadə indi bizə bacardığımız qədər çox mütəxəssis hazırlamaq lazımdır ki, onlar bu işlə məşğul olsunlar. Əfsuslar olsun ki, minalardan təmizləmə işlərini aparanlar arasında da zərər çəkənlər var. Bu, əsas problemdir.

Əlbəttə, itkin düşənlər, çünki İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad etdiyimiz ərazilərdə 1700-dən çox həlak olmuş erməni hərbi qulluqçusu bizim tərəfimizdən tapılıb və biz onların hamısını

qaytarmışıq. Birinci Qarabağ müharibəsi dövründən 3890 azərbaycanlı, o cümlədən təqribən 200 uşaq indiyədək itkin düşmüş hesab edilir. Biz erməni tərəfinə kütləvi məzarlıqların yerini göstərmələri barədə müraciət etmişik, lakin hələ cavab yoxdur. Mən bilmirəm niyə. Yəqin onlar başa düşürlər ki, orada hərbi cinayətlərin sübutları olacaq. Lakin bununla belə, biz tələb edirik və yeri gəlmişkən, Avropa İttifaqı da bu məsələ ilə bağlı fikrini bildirib ki, kütləvi məzarlıqların yeri bizə təqdim edilsin. Çünki ehtimal çox böyükdür ki, hər şey Qarabağda, bizim işğaldan azad etdiyimiz ərazilərdədir.

**Y e v g e n i B e k a s o v** (*«Rossiya-24» telekanalının baş redaktoru*): **İlham Heydər oğlu, qısa sual verəcəyəm. Hazırda spot bazarındakı qazın qiymətinin artması barədə hamınız bilirsiniz. Azərbaycan Avropa bazarına tədarükü artırmağa hazırdırmı və hansı miqdarda?**

**İ l h a m Ə l i y e v:** Belə sorğular bizə mövcud vəziyyəti nəzərə almaqla, Avropa Komissiyasının məsul nümayəndələri tərəfindən daxil olur. Lakin məsələ ondadır ki, bizim ölkədə Avropaya tədarükə başladığımız bütün həcmlər – biz isə bunu bir ildən bir qədər artıq, Trans-Adriatik qaz kəmərinin tikildiyi zaman etməyə başladıq – hamısı artıq çoxdan, 4 və ya 5 il əvvəl kontraktlaşdırılıb. Siz yaxşı bilirsiniz, qaz elə bir məhsuldur ki, onu əvvəlcə satmaq, sonra isə hasil etmək lazımdır, ona görə də biz sadəcə, fiziki olaraq, buna malik deyilik, yəni bizə əlavə qazın lazım olduğunu nəzərə almamışdıq. Bizim ən böyük istehlakçımız Türkiyədir. Ondan sonra İtaliya, Gür-

cüstan, Yunanıstan, Bolqarıstan. Biz keçən il cəmi 19 milyard kubmetr qaz ixrac etmişik, bu il daha çox olacaq. Ola bilər ki, artığı spot bazarında satılsın.

Uzunmüddətli kontraktlara gəldikdə isə, bunun üçün təbii ki, biz əlavə olaraq sərmayə qoymalıyıq. Söhbət böyük həcmlərdən gedirsə, o cümlədən Trans-Adriatik qaz kəmərinin genişləndirilməsinə sərmayə qoymaq lazımdır, çünki o bizim qazın həcminə uyğun hesablanmışdı. Bütün bunlar, təbii ki, böyük xərc və təminat tələb edir. Artıq bizə bir neçə ölkə müraciət edib, lakin onlar özləri də yəqin başa düşürlər ki, bu, həll oluna bilməz. Spot bazarında satışlar cüzi ola bilər, həcmi artırmaq üçün isə təbii ki, potensial var. Bir neçə ildən sonra biz ən azı iki yeni yataqdan qaz hasil edəcəyik, onlardan birindən artıq gələn il nəzərdə tutulur. Bu qaz, təbii ki, xarici bazarda satıla bilər.

Lakin deməliyəm ki, bizim üçün ən cəlbedici tərəfdaş Türkiyədir. Birincisi, çünki biz müttəfiqik və düşünürəm ki, Türkiyə və Azərbaycan arasında qarşılıqlı fəaliyyət təsəvvür oluna biləcək ən yüksək səviyyədədir. İkincisi, Türkiyə bazarında tələbat artır, Rusiya isə iri təchizatçıdır. Bazar da böyüyür, çünki Türkiyədə qazlaşdırılma prosesi gedir. Lakin yaxşı şərtlər təklif olunduğu təqdirdə, əlbəttə, biz istənilən digər variantı gözdən keçirə bilərik. Hazırda Avropada müxtəlif ölkələr arasında Türkiyədən keçməklə Rusiya, Azərbaycan və ya hər hansı digər ölkənin qazına yönəldilmiş interkonnektorların yaradılması üzrə iş gedir. Odur ki, sata biləcəyimiz həcmi dəqiq təsəvvür etmək üçün səylərimizi əlaqələndirmək planın-

da Rusiya ilə Azərbaycan arasında fəal əməkdaşlıq da mümkündür. Başqa sözlə, bir-birimizə problem yaratmamalıyıq. Çünki qazın yüksək qiyməti həm bizim, həm Rusiyanın maraqlarına cavab verir. Buna görə düşünürəm ki, burada söhbət rəqabətdən getmir, həcmlər müqayisə olunmazdır. Lakin aydındır ki, qaz bazarında hətta kiçik həcmlər bəzən müəyyən əhəmiyyət kəsb edə bilər. Bunun qarşısını almaq üçün biz prinsip etibarilə Rusiya tərəfi ilə bu istiqamətdə işbirliyi qurmağa hazırıq.

**Jurnalist:** Biz Pavel Nikolayeviçin sayəsində artıq aprel ayında Azərbaycana səfər barədə razılığa gəlmişik.

**Mixail Qusman:** TASS ənənəvi olaraq təşkilati məsələlərlə məşğul olur.

**İlham Əliyev:** Əlbəttə, maraq olsa, həmçinin istərdim ki, siz işğaldan azad etdiyimiz ərazilərdə də olasınız. Hazırda, yeri gəlmişkən, artıq ikinci beynəlxalq səyahətçilər qrupu gəlir, üstəlik, onlar bizim onlara yardım etməyimizi xahiş edirlər, yəni biz onları çağırmırıq, onlar özləri gəlirlər. NomadManiya beynəlxalq səyahətçilər qrupu vardır. Bu yəqin ki, heç bir yerdə görə bilməyəcəyiniz bir mənzərədir. Bu əslində çox ağır sınaqdır. Müharibədən dərhal sonra ilk dəfə biz Mehribanla orada olanda bunu gördük. Onu heç nə ilə müqayisə etmək olmaz. Yenə də deyirəm, dağıntının miqyasını təsəvvür etmirdik, biz güman edirdik, bilirdik, orada binoklla nəyisə görmüşdük, lakin bunun bu qədər kütləvi xarakter daşıdığını təsəvvür etmirdik.

**M i x a i l  Q u s m a n: İlham Heydər oğlu, Azərbaycanın COVID-19-la necə mübarizə apardığını mən şəxsən bilirəm və ÜST də yüksək qiymət verib. Hazırda vəziyyət necədir?**

**İ l h a m  Ə l i y e v:** Düşünürəm ki, bu suala Mehriban cavab versə, daha məqsədəuyğun olar, çünki bizdə bu məsələ ilə o məşğul olur.

**M e h r i b a n  Ə l i y e v a:** Hazırda vəziyyətə görə demək olar ki, Azərbaycanda son dalğa azalmaqdadır. Lakin maraqlıdırsa, mən bir qədər təcrübəmiz barədə danışa bilərəm, çünki Azərbaycan da daxil olmaqla, bütün ölkələrin qarşılaşdığı vəziyyət qeyri-adi idi və problem çox böyük idi. İki ildən bir qədər artıq müddət keçdikdən sonra hazırda bizdə müəyyən təcrübə var və mən onu bölüşə bilərəm. Bütün bunlar başlayanda 2020-ci ilin fevral-mart ayları idi. Yəqin ki, hamınız xatırlayırsınız, müxtəlif versiyalar var idi, kimsə inanırdı, kimsə dərk edirdi, kimsə anlamırdı, inkaretmə mövcud idi. Fevral ayının sonunda biz aydın şəkildə dərk edirdik ki, nəsə həqiqətən də çox ciddi hadisə baş verir və bu, qeyri-ordinar, təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir. Hesab edirəm ki, sonrakı işin uğurlu həyata keçirilməsinin başlıca səbəblərindən biri yəqin ki, çox peşəkar qərargahın, komandanın tez bir zamanda yaradılmasına nail olmağımızdır. Üstəlik, aydın idi ki, burada yalnız tibb işçiləri ilə kifayətlənmək olmaz, diapazon tamamilə genişdir və hökumət üzvləri, ekspertlər, gənc alimlər, xüsusilə riyaziyyatçılardan ibarət qrup toplandı. Çünki artıq o vaxt ay-

dın idi ki, hesablamaq, proqnozlaşdırmaq lazım olacaqdır.

Lakin cənab Prezident sağ olsun, o dərhal tövsiyələri dinləməyə başladı. Beləliklə, biz birinci mərhələdə sərhədlərin bağlanması barədə qərarı kifayət qədər tez qəbul etdik. Mart ayı idi. Bu, əlbəttə, müəyyən dərəcədə kömək etdi, lakin hadisələrin sonrakı gedişi göstərdi ki, güclü, ciddi karantin rejimləri nə dərəcədə kifayət imiş. Bundan başqa, tez bir zamanda daha bir vacib tədbir görülməli idi və komanda bu işin öhdəsindən gəldi. Təbii ki, səhiyyə sahəsində bizim zəif yerlərimiz gözdən keçirilməli idi, çünki əsas problem səhiyyə sistemində kollaps idi və artıq təxminən aprel ayında bizdə nəyin çatışmadığını bilirdik. Biz qısa müddətdə 10, sonradan isə daha 2 – cəmi 12 modul tipli xəstəxana ala bildik. Əlbəttə, yenə vəsait ayrılmışdı. Həmin xəstəxanalar çox qısa müddətdə ölkəyə gətirildi və yığıldı. Bir ildən sonra ilk ilin təcrübəsinə əsaslanaraq, hansı avadanlığın, hansı xəstəxanaların lazım olduğunu biz dəqiq bilirdik. Məsələn, pandemiyanın ikinci ilində biz artıq sırf reanimasiya çarpayıları ilə təchiz olunmuş modul tipli xəstəxanalar sifariş edirdik, çünki aydın oldu ki, adi çarpayılarla problem olmayacaq, reanimasiya çarpayıları ilə isə ola bilər.

Yəqin əsas aspektlərdən biri ondan ibarətdir ki, komanda işləyirdi. Onlar indiyə qədər işləyirlər. Deyə bilərəm ki, onların bu günə qədər verdiyi proqnozlar 90–95 faiz düz çıxıb. Yəni biz hər bir dalğanı gözləyirdik. Bizdə nə vaxt artım, nə vaxt azalma, nə vaxt pik olacağı barədə səhv bir həftə ola bilərdi. Bu

bizə çox kömək edirdi, çünki hökumətin müəyyən təcili tədbirlər, karantin tədbirləri görməsi lazım olanda, müddətləri düzgün hesablamasına imkan verirdi. Təbii ki, bununla paralel olaraq, zəruri tibbi avadanlıq və dərmanlar alındı. Birinci ilin sonuna, hətta ortalarına doğru artıq aydın oldu ki, söhbət vaksinasiyadan gedir. Burada da həmkarlarımız sürətlə əlaqə saxlaya bildilər. Səhv etmirəmsə, dünyada birinci vaksinasiya 2020-ci ilin dekabrında Amerika Birləşmiş Ştatlarında həyata keçirilib. Bizdə vaksinasiya 2021-ci il yanvarın 18-də başlandı. Yəni ölkəyə vaksinlər kifayət qədər tez çatdırıldı. Bunlar Çin vaksinləri, növbəti mərhələdə isə Rusiya vaksinləri idi. COVAX layihəsi xətti ilə Avropa vaksinləri də aldıq. Yəni vaksinləri seçmək imkanı vardı. Təbii ki, vaksinasiyanın könüllü olacağı qərara alındı və seçim vardı. Burada ikinci aspekt çox vacibdir. Hesab edirəm ki, Mixailin dediyi kimi, bizim təcrübəmizi uğurlu hesab etsək, yəqin ki, cəmiyyətlə düzgün kommunikasiya çox vacib aspektdir. Ona görə ki, situasiya insanlar üçün yeni, çox cəhətdən qorxulu idi. İnkar edənlər də vardı, hər yerdə olduğu kimi, prinsip etibarilə müxtəlif konspiroloji versiyalar da vardı. Bizə nə kömək etdi? İlk növbədə, biz başa düşdük ki, qərargahdan daxil olacaq ismarıclar tamamilə dürüst olmalıdır, biz onları elə yoxlamalıyıq ki, sonradan dəyişməyək. Ona görə ki, belə vəziyyətdə dediyimizi etmək çox vacib idi. Bu halda da mən yenə Prezidentə minnətdaram, çünki o, insanlara, ictimaiyyətə müraciət edərək, bu ismarıcları verirdi. Əlbəttə, burada insanların Prezidentə

etimadı öz rolunu oynadı. COVID ilə bağlı vəziyyətdə bu etimadın nə dərəcədə vacib olması bir daha təsdiqləndi, ona görə ki, Prezidentdən eşidilənlər birmənalı həqiqət kimi qəbul edilirdi. Əlbəttə, skepticlər, skeptik əhval-ruhiyyəli insanlar da var, az sayda vaksin əleyhdarları da var. Lakin bütövlükdə biz ciddi ziddiyyətlərdən və ya iğtişaşlardan qaça bildik. Bizdə insanlar vaksin vurdurmağa getdilər və yetərincə intizamlı şəkildə vaksinləndilər. Bu günə qədər bizdə yaşı 18-dən yuxarı olan insanların təqribən 70 faizi iki doza vaksin alıb. Ona görə ki, bizdə əsasən yaşı 18-dən yuxarı olan insanlar vaksinlənir. Uşaqlar üçün vaksinləmə yalnız valideynlərin qərarı ilə həyata keçirilir, məcburi vaksinləmə yoxdur. Səhiyyə Nazirliyi belə də elan edir ki, bu, yalnız valideynlərin qərarı ilə həyata keçir. Ona görə də bu iki tədbirin kompleksi ən optimal ssenari üzrə hərəkət etməyə imkan verdi. Əlbəttə, belə bir ehtiyatlı optimizm var ki, «omikron» epidemiyanın sonu ola bilər. Bununla bərabər, başqa versiyalar da səsləndirilir. Deyirlər ki, virusun daha artıq təhlükəli, daha ölümcül yeni versiyaları yarana bilər. Lakin bütövlükdə keçilmiş yolu təhlil edərək, bu gün mən bu iki komponenti əsas hesab edirəm: tezliklə yüksək iş qabiliyyətli, çox düzgün komanda yaratmaq – vurğulamaq istəyirəm ki, bu komanda təkcə həkimlərdən ibarət olmamalıdır – ikincisi, biz cəmiyyətə fikrimizcə, yoxlanılmış və çox düzgün ismarıclar vermişik. Bu öz təsirini göstərib. Bu elə mövzudur ki, fürsətdən istifadə edib, hamıya cansağlığı arzu etmək istəyirəm. Ona görə ki, bu iki il hamı üçün çox

mürəkkəb olub. Kimlərinsə daha uğurlu sağalmasına baxmayaraq, təəssüf ki, kimlərinsə müalicəsi uğursuz olur, insanlar vəfat edir. Bizdə də ölənlər olur. Çox ümid etmək istərdim ki, biz artıq bu bəlanın sonuna yaxınlaşırıq.

**Mixail Qusman:** Mehriban xanım, qeyd etmək lazımdır ki, cənab Prezident televiziya formatında müraciət edirdi, yaşı «18+» olanlar isə Sizin yazdıqlarınızı sosial şəbəkələrdə oxuyurdular. Obyektivlik naminə həm də daim sosial şəbəkələr vasitəsilə müraciət edilirdi.

**Mehriban Əliyeva:** Bax, məhz bu çox vacibdir. Yadımdadır, bu iki il ərzində Prezidentin keçirdiyi müxtəlif tədbirlərin istər pandemiyaya, istərsə təbabətə aidiyyəti olmasa da, mən hər dəfə ondan xahiş edirdim ki, həmin məqam üçün mühüm tezis hazırlayım, bu və ya digər formada xahiş edirdim ki, bu tezis səsləndirilsin, bilirdim ki, insanlar ona qulaq asır və inanırlar. Bu da real təsirini göstərdi. Bax, bu çox kömək etdi.

**İlham Əliyev:** Yeri gəlmişkən, biz beynəlxalq səviyyədə də həm kömək edən, həm də «vaksin millətçiliyi»nə qarşı çox fəal çıxış edən azsaylı ölkələrdən biriyik. Mən beynəlxalq tribunalardan çıxışlarımda dəfələrlə demişəm, rəqəmlər gətirmişəm ki, inkişaf etməkdə olan ölkələr arasında vaksinasiya səviyyəsi inkişaf etmiş ölkələrlə müqayisədə onlarca dəfə aşağıdır. Üstəlik, inkişaf etmiş bəzi ölkələr, xüsusən ilk dövrdə, bu vaksinlərin çatışmadığı, əldə etməyin çox çətin olduğu dövrdə onları külli miqdarda alıb və almaqda davam edirlər. Mehriban deyir ki,

biz yanvarda başlamışıq, lakin bu çox çətin idi, çünki o vaxt, ümumiyyətlə, vaksini olanlar az idi, biz regionda birincilərdən biri olduq. Məhz yardım göstərmək, inkişaf etməkdə olan ölkələrə kömək göstərmək üçün biz başçılıq etdiyimiz «Qoşulmama Hərəkatı»nın Zirvə görüşünün keçirilməsi təşəbbüsünü, sonra isə «Qoşulmama Hərəkatı»nın adından Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürdük və bu sessiya keçirildi. Həmçinin nəinki başqalarına kömək etməyən və yalnız özü haqqında düşünən, həm də onlara lazım olduğundan qat-qat çox vaksin alan ölkələri qınayan müvafiq qətnamələr qəbul edildi. İndi mən həmin ölkələrin adlarını çəkmək istəmirəm, bu statistika bizdə var. Bu, qəbul edildi. Həqiqətən də qlobal mənzərəyə nəzər salsaq görərik ki, inkişaf etmiş ölkələr, təbii ki, Avropa ölkələri özlərini tam təmin ediblər, amma belə adlandırılan üçüncü dünya ölkələrinin çoxunda hətta kimin ölməsi, kimin qalması statistikası belə, aparılmır. Onlar sadəcə, taleyin ümidinə qalıblar. Biz təqribən 80 ölkəyə maliyyə yardımı və humanitar yardım göstərmişik. Bir çox ölkələrə vaksinlərlə – həm Çin vaksini, həm AstraZeneca ilə yardım göstərmişik və göstərməkdə davam edirik. Biz Ümumdünya Səhiyyə Təşkilatına ilk növbədə, «Qoşulmama Hərəkatı»nın üzvü olan ölkələrdə vaksinasiya üçün 10 milyon dollar könüllü ianə ayırmışıq və ÜST özünün açıq çıxışlarında Azərbaycanı həm daxildə, həm də kənarda nümunəvi ölkə kimi qiymətləndirib. Bu beynəlxalq format da çox vacibdir. Mən bilirəm

ki, Rusiya da çox fəal kömək edib və edir. Yeri gəlmişkən, Rusiya bizə də həm PCR testləri ilə kömək edib, həm həkim briqadaları, həm də «Sputnik V» vaksini göndərib. Biz bilirik ki, bəzən ölkə daxilində də «Sputnik V» vaksini çatışmır, lakin bizim üçün artıq 220 min doza ayrılıb. Əlbəttə, bizim istifadə etdiyimiz 12 milyon doza ilə müqayisədə bu, kiçik miqdardır, lakin hər halda, bu da dostluq jestidir. Biz bunu belə qəbul etmişik.

**M i x a i l Q u s m a n: İlham Heydər oğlu, Siz «Qoşulmama Hərəkatı»nı xatırlatdınız. Bu Hərəkat daha çox ötən əsrin 60-cı illərində populyar idi. Siz dediniz ki, indi Hərəkata Azərbaycan sədrlik edir. Dünya arenasında «Qoşulmama Hərəkatı»nın yeni amil kimi yaranması meyili varmı və bu onunla bağlıdırmı ki, ona Azərbaycan sədrlik edir? Prinsipcə müasir dünyada yeni qüvvə kimi bu nə qədər aktualdır?**

**İ l h a m Ə l i y e v:** Fikrimcə, buna tələbat vardır. Biz bu missiyaya çox məsuliyyətlə yanaşmışıq. Mən bizi heç kimlə müqayisə etmək istəmirəm. Lakin siz də qeyd etdiniz, müəyyən mərhələdə Hərəkat dinamikliyini itirdi. Yəqin ki, bu, nəsillərin dəyişməsi ilə əlaqədar idi. Hər halda, «Qoşulmama Hərəkatı»nın başlanğıcında Tito, Nasir... durmuşdular.

**M i x a i l Q u s m a n:** Bandaranaike...

**İ l h a m Ə l i y e v:** Əlbəttə, bu xadimlər siyasi arenadan getdikdən sonra yəqin ki, müəyyən boşluq əmələ gəldi. Lakin beynəlxalq ictimaiyyətin belə qütbləşməsi də ümumilikdə ehtimal ki, öz rolunu oynadı, çünki o necə isə yavaş-yavaş sönməyə başladı. Biz nisbətən yeni üzvük. Biz 10 ildən bir az artıqdır ki,

seçilmişik və sözün əsl mənasında, bir neçə ildən sonra bizə belə etimad göstərildi, yekdilliklə seçildik. Bizə özümüz daxil olmaqla, 120 ölkə səs verdi. Bizim missiyamızın hansı dərəcədə uğurlu olmasını deyə bilmərik. Lakin sədrliyimizin bir il uzadılması faktı yenə də bizim öz funksiyamızı yerinə yetirməyimizdən xəbər verir. Bakıda, sədrliyi öz üzərimizə götürdüyümüz sammitdə mən dedim ki, biz beynəlxalq hüququ, ədaləti qoruyacaq və üzv ölkələrin maraqlarını müdafiə edəcəyik. Biz bunu edirik. Biz beynəlxalq hüququ və ədaləti 2020-ci ildə bərpa etdik, üzv ölkələrin maraqlarını isə öz imkanlarımız hüdudunda müdafiə edirik. Dediyim kimi, humanitar-maliyyə yardımı və qlobal arenada mühüm tezislərin artikulyasiyası ilə. Hesab edirəm ki, Hərəkatın institutlaşdırılması istiqamətində müəyyən addımların atılması üçün potensial mövcuddur. Çünki bu, təşkilat deyil, Hərəkat adlandırılıb. Həm ölkə daxilində, həm də bəzi ölkələr arasında ziddiyyətlərin olmasına baxmayaraq, hər halda, bu, BMT-dən sonra ikinci təşkilatdır. Azərbaycanın həm vicdanlı üzv kimi, həm də rəhbər kimi rolu artıq tanınıb. Bir daha deyirəm ki, Hərəkatın bütün üzv ölkələrinin bizi iki dəfə dəstəkləməsi – baxmayaraq ki, bəzi ölkələr arasında çox ciddi qarşıdurmalar mövcuddur – məhz bizim xarici siyasətimizin qarşıdurmasız kursundan xəbər verir, əksinə, bu siyasət əməkdaşlığa və imkanlar çərçivəsində köməyə hədəflənibdir. Biz bu istiqamətdə işləyirik.

**M i x a i l  P e t r o v** (*TASS agentliyinin baş redaktoru*): **İlham Heydər oğlu, icazə versəniz, bugünkü görüşümüzə nə ilə başladığımıza qayıtmaq istərdim.**

**Belə alındı ki, Siz Rusiya tərəfindən Donetsk respublikasının tanınmasından sonra Prezident Putin ilə ünsiyyətdə olan ilk xarici dövlət liderisiniz. Aydındır ki, biz hamımız Prezidentin Bəyanatını, Rusiya Prezidentinin televiziya müraciətini eşitdik. Lakin bununla belə, Siz vəziyyəti daxildən bilirsiniz və Putin ilə danışıqlardan sonra Siz ukraynalı həmkarlarınızla, türkiyəli həmkarınızla daim kontaktda olursunuz, hər halda, bu hadisəyə cəlb edilmiş olursunuz. Bu biliyinizlə, böyük təcrübənizlə Sizin proqnozunuz necədir? Aydındır ki, bu, ikitərəfli Rusiya–Ukrayna vəziyyəti deyil, bu vəziyyət bütün dünyaya aid edilir. Bundan sonrakı inkişafı Siz necə görürsünüz? Bu, zaman etibarilə nə qədər davam edəcək? Həm region üçün, həm də bütün dünya üçün bunun nə dərəcədə ciddi fəsadları olacaq? Mən, əlbəttə, Sizdən danışıqlarda səsləndirilən qapalı məlumatlardan söhbət açmağınızı xahiş etmirəm. Lakin bununla belə, Sizin bu məsələyə verdiyiniz şəxsi qiymət necədir?**

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz ki, proqnoz vermək mən tərəfdən çox məsuliyyətsizlik olardı, çünki mən həmişə faktlardan istifadə etməyin, baş verən vəziyyəti bizə aid olan sahədə dəyərləndirməyin, bu vəziyyətin Azərbaycan üçün maksimum əlverişli formalaşması üçün mümkün olan hər şeyi etməyin tərəfdarıyam. Düzünü desəm, Azərbaycan ilə Ermənistan arasında münasibətlər, bu münasibətlərin necə cərəyan edəcəyi barədə proqnoz vermək mənim üçün çətindir. Çünki bütün bunlar təzədir. Bizim bəyanatlarımız və sülhün bərqərar olmasına hədəflənməyimiz hələ ki, erməni rəhbərliyi tərəfindən ən azı açıq şəkildə qəbul edilmir.

Buna görə də bu yaxınlarda baş verən hadisələr nəzərə alınmaqla, dünyada vəziyyətin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çox çətindir. Fikrimcə, təkcə mənə deyil, bilavasitə bu prosesə cəlb edilənlərə də çox çətindir. Çünki hər şeyi və bütün əsas ölkələrin hərəkətini qabaqcadan görmək çox çətindir. İkinci Qarabağ müharibəsi başlananda, hətta o potensialla – həm siyasi, həm hərbi, həm iqtisadi potensialla biz hər şeyi qabaqcadan nəzərə ala bilmirdik. Çünki müharibəni qabaqcadan proqnozlaşdırmaq mümkün deyil. Əlbəttə, təsdiqlənmiş planlar çərçivəsində gedirdik və yolumuzdan çıxmırdıq, lakin bu axında müxtəlif ziqzaqlar vardı. Rusiya ilə Ukrayna arasında vəziyyət barədə də bunu demək olar. Hər şey o qədər yenidir ki, hətta aparıcı paytaxtlardan biz yalnız, təbii ki, büsbütün zidd bəyanatlar görürük. Vəziyyətin necə cərəyan edəcəyini deməyə çətinlik çəkirəm. Rusiyaya qarşı sanksiyalar nədən ibarət olacaq? Axı Qərb hələ də bunları elan etməyib, hansısa eyhamlar edilir.

Eşitmişəm, guya sanksiyaları elan etmək istəmirlər ki, bu, qarşıdurmanın azaldılması amili ola bilər, elan isə onların nöqteyi-nəzərindən əl-qolu açacaq. Lakin bu sizin kimi, mənim də həm Rusiya televiziyasına, həm Türkiyə televiziyasına, həm də Britaniya televiziyasına mənim linqvistik bacarıqlarım imkan verdiyi qədər baxaraq, çıxardığım elə həmin təhlildir. Mən hansısa analogiyalar və analiz, vəziyyəti bilmək nöqteyi-nəzərindən sizdən çox məlumata malik deyiləm, baxmayaraq ki, biz Rusiya ilə çox sıx işləyirik, Ukrayna ilə də bizim münasibətlərimiz inkişaf edir. Nəyisə təxmin edə bilərəm, lakin əminəm

ki, bilavasitə cəlb edilənlər də hər şeyi proqnozlaşdıra bilməzlər. Bunun üçün planları bilmək lazımdır. Bunun üçün Rusiya rəhbərliyinin planlarını, Ukrayna rəhbərliyinin planlarını, imkanlarını bilmək lazımdır. Biz Qərbin reaksiyasını o, praktik müstəviyə – bəyanatlardan fəaliyyətə keçəndə təxmin edə bilərik. Hələ ki, bütün bunları proqnozlaşdırmaq çox çətindir, lakin birmənalıdır ki, bu, uzunmüddətli prosesin başlanğıcıdır.

Birmənalıdır ki, Rusiya Federasiyasının Prezidenti bu qərarı qəbul edəndə, prosesin uzun olduğunu nəzərə alıb. Hesab edirəm ki, Rusiya özünün potensialı, coğrafiyası, imkanları ilə istənilən növ sanksiyaya davamlıdır. Bu mənim şəxsi fikrimdir və bu, Rusiyaya tətbiq edilmiş həmin sanksiyalarla təsdiq edilir. Əslində həmin sanksiyalar Rusiya istehsalçılarına idxaldan asılılığı azaltmaqda kömək etdi. Yəni mən birmənalı əminəm ki, sanksiya yolu səmərəsizdir. Əlbəttə, o, Rusiya iqtisadiyyatına sözsüz ki, zərər vuracaq. Prezident Putin bu qərarı qəbul edəndə, yəqin ki, o bunun hamısını hesablayıb. Lakin bu həmin sanksiyaları tətbiq edənlərə də birmənalı şəkildə zərər vuracaq. Çünki ixrac üçün, özü də yüksək texnologiya məhsulları üçün ikinci belə perspektivli bazar tapmaq çətindir. Mənim deyə biləcəyim maksimum bundan ibarətdir. Bu mövzunu 30 il ərzində bizə hər zaman çağırış edilən məlum ifadələrlə bitirmək istəyirəm: «Bütün məsələləri sülh yolu ilə həll etmək lazımdır». Bunu 30 il eşitdik, 30 il çalışdıq, lakin heç nə alınmadı. Biz də istərdik ki, hər şey sülh yolu ilə həll edilsin,

lakin bu, həyatda təəssüf ki, heç də hər zaman mümkün olmur.

**M i x a i l  Q u s m a n: İlham Heydər oğlu, Sizə bir texniki sual vermək olarmı? Bildiyiniz kimi, bizim bu görüşlər ənənəvi olaraq «off the record» formatında keçirilir. Bu gün isə bizim görüş bir növ, yarım «off the record» formatında alınıb. Sonuncu sualı TASS agentliyinin baş redaktoru verdiyinə görə, biz həmkarlarımıza Sizin söhbətinizdən özlərinin, necə deyərlər, praktiki fəaliyyətində istifadə etmələrinə icazə verə bilərikmi?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə. Mən dediyim hər bir sözə görə məsuliyyət daşıyıram.

**M i x a i l  Q u s m a n: Bu çıxışdan ümumi məkanda istifadə etmək olarmı?**

**İ l h a m  Ə l i y e v:** Birmənalı şəkildə olar.

**M i x a i l  Q u s m a n:** Mən Prezidentə sual vermək istəyirəm. Gəlin məsləhətləşək, həmkarlar.

**İ l h a m  Ə l i y e v:** Mən öz praktikam barədə danışaram. Azərbaycan cəmiyyətinin müxtəlif kateqoriyalarının nümayəndələri ilə və media – Azərbaycan və xarici media – təmsilçiləri ilə mənim bütün söhbətlərim açıq keçirilir. Yəni mən heç nəyi gizlətmirəm. Mən nə düşünürəmsə, onu deyirəm, öz sözlərimə görə cavabdehəm və düşünürəm ki, bu gün burada elə bir söz deyilməyib ki, ona görə bizlərdən kim isə xəcalət çəksin. Əksinə, mənim fikrimcə, biz çox mühüm məsələləri aydınlaşdırdıq. Mən Azərbaycanın mövqeyini bütün məsələlər barədə yetərincə dürüst ifadə edirəm və bağlı qapılar arxasında öz həmkarlarıma dediklərimi bu və ya

digər dərəcədə açıq şəkildə də deyirəm. İndiki halda mən aşkarlığın tərəfdarıyam. Bəs siz?

**Mixail Qusman:** Onda indiki halda «off the record» formatını ləğv edirik. Bu istisnaya görə sağ olun.

İlham Heydər oğlu, heç də hamı bizimlə Sizin kimi açıq olmur.

**İlham Əliyev:** Mən bilmirəm, siz ki məsuliyyətli insanları, dövlət başçılarını dəvət edirsiniz. Düşünmürəm ki, onlar sizə bir söz desinlər, ictimaiyyətə nə isə başqa söz.

**Mixail Qusman:** Bəziləri hətta bizim suallarımızı bilirlər. Belə də olur.

**İlham Əliyev:** Xeyr, mən hər bir suala cavab verməyə hazıram. Bir daha deyirəm, məndən ötrü hər hansı qapalı mövzu yoxdur. Xarici siyasətə gəldikdə isə, o cümlədən sizin qeyd etdiyiniz kimi, vəziyyətin həssaslığı nəzərə alınmalıdır. Buna görə düşünürəm ki, bu, düzgün yoldur. Çünki bu hər hansı ikimənalı şərhi və hər hansı interpretasiyanı istisna edir. Mən öz mövqemin ən yaxşı interpretasiyasını özüm verə bilərəm, belə də edirəm. Qəribə olardı ki, biz burada görüşək, sonra Azərbaycanda fikirləşsinlər – görəsən, onlar orada bağlı qapılar arxasında nə barədə danışıblar?

**Sergey Mixaylov:** Biz bu yaxınlarda Sizin bütün dünyaya ardıcıl müsahibələrinizi müşahidə etmişik.

**İlham Əliyev:** Elədir.

**Sergey Mixaylov:** Məlum hadisələr haqqında müsahibələrinizin hamısını izləmişik.

**İ l h a m Ə l i y e v:** Fikrimcə, bütün prezidentlik illərim ərzində hər hansı dövrdə olduğundan daha çox müsahibəm olub.

**S e r g e y M i x a y l o v:** Bu zaman kəsiyində müsahibələr qalan bütün müddətdəkindən çox olub.

**İ l h a m Ə l i y e v:** Azərbaycanda məni hətta bəzən tənqid edirdilər ki, nə üçün mən nadir hallarda müsahibə verirəm. Hesab edirəm ki, müxtəlif tezislərlə və müxtəlif məsələlərlə əlaqədar kifayət qədər çıxış edirəm. Sadəcə, hesab edirdim ki, mən demək istədiklərimin hamısını çıxışlarımda demişəm. Lakin müharibə xüsusi vəziyyətdir, buna görə belə etməli oldum.

**S e r g e y M i x a y l o v:** Bu dövrdə müsahibələrinizin sayı misli görünməmiş dərəcədə çox olub.

**İ l h a m Ə l i y e v:** Yeri gəlmişkən, TASS agentliyi sağ olsun ki, sizin vasitənizlə öz baxışlarımı çatdırmağa imkan verdi.

**M i x a i l Q u s m a n:** Bu əyləşən xanım Sizdən müsahibə götürəndir.

**İ l h a m Ə l i y e v:** Bəli, tanıdım. Çox vacib idi. Ona görə ki, bilirsiniz, biz müstəqilliyin lap ilk dövründən müəyyən informasiya boşluğu ilə üzləşmişdik. Üstəlik, əgər bu sadəcə, vakuum olsaydı dərd yarı idi, biz öz fəaliyyətimizin düzgün interpretasiya edilməməsi ilə üzləşdik. Yeri gəlmişkən, biz indiyə qədər bunu hiss edirik, təkcə qərb ölkələrində deyil, həm də başqa ölkələrdə. Bəzən bilməmək səbəbindən, bəzən də qərəzli şəkildə bizim ölkə daxilində və beynəlxalq arenada nə etdiyimizi düzgün interpretasiya etmirlər. Buna görə son vaxtlara qədər bizim üçün əsas prob-

lemlərdən biri məhz Qarabağ münaqişəsi haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılması idi. Məhz ictimaiyyətə, çünki siyasi strukturlar hər şeyi çox gözəl bilirdilər. Lakin bu sadəcə, onları qane edirdi – nə müharibə, nə sülh, faydasız danışıqlar, 30 ildir ki, Minsk qrupu gəlir, gedir. Yeri gəlmişkən, bu il onlar 1992-ci ildən bəri fəaliyyətlərinin yubileyini qeyd edəcəklər. Buna görə biz Qarabağda baş verənlər barədə həqiqəti geniş ictimaiyyətə, ekspert cəmiyyətlərindəkilərə, ictimai əhval-ruhiyyəni formalaşdıranlara çatdırmalı idik. Təəssüf ki, illər boyu təqdim edilənləri yox, həqiqəti müharibə dövründə çatdıra bildik. Bacardıq. Çoxları deyir ki, biz informasiya müharibəsini udmuşuq. Lakin biz elə müharibə aparmamışıq. Biz sadəcə, imkan qazandıq, dünyanın diqqəti bu müharibəyə yönəldiyinə görə biz sadəcə, həqiqəti demək imkanı qazandıq. Erməni tərəfindən fərqli olaraq, biz öz xalqımıza da, ictimaiyyətə də həqiqəti deyirdik. Buna görə mən həm sizə, həm də bu imkanı yaradan digər Rusiya kütləvi informasiya vasitələrinə təşəkkür edirəm. Dmitri Konstantinoviçə xüsusi təşəkkürümü bildirirəm ki, o, efirdə Paşinyan ilə olmağa və necə deyərlər, öz mövqemizi Rusiya və bir sıra qərb televiziya tamaşaçılarına çatdırmaq imkanı verdi. Hərçənd deməliyəm ki, mənim ünsiyyətdə olduğum qərb kütləvi informasiya vasitələrinin, demək olar ki, hamısı Azərbaycana qarşı qərəzli əhval-ruhiyyədə idilər və onların suallarında nə isə öyrənmək arzusundan daha çox ittihamlar səsləndirilirdi. Bununla belə, bu hər halda, həmin məkana daxil olmağımıza imkan verdi. Fikrimcə, dünyada bütövlükdə yeni

reallıqları kifayət qədər tezliklə qəbul etdilər, o cümlədən ona görə ki, kimin haqlı olması, kimin işğala məruz qalması, kimin öz torpağında vuruşması, kimin işğalçı olması aydın idi. Bax, buna görə Sizə və sizin həmkarlarınıza təşəkkür edirəm. Onu da deməliyəm ki, Rusiya media məkanı bütövlükdə neytral olub. Əlbəttə, bəzi şəxsi məqamlar istisna olmaqla, bütövlükdə neytrallıq tamamilə qorunub saxlanılıb. Buna görə də təşəkkür edirəm, çünki heç də həmişə belə olmayıb.

**M i x a i l  Q u s m a n:** Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Siz sağ olun.

**M i x a i l  Q u s m a n:** Sizə bir hədiyyəmiz var. Bunu həmkarlara demək lazımdır. Hamı bilir ki, bu yaxınlarda İlham Heydər oğlunun yubileyi oldu. Bu, Azərbaycan Prezidentinin TASS lentlərində və fotoxronikasında tam arxividir. Burada 32 mindən çox məlumat və 400-ə yaxın fotoşəkil vardır. Sizin bütün prezidentlik dövrünün arxividir.

**İ l h a m  Ə l i y e v :** Sağ olun. Mənim belə arxivim yoxdur.

*Dövlət başçımız da TASS agentliyinə xatirə hədiyyəsi təqdim etdi.*

## DÜNYA İQTİSADİ FORUMUNUN PREZİDENTİ BORGE BRENDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Dünya İqtisadi Forumunun Prezidenti Borge Brendenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dünya İqtisadi Forumunun Prezidenti Borge Brende ölkəmizə səfərləri zamanı Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışında iştirak etmələrini məmnunluqla vurğuladı.*

*O, ölkəmizin bütün sahələrdə əldə etdiyi iqtisadi uğurların əhəmiyyətini qeyd etdi, Azərbaycan iqtisadiyyatının regionda vacib amilə çevrilməsinin önəmini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanla Dünya İqtisadi Forumu arasında əməkdaşlığın yüksək səviyyədə həyata keçirilməsindən razılığını ifadə etdi. Dövlət başçısı Dünya İqtisadi Forumu ilə ölkəmiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Borge Brende Dünya İqtisadi Forumunun növbəti toplantısında iştirak etmək üçün forumun təsisçisi və icraçı sədri Klaus Şvabın dəvətini Prezident İlham Əliyevə çatdırdı.*

## BMT BAŞ ASSAMBLEYASI SƏDRİNİN «UNİVERSAL PEYVƏNDLƏNMƏ ÜÇÜN SƏYLƏRİN ARTIRILMASI» MÖVZUSUNDA TƏŞKİL ETDİYİ YÜKSƏK SƏVİYYƏLİ TEMATİK MÜZAKİRƏLƏRDƏ VİDEOFORMATDA ÇIXIŞ

*25 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də BMT Baş Assambleyası sədrinin «Universal peyvəndlənmə üçün səylərin artırılması» mövzusunda keçirilmiş yüksək səviyyəli tematik müzakirələrdə milli qisimdə və «Qoşulmama Hərəkatı»nın sədri kimi, Hərəkata üzv dövlətlər adından videoformatda çıxış emişdir.*

### Azərbaycan Prezidenti, «Qoşulmama Hərəkatı»nın sədri İlham Əliyevin çıxışı

Cənab sədr!

Cənab baş katib!

«Qoşulmama Hərəkatı»na üzv dövlətlər adından çıxış etməkdən şərəf duyuram.

«Qoşulmama Hərəkatı»na üzv dövlətlər BMT Baş Assambleyasının sədri cənab Abdulla Şahidin COVID-19 pandemiyası ilə mübarizədə universal peyvəndlənməyə dair belə yüksək səviyyəli tematik

müzakirələrin keçirilməsi təşəbbüsünü təqdir edir. Bu toplantı dünyada COVID-19 əleyhinə keyfiyyətli, təhlükəsiz, effektiv və məqbul qiymətə olan peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin edilməsi ilə bağlı problemlərin davam etdiyi vaxta təsadüf edir.

Biz COVID-19 ilə qlobal mübarizə, onun nəzarət altında saxlanılması və yayılmasının qarşısının alınması, habelə dövlətlərə dəstəyin verilməsi üzrə səylərin əlaqələndirilməsində BMT sisteminin fundamental rolunu vurğulayırıq. Bu mənada biz Ümumdünya Səhiyyə Təşkilatının aparıcı rolunu qeyd edirik.

Pandemiyanın başlandığı dövrdən «Qoşulmama Hərəkatı» multilateralizm, əməkdaşlıq və həmrəylik ruhunda geniş beynəlxalq ictimaiyyətin səylərini fəal şəkildə səfərbər edərək, pandemiya ilə mübarizə və onun mənfi nəticələrinin aradan qaldırılması baxımından bir sıra uğurlu təşəbbüslər irəli sürmüşdür. 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi, habelə ötən ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi»nə dair qətnamələr «Qoşulmama Hərəkatı»na üzv dövlətlər adından irəli sürülmüşdür. COVID-19 pandemiyası kimi qlobal fövqəladə vəziyyət qlobal yanaşma tələb edir. Lakin az və orta gəlirli ölkələrdə peyvəndlərin tədarükü-

nün aşağı səviyyədə olması bu baxımdan hələ də çox işlərin görülməli olduğunu göstərir.

COVID-19 peyvəndlərinin bölgüsü baxımından inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qeyri-bərabərlik beynəlxalq ictimaiyyətin qısa zamanda pandemiyanın tamamilə aradan qaldırılmasına nail olmasının qarşısını alır. Bu həm də «Dayanıqlı inkişaf üzrə 2030-cu il Gündəliyi»nin reallaşdırılmasına mane olur.

Səhiyyə sisteminin davamlı fəaliyyətinin təmin edilməsi və pandemiya ilə mübarizədə səmərəli addımların atılması üçün əsas səhiyyə xidmətlərinin bütün müvafiq aspektlərinin gücləndirilməsi vacibdir. Buraya müxtəlif addımlarla yanaşı, səhiyyənin universal əlçatanlığı üçün fasiləsiz peyvəndlənmə proqramlarının davam etdirilməsi də daxil edilməlidir. Biz həmçinin COVID-19 peyvəndlərini ianə edən ölkələrin səylərini alqışlayırıq və bütün dövlətlərə buna ehtiyacı olan az və orta gəlirli ölkələrlə peyvənd dozalarını bölüşməyi fəal şəkildə təşviq edirik.

Bu kontekstdə biz bütün ölkələr üçün COVID-19 peyvəndlərinin məqbul qiymətə, bərabər, universal və vaxtında əlçatanlığın təmin olunmasına xidmət edən COVAX Mexanizmi, COVAX Öncədən Bazar Öhdəliyi, COVAX Öncədən Bazar Öhdəliyi Forumu və digər aidiyyəti konstruktiv təşəbbüsləri yüksək qiymətləndirir və dəstəkləyirik. Bundan əlavə, BMT sülhməramlılarının mürəkkəb vəziyyətlə üzləşdiyini nəzərə alaraq, BMT-nin sülhməramlı əməliyyatlarına COVID-19 əleyhinə peyvənd ianə edən ölkələrin səylərini alqışlayırıq.

Bütün ölkələrin, beynəlxalq təşkilatların və aidiyyəti tərəfdaşların milli və regional hüquqi çərçivəyə uyğun olaraq peyvənd istehsalı, paylanılması və ədalətli qiymət qoyulması məsələlərində şəffaflıqla bağlı öhdəlik götürmələri vacibdir. COVID-19 əleyhinə peyvəndlərin məqbul qiymətə, vaxtında, bərabər və universal əlçatanlığına mane ola biləcək möhtəkirliyin, lazımsız ixrac nəzarətinin və lüzumsuz artıq tədarükün qarşısının alınması ilə bağlı ölkələr tərəfindən təcili addımların atılması eyni dərəcədə əhəmiyyətlidir.

Xanımlar və cənablar, «Qoşulmama Hərəkatı» pandemiyanın tezliklə aradan qaldırılması və effektiv bərpa prosesinə imkan yaradacaq beynəlxalq həmrəyliyin gücləndirilməsi üçün fəal şəkildə səylərini davam etdirməyə hazırdır. Bu mənada Hərəkatımız post-COVID-19 dövrünün bərpa ehtiyacları ilə bağlı nəticə yönümlü təşəbbüslərlə çıxış edəcəkdir.

Hörmətli tədbir iştirakçıları, indi isə mən ölkəm adından çıxış etmək istərdim. Azərbaycan COVID-19 pandemiyasının nəzarətdə saxlanılması üçün təsirli və adekvat tədbirlərin həyata keçirilməsini davam etdirir. Biz peyvəndlənmə kampaniyasına 2021-ci ilin yanvarında başlamışıq. Bu günədək ölkədə yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub. COVID-dən əziyyət çəkmiş əhali və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün bu ilin dövlət büdcəsindən 1,6 milyard ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıbdır.

Azərbaycan pandemiya, «peyvənd millətçiliyi» və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və

inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının xüsusi sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunəsidir. Fürsətdən istifadə edərək, həmin təşəbbüsləri dəstəkləmiş bütün üzv dövlətlərə minnətdarlığımı bildirirəm.

Həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardımı etmişdir. Bununla yanaşı, biz 5 ölkəyə peyvənd ianəsi etmişik və bu iş davam etdiriləcək. Hazırda biz «Qoşulmama Hərəkatı»na üzv olan 14 ölkəyə təqribən 1 milyon doza peyvəndin ianə edilməsi prosesindəyik.

İndi biz post-COVID-19 dövrü üçün fikir mübadiləsinin aparılması və Hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə «Qoşulmama Hərəkatı»na üzv dövlətlərin növbəti yüksək səviyyəli iclasının təşkil edilməsi üzərində işləyirik.

Biz həmçinin qlobal tədbirlərlə bağlı konkret tövsiyələr hazırlaya biləcək BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin təsis edilməsinin tərəfdarıyıq. Bundan sonra da təşəbbüslərimizin tərəfinizdən dəstəklənəcəyinə ümid edirik.

Sonda sizə iclasın uğurlu, müzakirələrin məhsuldar olmasını arzu edirəm.

## AZƏRBAYCAN PREZİDENTİNİN RƏSMİ «FACEBOOK» SƏHİFƏSİNDƏN

*25 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi «Facebook» səhifəsində Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar paylaşım etmişdir.*

*Paylaşımda* «Xocalıya Ədalət! 30 il» *sözləri yer alıbdır.*

## XOCALI FACİƏSİNİN 30-cu İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA KEÇİRİLMİŞ ÜMUMXALQ YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 26-da XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olmuş qanlı faciənin 30-cu ildönümü ilə əlaqədar Bakıda keçirilmiş ümumxalq yürüşündə iştirak etmişlər.*

*Yürüş iştirakçıları Xətai rayonunda ucaldılmış Xocalı abidəsinin yerləşdiyi əraziyə gəldilər.*

*Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.*

*Birinci vitse-prezident Mehriban Əliyeva, Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev abidənin önünə gül dəstələri qoydular.*

*Yürüşdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin üzvləri, nazirlər, komitə, agentlik və şirkət rəhbərləri, dini konfessiyaların başçıları iştirak etdilər.*

*Ümumxalq yürüşünün iştirakçıları abidənin önünə tər güllər düzdülər.*

* * *

*Xalqımız hər il olduğu kimi, bu il də Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edir. Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib. Artıq ikinci ildir ki, xalqımız Bakıdakı Xocalı soyqırımı abidəsini alnıaçıq, başıuca ziyarət edir, çünki düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Prezident İlham Əliyevin dediyi kimi: «*Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanı yerdə qalmadı».

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsindəki parlaq Qələbəsi 2020-ci ili Azərbaycan tarixinə Zəfər ili kimi yazdı. Güclü siyasi iradə, möhkəm iqtisadi potensial, qüdrətli ordu, xalq–lider vəhdəti, cəmiyyətdəki böyük ruh yüksəkliyi, vətənpərvərlik, əzmkarlıq tarixi Qələbəni təmin etdi. Otuzillik həsrət bitdi, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Hazırda Azərbaycanın üçrəngli Dövlət bayrağı işğaldan azad edilmiş torpaqlarımızda – Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Ağdamda, Laçında, Kəlbəcərdə, Şuşada dalğalanır. Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq. Bir daha 30 il əvvələ qayıdır, o amansız soyqırımını, onun günahsız qurbanlarının xatirəsini yenidən yad edirik. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayı-*

*nın iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törətmişlər.*

*Ümumiyyətlə, son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik «böyük Ermənistan» ideyasını gerçəkləşdirmək məqsədilə ardıcıl şəkildə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə siyasəti aparmışlar. Xocalı soyqırımı erməni millətçiləri və onların havadarlarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin ən qanlı səhifəsidir. Dünyanın gözü qarşısında baş vermiş, qəddarlığı və amansızlığı ilə fərqlənən bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın ozamankı rəhbərliyinin üzərinə düşür.*

*Xocalı soyqırımı erməni silahlı birləşmələrinin ölkəmizə təcavüzünün kulminasiya nöqtəsi idi. Erməni faşistlər aylarla mühasirədə saxladıqları bu dinc şəhəri öz havadarları ilə birgə bir gecənin içində yerlə yeksan etmişlər. Dinc əhaliyə amansızlıqla divan tutulmuş, 613 nəfər qətlə yetirilmiş, 1275 nəfər girov götürülmüşdür, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insanlar idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirmişdir. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, insanlar diri-diri yandırılmış, onlara ağlasığmaz işgəncələr verilmişdir.*

*Xocalı soyqırımına qədər də ermənilər Qarabağda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişdilər. 1992-ci il fevralın 12-də Şuşanın Malıbəyli və*

*Quşçular kəndlərində törədilmiş qarət və qırğınlar nəticəsində təkcə Malıbəyli kəndində 50 nəfər öldürülmüş, onlarla insan yaralanmış və əsir götürülmüşdü.*

*1992-ci il fevralın 17-də Ermənistan silahlı qüvvələrinin və Xankəndidəki 366-cı motoatıcı alayın Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olmuş, 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülmüş, onlardan 80 nəfəri qətlə yetirilmişdir. Öldürülənlərdən 10-u qadın, 8-i uşaqdır. Ümumilikdə Qaradağlı 1988–92-ci illərdə 305 dəfə düşmən hücumuna məruz qalmışdı. Bu, Xocalıya aparan yolun başlanğıcı idi. Qaradağlı faciəsinə amansızlığın miqyasına görə ikinci Xocalı da deyirlər.*

*Əhalisi 7000 min nəfər olan Xocalı isə Qarabağda ən böyük yaşayış məntəqələrindən biri idi. Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağ silsiləsində və Ağdam–Şuşa, Əsgəran–Xankəndi yollarının üstündə yerləşən Xocalıya 1990-cı ildə şəhər statusu verilmişdi. Münaqişənin əvvəlindən – 1991-ci ilin oktyabrından Xocalı mühasirəyə alınmışdı. Şəhərə aparan bütün avtomobil yolları bağlanmışdı, yeganə nəqliyyat vasitəsi yalnız helikopter idi. Xocalıya sonuncu helikopter isə 1992-ci il yanvarın 28-də enmişdi. Şuşa səmasında mülki helikopterin vurulması, 40 nəfər azərbaycanlının həlak olması ilə şəhərlə hava əlaqəsi də kəsilmişdi. Yanvarın 2-dən Xocalıya elektrik enerjisinin verilməsi dayandırılmışdı. Şəhər sakinləri ancaq öz fədakarlıqları və qəhrəmanlıqları sayəsində dayanır, müqavimət göstərir və yaşayırdılar. Şəhər çox az sayda av-*

*tomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və Milli Ordunun kiçik heyətli döyüşçüləri tərəfindən müdafiə olunurdu.*

*Fevralın ikinci yarısından başlayaraq, Xocalı erməni silahlı dəstələri tərəfindən mühasirəyə alınmışdı və hər gün topların, ağır texnikanın atəşinə, erməni dəstələrinin həmlələrinə məruz qalmışdı. Şəhərə amansız hücuma hazırlıq fevralın 25-də axşam sovet ordusunun 366-cı alayının hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanmışdı. Xocalıya hücum tanklardan və zenit toplardan açılmış 2 saatlıq atəşdən sonra həyata keçirilmişdi. Şəhərə 5 istiqamətdən hücum edildiyinə görə, əhali Əsgəran istiqamətində qaçmaq məcburiyyətində qalmışdı. Amma tezliklə aydın oldu ki, bu da məkrli hiylə imiş. Erməni silahlı dəstələri Naxçıvanik kəndi yaxınlığında əhalinin qarşısını kəsmiş və onları güllələbarana tutmuşdur. Qarlı aşırımlarda və meşələrdə taqətdən düşmüş insanların çoxu məhz Əsgəran–Naxçıvanik düzündə xüsusi qəddarlıqla qətlə yetirilmişlər.*

*Ermənilərin Xocalıda azərbaycanlılara qarşı həyata keçirdiyi kütləvi qırğının soyqırımı aktı olmasını beynəlxalq hüququn normaları da təsdiqləyir. Belə ki, soyqırımı cinayətinin hüquqi məzmunu BMT Baş Assambleyasının 1948-ci il 9 dekabr tarixli 260 nömrəli Qətnaməsi ilə qəbul edilmiş «Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya» ilə müəyyən edilib. Xocalı soyqırımı mahiyyət etibarilə beynəlxalq cinayət kateqoriyasına aiddir. Bu kateqoriyadan olan cinayətlərin əsas tərkibi İkinci dünya müharibəsindən*

*sonra yaradılmış beynəlxalq hərbi tribunalların nizamnaməsində ifadə olunub, sonradan həmin cinayət tərkibi Yuqoslaviya və Ruanda beynəlxalq cinayət tribunallarının nizamnamələrində, habelə Beynəlxalq Cinayət Məhkəməsinin Statusunda təkmilləşdirilməklə bir daha təsdiqini tapıb. Xocalı soyqırımına hüquqi-siyasi qiyməti ilk dəfə ümummilli lider Heydər Əliyev verib. Ulu öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis «Xocalı Soyqırımı Günü haqqında» qərar qəbul edib. Ümummilli Lider 1994-cü il martın 1-də Xocalı soyqırımı ilə bağlı xüsusi fərman imzalayıb. Sonrakı dövrdə Milli Məclisin qərarı ilə 26 fevral «Xocalı soyqırımı və milli matəm günü» elan olunub. Prezident Heydər Əliyev 1997-ci il fevralın 25-də «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında» növbəti fərman imzalayıb. «Azərbaycanlıların soyqırımı haqqında» 1998-ci il 26 mart tarixli Fərmanda deyilir ki, 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutmuşlar. Tariximizə Xocalı soyqırımı kimi həkk olunmuş bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan olunması ilə nəticələnmişdir.*

*Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması hər zaman Prezident İlham Əliyevin fəaliyyətinin mühüm istiqamətləri sırasındadır. Bu dəhşətli soyqırımının dünyada tanıdılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da müstəsna xidmətləri vardır. Fondun «Xocalıya ədalət!» kampaniyasının sistemli fəaliyyətinin nəticəsidir ki, dünyanın 17 ölkəsi, ABŞ-ın*

*24 ştatı və İslam Əməkdaşlıq Təşkilatı Xocalıda ermənilər tərəfindən törədilmiş cinayətləri soyqırımı kimi tanıyan qərar və qətnamələr qəbul ediblər. «Xocalıya ədalət!» kampaniyasının məqsədi beynəlxalq ictimaiyyəti Xocalı soyqırımı haqqında məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır.*

*Britaniyalı jurnalist Tomas de Valın «Qarabağ – qara bağ» kitabında əksini tapan bəzi faktlar, o cümlədən azərbaycanlıların qırğınında iştirak edən Ermənistanın eks-prezidenti Serj Sarkisyanın söylədikləri deyilənləri bir daha təsdiq edir. «Xocalı hadisələrinə qədər azərbaycanlılar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi qırmağa nail olduq» – deyən Sarkisyan «biz bu barədə bərkdən danışmamağı üstün tuturuq» deyə, əlavə edib. Bu faktlar bir daha ermənilərin tarixboyu azərbaycanlılara qarşı yürütdüyü mənfur siyasətin, kin-küdurətin davam etdiyini, Xocalıda baş verənlərin əvvəlcədən planlaşdırılmış soyqırımı siyasətinin mühüm tərkib hissəsi olduğunu təsdiqləyir.*

*Xalqı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqların işğalı faktı ilə barışmağa məcbur etmək – amma hiyləgər və amansız düşmənin niyyətləri baş tutmadı. Azərbaycanda torpaqlarımızın müdafiəsi uğrunda hər an şəhid olmağa hazır olan vətənpərvər nəsil yetişdi və 30 illik işğala qəhrəmanlıqla son qoydu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev deyib:* «Ermənilərin fikri özlərinə getməsin. Onlar bəlkə də öz tarixi vətənini

unuda bilərlər. Azərbaycan xalqı heç vaxt öz tarixi vətənini unuda bilməz. Bu gün qaçqın şəhərciklərində, Bakıda, başqa yerlərdə Dağlıq Qarabağdan, işğal edilmiş bölgələrdən olan ailələrdə doğulan uşaqlar bir amalla, bir arzu ilə yaşayırlar ki, doğma torpaqlarına qayıtsınlar».

*Milli ideyaya, güclü siyasi iradəyə əsaslanan bu fikir 2020-ci ilin sentyabrında real həyatda da öz təsdiqini tapdı. Ali Baş Komandan İlham Əliyevin çağırışı ilə ayağa qalxan igid oğullarımız bədnam düşmənin işğalçılıq siyasətinə, gündən-günə daha da böyüyən iddialarına, yeni işğalçılıq planlarına birdəfəlik son qoydular və xalqımızın tarixinə parlaq Qələbə yazdılar. Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi ziyarət edir. Düşməndən bütün şəhidlərimiz kimi, Xocalı soyqırımı qurbanlarının da qisası alınıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*26 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Dövlət başçımız Prezident Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırdı, ona qardaş Türkiyənin inkişafı və firavanlığı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür etdi.*

*Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin gələcəkdə də bütün sahələrdə uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildirərək, əlaqələrimizin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi apardılar.*

# RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*27 fevral 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında fevralın 27-də telefon söhbəti olmuşdur.*

*Telefon söhbəti zamanı Ukraynada hadisələrin eskalasiyası ilə əlaqədar vəziyyət, həmçinin Rusiya–Azərbaycan münasibətləri ilə bağlı məsələlər müzakirə edildi.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ EMMANUEL MAKRON İLƏ TELEFONLA GÖRÜŞ

*1 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 1-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron telefonla zəng etmişdir.*

*Söhbət zamanı Ukraynada cərəyan edən böhran vəziyyəti və Ukraynaya humanitar dəstəyin göstərilməsi məsələləri müzakirə olundu.*

*Telefon danışığı zamanı, həmçinin enerji məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## RUMINİYANIN ENERGETİKA NAZİRİ VİRGİL-DANİEL POPESKU VƏ STRATEJİ LAYİHƏLƏR ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏ ANA BİRÇAL İLƏ GÖRÜŞ

*2 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rumıniyanın Energetika naziri Virgil-Daniel Popeskunu və strateji layihələr üzrə xüsusi nümayəndə Ana Birçalı videoformatda qəbul etmişdir.*

*Rumıniyanın Energetika naziri Virgil-Daniel Popesku Rumıniya Prezidenti Klaus Yohannisin diplomatik əlaqələrimizin qurulmasının 30 illiyi münasibətilə və Prezident İlham Əliyevi Rumıniyaya səfərə dəvətlə bağlı dövlət başçısına ünvanladığı məktubu qeyd etdi.*

*Dövlət başçısı məktuba görə minnətdarlığını Rumıniya Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı Azərbaycanla Rumıniya arasında münasibətlərin strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı vurğulandı və bu baxımdan strateji tərəfdaşlığa dair imzalanmış birgə Bəyannamənin önəmi qeyd edildi.*

*Virgil-Daniel Popeskunun səfərinin ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı əlaqələrinə toxunuldu, bu əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı və ölkəmizlə Avropa İttifaqının 9 üzv dövləti arasında strateji tərəfdaşlıq haqqında sənədlərin imzalanmasının bunun yaxşı göstəricisi olduğu qeyd edildi.*

## «İÇƏRİŞƏHƏR» DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ ŞAHİN SEYİDZADƏ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şahin Seyidzadəni «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.*

*Dövlət başçısı qəbulda çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün siz «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız, üzərinizə düşən məsuliyyəti dərk edirsiniz və göstərilən etimadı öz işinizlə doğruldacaqsınız.

İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlərboyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər-

boyu qoruyacaq. İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir. Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, yer dünyada yoxdur. Bu bizim tarixi irsimizdir, İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, bu məsuliyyəti dərk edirsiniz.

İçərişəhər Bakının özəyidir. Bakını İçərişəhərsiz təsəvvür etmək mümkün deyil. Ancaq inzibati bölgü nöqteyi-nəzərdən mənim sərəncamımla bir neçə il bundan əvvəl İçərişəhərdə xüsusi idarəetmə mexanizmi yaradılıb, idarə yaradılıbdır. İnzibati nöqteyi-nəzərdən İçərişəhər müstəqil inzibati vahiddir, ancaq Bakı şəhərinin bir hissəsidir. Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər. Bir daha demək istəyirəm ki, İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər sadəcə olaraq, açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlərboyu

yaşayıblar. Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi. Bu gün də İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün, əlbəttə ki, böyük işlər görülür və görüləcəkdir. Eyni zamanda, bir daha demək istəyirəm ki, İçərişəhər həm Bakı sakinləri, həm də bütün Azərbaycan vətəndaşları, xarici qonaqlar üçün çox cəlbedici yerdir və məhz buna görə İçərişəhərə hər gün böyük axın vardır. Bütün bunları nəzərə alaraq, işlər elə qurulmalıdır ki, orada yaşayan insanlar əziyyət çəkməsinlər, turistlər, qonaqlar üçün də lazımi şərait yaradılsın. Son illər ərzində bu istiqamətdə böyük işlər görülübdür. İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə idarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər. Bakı şəhərinin bütövlükdə memarlıq ansamblı unikaldır. Həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda, qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaradır. Əminəm, hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət vardır. Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir. Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi

yerlərinin simasını əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət vardır. Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır. Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır – Bakı Şəhər İcra Hakimiyyəti, Bakı şəhərində yerləşən rayonların icra başçıları. Əminəm ki, bundan sonra Bakı vahid memarlıq konsepsiya əsasında inkişaf edəcəkdir.

Ancaq yenə də deyirəm, son vaxtlar görülmüş tədbirlər nəticəsində Bakının memarlıq ansamblı xeyli sağlamlaşdı. Bu gün bir daha demək istəyirəm, Bakı unikal şəhərdir, dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu hər kəs deyir, mənim aləmimdə Bakı dünyanın ən gözəl şəhəridir. Hamımız Bakını sevirik, Bakını qorumalıyıq və yenə də deyirəm, şəhər inkişaf etməlidir, ancaq planlı şəkildə. Bundan sonra da müasir memarlıq Bakının qədimliyini, o qədim tarixi simasını pozmamalıdır. Bu iki önəmli amil bir-birinə ziddiyyət təşkil etməməlidir, əksinə, qədimlik və müasirlik – Bakının xüsusi aurası qorunmalıdır və əminəm ki, biz buna nail olacağıq.

Bakının inkişafı və idarəetmə prinsipləri başqa şəhərlərdən fərqlənir. Qeyd etdiyim kimi, mənim sə-

rəncamımla vaxtilə «İçərişəhər» Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bulvar İdarəsi yaradılıb. Bulvar da Bakının bir hissəsidir, ancaq ayrıca bir inzibati vahiddir. Nə üçün? Çünki bulvar da bizim milli sərvətimizdir və indi Azərbaycan vətəndaşları, xüsusilə gənclər yəqin ki, bunu xatırlamır və ümumiyyətlə, görməyiblər ki, 10–15 il bundan əvvəl bulvarın vəziyyəti necə idi – qaranlıq, səliqəsizlik və heç bir şəhərə şərəf gətirməyən mənzərə. Biz indi bulvarın uzunluğunu 5 dəfə artırmışıq və bulvarın hər bir yerində səliqə-sahman vardır. Nə üçün? Çünki xüsusi idarə yaradılıb, o idarənin işi ancaq bulvara qulluq etmək, təmizliyi və bulvarın canlı orqanizm olmasını təmin etməkdir. Yəni Bakı şəhərində mənim sərəncamlarımla yaradılmış xüsusi bir idarəetmə mexanizmi vardır – Bakı şəhəri, İçərişəhər və Bulvar – üç qurum. Əlbəttə, bu üç qurum arasında işgüzar əlaqələr təbii ki, vardır, olmalıdır, güclənməlidir. Çünki İçərişəhərdə olan insan – ya yerli vətəndaş, ya qonaq  o qədim məkandan çıxıb bulvara keçməklə tam yeni, müasir bir Bakı görür. Bu amillər çox önəmlidir. Ona görə siz də təbii ki, öz fəaliyyətinizdə bu iki qurumla sıx əlaqədə olmalısınız, onlar da sizinlə. Çünki Bakı, onun bütün yerləri, hər bir guşəsi bizim üçün doğmadır, əzizdir. Əminəm ki, Bakı bundan sonra daha da gözəl şəhər olacaq. Bakıda yeni inşa edilən binalar – istər yaşayış binaları, istər ictimai binalar, ticarət obyektləri, iaşə obyektləri ən yüksək memarlıq zövqünə uyğun olmalıdır. Bu işlərə dövlət qurumları nəzarət etməlidir ki, bundan sonra Bakı ancaq gözəlləşsin.

Bir daha demək istəyirəm ki, sizin üzərinizə böyük vəzifə düşür. İçərişəhər bizim milli sərvətimizdir, bu sərvəti biz qorumalıyıq və qoruyacağıq. Sizə işinizdə uğurlar arzulayıram.

**Şahin Seyidzadə:** Cənab Prezident, etimad göstərdiyiniz üçün Sizə təşəkkür edirəm.

## TACİKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ MİLLİ MƏCLİSİNİN SƏDRİ RÜSTƏM EMOMƏLİ İLƏ GÖRÜŞ

*3 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməlini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməlinin səfərinin səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycanın və Tacikistanın bir çox istiqamətlərdə sıx qarşılıqlı fəaliyyət həyata keçirdiyini vurğulayan dövlət başçısı özünün Tacikistan Prezidenti Emoməli Rəhmonla təmaslarının və qarşılıqlı dəstəyin önəmini qeyd etdi.*

*Dövlət başçısı ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi, iqtisadi, nəqliyyat və investisiya qoyuluşu sahələrində də yaxşı perspektivlərin mövcud olduğunu vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli ilk növbədə, Tacikistan Prezidenti*

*Emoməli Rəhmonun salamlarını və ən xoş arzularını dövlət başçımıza çatdırdı.*

*Rüstəm Emoməli parlamentlərimiz arasında əməkdaşlıq haqqında sazişin, həmçinin Bakı və Düşənbənin qardaşlaşması barədə sənədin imzalanacağını qeyd edərək, bunları dostluq əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirdi.*

*Prezident İlham Əliyev Tacikistanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Emoməli Rəhmona çatdırmağı xahiş etdi.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ MAYA SANDU İLƏ TELEFONLA GÖRÜŞ

*3 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 3-də Moldova Respublikasının Prezidenti Maya Sandu telefonla zəng etmişdir.*

*Telefon söhbəti zamanı regional məsələlər barədə fikir mübadiləsi aparıldı, həmçinin Azərbaycan ilə Moldova arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*5 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, hörmətli Mövlud bəy, Vətəninizə xoş gəlmisiniz! Şadam ki, yenə də görüşmək imkanımız oldu.

Əlbəttə, bu gün Türkiyə–Azərbaycan müttəfiqlik əlaqələrinin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparacağıq. Üç aydan sonra biz Şuşa Bəyannaməsinin birinci ildönümünü qeyd edəcəyik. Bu, tarixi sənəddir. Əslində Türkiyə–Azərbaycan əlaqələri hər zaman müttəfiqlik səviyyəsində idi və müttəfiqlik xalqlarımızın qəlbindədir. Sadəcə olaraq, biz keçən il Şuşada bunu rəsmən təsdiqlədik.

Bu gün və bundan sonrakı illərdə daim Türkiyə–Azərbaycan qardaşlıq əlaqələri həm xalqlarımız üçün, həm də bölgə üçün böyük önəm kəsb edəcək. Çünki təkcə ikitərəfli formatda deyil, eyni zamanda, bölgə təhlükəsizliyi üçün bizim əlaqələrimizin çox böyük əhəmiyyəti vardır. Türkiyə və Azərbaycan birgə səylərlə bizim bölgəmizdə gələcək inkişafı, təhlükəsizliyi, xalqlarımızın rahat həyatını təmin edir. Aramız-

da olan əlaqələr o qədər şaxəlidir ki, onların hər birini sadalamaq üçün çox vaxt lazım olacaqdır. Biz, sözün əsl mənasında, müttəfiqik, qardaşıq və dünya miqyasında bizim əlaqələrimizə bənzəri olan əlaqələr yoxdur. Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə canla, qanla bağlı olan ikinci ölkələr yoxdur. Bu bizim böyük sərvətimizdir və bunu biz qoruyuruq, gücləndiririk, istənilən vəziyyətə hazırıq və hər zaman bir-birimizin yanındayıq.

Sizi bu gün görmək mənim üçün çox xoşdur. Bildiyiniz kimi, cənab Prezident Rəcəb Tayyib Ərdoğanla biz daim təmasdayıq, daim telefon əlaqələri saxlayırıq, görüşürük və gələcək addımlarımızı birgə atırıq. Bir daha xoş gəlmisiniz!

**Mövlud Çavuşoğlu:** Cənab Prezident, əvvəla, bizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm, minnətdarlığımı bildirmək istəyirəm. Qardaşınız, hər zaman təmasda olduğunuz Prezidentimiz Ərdoğanın səmimi salamlarını çatdırmaq istəyirəm. İki gün əvvəl Brüsselə gedərkən oradan da Bakıya gələcəyimi söylədikdə – «Biz onsuz da qardaşımla davamlı görüşürük, amma sən salamlarımı da çatdır» – demişdi.

Cənab Prezident, Şuşa Bəyannaməsini hazırlamaq və imzalamaq sizlərin fikri idi. Biz də Ceyhun qardaşımla birlikdə bunun üzərində çalışdıq və doqquz ay əvvəl qardaşınız – Prezidentimiz Ərdoğan ilə birlikdə imzaladınız. Təxminən bir ay əvvəl iki gün ara ilə iki Məclisdə də bunun təsdiqlənməsi əslində Sizin ortaya qoyduğunuz bu iradəni daha da gücləndirdi. Xalqımızın təmsilçilərinin də buna səs verməsi önəmli idi.

Bunun da koordinasiyasını biz bir yerdə Sizin tapşırığınızla etdik.

Şuşa Bəyannaməsi – həqiqətən, biz onsuz da təbii müttəfiqik – «bir millət – iki dövlət»ə yaraşan kimi oldu. Cənab Prezident, bunu Sizin imzalarla sadəcə, rəsmiləşdirdik. Bunun içərisindəki məsələlərin həyata keçirilməsi istiqamətində də biz qardaşlarımızla səylə çalışırıq. Təkcə Xarici İşlər nazirləri deyil, bütün qurumlarımız çalışır, konkret addımlar atmalıyıq. Sizin də söylədiyiniz kimi, bizim aramızda əlaqələrin güclənməsi yalnız iki ölkənin və xalqın əlaqələrinin güclənməsinə, ya da marağına deyil, bölgənin sabitliyi və əmin-amanlığına da çox faydası olacaqdır. Bu səbəbdən biz Şuşa Bəyannaməsində yer alan məsələlərin bölgədəki ölkələrlə münasibətlərimizdə də əksini tapması üçün üçtərəfli, dördtərəfli formatlarda çalışacağıq.

Təbii ki, bölgəmizdə mühüm proseslər yaşanır, bu proseslərin təsirləri vardır. Burada Sizin Zəngəzur dəhlizi daxil olmaqla, həyata keçirəcəyiniz önəmli layihələr vardır. Bütün məsələlərdə gördüyümüz işlər haqqında məlumat vermək və bundan sonra birlikdə atacağımız addımları dəyərləndirmək üçün bu gün Bakıya gəldim.

Bizə vaxt ayırdınız. Buna görə də Sizə bir daha təşəkkürlərimi bildirmək istəyirəm, cənab Prezident.

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.*

## BMT-nin MƏSKUNLAŞMA PROQRAMININ İCRAÇI DİREKTORU MAİMUNA MOHD ŞƏRİF İLƏ GÖRÜŞ

*5 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz! Sizi görməyə çox şadam.

**M a i m u n a M o h d Ş ə r i f:** Çox sağ olun, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Şadam ki, bizi ziyarət edirsiniz. Bilirsiniz ki, biz BMT-nin çox fəal üzvüyük və BMT-nin müxtəlif qurumları ilə uğurla əməkdaşlıq edirik. Şadam ki, BMT-nin Məskunlaşma Proqramı – «UN-Habitat»ın icraçı direktoru olaraq bizi ziyarət edirsiniz. Bilirəm ki, siz bərabərlik, yoxsulluğun azaldılması və urbanizasiya dəyərlərini təşviq edirsiniz. Yəqin ki, yoxsulluğun azaldılması ilə bağlı göstəricilərimizdən sizin məlumatınız vardır. Yoxsulluğun azaldılması ilə bağlı hesab edirəm ki, biz bu qlobal bəlanın öhdəsindən uğurla gələ bildik – Azərbaycanda yoxsulluğun səviyyəsi təxminən 5 faizdir. Bu da onu göstərir ki, sərvətin bərabər şəkildə bölüşdürülməsi üçün biz enerji sektorundan qaynaqla-

nan gəlirlərdən müvafiq şəkildə istifadə edə bilmişik. Əlbəttə, iqtisadi islahatlarla, məşğulluqla bağlı yeni imkanlar Azərbaycanda yeni mənzərə yaradacaqdır, çünki əhalimiz artır. Buna görə də məşğulluqla və bununla birbaşa əlaqəli olan yoxsulluğun səviyyəsi ilə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş əraziləri ziyarət etdiyiniz üçün sizə minnətdaram. Bilirəm ki, Ağdamda olmusunuz və dağıntının miqyasını öz gözlərinizlə görmüsünüz. Sizi əmin edə bilərəm ki, işğaldan azad olunmuş bütün ərazilərdə vəziyyət eynidir. Hər şey dağıdılıb, məhv edilib, vandalizm, barbarlıq nəticəsində Ağdam mövcud deyil. On minlərlə insanın məskəni olmuş şəhər indi dağıntılar içindədir. Bu, işğal illəri ərzində ermənilər, erməni cinayətkar rejimi tərəfindən törədilmişdir. Demək olar ki, 30 il ərzində Azərbaycan mədəniyyəti və tarixinin izini silmək üçün şəhərlərimiz, kəndlərimiz, tarixi və dini abidələrimiz qəsdən, planlaşdırılmış şəkildə dağıdılırdı. Lakin torpaqlarımızın azadlığı uğrunda müharibə onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalacaqdır. Səbirli olmaq lazımdır. Eyni zamanda, ölkəyə sadiq olmaq və məqsədə nail olmaq üçün hər gün işləmək lazımdır. Bizim müharibəmiz azadlıq müharibəsi idi. Biz işğala son qoyduq. Biz torpağımızdakı şər qüvvələrə son qoyduq. Yəqin sizin məlumatınız var ki, ermənilər həm də bizim dini abidələrimizi təhqir edib və dağıdıblar. 65 məscid tamamilə dağıdılıb, yerdə qalan iki məsciddə isə bütün dünya müsəlmanlarının hisslərini təhqir edərək, onlar donuz və inək saxlayıblar. Əf-

suslar olsun ki, bütün bu işğal illəri ərzində beynəlxalq birlik buna susurdu. Bununla belə, sizin bildiyiniz kimi, BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleyası və digər mühüm beynəlxalq təşkilatlar tərəfindən bizim mövqemizi dəstəkləyən qərar və qətnamələrin qəbul edilməsinə baxmayaraq, Ermənistana ciddi təzyiq göstərilmirdi. Ermənistana qarşı heç bir sanksiya tətbiq edilməmişdi. Hətta bəzi ölkələr təcavüzkarı və təcavüzün qurbanını tərəzinin eyni gözünə qoymağa cəhd edirdi. Ermənilərin bu əraziləri uzun müddət ərzində öz nəzarəti altında saxlamalarının əsas səbəblərindən biri də bunlar idi. Biz şücaət, vətənpərvərlik və gücümüzü göstərməsəydik, bu işğal davam edəcəkdi. Çünki bizə belə gəlirdi ki, beynəlxalq təşkilatlar artıq özləri vəziyyətə uyğunlaşmışdı. Mənasız danışıqlarla qəribə turistlər qrupu kimi, Minsk qrupu bizi ildə bir neçə dəfə ziyarət edirdi. İndi isə bu danışıqların arxasında yalnız Ermənistanın işğalın nəticələrini möhkəmləndirməyə çalışdığı sanki bir pərdə rolunu oynaması aydındır. Ermənilər bizim şəhər və kəndlərimizin adlarını dəyişir, dünyanın işğalı unutması üçün əllərindən gələni edirdilər. Lakin Azərbaycan xalqı bunu unutmadı. Heç birimiz unutmadıq. Hamımız bir olaraq tarixi doğma vətənimizi azad etmək üçün canımızı qurban verməyə hazır idik və bu da baş verdi.

Hazırda bizim qarşımızda böyük çağırışlar var. Əminəm ki, bizim planlarımız barədə sizə məlumat verilib. Ola bilsin ki, bizim bərpa prosesimizin müəyyən nəzərəçarpan hissəsini görmüsünüz. Bu, böyük işdir. İndiyə qədər biz nə beynəlxalq təşkilatlardan,

nə də dünyanın heç bir ölkəsindən beynəlxalq yardım olaraq bir dollar belə, almamışıq. Gördüyümüz bütün işləri öz hesabımıza edirik. Biz bunu etməyə davam edəcəyik. Lakin qəribədir ki, torpaqların azad edilməsindən, demək olar, il yarım keçməsinə baxmayaraq, heç kim bizə kömək etməyə hazır deyil. Yalnız sözlər, başqa heç nə. Nə donor konfransı ilə bağlı ideyalar, nə də maliyyə dəstəyi vardır. Hətta məşhur qeyri-hökumət təşkilatları, məşhur beynəlxalq fondlar Qarabağ və Zəngəzurda baş verənlərə göz yumur. Bu, təəssüf doğurur. Bilirsiniz, biz əraziləri bərpa edəcəyik, Qarabağ və Zəngəzurda dediyim kimi, yer üzündə cənnət nümunəsi yaradacağıq. Biz bunu nəyin bahasına olursa olsun edəcəyik. Lakin düşünürəm ki, beynəlxalq təşkilatların, donor təşkilatların, böyük fondların bu etinasızlığı qəbuledilməzdir. Ümidvarıq, BMT öz qurumları və öz kommunikasiya kanalları vasitəsilə bizi dəstəkləyəcək, bu mühüm mesajı çatdıracaq ki, Azərbaycanın dəstəklənməyə ehtiyacı vardır. Biz sizin səfərinizi bu dəstəyin əlaməti hesab edirik. Əminəm ki, orada gördükləriniz barədə hesabat verəcəksiniz. Çünki eşitmək, bilmək, oxumaq ayrı, gəlib öz gözlərinizlə görmək isə ayrı məsələdir.

Həmçinin dünyanın erməni barbarlığı haqqında öyrənməyi vacibdir. Bu cəzalandırılmalıdır. Biz müharibə zamanı onları elə cəzalandırdıq ki, onlar bunu heç vaxt unutmayacaqlar, lakin təcavüzkar beynəlxalq səviyyədə də cəzalandırılmalıdır.

Əlbəttə, təzminat məsələsi vardır. Biz təzminat tələb edirik. Bu məsələni beynəlxalq arenada qaldırmaqda bizə kömək etmək üçün artıq beynəlxalq tə-

sisatları, hüquqşünas qrupları cəlb etmişik. Beləliklə, planlar bundan ibarətdir. Düşünürəm ki, gələn ilin proqramı üçün biz əməkdaşlığımızı yaranmış bu mühüm reallığa uyğunlaşdırmalıyıq.

Hazırda minalar səbəbindən keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə geri qaytarılması mümkün deyil. Əfsuslar olsun ki, indiyədək bizdə minalar səbəbindən 200-dən çox insan həlak olub və ya ağır yaralanıbdır. Ərazilərin minalardan təmizlənməsi böyük təcrübə və texniki imkanlar tələb edir. Həmçinin biz geri qayıdacaq insanlar üçün layiqli şərait yaratmalıyıq və proses başlanıbdır. Əminəm ki, siz ölkəmizə yenidən səfər edəcəksiniz, çünki bu, qlobal miqyasda həqiqətən də çox mühüm məsələdir. Düşünürəm ki, bizim Livan böyüklüyündə ərazini necə bərpa edəcəyimiz işğaldan, dağıntılardan əziyyət çəkən, bizim kimi eyni problemlərlə üzləşən bütün digər ölkələr üçün nümunə ola bilər. Bir daha xoş gəlmisiniz!

* * *

*Ölkəmizə ilk dəfə səfər etdiyini bildirən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı inkişaf proseslərinin, şəhər planlaşdırma və inkişaf konsepsiyasının onda dərin təəssürat hissi yaratdığını söylədi. Azərbaycanda qədimiliklə müasirliyin vəhdətinin şahidi olduğunu, tarixi binalar saxlanılmaqla müasir tikililərin ahəngdar formada inşa edildiyini, şəhər planlaşdırılması və ur-*

*banizasiyanın tərkib hissəsi olan şəhər nəqliyyat sisteminin və yol infrastrukturunun müasirliyindən məmnunluğunu bildirdi.*

*Azərbaycana səfərinin bir gününü Ağdam şəhərində keçirdiyini diqqətə çatdıran BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən Ağdam şəhərinin inkişaf və urbanizasiya planı ilə yaxından tanış olduğunu qeyd etdi.*

*Maimuna Mohd Şərif Azərbaycanın məqsədinin Ağdam da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə sıfır emissiyalı müasir eko-şəhər konsepsiyasının tətbiq edilməsi olmasını məmnunluqla vurğuladı və bildirdi ki, BMT-nin Məskunlaşma Proqramı dünyanın müxtəlif ölkələrində postmünaqişə şəraitində şəhərlərin qurulmasında, dayanıqlı şəhər inkişaf konsepsiyalarının yaradılmasında təcrübəsi ilə dəstək verir və bu xüsusda Azərbaycan hökuməti ilə də sıx əməkdaşlığa hazırdır.*

## DÜNYA ETNOİDMAN KONFEDERASİYASININ SƏDRİ BİLAL ƏRDOĞAN İLƏ GÖRÜŞ

*5 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul etmişdir.*

*Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı.*

*Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı Bakıda keçirilən «Ənənəvi idmanın dirçəldilməsi» adlı 5-ci Beynəlxalq Etnoidman Forumunun əhəmiyyəti vurğulandı, onun yüksək səviyyədə təşkil olunduğu bildirildi. Xalqımızın ənənəvi idman növlərinə böyük marağının olduğu qeyd edildi.*

*Görüşdə bu tədbirin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Sonda Bilal Ərdoğan etnoidman növlərinin və oyunlarının dünya miqyasında tanınmasında, kütləviliyinin artırılmasında xidmətlərinə, ənənəvi idman*

*növlərinin inkişafı üçün göstərdiyi liderliyə, fədakar yanaşmasına, idmana və idmançıya daim fəal dəstəyinə görə Dünya Etnoidman Konfederasiyasının Ənənəvi İdman Mükafatları çərçivəsində «Liderlik Mükafatı»nı Prezident İlham Əliyevə təqdim etdi.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA**

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar mənə ünvanladığınız məktuba görə Sizə təşəkkür edirəm. Mən də öz növbəmdə, Sizi və Fransa xalqını bu əlamətdar tarix münasibətilə ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram. 1993-cü ildə Azərbaycan ilə Fransa arasında imzalanmış «Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqavilə» ikitərəfli münasibətlərimizin təməl prinsiplərini və inkişaf xəttini müəyyən etmişdi. Azərbaycan bu prinsiplərə daim sadiq qalaraq, Fransa ilə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına çalışmışdır. Ötən dövr ərzində Azərbaycan–Fransa əlaqələri dinamik inkişaf etmiş, səmərəli əməkdaşlıq münasibətləri formalaşmış və bir çox sahələrdə yaxşı nailiyyətlər əldə olunmuşdur. Bu gün Fransa şirkətləri Azərbaycanın iqtisadi həyatında fəal iştirak edir, Bakıda Fransız liseyi və Fransız–Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir. Mehriban Əliyevanın bilavasitə rəhbərliyi altında ölkələrimiz arasında mədəni əlaqələrin inkişafına göstərilən diqqəti xüsusilə qeyd etmək istəyirəm. İnanıram ki, iqtisadiyyat, mədəniyyət, təhsil və digər sahə-

lərdə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir.

Müxtəlif sivilizasiyalara, mədəniyyətlərə və dinlərə mənsub xalqların tarixən birgə və mehriban yaşadığı Azərbaycan Respublikası xalqın iradəsi və maraqları əsasında müstəqil siyasət yürüdən dövlətdir. Azərbaycan öz tarixi, əzəli torpaqlarının Ermənistan tərəfindən işğalına son qoyaraq ərazi bütövlüyünü təmin etmiş, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmişdi. 30 illik təcavüzün bitməsi yeni geosiyasi reallığa uyğun olaraq, regionda əməkdaşlıq üçün imkanlar yaratmışdı. Bu baxımdan nəqliyyat-kommunikasiya xətlərinin açılması bölgəmiz üçün böyük iqtisadi perspektivlər vəd edir. Hesab edirəm ki, Avropa İttifaqının hazırkı sədri qismində Fransanın təşəbbüsü ilə dördlü formatda keçirdiyimiz görüş və apardığımız danışıqlar regionda etimadın gücləndirilməsi, davamlı sülhün və sabitliyin təmin olunması üçün əlverişli imkan açmışdı.

Azərbaycan sülhün tərəfdarıdır. Biz ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında Ermənistanla sülh sazişi üzrə danışıqlara başlamağa hazırıq. Ermənistanın bu məsələdə konstruktiv mövqe nümayiş etdirməli olduğunun vacibliyini vurğulayaraq, Fransanın regionun sülh gündəliyini dəstəkləyəcəyinə ümidvarıq.

Hörmətli cənab Prezident!

Hazırda Azərbaycanın qarşısında duran əsas vəzifə çoxillik işğal nəticəsində dağıdılmış, tamamilə viran qoyulmuş ərazilərin bərpasıdır. Biz azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi dəstəyi yüksək qiymətləndiririk. Eyni zamanda, Ermənistan–Azərbaycan münaqişəsi zamanı 4000-ə yaxın itkin düşmüş soydaşımızın taleyinin aydınlaşdırılması məsələsinə ölkənizin göstərdiyi diqqəti alqışlayırıq.

UNESCO-nun üzvü kimi və onun Nizamnaməsinə uyğun olaraq, Azərbaycan təşkilatın missiyasını öz ərazisində qəbul etmək niyyətini son onilliklər boyu rəsmi şəkildə dəfələrlə bəyan etmişdi. UNESCO-nun missiyasını üzv ölkənin suverenlik hüququna hörmət əsasında ölkəmizdə tezliklə görməyə hazırıq.

Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığın şaxələndirilməsinə, eləcə də üzv ölkələr ilə əlaqələrin və dialoqun genişlənməsinə böyük önəm verir. Qarşıdan gələn aylarda ölkənizin Avropa İttifaqına sədrliyi çərçivəsində bu əlaqələrin daha da möhkəmlənəcəyinə inamımızı ifadə edirik.

Dərin hörmət və ehtiramlarımı izhar edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2022-ci il*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadını milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və nəsildən-nəslə çatdırılmasında daim fədakarlıqlar göstərmiş, xalqımızın hazırkı mədəni simasının müəyyənləşməsində müstəsna rol oynamışdır.

Milliliklə müasirliyin vəhdətini yüksək mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan xanımları yeni tarixi şəraitdə geniş sosial-mədəni fəaliyyətləri sayəsində böyük ictimai nüfuz qazanmış və cəmiyyət həyatına həmişə bir dinamizm qatmışlar. Onlar adlarını uca tutduqları maarifpərvər sələflərinin yolunu şərəflə davam etdirmiş, müsəlman Şərqində qadınlar arasında mədəniyyətin, incəsənətin, təhsilin və elmin bir çox sahələrində ilk addımları atmaqla yenilikçi, qabaqcıl fikirli və tərəqqipərvər olduqlarını əməli surətdə sübuta yetirmişlər.

Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan qadını milli dövlət quruculuğu işinin fəal iştirakçısı kimi, müstəqillik illərindəki nailiyyətlərimizin zirvə nöqtəsinə yüksəlməyimiz və parlaq Qələbə sevinci

yaşamağımız naminə var qüvvəsini səfərbər etmişdir. Göz açıb azad gördüyü yurdunu ana qədər müqəddəs bilən, milli ideallara sadiq gənc nəsli də o, məhz öz mənəvi gücü, polad iradəsi hesabına yetişdirmiş, tarixin hökmü ilə ədalətin zəfər çalacağına və haqq işimizin qalib gələcəyinə həmin nəslin qəlbində sarsılmaz inam duyğusu aşılamışdır. Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən dəyərli töhfəsi olan bu nəsil 44 günlük Vətən müharibəsində rəşadəti ilə xalqımızın mübarizlik rəmzinə dönərək, ümidləri tam doğrultmuşdur.

Mən torpaqlarımızın müdafiəsi və işğaldan qurtarılması zamanı canlarından keçmiş igid övladlarımızın xatirəsini bir daha ehtiramla yad edir, şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, xalq üçün layiqli oğullar böyütmüş əsgər analarına xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan qadını bundan sonra da ölkəmizdəki böyük quruculuq işlərində əzmkarlıqla çalışacaq, müstəqillik salnaməmizi yeni müvəffəqiyyətləri ilə zənginləşdirəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2022-ci il*

## İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ MARİO DRAQİ İLƏ TELEFONLA GÖRÜŞ

*8 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 8-də İtaliya Respublikası Nazirlər Şurasının Sədri Mario Draqi zəng etmişdir.*

*Telefon söhbəti zamanı bu il Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu bildirildi. Bu müddət ərzində iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluq ifadə olundu.*

*Söhbət əsnasında Azərbaycan və İtaliya arasında iqtisadi, ticarət və enerji sahələrində səmərəli əməkdaşlığın qurulduğu bildirildi. Enerji sahəsində əməkdaşlıqda «Cənub Qaz Dəhlizi» və onun tərkib hissəsi olan Trans-Adriatik təbii qaz boru kəmərinin əhəmiyyəti vurğulandı. Qeyd olundu ki, Azərbaycan İtaliyanın neft təchizatında 1-ci, qaz təchizatında isə 3-cü yer tutur.*

*Telefon danışığı zamanı mədəniyyət və təhsil sahələrində həyata keçirilən uğurlu əməkdaşlıq layihələri müzakirə olundu və bu xüsusda Bakıda İtaliya–Azərbaycan Universitetinin yaradılmasının əhəmiyyəti vurğulandı.*

*Tərəflər iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi məqsədilə yüksək səviyyəli siyasi dialoqun və qarşılıqlı səfərlər mübadiləsinin davam etdirilməsinə razılıqlarını bildirdilər.*

*Telefon söhbəti zamanı regional mövzular, o cümlədən Ukraynada cərəyan edən hadisələr ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*9 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolsonu qəbul etmişdir.*

*Prezident İlham Əliyev bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu məmnunluqla xatırlatdı, bu münasibətlə Böyük Britaniyanın Baş Naziri Boris Conson tərəfindən ona ünvanlanmış səmimi məktubu xüsusilə qeyd etdi və özünün də Böyük Britaniyanın Baş Nazirinə diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə səmimi məktub göndərdiyini söylədi.*

*Dövlət başçısı Azərbaycan ilə Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə olduğunu və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayaraq, ölkələrimiz arasında qarşılıqlı inam və etimadın olduğunu qeyd etdi.*

*Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanın əsas ticarət tərəfdaşı və iqtisadiyyatımıza ən böyük sərmayə qoyan ölkə olduğunu bildirdi,*

*iqtisadi, ticarət əlaqələrinin genişlənməsini, enerji sahəsində əməkdaşlıq və bu sahədə bp-nin ölkəmizdə uğurlu fəaliyyətini xüsusi vurğuladı.*

*Prezident İlham Əliyev Böyük Britaniya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə fəaliyyət göstərməsini, xüsusilə şəhərlərin planlaşdırılması, minalardan təmizləmə və digər sahələrdə uğurlu fəaliyyətini qeyd etdi.*

*Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolson diplomatik münasibətlərimizin qurulmasının bu il 30 illiyinin qeyd edildiyini məmnunluqla vurğuladı və bu münasibətlə Böyük Britaniya Baş Nazirinin dövlət başçımıza ünvanladığı məktuba diqqət çəkdi.*

*Baronessa Emma Nikolson iqtisadi, ticarət, enerji sahələrində ölkələrimiz arasında əməkdaşlıq və bu xüsusda bp-nin Azərbaycandakı fəaliyyəti və onun genişləndirilməsi, bp ilə ölkəmizin bərpa olunan enerji sahəsində əməkdaşlığının inkişaf etdirilməsi məsələlərinə toxundu.*

*İşğal dövründə ermənilərin şəhər və kəndlərimizdəki tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqlarını, torpaqlarımızda vandallıq əməlləri törətdiklərini vurğulayan Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili imkanlar hesabına həyata keçirdiyi genişmiqyaslı quruculuq prosesi barədə məlumat verdi, həmin ərazilərdə ilk növbədə, infrastrukturun yaradılması, yollar, elektrik enerjisi, minalardan təmizləmə istiqamətində intensiv fəaliyyətin aparıldığını bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizin enerji siyasətində bərpa olunan enerjiyə xüsusi əhəmiyyət verildiyini, artıq bir çox xarici şirkətlərlə bu sahədə əməkdaşlığın qurulduğunu qeyd edərək, bp ilə də enerji sahəsindəki ənənəvi əməkdaşlığa əsaslanaraq, bərpa olunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğuladı.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin genişləndirilməsi, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*10 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Türkiyə Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa Hava Limanında dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Türkiyənin Energetika və Təbii Sərvətlər naziri Fatih Dönməz və digər rəsmi şəxslər qarşıladılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Ankara*

*10 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşmüşdür.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çankaya Köşkündə dövlət başçımızı qarşıladı.*

*Görüşdə Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan–Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyi vurğulandı. Postmünaqişə dövründə Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Həmçinin Zəngəzur dəhlizinin açılmasının, onun region üçün yaratdığı perspektivlərin, bu xüsusda Qars–Naxçıvan dəmir yolu xəttinin çəkilməsinin əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda təsbit olunmuş bütün müddəaların Ermənistan tərəfindən icrasının vacibliyi*

*qeyd edildi, Türkiyə və Ermənistan nümayəndə heyətlərinin təmasları mövzusunda müzakirə aparıldı.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlığa toxunuldu, bu xüsusda «Cənub Qaz Dəhlizi»nin uğurla fəaliyyət göstərdiyi qeyd olundu, bu dəhliz vasitəsilə qardaş ölkəyə və Türkiyə ərazisindən keçərək, Avropaya qaz təchizatının artırılması imkanları müzakirə edildi, həmçinin İğdır–Naxçıvan qaz xəttinin çəkilməsi və bununla bağlı Azərbaycanın dövlət büdcəsində investisiyanın nəzərdə tutulduğu vurğulandı.*

*Söhbət əsnasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı.*

*Hərbi, hərbi-texniki, o cümlədən hərbi təlim və tədris sahələrində əməkdaşlığın uğurla davam etdirildiyi bildirildi, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.*

*Görüşdə Ukraynadakı hadisələrlə bağlı fikir mübadiləsi aparıldı, Türkiyə və Azərbaycanın, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin tezliklə dayandırılması istiqamətindəki şəxsi səyləri yüksək qiymətləndirildi.*

*Sonda Azərbaycan–Türkiyə müttəfiqlik əlaqələrinin inkişafından bir daha məmnunluq ifadə olundu və Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət etdi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri martın 10-da başa çatdı.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD İBRAHİM RƏİSİYƏ

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi səmimiyyətlə təbrik edir, dost və qardaş İran xalqına ən xoş arzularımı çatdırıram.

Dini və mədəni köklərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsi qarşılıqlı hörmət və mehriban qonşuluğa əsaslanan Azərbaycan–İran münasibətlərinin əsas təməlini təşkil edir. Dostluq əlaqələrimizin bugünkü yüksək səviyyəsi 30 illik dövrdə ölkələrimizin birgə fəaliyyətinin nəticəsidir. Bu illər ərzində çoxsaylı qarşılıqlı səfərlər, imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar və həyata keçirilmiş birgə layihələr siyasi, iqtisadi, nəqliyyat, enerji, mədəni və digər sahələrdə əməkdaşlığımızın dinamik inkişafında mühüm rol oynamışdır.

Mən Azərbaycan ilə İran arasındakı müntəzəm siyasi dialoqu və bir sıra sahələrdəki işbirliyimizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu gün qarşılıqlı faydalı əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər vardır. Şübhəsiz, tarixi, əzəli torpaqlarımızın işğaldan azad olunması nəticəsində Azərbaycan–İran dövlət sərhədi-

nin bərpası müxtəlif sahələrdəki mövcud potensialdan tam şəkildə yararlanmağa, nəqliyyat-kommunikasiya dəhlizlərinin gerçəkləşdirilməsində birgə iştiraka əlverişli şərait yaratmışdır. Bu baxımdan Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə, Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidən qurulma və bərpa işləri aparılır. Biz ölkənizi təmsil edən şirkətlərin də yaxın gələcəkdə bu prosesdə iştirakını görməkdən məmnun olardıq. İnanıram ki, xalqlarımızın mənafelərinə və ölkələrimizin maraqlarına xidmət edən Azərbaycan–İran münasibətləri bundan sonra da birgə səylərimizlə uğurla inkişaf edəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost və qardaş İran xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2022-ci il*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edən Azərbaycan ilə Müqəddəs Taxt-tac arasında münasibətlər bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çoxəsrlik tolerantlıq ənənələrinə və multikultural dəyərlərə sadiq qalan Azərbaycanla Müqəddəs Taxt-tac arasında illərdən bəri təşəkkül tapmış ali səviyyəli səmimi dialoq və qarşılıqlı anlaşma bizi olduqca sevindirir.

Bu münasibətlərin möhkəmləndirilməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndirir, dinlərarası və mədəniyyətlərarası konstruktiv dialoqun təşviqində Azərbaycanın öncül roluna verdiyiniz qiymətə görə minnətdarlığımı bildirirəm.

Azərbaycanda dini-mənəvi müxtəlifliyin, o cümlədən xristian dini irsinin qorunub-saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu xüsusda ölkəmizdə katolik dini icmasına böyük diqqət və qayğı göstərilir. Eyni zamanda, Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihə-

lər ölkəmizin dünya mədəni irsinin qorunmasına verdiyi önəmin bariz nümunəsidir.

İnanıram ki, ümumbəşəri dəyərlərin təbliği və sivilizasiyalararası anlaşmanın bərqərar olması naminə Azərbaycan ilə Müqəddəs Taxt-tac arasında qarşılıqlı fəaliyyət və səmərəli əməkdaşlıq bundan sonra da birgə səylərimizlə uğurla davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, humanizm ideallarının təntənəsi uğrunda ali mənəvi missiyanızda müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2022-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ ŞƏHƏRSALMA NAZİRİ, AZƏRBAYCAN İLƏ İRAN ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ HƏMSƏDRİ RÜSTƏM QASİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də İran İslam Respublikasının Yol və Şəhərsalma naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir və Dövlət Komissiyasının həmsədri Rüstəm Qasimi İran Prezidenti Seyid İbrahim Rəisinin salamlarını dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev İranın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Seyid İbrahim Rəisiyə çatdırmağı xahiş etdi.*

*Görüşdə bölgədə yaranmış yeni reallıqların əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığı qeyd edildi. Xüsusilə nəqliyyat sahəsində bu gün imzalanacaq Azərbaycan Respublikası Hökuməti ilə İran İslam*

*Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə, Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun önəmi vurğulandı. Bu, dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirildi və onun imzalanmasının yeni nəqliyyat yollarının açılmasına xidmət edəcəyinə əminlik ifadə olundu. Yeni dəhlizin həm nəqliyyat, həm də elektrik enerjisi üçün önəmli bir beynəlxalq dəhliz olacağı qeyd edildi. Vurğulandı ki, bu gün Şimal–Cənub nəqliyyat dəhlizinin bir qolu olacaq yeni nəqliyyat yolunun işə salınması istiqamətində çox mühüm addımlar atılır və bu həm Şərq–Qərb, həm də Şimal–Cənub istiqamətlərində əməkdaşlıq üçün gözəl zəmin yaradacaqdır.*

*Görüşdə İran şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə işə başlamalarından məmnunluq ifadə olundu.*

*Söhbət zamanı Azərbaycan və İran arasında nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın həm ölkələrimiz, həm bölgə üçün, həm də beynəlxalq səviyyədə önəmi bildirildi. Bu baxımdan aviareyslərin həyata keçirilməsinin əhəmiyyəti vurğulandı.*

## GÜRCÜSTANIN ƏDLİYYƏ NAZİRİ RATİ BREQADZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Gürcüstanın Ədliyyə naziri Rati Breqadzenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat, enerji, ticarət sahələrində uğurla inkişaf etdiyi bildirildi.*

*Söhbət zamanı Azərbaycanın və Gürcüstanın Ədliyyə nazirlikləri arasında təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunuldu.*

*Rati Breqadzenin ölkəmizə səfərinin və səfər çərçivəsində nazirliklər arasında imzalanmış Əməkdaşlıq Memorandumunun bu sahədə əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

**KOREYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YUN SOK YOLA**

Hörmətli cənab Yun!

Koreya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Mən Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında təşəkkül tapmış dostluq əlaqələrinə böyük əhəmiyyət verirəm. İnanıram ki, bu il diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edəcək ölkələrimiz arasındakı qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq xalqlarımızın rifahı naminə birgə səylərimizlə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınızın rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2022-ci il*

**MACARISTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM KATALİN NOVAKA**

Hörmətli xanım Novak!

Macarıstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Macarıstan arasındakı münasibətlərin dinamik inkişafı məmnunluq doğurur. Siyasi, iqtisadi və mədəni sahələrdə daim genişlənən əlaqələrimiz çoxtərəfli qaydada fəal əməkdaşlığımız ilə müşayiət olunur.

İnanıram ki, bu il diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında ənənəvi dostluğun daha da möhkəmləndirilməsi, strateji tərəfdaşlığın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2022-ci il*

## TÜRKMƏNİSTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SƏRDAR BERDIMƏHƏMMƏDOVA

Hörmətli Sərdar Qurbanquliyeviç!

Türkmənistanın Prezidenti vəzifəsinə keçirilmiş seçkilərdə qazandığınız qələbə münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan Respublikası tarixi, dini və mədəni köklərlə bağlı olduğu qardaş Türkmənistan ilə ənənəvi dostluq əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. İkitərəfli münasibətlərdə mövcud olan yüksək səviyyəli siyasi dialoq, iqtisadi, enerji, nəqliyyat, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız məmnunluq doğurur. Əminəm ki, Azərbaycan–Türkmənistan strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə inkişaf edərək, ölkələrimizin rifahına xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, Sizi Azərbaycana səfərə dəvət edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkmənistanın firavanlığı naminə qarşıdakı ali dövlətçilik fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2022-ci il*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*14 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel telefonla zəng etmişdir.*

*Söhbət zamanı Cənubi Qafqazda postmünaqişə dövrü, Ermənistan ilə Azərbaycan arasında təmaslar və normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası məsələləri müzakirə edildi.*

*Dövlət başçısı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün göstərdiyi səylərinə görə Prezident Şarl Mişelə təşəkkürünü bildirdi.*

*Prezident Şarl Mişel qeyd etdi ki, Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi, sülhü və çiçəklənməni dəstəkləməkdə davam edəcəkdir.*

*Söhbət zamanı, həmçinin Ukraynadakı son hadisələrin inkişafı və bunun Cənubi Qafqazda regional təhlükəsizliyə mümkün təsiri məsələləri də müzakirə olundu.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ENERGETİKA VƏ İNFRASTRUKTUR NAZİRİ SUHAİL AL MAZRUİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur naziri Suhail Al Mazruinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab nazir və nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz! Sizi görməyə şadıq. Bu vacib mərasimdə iştirak etmək üçün vaxt ayırdığınıza görə sizə təşəkkür edirəm. Ümidvaram ki, növbəti il biz artıq stansiyanın istismarının başlanğıcını qeyd etmək məqsədilə daha bir mərasim keçirəcəyik. Bu həqiqətən də böyük və mühüm əhəmiyyət kəsb edən tədbirdir. Çünki bu stansiya Azərbaycanda tikiləcək belə miqyasda olan ilk Günəş Elektrik Stansiyasıdır. Stansiya bu sahədə ən aparıcı şirkətlərdən biri tərəfindən inşa ediləcək və çıxışımda qeyd etdiyim kimi, dost ölkədən olan şirkət tərəfindən. Bu çox vacibdir. Düşünürəm ki, bu bizim əməkdaşlığımızın yalnız başlanğıcıdır. Əminəm ki, başqa sahələrdə olduğu kimi, bərpa olunan enerji sahəsində də biz bir çox imkanları taparaq kəşf

edəcəyik. Biz ticarətdə, siyasi təmaslarda yaxşı nəticələr əldə etmişik və iki ölkənin rəhbərləri arasında münasibətlər çox səmimidir. Əminəm ki, biz bərpa olunan enerji sahəsində uğur qazanacağıq. Dünya enerji bazarında cari vəziyyəti nəzərə alaraq hesab edirəm ki, biz daha geniş mənzərəyə nəzər sala bilərik. OPEC+ formatında aramızda mükəmməl əməkdaşlıq var. Mən məqsədlərimizə maksimal şəkildə çatmaq üçün potensiala, potensial sərmayələrə və bu sahədə birgə fəaliyyətə daha geniş nəzər salmağı düşünürəm. Bir daha sizi salamlayıram və Bakıda yaxşı vaxt keçirməyi arzulayıram.

**Suhail Al Mazrui**: Çox sağ olun, zati-aliləri. Yenidən Bakıda olmaqdan çox məmnunam. Zati-aliləri, hər dəfə gələndə Bakını daha inkişaf etmiş görürəm. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan həqiqətən də həm turistlər, həm də birbaşa xarici investisiyalar üçün cəlbedici olub. Birləşmiş Ərəb Əmirlikləri və «Masdar» şirkəti olaraq, Sizi əmin etmək istərdik ki, bərpa olunan enerji ilə bağlı strategiyanıza dəstək olmağa sadiqik. Biz həmçinin digər layihələrdə iştirakda maraqlıyıq. Azərbaycanlı həmkarımla müzakirə apardığım kimi, məsələn, qaz mövzusu. Bugünkü vəziyyətə nəzər salsaq, mənbələrin şaxələndirilməsi üçün Azərbaycandan Avropaya daha çox qaz nəql oluna bilər. Eləcə də, hidrogen. Qaz kəmərindən istifadə etməklə gələcəkdə hidrogen Azərbaycanın ixrac edə biləcəyi yaşıl enerjinin bir forması ola bilər.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN «MASDAR» ŞİRKƏTİ TƏRƏFİNDƏN AZƏRBAYCANDA İNŞA EDİLƏCƏK 230 MVt GÜCÜNDƏ QARADAĞ GÜNƏŞ ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ İLƏ ƏLAQƏDAR GÜLÜSTAN SARAYINDA KEÇİRİLMİŞ TƏDBİRDƏ İŞTİRAK

*15 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi ilə əlaqədar Gülüstan sarayında keçirilmiş tədbirdə iştirak etmişdir.*

*Dövlət başçısı tədbirdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün ölkəmizin energetika sahəsində çox əlamətdar bir gündür. Bu gün Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Doğrudan da çox önəmli bir hadisədir, 230 meqavat gücündə olan bu stansiya həm

ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, həm də ixrac imkanlarımızı genişləndirəcək.

Mən çox şadam ki, bu böyük layihənin icraçısı dünyada tanınmış «Masdar» şirkətidir. «Masdar» şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir. Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial vardır. Dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır.

«Masdar» şirkəti bizim üçün dost ölkəni – Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam

ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi vardır. Şadam ki, bərpa olunan enerji istehsalı sahəsində də əməkdaşlığa bu gün start verilir. Əslində Azərbaycan Energetika Nazirliyi ilə «Masdar» şirkəti arasında icra müqaviləsi bir il bundan əvvəl imzalanıbdır. Bu müddət ərzində hazırlıq işləri gedirdi və bu gün biz artıq təməlqoyma mərasiminə toplaşmışıq.

Bildirməliyəm ki, bu ilin əvvəlindən energetika sahəsində çox önəmli addımlar atılıbdır. Yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən «ACWA Power» şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında «Azərenerji» tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə Günəş elektrik stansiyasının təməli qoyulur. Yəni hələ 3 ay tamamlanmamış 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, artıq 385 meqavat gücündə yaradılıbdır. Əminəm ki, 2023-cü ildə əlavə güclər bizim ümumi sistemimizə daxil ediləcəkdir və bu, işin sadəcə olaraq, başlanğıc hissəsidir. Çünki bərpa olunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir. Biz uzun illər bu məsələnin həlli ilə bağlı çalışırıq və bu gün real nəticələr görürük. Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii

qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır. Mən buna əminəm, biz artıq bu işin təzahürlərini görürük. Onu da nəzərə almalıyıq ki, qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik – təbii qaz, su, Günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpa olunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik.

Böyük potensial işğaldan azad edilmiş ərazilərdədir. Artıq dəqiq hesablamalar aparılıb və Günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq ilkin addımlar da atılır, *bp* şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan Günəş Elektrik Stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Ümid edirəm ki, bu danışıqlar da uğurla nəticələnəcəkdir. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Bildirməliyəm ki, işğal dövründə 30 il ərzində ermənilər və Ermənistan dövləti o vaxt işğal altında olan torpaqlarda bütün infrastrukturu, bütün binaları, tarixi, dini abidələrimizi dağıtmışlar, bunu təsdiqləyən bir çox sənədlər, video-foto məlumatlar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su-elektrik stansiyasını məhv etmişlər və biz artıq azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayaraq, o cümlədən elektroenergetika sahəsinə böyük diqqət göstərmişik.

Keçən il 4 su-elektrik stansiyasını bərpa etmişik. Onların ümumi generasiya gücü 20 meqavatdır. Bu il isə 5 su-elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Düzdür, digər stansiyalarla müqayisədə həcm o qədər də böyük deyil. Lakin bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su-elektrik stansiyalarıdır. Günəş və külək elektrik stansiyalarının yaradılması üçün təbii ki, daha böyük potensial vardır. Yenə də demək istəyirəm ki, bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır.

Xarici bazarlar bizim hüdudlarımızın kənarındadır və Avropadadır. Yenə də deyirəm, böyük tələbat var. Daxili tələbat artmaqdadır. Müstəqillik dövründə Azərbaycanın əhalisi 7 milyondan 10 milyona çatıbdır. Yəni bu, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artıbdır. Bütün bunlar postpandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır. Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Həm beynəlxalq

maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək – bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir – və eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci və əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur vardır – həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın, demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, biz bu layihəni görməzdik. Bu amillərin vəhdəti çox gözəl bir imkan yaradır. Hesab edirəm ki, biz bu imkandan böyük səmərə ilə istifadə edirik və edəcəyik.

Mən stansiyanın inşasına uğurlar arzulayıram, «Masdar» şirkətinə bizə etibar etdiyi və böyük sərmayə qoymağı planlaşdırdığı üçün təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, biz yaxın gələcəkdə Qaradağda bu stansiyanın açılışını birlikdə qeyd edəcəyik. Sağ olun.

**Suhail Al Mazrui** (*Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur naziri*): Zati-aliləri

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Zati-aliləri, xanımlar və cənablar!

Bu tarixi münasibətlə bu gün sizlərin qarşısında çıxış etməkdən şərəf və iftixar hissi duyuram. Zati-aliləri, düzgün qeyd etdiyiniz kimi, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın yaxın dostudur. Bizi dərin mədəni və iqtisadi əlaqələr, eləcə də təmiz enerjiyə əsaslanan dayanıqlı gələcəklə bağlı ümumi baxışlarımız bağlayır. Bu gün bu əlaqələr daha da güclənir. Zati-aliləri, sizin dəstəyiniz sayəsində biz Azərbaycanda ilk dəfə olan istehlak səviyyəsində Günəş enerjisi layihəsinin təməlqoyma mərasimini qeyd edirik. Böyük şərəf hissi ilə bu layihədə sizinlə işləmək fürsəti bizə nəsib oldu. Mən bu mühüm layihənin gerçəkləşdirilməsinə yardım etmək məqsədilə «Masdar» şirkətinə və Birləşmiş Ərəb Əmirliyinə etimad göstərdiyinə görə Azərbaycan Prezidenti zati-aliləri İlham Əliyevə, Azərbaycan dövlətinə şəxsən təşəkkürümü bildirmək istəyirəm. Bu gün «Masdar» 30-dan artıq ölkədə çalışır. Bizim məqsədimiz Günəş enerjisi texnologiyalarını dünyanın bir çox ölkəsində tətbiq etməkdən ibarətdir. Mən Azərbaycanda bərpa olunan enerji planlarını enerji siyasətinin mühüm hissəsinə çevirmək istəyinə görə, həmçinin qardaşım və yaxın dostum, Azərbaycanın Energetika naziri Pərviz Şahbazova təşəkkürümü bildirmək istəyirəm.

Zati-aliləri, Sizin rəhbərliyinizlə Azərbaycan 2030-cu ilə qədər bərpa olunan enerji sahəsində quraşdırılmış güclərin 30 faizə qədər artırılması kimi mühüm məqsədləri öz qarşısına qoyub. Biz Birləşmiş Ərəb

Əmirlikləri də eyni məqsədi öz qarşımıza qoyuruq. Biz də 2030-cu ilə qədər həmin həcmin 30 faizə qədər artırılmasını planlaşdırırıq.

Birləşmiş Ərəb Əmirlikləri və «Masdar» şirkəti təmiz enerjiyə aid geniş gündəliyin icrasında Azərbaycana birbaşa xarici sərmayələrini və dəstəyini davam etdirməyi səmimiyyətlə arzulayırlar və biz tərəfdaşlığımızı daha da gücləndirmək üçün daha böyük imkanları araşdıracağıq.

Mən şəxsən Azərbaycanın strateji mövqeyinə, zati-aliləri, Sizin müəyyən etdiyiniz planlara görə təşəkkürümü bildirirəm. Azərbaycan Avropaya nəinki ənənəvi enerji daşıyıcılarını, o cümlədən təbii qazını, eləcə də təmiz enerji mənbələri və hidrogen sayəsində istehsal olunan enerjini gələcəkdə ixrac edəcək. Birgə işləyərək, biz hamımız üçün daha yaşıl və dayanıqlı gələcəyi qurmaq məqsədilə təmiz enerji layihələrinin icrasını davam etdirəcəyik.

Zati-aliləri, hörmətli qonaqlar, icazə verin, Birləşmiş Ərəb Əmirlikləri və onun rəhbərliyi adından sizə bu gün burada bizimlə olduğunuza və bunu sizinlə qeyd etmək fürsətinə görə bir daha səmimi təşəkkürümü bildirim. Çox sağ olun.

* * *

*Mərasimdə Azərbaycanda bərpa olunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirildi.*

*Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur naziri Suhail Al Mazrui stansiyanın təməlini qoydular.*

## RUMINİYA PREZİDENTİ KLAUS YOHANNİS İLƏ TELEFONLA GÖRÜŞ

*15 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 15-də Rumıniya Prezidenti Klaus Yohannis telefonla zəng etmişdir.*

*Telefon danışığı zamanı ikitərəfli əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı. Bu il Rumıniya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu, bu dövr ərzində ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq zəminində inkişaf etdiyi vurğulandı.*

*Söhbət zamanı enerji sahəsində əməkdaşlığın perspektivləri, Rumıniyanın enerji təhlükəsizliyinin təmin olunması və enerji təchizatının şaxələndirilməsi baxımından Azərbaycandan təbii qaz və elektrik enerjisinin ixracı məsələləri müzakirə olundu.*

*Həmçinin telefon danışığı zamanı tərəflər qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi apardılar.*

## TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ TELEFONLA GÖRÜŞ

*15 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov arasında martın 15-də telefon danışığı olmuşdur.*

*Telefon danışığı zamanı Prezident İlham Əliyev və Prezident Qurbanqulu Berdıməhəmmədov son illər ərzində Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxmasından məmnunluqlarını ifadə etdilər. Həmçinin prezidentlər əminlik hissi ilə qeyd etdilər ki, bu əlaqələr bundan sonra da bütün sahələrdə inkişaf edəcək. Dövlət başçılarının birgə səyləri ilə əməkdaşlığımızın bütün sahələrdə uğurla inkişaf etdirilməsinə görə qarşılıqlı minnətdarlıq ifadə olundu.*

*Söhbət zamanı Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətləri zəminində nəqliyyat, enerji, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

*Bundan sonra telefon söhbətinə qoşulan Sərdar Berdıməhəmmədovu Türkmənistanın Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edən dövlət başçımız ona gələcək fəaliyyətində uğurlar arzuladı və*

*Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin bundan sonra da davamlı inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Türkmənistanın yeni seçilmiş Prezidenti Sərdar Berdıməhəmmədov təbriklərə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN İLƏ TELEFONLA GÖRÜŞ

*15 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 15-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinken telefonla zəng etmişdir.*

*Söhbət zamanı Cənubi Qafqaz regionunda post-münaqişə dövrünə aid məsələlər, o cümlədən Ermənistanla Azərbaycan arasında normallaşma prosesi barədə fikir mübadiləsi aparıldı.*

*Telefon danışığı əsnasında regional təhlükəsizlik məsələləri də müzakirə edildi.*

*Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinken Ukraynaya humanitar yardım göstərdiyinə görə Azərbaycana təşəkkürünü bildirdi.*

## 23 YAŞADƏK İDMANÇILARIN BOLQARISTANDA KEÇİRİLMİŞ GÜLƏŞ ÜZRƏ 7-ci AVROPA ÇEMPİONATININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*17 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul etmişdir.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu yaxınlarda Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək, böyük uğura imza atdılar, 16 medal qazanıldı, onlardan 7-si qızıl medaldır. Bu çox böyük nailiyyətdir. Xüsusilə nəzərə almalıyıq ki, komanda hesabında bizim komandamız 1-ci yerə layiq görülmüşdür. Bu münasibətlə ilk növbədə, idmançıları və onların məşqçilərini, Güləş Federasiyasını təbrik edirəm. Bu bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan idman ölkəsidir və həm böyüklər, həm də gənclər arasında keçirilmiş

beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər.

Mən bilirəm ki, idmanın bütün növlərində, o cümlədən güləş idman növündə ildən-ilə rəqabət artır, müxtəlif ölkələrdə güclü idmançılar üzə çıxır və artan rəqabət şəraitində Avropada birinci olmaq böyük nailiyyətdir. Dövlət himnimiz 7 dəfə səsləndirildi. Əlbəttə, həm idmançılar, həm idman mütəxəssisləri, bütün Azərbaycan vətəndaşları bu qələbəni böyük qürur hissi ilə qarşıladılar.

Güləş Azərbaycanda idmanın bütün növləri arasında xüsusi yerə malikdir. Güləş bizim milli idman növümüzdür. Bütün dövrlərdə güclü güləşçilərimiz olubdur, həm sovet dövründə, həm də xüsusilə müstəqillik dövründə. Bizim güləşçilərimiz Azərbaycanı müxtəlif yarışlarda ləyaqətlə təmsil ediblər. Bizim bir çox olimpiya, dünya, Avropa çempionlarımız vardır. Güləşin ənənələri Azərbaycanda kifayət qədər güclüdür və şadam ki, indi gənc nəsil bu ənənələri davam etdirir. Əminəm ki, bu yaxınlarda medal qazanmış idmançılar arasında gələcəyin Avropa, dünya və olimpiya çempionları olacaqlar. Nəsildən-nəslə keçən bu təcrübə, bilik, səriştə əminəm ki, Azərbaycanı bundan sonra da dünya miqyasında aparıcı güləş ölkələrindən birinə çevirəcəkdir. Hər halda, Avropada gənclər arasında biz birinciyik və mənə verilən məlumata görə, çempionatda 34 ölkə iştirak edirdi. Buna görə bir daha qeyd etmək istəyirəm ki, bu doğrudan da böyük nailiyyətdir. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, bu gün mən sizi dəvət etmişəm ki, şəxsən özüm sizi təbrik edim və ümidvar oldu-

ğumu bildirim ki, gələcəkdə də siz eyni əzmkarlıqla ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz.

Son vaxtlar Güləş Federasiyasında gedən proseslər narahatlıq doğururdu və durğunluq hiss olunurdu. Güləş Federasiyasında idarəetmə mexanizmi zəifləmişdi, faktiki olaraq, özbaşınalıq hökm sürürdü. Əlbəttə, bu, nəticələrə də mənfi təsir göstərmişdir və bu təbiidir. Ona görə Güləş Federasiyasının rəhbərliyinin dəyişdirilməsi zəruri idi və bu, baş verdi. Əminəm ki, indi federasiya buraxılmış bütün nöqsanları aradan qaldıracaq, vəziyyəti təhlil edəcək. Mənə məlumat verilib ki, artıq bu işlərə başlanılıb. İdmançılara – həm gənclər, həm də böyüklər arasında çıxış edən idmançılara bu, lazımi şərait yaradacaqdır. Mən Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçiləndən qarşıya məhz bu vəzifəni qoydum ki, biz idmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik. Bax, bu iki əsas amil böyük uğurlarımızın əsasını təşkil edirdi. Ona görə əminəm ki, Güləş Federasiyası Gənclər və İdman Nazirliyi ilə, məşqçilərlə birlikdə düzgün addımların atılmasına nail olacaq və bugünkü qələbəni mən görülən bu işlərin ilk təzahürlərindən biri kimi qəbul edirəm.

Bizim idmançılar uzun illərdir Azərbaycanı dünyada təbliğ edirlər. Mən dəfələrlə idman ictimaiyyəti ilə görüşlər əsnasında deyirdim ki, idman bizim dövlət siyasətimizdir və idman hər bir ölkənin qüdrətini əks etdirir. Əgər beynəlxalq yarışlarda, Olimpiya oyunlarında ölkələrin reytinqlərinə nəzər salsaq görərik ki, adətən, inkişaf etmiş ölkələrin nüma-

yəndələri daha da böyük uğurlar qazanırlar. Bu da təbiidir, çünki həm təlim-məşq toplanışlarının keçirilməsi, ümumiyyətlə, hazırlıq işlərinin qurulması, iqtisadi baza – bütün bu amillər önəmli rol oynayır. Dövlət siyasəti burada aparıcı məsələdir və Azərbaycan bu ölkələrin sırasındadır. Biz nəinki iqtisadi və digər sahələrdə, idman sahəsində də qabaqcıl ölkələr sırasındayıq və bu liderliyi qorumalıyıq. Təsadüfi deyil ki, beynəlxalq idman qurumları Azərbaycana çox böyük rəğbətlə yanaşırlar. Belə olmasaydı, Azərbaycanda iki dünya səviyyəli tədbir keçirilməzdi – həm Avropa oyunları, həm də İslam Həmrəyliyi oyunları. Bir ölkədə, bir şəhərdə cəmi iki il ərzində iki böyük tədbirin keçirilməsi beynəlxalq idman ictimaiyyətinin, federasiyaların bizə olan münasibətinin əlamətidir. Biz bu yarışları yüksək səviyyədə keçirdik və idmançılarımız bizi sevindirdilər. Bizim beynəlxalq idman qurumları ilə, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya komitələri ilə sıx əlaqələrimiz var, beynəlxalq federasiyalarla sıx əlaqələrimiz var. Bu əlaqələr, əlbəttə ki, Azərbaycanda idman siyasətinin düzgün aparılmasında da bizə kömək göstərir. Ölkəmizdə keçirilmiş və bundan sonra keçiriləcək idman yarışları da müntəzəm xarakter almalıdır. Çünki ölkəmizin həm imkanları, həm Azərbaycandakı qonaqpərvərlik, həm də idman infrastrukturunun mövcudluğu sayəsində biz istənilən idman yarışını keçirə bilərik. Məsələn, Avropa oyunlarında 5000-dən çox idmançı iştirak edirdi və onların bir çoxu qeyd edirdi ki, bu oyunlar Yay Olimpiya oyunları səviyyəsində keçirilir. Yəni biz bütün bu şəraiti yaratmı-

şıq ki, həm idmançılar ölkəmizin şöhrətini həmişə yüksəkliklərdə saxlasınlar, həm də idman kütləvi xarakter alsın. Gənclər və İdman naziri qarşısında, yeni rəhbərlik qarşısında qoyduğum vəzifələrdən biri də məhz budur – idmanın kütləviliyini təmin etmək və bütün bölgələrdə mövcud infrastrukturdan istifadə etmək. Çünki bizdə hər bir bölgədə müasir Olimpiya İdman kompleksləri vardır, 50-yə yaxın belə bir kompleks artıq inşa edilib və onlardan səmərəli şəkildə istifadə etməliyik. Seleksiya işi çox düzgün aparılmalıdır. Bölgələrdə bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə olaraq, onları düzgün seçmək və idmana, idman bölmələrinə cəlb etmək lazımdır.

Əlbəttə, tanınmış idmançılarımızın nümunəsi, olimpiya, dünya, Avropa çempionlarının nümunəsi gənclər üçün də bir stimul olmalıdır. Onlar da bizim tanınmış idmançılar kimi olmağa çalışmalıdırlar. Bilirəm ki, bizim tanınmış, görkəmli idmançılarımız da həm öz idman uğurları ilə, həm də davranışları ilə nümunə göstərirlər. Mən çox şadam ki, Azərbaycan idman ictimaiyyəti və bizim idmançılarımız, onların böyük əksəriyyəti həyatda da nümunədirlər və belə də olmalıdır. Bir sözlə, güləş idman növünün perspektivlərini çox müsbət qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə həm Olimpiya oyunlarında, həm də dünya çempionatlarında uğurlarımız kifayət qədər olacaqdır.

Bir məsələyə də toxunmaq istərdim. Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi, böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut

etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək. Hər halda, xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amili çox böyük rol oynayır. Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissi daim yüksək olsun. Məhz bu vətənpərvərlik hissi, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bizim, əlbəttə ki, güclü ordumuz, texnikamız, silahlarımız, sursatlarımız vardır. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir.

Biz uzun illər – 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarda məğlub edilmiş ölkə kimi təmsil olunurduq. Bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni biz həqiqəti olduğu kimi bilməliyik və deməliyik. Bəli, bu məğlubiyyətin səbəbləri var idi, ovaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar – bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdi. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub

edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq. Belə də oldu.

Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz. Siz qalib gəlmiş müzəffər xalqı təmsil edirsiniz. Əminəm ki, o arenaya çıxanda sizin ürəyinizdə mütləq bu duyğular olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq, o cümlədən İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar. Siz də beynəlxalq yarışlarda müxtəlif ölkələrdə olursunuz. Əminəm, bəlkə də siz gənclər yox – çünki siz təzə-təzə beynəlxalq yarışlarda iştirak etməyə başlamısınız – amma böyüklər, məşqçilər, idman mütəxəssisləri mütləq görürlər ki, Azərbaycana münasibət nə dərəcədə dəyişmişdir. Çünki biz qalib ölkəni, müzəffər xalqı təmsil edirik. Biz müharibəni ləyaqətlə aparmışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Biz mülki əhaliyə qarşı vuruşmamışıq, biz binaları bombalamamışıq, biz qəddarlıqla məşğul olmamışıq. Halbuki xalqımızın ürəyində qisas hissi həmişə var idi. Çünki ermənilər tərəfindən bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və qisas hissi mütləq olmalı idi. Ancaq mən demişdim ki, düşməndən intiqamı döyüş meydanında alacağıq. Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb. Məhz buna görə düşmən tərəfində mül-

ki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər.

Mən bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki dünyada bir çox yerlərdə müharibələr gedib, gedir və əfsuslar olsun ki, gedəcək. Bu gedən müharibələrə diqqət yetirsək, hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görər. Əlbəttə ki, idmançılarımız üçün bu, əlavə bir stimuldur. Çünki biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik. Siz idmançılar və sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz. Çünki bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq. Azad edilmiş torpaqlarda idman inkişaf etməlidir. Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları azad edilmiş bütün şəhərlərin baş planlarında da öz əksini tapır. İndidən federasiyalar, Gənclər və İdman Nazirliyi artıq layihələri təqdim etməlidir. Çünki şəhərlərin baş planlarında idman qurğularının yerləşməsi nəzərdə tutulur. Amma bunlar hansı formada olacaq, memarlığı necə olacaq, bunu müvafiq federasiyalar, Gənclər və İdman Nazirliyi təqdim etməlidir.

Bir sözlə, əziz dostlar, uşaqlar, məşqçilər, mütəxəssislər, sizi bir daha təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram.

**N a m i q  A b d u l l a y e v** (*sərbəst güləş üzrə Azərbaycan yığmasının baş məşqçisi*): Cənab Prezident, icazənizlə, istərdim federasiyamız adından, güləşçilərimiz adından bu uğurla bağlı bir neçə kəlmə söyləyim.

Hörmətli Prezident, əvvəlcə bizi dəvət etdiyiniz və bizimlə görüşdüyünüz üçün Sizə həm Azərbaycan Güləş Federasiyası, həm məşqçilər və idmançılar, həm də bütün güləş ailəsi adından dərin təşəkkürümü bildirirəm. Sizin idmana diqqət və qayğınızı hər zaman hiss etmişik. Bolqarıstanda keçirilmiş 23 yaşadək güləşçilərin Avropa çempionatından sonra bizi qəbul etməyiniz də bu diqqətin göstəricisidir. Bildiyiniz kimi, millimiz Avropa çempionatında hər üç güləş növü üzrə uğurlu çıxış etdi. Yunan-Roma güləşi üzrə 2 qızıl, 1 gümüş və 2 bürünc, qadın güləşi üzrə 1 qızıl, 1 gümüş və 2 bürünc, sərbəst güləşdə isə 4 qızıl və 3 bürünc medal qazandıq. Sərbəst güləşçilərimiz komanda hesabında Avropa çempionu oldular. Yunan-Roma güləşçilərimiz isə 3-cü yeri tutdu. Ümumilikdə 16 medal qazandıq. Azərbaycan 7 qızıl, 2 gümüş və 7 bürünc medal qazanaraq, ümumi sıralamada 1-ci yeri tutdu. Bu da Azərbaycan güləşi tarixində rekord nəticədir.

Cənab Prezident, fürsətdən istifadə edib onu da demək istərdim ki, bu il noyabr ayında Azərbaycanda Yunan-Roma güləş növü üzrə dünya kuboku keçiriləcək. Möhtərəm Prezident, bizi qarşıda daha mötəbər yarışlar gözləyir. Əminliklə deyə bilərəm ki, bu görüş bizim üçün böyük stimul olacaqdır. Gələcək yarışlarda da uğurlar qazanaraq, Sizi və

xalqımızı sevindirmək üçün əlimizdən gələni edəcəyik. Diqqətinizə görə sağ olun.

**M i k a y ı l C a b b a r o v** (*Azərbaycan Güləş Federasiyasının prezidenti*): Cənab Prezident, ilk növbədə, mən dərin təşəkkürümü bildirmək istəyirəm ki, Siz sıx qrafikinizdə vaxt tapıb bizi qəbul etdiniz, tövsiyələrinizi verdiniz, həm dövlətimizin başçısı kimi, həm də ölkənin Milli Olimpiya Komitəsinin rəhbəri kimi. Güləş Federasiyasında gedən işlərlə bağlı Sizin dəyərli tövsiyələriniz bizim üçün əsasdır. Fürsətdən istifadə edərək, mən Sizi əmin etmək istərdim ki, tapşırıqlarınıza uyğun olaraq, həm kütləvi idmanın, xüsusilə gənclər və yeniyetmələr arasında, həm də peşəkar idman nailiyyətlərinin təmin edilməsi üçün fəaliyyətimizi həmkarlarımız Gənclər və İdman Nazirliyi ilə sıx qururuq. Söylədiyiniz kimi, bu bizim milli idman növümüzdür və biz hər zaman bundan ruhlanırıq. Etibarınıza, etimadınıza görə təşəkkür edirik. Söz veririk ki, gələcəkdə də bayrağımızı ləyaqətlə təmsil etmək üçün bizim bütün idmançılar və məşqçilər əllərindən gələni edəcəklər, biz də zəruri dəstək verəcəyik. Sizə bir daha təşəkkür edirik.

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Azərbaycan torpağında qədim köklərə malik Novruz bayramı xalqımızın mədəni sərvətlər xəzinəsində layiqli yer tutur. Ulu əcdadımızın zəngin daxili aləminin və nikbin dünyagörüşünün dolğun təcəssümü olan bu el bayramı yüz illərdən bəri varlığımızın ən dərin qatlarına nüfuz etmiş, milli özünüdərkin təşəkkülünə töhfələr vermiş, ali dəyərlərin daşıyıcısına çevrilərək, insanlarımızı vahid mənəviyyat ətrafında daim bir-birinə yaxınlaşdırmışdır. Tariximizin taleyüklü anlarında gələcəyə inamımızı biz eyni zamanda, Bahar bayramının bəxş etdiyi mənəvi güc sayəsində qoruyub saxlamışıq. Qloballaşma dalğasının vüsətli dövründə Novruz ənənələrinin müqəddəs ərməğan kimi uca tutulması və bütün rəngarəngliyi ilə yaşadılması çoxəsrlik mədəni irsimizə ehtiramımızın ifadəsidir.

Məhz parlaq Zəfərimizin qat-qat gücləndirdiyi xoş bahar ovqatı içində, artıq ikinci ildir ki, azadlığına qovuşmuş torpaqlarımızda hazırda yüksək sürətlə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Yaz ətirli bayramımız bizi daha şövqlə çalışıb indi rahat nəfəs alan bu doğma yurd yer-

lərini qısa müddətdə abadlaşdırmağa və öz əvvəlki dinc həyatına qaytarmağa ruhlandırır.

Vətənimizin ərazi bütövlüyü naminə canlarından keçmiş igid övladlarımızın xatirəsini bu bayram günlərində minnətdarlıqla yad edir, ölkənin müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə təbriklərimi yetirirəm.

Əminəm ki, xaricdəki soydaşlarımızın bizimlə birgə azərbaycançılıq məfkurəsi işığında baharı qarşılamaları onların qəlbində yurdumuza bağlılıq hisslərini daha da möhkəmləndirəcəkdir.

İrəlidə bizi ümumxalq əhəmiyyətli mühüm vəzifələrin həlli gözləyir. İnanıram ki, hər birimiz yaz fəslinin yeniləşdirici ab-havası ilə həmahəng ruh yüksəkliyi və həmrəylik şəraitində qurub-yaratmaq əzmi nümayiş etdirəcək, Qarabağa Böyük Qayıdış planımızı uğurla gerçəkləşdirəcəyik.

Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Qoy bu əziz bayram hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2022-ci il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ KAYS SAYİDƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan–Tunis dostluq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2022-ci il*

## TƏRTƏR RAYONUNA SƏFƏR

*20 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsinə səfərə gəlmişlər.*

*Dövlət başçısı və xanımı «Azərişıq» ASC tərəfindən Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı mərasimində iştirak etdilər.*

*«Azərişıq» ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına və xanımına layihə ilə bağlı məlumat verdi. Diqqətə çatdırıldı ki, «Azərişıq» ASC tərəfindən ölkədə ilk dəfə tətbiq edilən, müasir texnologiyalara əsaslanan 35 kilovoltluq izolyasiyalı və mühafizəli kabel elektrik veriliş xətləri ənənəvi hava elektrik xətlərinə nisbətən daha rentabelli və texniki baxımdan şəbəkələrin dayanıqlı işini təmin etmək üçün əlverişli innovativ həldir. Suqovuşan qəsəbəsinin elektrik enerji təchizatında tətbiq edilmiş 35 kilovoltluq kabel xətti məhz belə, müasir şəbəkə quruculuğu üçün əsas elementlərdən biridir. Belə ki, izolyasiya olunmuş 35 kilovoltluq yeni tip xətlərin mühafizə zonası 3–6 metrdir və bu, mövcud xətlərə nisbətən 6–10 dəfəyə qədər*

*azdır. Mövcud naqillərdə texniki itkilər 9–12 faiz olduğu halda, müasirtipli izolyasiya olunmuş kabellərdə itkilər 3,5-4 faiz təşkil edir. Həmçinin şəbəkələrin saxlanma xərcləri 100 faizdən 30 faizə, illik mal-material sərfi 100 faizdən 25 faizə endirilir. İzolyasiya olunmuş kabellərdə qəza açılmalarının sayı və müddəti mövcud naqil xətləri ilə müqayisədə 60 faizədək azdır.*

*İlham Əliyev bütövlükdə gələcəkdə ölkəmizin bütün yerlərində bu sistemə keçmək lazım olduğunu vurğuladı.*

*«Azərişıq» ASC-nin sədri bildirdi ki, cənab Prezidentin tapşırığına əsasən, biz Bakıda da bunun üzərində işləyirik.*

*Yeni kabel xətlərinin tətbiqi yüksək gərginlik xətlərinin bilavasitə altında, yaxud yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, həmçinin insanların fəaliyyət təhlükəsizliyi dəfələrlə artır, təbiət hadisələrinin elektrik veriliş xətlərinə təsiri aradan qalxır. İzolyasiya olunmuş yeni tip kabel xətlərinin istifadəsi ümumilikdə ölkənin enerji sisteminin dayanıqlılıq, etibarlılıq və səmərəlilik göstəricilərini beynəlxalq standartlara yaxınlaşdırmağa imkan verir. Eyni zamanda, bu növ kabel xətlərinin istənilən mühitdə, o cümlədən yeraltı, sualtı və hava ilə çəkilişinin mümkünlüyü işğaldan azad edilmiş ərazilərdə qurulan 35/0,4 kilovoltluq innovativ paylayıcı şəbəkələrin istismarını asanlaşdırmaqla yanaşı, dayanıqlı fəaliyyətini də tam təmin edəcəkdir.*

## Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə tanış olmuşlar.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və xanımına görülmüş işlərlə bağlı məlumat verdi. Bildirildi ki, 44 günlük Vətən müharibəsi zamanı hərbi əməliyyatlar nəticəsində Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsində 16 fərdi ev qismən yararsız vəziyyətə düşmüşdür. Bu evlərdən biri əsaslı təmir olunubdur.*

*Təmir olunmuş evin ümumi yaşayış sahəsi 92 kvadratmetrdir. Layihəyə əsasən, ev 3 otaq, mətbəx və 2 sanitar qovşağından ibarətdir. Tikinti altında olan sahə isə 148 kvadratmetr təşkil edir. Fasadın əsas hissəsi dekorativ təbii daşla üzlənib ki, bu da evin və yerləşdiyi ərazinin ahəngini tamamlayır. Fasadın qalan hissəsində isə suyadavamlı boya materialından istifadə olunub. Evin damı metal kirəmitlə örtülüb, terrasa keramika döşənib, tavanı isə taxta materialdan hazırlanıbdır.*

*Evin otaqları yüksək səviyyədə və müasir dizaynla bərpa olunub. Həyətyanı sahə abadlaşdırılıb, ərazidə ağaclar əkilib. Fərdi evlərin yerləşdiyi məhəlləyə işıq və su xətləri çəkilib, yola asfalt örtüyü döşənibdir.*

## Qəsəbədə 144 şagird-yerlik tam orta məktəbdə təhsilin vəziyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Suqovuşan qəsəbəsində 144 şagird-yerlik tam orta məktəbin binasında olub, təhsil müəssisəsindəki vəziyyətlə maraqlanmışlar.*

*Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlət başçısına və xanımına eskiz layihəsi əsasında məlumat verdi. Qeyd olundu ki, yararsız vəziyyətə düşmüş Suqovuşan qəsəbə tam orta məktəbinin binası Təhsil Nazirliyi tərəfindən təmir olunacaq. Diqqətə çatdırıldı ki, məktəbin ərazisi 1 hektardır. Binanın ümumi sahəsi 820 kvadratmetrə yaxındır. Məktəb 12 sinif otağından, 60 nəfərlik akt zalından və kitabxanadan ibarətdir.*

*Bildirildi ki, dördmərtəbəli binanın fasadının ətrafdakı fərdi evlərə uyğunlaşdırılacağı nəzərdə tutulur. Fasadda fərdi evlərdə olduğu kimi, dekorativ təbii daşlardan istifadə ediləcəkdir. Məktəbdə müasir standartlara uyğun idman meydançası qurulacaq, həyətyanı sahə abadlaşdırılacaqdır.*

## Suqovuşanda yeni tikiləcək məscidin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində yeni tikiləcək məscidin təməlini qoymuşlar.*

*Dövlət başçısına və xanımına qəsəbədə inşa olunacaq məscidin layihəsi barədə məlumat verildi.*

*Bildirildi ki, ümumi ərazisi 0,6 hektar olan kompleksə məscid binası, köməkçi bina, dəstəmaz otağı və avtodayanacaq daxildir. İki mərtəbədən ibarət olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr təşkil edəcək. Burada kişilər və qadınlar üçün ibadət zalının olması planlaşdırılır. Layihəyə əsasən, məsciddə eyni vaxtda 110 nəfərin ibadət etməsi üçün şərait yaradılacaqdır.*

*Dövlət başçısı və xanımı məscidin təməlini qoydular.*

*İşğal dövründə vandalizmə məruz qalmış mədəni və dini obyektlər sırasında islam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edir. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulmuş məsciddir.*

## Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsinin açılışı mərasimində iştirak etmişlər.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlət başçısına raport verdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə sıra meydanında düzülmüş döyüş texnikasına baxdılar.*

*Silahlı Qüvvələrin Ali Baş Komandanına hərbi hissədə yaradılmış şərait barədə məlumat verildi.*

*Bildirildi ki, hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb. Hərbi hissənin qərargah binasında hərbçilər üçün bütün zəruri avadanlıqlarla təchiz edilmiş iş otaqları vardır. Əsgər yeməkxanası da müasir səviyyədədir.*

*Dövlət başçısı və xanımı hərbi hissənin əsgər yeməkxanasında yaradılmış şəraitlə tanış oldular. Burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.*

*İşğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnika ilə təchizatı onu göstərir ki, Azərbaycan hərbi təhlükəsizliyini xüsusi diqqətdə saxlayır. Bunun üçün kifayət qədər imkan, ən əsası*

*isə siyasi iradə vardır. Digər tərəfdən, cəmiyyət də dövlətin bu istiqamət üzrə siyasətini dəstəkləyir və birmənalı şəkildə dövlətin yanında olduğunu nümayiş etdirir.*

**Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*Azərbaycan Dövlət Turizm Agentliyinin sədri, Azərbaycan Qış İdman Növləri Federasiyasının prezidenti Fuad Nağıyev dövlət başçısına və xanımına kompleksin layihəsi barədə məlumat verdi.*

*Bildirildi ki, ərazinin minalardan təmizlənməsindən, dağıdılmış tikililərin qalıqlarının yığışdırılmasından, çoxillik bitkilərin budanmasından sonra burada abadlıq işlərinə başlanılacaq və əraziyə uyğun bitkilər əkiləcəkdir.*

*Diqqətə çatdırıldı ki, ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Suqovuşan su anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacaq, oturacaqlar quraşdırılacaqdır. Həmçinin burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyekti yaradılacaqdır.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva turizm kompleksində istifadə olunacaq xüsusi maşınlara baxdılar.*

*Prezident İlham Əliyev kompleksin təməlini qoydu.*

*Sonra dövlət başçısı və xanımı kompleksin ərazisində ağac əkdilər.*

*Suqovuşan Turizm Kompleksində işlər cari ilin sonunadək başa çatdırılacaq, növbəti mövsümdə turistlərə xidmət göstəriləcəkdir. Görülmiş işlər sübut edir ki, çox füsunkar, təkrarolunmaz təbiəti olan və tarixi abidələrlə zəngin Qarabağ bölgəsi tezliklə Azərbaycanın əsas turizm zonalarından birinə çevriləcəkdir.*

## Suqovuşan qəsəbəsində təşkil edilmiş ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil edilmiş ilk avarçəkmə təlim-məşq toplantısının rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının prezidenti Vüqar Əhmədov dövlət başçısına və xanımına federasiyanın gələcək planları barədə məlumat verdi və videoçarx nümayiş etdirildi.*

*Diqqətə çatdırıldı ki, avarçəkmə idman növü ilə Azərbaycanda ötən əsrin 30-cu illərindən məşğul olunmağa başlanılıb. Sonralar ənənəvi idman növlərindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin diqqəti sayəsində Azərbaycanda 11 avarçəkmə klubu*

*fəaliyyət göstərirdi. Müstəqilliyin ilk illərində Mingəçevirdəki baza baxımsız hala düşsə də, dövlət başçısının tapşırığı ilə 2010-cu ildə bu baza ən yüksək standartlara cavab verən səviyyəyə çatdırılıb. Hazırda əsas məqsəd ölkəmizdə avarçəkmə idman növünün coğrafiyasını genişləndirmək və gəncləri bu idman növünə cəlb etməkdir.*

*Dövlət başçısına və xanımına avarçəkmə yarışlarında istifadə olunan qayıqlarla bağlı məlumat verildi. Bildirildi ki, avarçəkmənin 3 əsas növü var – akademik, kayak və kanoe. Akademik avarçəkmədə idmançılar 1, 2, 4 və 8 nəfərlik qayıqlarda mübarizə aparırlar. Yarış iştirakçıları qayığı geriyə hərəkət etdirirlər. Burada qayıq həm əl, həm ayaq, həm də bədən gücü ilə və sinxron şəkildə hərəkət etdirilir.*

*Azərbaycan Prezidenti təlim-məşq toplantısının rəsmi açılışını bildirən düyməni sıxandan sonra qarşı tərəfdəki metal konstruksiyadan «QARABAĞ AZƏRBAYCANDIR!» yazısı əks olunmuş banner açıldı, səmaya 7000 hava şarı buraxıldı və ardınca idmançılar məşq prosesinə başladılar.*

*Dövlət başçısı və xanımı məşq prosesini və bayraq şousunu izlədilər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xatirə hədiyyəsini imzaladı və Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasına təqdim etdi.*

*Xüsusi vurğulanmalıdır ki, Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Suqovuşan qəsəbəsinə bu səfəri işğaldan azad olunmuş ərazilərdə ilk idman tədbirinin təşkili ilə də yadda qaldı.*

## SUQOVUŞANDA BAYRAM TONQALININ BAŞINDAN NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK MÜRACİƏTİ

*20 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 20-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində bayram tonqalını alovlandırmışlar.*

*Sonra dövlət başçısı Azərbaycan xalqını təbrik etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin təbriki

Əziz bacılar və qardaşlar!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. İkinci dəfədir ki, tarixi Zəfərimizdən sonra biz Novruz bayramını doğma Qarabağ diyarında qeyd edirik. Bilirəm, hər birimiz, xüsusilə keçmiş məcburi köçkünlər hər dəfə bayram ərəfəsində və bayram günlərində deyirdik ki, inşallah, gələn il azad edilmiş torpaqlarda, Qarabağda Novruz bayramını qeyd edəcəyik və artıq bu reallıqdır. İkinci dəfədir ki, bu gözəl bahar bayramını biz işğaldan azad edilmiş torpaqlarda qeyd edirik. Bu gün mən Novruz tonqalını burada – Suqovuşanda qaladım, qədim Azərbaycan diyarı olan Suqovuşanda. Keçən il isə Nov-

ruz bayramını mən Şuşa şəhərində, hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etmişdim və Azərbaycan xalqına müraciət etmişdim. Şadam və xoşbəxtəm ki, artıq bu, bir ənənəyə çevrilib və Novruz bayramını biz burada, doğma Qarabağ diyarında qeyd edirik.

Suqovuşan qədim Azərbaycanın tarixi yeridir. Azərbaycan xalqı bu ərazilərdə əsrlərboyu yaşayıb. Ancaq 1923-cü ildə doğma Qarabağ diyarımızda qanunsuz və heç bir əsası olmadan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Qarabağın gözəl, səfalı yerləri qondarma quruma daxil edilmişdi, o cümlədən Şuşa şəhəri və Suqovuşan qəsəbəsi. Bu, xalqımıza qarşı növbəti ədalətsizlik idi, növbəti düşmənçilik idi. Çünki Qarabağ, onun tarixi Azərbaycan xalqının adı ilə bağlıdır. Azərbaycan xalqı Qarabağda əsrlərboyu yaşayıb. Sadəcə olaraq, siyasi məqsədlər naminə uzun illər, sovet dövründə burada qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti fəaliyyət göstərirdi. Bildiyiniz kimi, sonra ermənilər xalqımıza qarşı işğalçılıq siyasətinə əl atdılar və 30 ilə yaxın müddətdə bizim doğma Qarabağımız və Şərqi Zəngəzurun bir hissəsi ermənilərin əlində idi. Buna son qoyulmalı idi və son qoyuldu. Biz gördük ki, heç bir danışıqlar, heç bir siyasi addımlar bizi məqsədimizə yaxınlaşdırmır. Biz görürdük və bilirdik, ancaq güclü, daha iradəli olmalıydıq ki, öz haqqımızı qoruyaq, tarixi ədaləti bərpa edək. Azərbaycan dövləti, Azərbaycan Ordusu, bütün Silahlı Qüvvələrimiz bu tarixi missiyanı 2020-ci ildə yerinə yetirdi. Biz döyüşərək, qan tökərək, şəhidlər verərək doğma diyarımızı erməni işğalından azad

etdik və Qarabağa qayıtdıq. Biz artıq burada yerləşmişik, biz buraya qayıtmışıq, doğma diyarımıza qayıtmışıq. Bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində çox genişmiqyaslı abadlıq işləri aparılır, şəhərlər yenidən qurulur, kəndlər yenidən salınır. Əlbəttə ki, bizim əsas vəzifəmiz keçmiş məcburi köçkünləri tezliklə bu doğma diyara qaytarmaqdır.

Abadlıq və quruculuq işləri, o cümlədən Suqovuşan qəsəbəsində də geniş vüsət alıbdır. Bu gün burada bir neçə tədbirdə iştirak etmişəm, o cümlədən yaşayış binalarının bərpası, turizm zonalarının yaradılması. Bütövlükdə həm Qarabağda, həm Şərqi Zəngəzurda quruculuq, abadlıq işləri planlı şəkildə aparılır. Biz elə etməliyik ki, qısa müddət ərzində ancaq böyük səmərə ilə və böyük keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazini yenidən quraq. Çünki mənfur düşmən işğal dövründə bütün şəhərlərimizi, kəndlərimizi yerlə yeksan edib, bütün tarixi abidələrimizi dağıdıb, təhqir edibdir. Biz isə qurub-yaradan xalqıq. Müharibədən cəmi bir ildən bir qədər çox vaxt keçməsinə baxmayaraq, biz artıq qurub-yaradırıq. Əminəm ki, biz bütün planlara, nəzərdə tutulmuş bütün məqsədlərə nail olacağıq və nail oluruq. Budur bugünkü Azərbaycanın reallıqları. Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi Zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq, ordumuzla fəxr edirik, insanlarımızla fəxr edirik. Bizə bu xoşbəxtliyi yaşadan gənclə-

rimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq.

Bu mənzərəli yerlərə baxdıqca bir daha görürəm, diyarımız nə qədər gözəldir, dağlarımız nə qədər əzəmətlidir. Bütün bu tarixi gözəlliyə biz gözəllik qatacağıq, zövq qatacağıq və burada azərbaycanlılar rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayacaqlar. Sülhün və təhlükəsizliyin təminatçısı Azərbaycan dövlətidir və Azərbaycan Silahlı Qüvvələridir.

Mən xoşbəxt adamam ki, əziz, doğma xalqıma işğaldan azad edilmiş Qarabağdan Novruz bayramı münasibətilə təbriklərimi çatdırıram. Bu əziz gündə bir daha bütün Azərbaycan xalqını gözəl bayram münasibətilə təbrik etmək istəyirəm. Bir daha demək istəyirəm, bundan sonra da var gücümlə çalışacağam ki, Azərbaycan daim sürətlə inkişaf etsin, yüksələn xətlə getsin və qarşıda duran bütün vəzifələr icra edilsin. Qarabağ Azərbaycandır!

**ÇİN XALQ RESPUBLİKASININ**
**SƏDRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Çinin cənubunda «China Eastern Airlines» şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 mart 2022-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COZEF BAYDENƏ

Hörmətli cənab Prezident!

Novruz bayramı münasibətilə təbrik məktubunuza və xoş sözlərinizə görə Sizə təşəkkürümü bildirirəm. Sizin də qeyd etdiyiniz kimi, bu il biz Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlamətdar ildönümünü – diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu hadisə ilə əlaqədar Sizi təbrik edir, dost Amerika xalqına ən səmimi arzularımı çatdırıram.

Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən otuz ildə ölkələrimiz arasında uğurlu ikitərəfli münasibətlər formalaşmışdır. Bu dövr ərzində çoxşaxəli səmərəli fəaliyyətimiz qarşılıqlı investisiya yatırımı, ölkənizi təmsil edən yüzlərlə şirkətin Azərbaycanın iqtisadi həyatında fəal iştirakı ilə müşayiət olunmuşdur.

Azərbaycan ilə Birləşmiş Ştatların ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində birgə fəaliyyəti təqdirəlayiqdir. Bu baxımdan enerji təhlükəsizliyi, beynəlxalq təhlükəsizlik, terrorizmə qarşı mübarizə tərəfdaşlığımızı səciyyələndirən aparıcı sahələr sırasındadır. Qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin enerji ehtiyatlarının

işlənilməsi və dünya bazarlarına nəqli, irimiqyaslı transmilli enerji layihələrinin reallaşması sahəsində ABŞ-ın göstərdiyi ardıcıl dəstəyi yüksək qiymətləndiririk.

Azərbaycan beynəlxalq terrorizm və onun müxtəlif təzahürlərinə qarşı mübarizədə də Birləşmiş Ştatlarla bir sırada yer almış, etibarlı tərəfdaş olduğunu sübut etmişdir. Ölkəmizin NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyası çərçivəsində sona qədər ABŞ-la sıx işbirliyi beynəlxalq sülh və təhlükəsizliyə verdiyimiz töhfənin bariz təzahürüdür.

Hörmətli cənab Prezident!

Bu gün Azərbaycan Respublikası xalqın iradəsi və maraqları əsasında müstəqil siyasət yürüdən dövlətdir. Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ilə Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzünə son qoyulmuş və ölkəmiz 30 ilə yaxın müddət ərzində icra edilməmiş vəziyyətdə qalmış BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etmişdir. Biz sülhün tərəfdarı olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüququn fundamental baza prinsipləri əsasında Ermənistanla sülh sazişi üzrə danışıqlara başlamağa hazırıq. Gələcəyə köklənmiş baxış əsasında ABŞ-ın Azərbaycanın sülh gündəliyini dəstəkləyəcəyinə ümidvarıq.

İşğaldan azad edilmiş torpaqlarımızda postmünaqişə dövründə bərpa və yenidənqurma işləri həyata keçirilir. Biz ABŞ-dan olan şirkətlərin də bu prosesdə iştirakını görməkdən məmnun olardıq.

İnanıram ki, dost və tərəfdaş olaraq bütün sahələrdə ölkələrimizin maraqları və xalqlarımızın rifahı naminə əhəmiyyətli potensiala malik əməkdaşlığımızın daha da inkişaf etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost Amerika xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 mart 2022-ci il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı – Pakistan Günü münasibətilə Sizi və qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram. Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Pakistan əlaqələrinin bugünkü yüksək səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz arasında çoxsaylı qarşılıqlı səfərlər, imzalanmış sənədlər və əldə olunmuş razılaşmalar əməkdaşlığımızın inkişafında mühüm rol oynayır. Biz ortaq mənəvi dəyərlərimizdən və xalqlarımızın iradəsindən güc alan bu birliyimizi daha da möhkəmləndirmək əzmindəyik.

Pakistanın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyə və ədalətli mövqeyinə görə Sizə təşəkkür edirəm. Qardaş ölkənizin Azərbaycana göstərdiyi bu dəstəyi xalqımız yüksək qiymətləndirir.

Keçən il Aşqabadda Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırla-

yıram. Əminəm ki, dövlətlərarası münasibətlərimizin və strateji tərəfdaşlığımızın genişləndirilməsi sahəsində atdığımız addımlar, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 mart 2022-ci il*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İMRAN XANA

Hörmətli cənab Baş Nazir!

23 mart – Pakistan Günü münasibətilə Sizə və qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Qardaş xalqlarımızın ortaq tarixi, dini köklərindən qaynaqlanan və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş Azərbaycan–Pakistan əlaqələrinin mövcud vəziyyəti bizi sevindirir. Biz qarşılıqlı etimad üzərində qurulmuş münasibətlərimizin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə göstərdiyi dəstəyi xüsusi qeyd etmək istəyirəm.

Vətən müharibəsi dövründə Pakistanın sərgilədiyi prinsipial mövqeni, ölkəmizin haqq işinə verdiyi siyasi-mənəvi dəstəyi Azərbaycan xalqı daim yüksək qiymətləndirir. Biz işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma və bərpa işlərində Pakistan şirkətlərini də görmək istərdik.

Bu gün iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, turizm, təhsil və hərbi-texniki sahələrdə Azərbaycan–Pakistan əməkdaşlıq münasibətlərinin genişləndirilməsi üçün əlverişli şərait mövcuddur. Əminəm ki, bu imkanlardan istifadə edərək, dövlətlərarası münasi-

bətlərimiz, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 mart 2022-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ XANIM KATERİNA SAKELLAROPULUYA**

Hörmətli xanım Prezident!

Yunanıstan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimi çatdırıram.

Ümidvaram ki, xalqlarımızın mənafeləri naminə Azərbaycan ilə Yunanıstan arasındakı münasibətlərin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 mart 2022-ci il*

# ABU-DABİ VƏLİƏHDİ, BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANININ MÜAVİNİ MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHƏYYAN İLƏ TELEFONLA GÖRÜŞ

*22 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 22-də Abu-Dabi vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zaid əl-Nəhəyyan telefonla zəng etmişdir.*

*Telefon danışığı zamanı Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu, xüsusilə iqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

*Söhbət əsnasında tərəflər Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkətinin sərmayəsi ilə Azərbaycanda bu yaxınlarda əsası qoyulmuş 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı bir-birini təbrik etdilər.*

*Məhəmməd bin Zaid əl-Nəhəyyan BƏƏ-nin bərpaolunan enerji sahəsində Azərbaycan ilə strateji əməkdaşlığı inkişaf etdirmək və təqdim olunan layihələri dəstəkləməkdə maraqlı olduğunu ifadə etdi.*

*Dövlət başçısı bərpa olunan enerji sahəsində ölkəmizin böyük potensialının olduğunu qeyd edərək, «Masdar» şirkətinin sərmayəsi ilə tikilməkdə olan 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının əhəmiyyətini vurğuladı.*

*Söhbət zamanı, həmçinin Ukraynada baş verən hadisələr fonunda dünya enerji bazarında sabitliyin təmin olunması, beynəlxalq və regional gündəliyə aid olan və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞARL MİŞELƏ

Hörmətli cənab Mişel!

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Azərbaycan və Avropa İttifaqı arasında münasibətlər uğurla inkişaf edir. Ötən il Sizin Azərbaycana səfəriniz əsnasında apardığımız müzakirələri, Brüsseldə keçirdiyimiz görüşü məmnuniyyətlə xatırlayıram.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması və nəqliyyat-kommunikasiya bağlantılarının qurulması prosesinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

İşğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsinə xidmət edən humanitar layihələrə Avropa İttifaqının dəstək vermək niyyətini təqdir edirik. Azərbaycan və Avropa İttifaqı arasında enerji, təhlükəsizlik, nəqliyyat və digər sahələrdə fəal dialoq mövcuddur.

Azərbaycan və Avropa İttifaqı arasında xüsusilə enerji sahəsində əməkdaşlıq strateji xarakter daşıyır və bu ilin fevral ayında Bakıda keçirilmiş «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının VIII toplantısı enerji sa-

həsində gələcək birgə fəaliyyətimiz üçün yeni imkanlar açır.

Ümidvaram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqlar tezliklə başa çatdırılacaq və bu mühüm sənədin imzalanması ilə əməkdaşlığımız keyfiyyətcə daha yeni mərhələyə qədəm qoyacaqdır.

İnanıram ki, Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin daha da genişləndirilməsi və əməkdaşlığımızın hərtərəfli inkişafı istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 mart 2022-ci il*

## MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH SİSİYƏ

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə mənə ünvanladığınız məktuba görə təşəkkür edirəm. Mən də Sizi və dost xalqınızı bu əlamətdar hadisə ilə şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və əməkdaşlığın, dövlətlərarası münasibətlərimizin bugünkü səviyyəsi məmnunluq doğurur və bu münasibətlər bizim üçün çox əhəmiyyətlidir.

Ötən illər ərzində Azərbaycan ilə Misir arasında əlaqələr ikitərəfli və çoxtərəfli qaydada konstruktiv məcrada inkişaf etmişdir. Bu mənada «Qoşulmama Hərəkatı» çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim.

İnanıram ki, qarşılıqlı faydalı əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da dost ölkələrimizin və xalqlarımızın mənafeyi naminə möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 mart 2022-ci il*

## PREZİDENT ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*28 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev dövlət başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.*

*Bildirildi ki, Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79 ünvanında yerləşən beşmərtəbəli binada vətəndaşların rahat müraciət etmələri və onların müraciətlərinə baxılması üçün zəruri şərait yaradılıb.*

*Mərkəzdə gözləmə zalları, qəbulların aparılacağı xidməti otaqlar, kollektiv qəbullar üçün nəzərdə tutulmuş müxtəlifölçülü zallar, həkim, psixoloq, hüquq məsləhətçisi, ana və uşaq otaqları vardır.*

*Vətəndaş Qəbulu Mərkəzində tətbiq olunmuş yeniliklərdən biri də Çağrı Mərkəzinin istifadəyə verilməsidir. Vətəndaşlar 1111 nömrəsinə zəng edərək, onları narahat edən məsələlər barədə məlumat verə biləcəklər. Bu müraciətlər operatorlar tərəfindən dərhal qəbul olunaraq, vətəndaşlara müvafiq izahat veriləcəkdir. Mərkəzdə tətbiq olunmuş daha bir yenilik isə ölkənin müxtəlif bölgələri ilə birbaşa videokonfranslar keçi-*

*rilməsi imkanının yaradılmasıdır. Burada ölkənin bütün şəhər və rayon icra hakimiyyətlərinin vətəndaş qəbulu otaqları və Prezident Administrasiyasının müvafiq struktur bölməsi ilə paralel olaraq əlaqə saxlamaq imkanı verən xüsusi rabitə sistemi vardır.*

*Bu mərkəzin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Mərkəzdə həm ilk dəfə qəbula gələn, həm də əvvəlcədən qəbula yazılmış vətəndaşlar üçün iki qeydiyyat köşkü quraşdırılıb. Vətəndaşlar şəxsiyyət vəsiqəsi ilə qeydiyyatdan keçib müvafiq ardıcıllığa riayət etməklə qəbula yazıla və müraciət edə biləcəklər. Burada fəaliyyət göstərəcək könüllülər də bu prosesdə vətəndaşlara yardımçı olacaqlar.*

*Bir sözlə, vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu–vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılmış mərkəzdə bu işin təşkili üçün hər cür şərait vardır.*

*Vətəndaşlar qəbulla yanaşı, Prezident sarayına ənənəvi qaydada, yaxud «president.az» rəsmi səhifəsi vasitəsilə elektron məktubla da müraciət edə bilərlər.*

*Prezident Administrasiyasına daxil olan vətəndaş müraciətlərinin hər biri hərtərəfli təhlil olunur və qaldırılan bütün məsələlərə operativ qaydada baxılır.*

*Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejiminin yumşaldılması barədə qəbul etdiyi qərara əsasən, dövlət orqanlarında vətəndaşların qrup halında və fərdi qay-*

*dada qəbul edilməsinə artıq icazə verilib. Hazırda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən vətəndaşların səyyar qəbulları həyata keçirilməkdədir. Eyni zamanda, Prezident Administrasiyasının struktur bölmələrinin rəhbərləri tərəfindən də vətəndaşlar qəbul ediləcəklər.*

*Ötən il Prezident Administrasiyasına daxil olmuş müraciətlərin 60 faizi ərizələrdən, 39 faizi şikayət və təkliflərdən ibarət olub. Müraciətlər əsasən sosial müdafiə, İkinci Qarabağ müharibəsi və onun nəticələri, hüquq-mühafizə orqanlarının, məhkəmələrin fəaliyyəti, əfv məsələləri, səhiyyə xidmətləri, torpaq məsələləri və işğaldan azad edilmiş ərazilərlə bağlı olub. Bu müraciətlərə operativ baxılaraq, müvafiq kömək göstərildiyinə görə dövlət başçısı İlham Əliyevin ünvanına həmin dövrdə 30 minə yaxın minnətdarlıq məktubu daxil olub.*

## UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*28 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə martın 28-də Ukrayna Prezidenti Volodimir Zelenski telefonla zəng etmişdir.*

*Söhbət zamanı Prezident Volodimir Zelenski dövlət başçımızı Ukraynadakı vəziyyət barədə məlumatlandırdı.*

*Prezidentlər humanitar dəhlizlərin yaradılması və sülh danışıqlarının davam etdirilməsinin vacibliyini qeyd etdilər.*

*Telefon danışığı əsnasında Prezident Volodimir Zelenski tibbi ləvazimatlar daxil olmaqla, Ukraynaya göstərilmiş humanitar yardıma görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan daim humanitar məsələlərə böyük önəm verir və xüsusi diqqətlə yanaşır.*

## QADIN VƏ YETKİNLİK YAŞINA ÇATMAYAN MƏHKUMLAR ÜÇÜN BAKIDA YENİ İNŞA OLUNMUŞ MÜASİR PENİTENSİAR MÜƏSSİSƏLƏRDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*29 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cəmiyyətin həssas qrupu olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün Bakıda yeni inşa olunmuş müasir penitensiar müəssisələrdə yaradılmış şəraitlə tanış olmuşdur.*

*Ötən əsrin 30-cu illərində inşa olunmuş və dövrün tələblərinə cavab verməyən penitensiar müəssisələrin əvəzinə inşa edilmiş yeni müəssisələrdə nümunəvi şərait yaradılıb, istirahət, psixoloq, ibadət və digər otaqlar ayrılıb, məhbusların faydalı işlə məşğul olmaları üçün istehsalat sahələri təşkil edilibdir.*

*Hər iki müəssisədə məhkumların asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə idman sahələri, təhsil və peşə ixtisaslarına yiyələnmələri üçün lazımi infrastruktur yaradılıb. Burada zəruri ədəbiyyatla təchiz olunmuş kitabxana, oxu zalı və kompüter otağı vardır.*

*Dövlət başçısının istehsalat sahələrinin genişləndirilməsi, bu fəaliyyətə sahibkarların, iş adamlarının cəlb edilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq yeni müəssisələrdə yaradılmış istehsal bölməsində məh-*

*kumlar toxuculuq, xalçaçılıq, biçmə, tikiş və şirniyyat sexlərində çalışacaqlar.*

*Müəssisənin ikimərtəbəli tibb-sanitariya hissəsində həkim otaqları, müasir avadanlıqlarla təchiz edilmiş müayinə-diaqnostika və stomatologiya kabinetləri, laboratoriya, aptek, pediatr otağı və digər yardımçı otaqlar yerləşir.*

*Yeni penitensiar müəssisədə məhkumlarla görüş üçün də bina inşa olunub. Burada məhkumların ailə üzvləri ilə qısamüddətli və 3 günlük uzunmüddətli görüşü üçün hər cür məişət şəraiti, mətbəxi, gəzinti yerləri olan ayrıca otaqlar vardır.*

*Müəssisələrin ərazisində inşa olunmuş ikimərtəbəli məktəb binasında sinif otaqları ilə yanaşı, əmək, kompüter və digər otaqlar, idman zalları yerləşir. Burada yaradılmış şərait məhkumların, xüsusilə yetkinlik yaşına çatmayanların təhsil almalarına və peşə ixtisaslarına yiyələnmələrinə imkan verir.*

*Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində cəmiyyətimizin həssas təbəqəsi olan qadın və yetkinlik yaşına çatmayan məhkumlar üçün yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Burada yaradılmış müasir şərait məhkumların hüquqlarının təminatına, onların səmərəli islah olunaraq, sosial adaptasiyasına xidmət edəcəkdir.*

*Xatırladaq ki, Bakının Zabrat qəsəbəsində yeni istintaq təcridxanası, Naxçıvan Muxtar Respublikasında və Şəkidə müasir penitensiar komplekslər inşa olunub. Gəncə və Lənkəran şəhərlərində, habelə paytaxtın Umbakı qəsəbəsində belə müəssisələrin tikintisi aparılır.*

*Azərbaycan dövlətinin siyasi kursunda humanizm başlıca prinsiplərdən biridir. Prezident İlham Əliyevin bu vaxtadək imzaladığı 35 əfv aktı ilə 6000-dək məhkum bağışlanıb, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı isə 40 mindən çox insanı əhatə edibdir.*

*Eyni zamanda, ölkədə ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir, cəza siyasəti humanistləşdirilir, məhkumların hüquqlarının qorunması, saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür.*

*Zəfər Günü münasibətilə elan edilmiş və bu ərəfədə icrası başa çatan amnistiya aktı isə dövlət başçısının humanizm siyasətinin növbəti təzahürü olmaqla, daha böyük əhatə dairəsinə görə fərqlənib və 15 mindən çox şəxsə şamil edilibdir.*

*Həmçinin həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının genişləndirilməsi haqqında ayrıca qanun qəbul olunub, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə cinayət qanunvericiliyinə 600-dək dəyişiklik edilib, bir çox əməllər dekriminallaşdırılıb və 2200-ə yaxın məhkum cəzadan azad olunubdur. Eyni zamanda, məhkumların azad cəmiyyətə tamhüquqlu üzv kimi qayıdışı daim diqqətdə saxlanılaraq, onların sosial adaptasiyası ilə bağlı xüsusi qanun qəbul olunub. Vaxtından əvvəl şərti azadetmə institutu da səmərəli tətbiq olunaraq, son iki ildə 3500-dən çox məhkum vaxtından əvvəl şərti azadlığa buraxılıbdır.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

Hörmətli cənab Sədr!

Bu il biz Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu xoş hadisə ilə əlaqədar Sizi ürəkdən təbrik edir, Sizə və Sizin simanızda dost Çin xalqına ən səmimi arzularımı çatdırıram.

Qədim və zəngin dostluq ənənələrinə malik olan Azərbaycan və Çin xalqlarını hələ 2000 il bundan əvvəl tarixi İpək yolu birləşdirirdi. Bu gün isə biz artıq yeni formatda bərpa olunmuş bu ənənəvi marşrut çərçivəsində sıx fəaliyyət göstəririk.

Xalqlarımız arasında təşəkkül tapmış əlaqələr dövlətlərarası əməkdaşlığımızı şərtləndirən başlıca amillərdəndir. Sevindirici haldır ki, ötən 30 il ərzində qarşılıqlı inam və etimada əsaslanan Azərbaycan–Çin münasibətləri yüksələn xətlə inkişaf etmiş, əməkdaşlığımızın yeni istiqamətləri müəyyən edilmişdir. Bu gün siyasi əlaqələrimizin yüksək səviyyəsi, iqtisadiyyat, nəqliyyat-logistika, telekommunikasiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız məmnunluq doğurur.

Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycan tərəfinizdən irəli sürülmüş «Bir kəmər – bir yol» təşəbbüsünü ilk

dəstəkləyən ölkələrdən biri olmuşdur. Ölkəmizdə nəqliyyat-tranzit və logistika sahəsində reallaşan infrastruktur layihələri və yaradılmaqda olan yeni dəhlizlər əməkdaşlığımız üçün böyük imkanlar açır.

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsi üçün əlverişli şərait yaratmışdır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma işlərinə daha çox Çin şirkətinin cəlb olunmasını dəstəkləyirik.

Hörmətli cənab Sədr!

Bu illər ərzində dost Çin Xalq Respublikasına həyata keçirdiyim səfərləri, Sizinlə görüşlərimizi, apardığımız ətraflı fikir mübadilələrini ən xoş təəssüratlarla xatırlayıram. İnanıram ki, sağlam təməl üzərində qurulmuş Azərbaycan–Çin ənənəvi dostluq əlaqələri və qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 mart 2022-ci il*

## BÖYÜK BRİTANİYANIN SİLAHLI QÜVVƏLƏR NAZİRİ, BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ CEYMS HİPPİ İLƏ GÖRÜŞ

*30 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul etmişdir.*

*Görüşdə bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu məmnunluqla vurğulandı və bu dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu münasibətlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri Boris Consonun Prezident İlham Əliyevə və dövlət başçımızın Boris Consona ünvanlanmış təbrik məktublarının əhəmiyyəti qeyd edildi.*

*Bildirildi ki, 30 illik dövrdə uğurlu əməkdaşlığın həyata keçirilməsi əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı zəmin yaradır.*

*Görüşdə neft, qaz, Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən sərmayə qoyuluşu, ticarət, nəqliyyat, müdafiə sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı NATO-nun Əfqanıstanda həyata keçirdiyi Qətiyyətli Dəstək Missiyasında Azərbaycanın iştirakı qeyd edildi.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra bölgədə postmünaqişə dövründə gedən proseslər barədə danışdı.*

## POLŞA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ ZBİQNEV RAUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Polşa Respublikasının Xarici İşlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Raunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizi görməyə şadam. Azərbaycana gəldiyiniz üçün təşəkkür edirəm. Bu bizim gündəliyimizdə duran mühüm məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir. Əlbəttə ki, ATƏT-in sədri olaraq, sizinlə regionda postmünaqişə vəziyyətindən danışacağıq. Eyni zamanda, Polşa və Azərbaycan arasında ikitərəfli gündəlik də çox genişdir. Bilirsiniz ki, bu yaxınlarda Prezident Andjey Duda ilə bizim telefon söhbətimiz də olub. Mənim Prezidentlə Varşavada, Bakıda, Davosda görüşlərimlə bağlı çox yaxşı xatirələrim vardır. Bilirsiniz ki, biz müntəzəm olaraq bir-birimizlə təmasdayıq və ölkələrimiz arasındakı münasibətlər bizim güclü tərəfdaşlığımızı yaxşı nümayiş etdirir.

Həmçinin Avropa İttifaqı ilə əməkdaşlıq məsələlərində bizi daim dəstəklədiyinə görə Polşaya minnətdarıq. Bu proses indi sürətlə gedir və artıq Avropa İttifaqı tərəfindən elan edilibdir ki, Prezident Şarl Mişelin təşkilatçılığı ilə Ermənistanın baş nazirinin mənimlə yeni görüşü olacaqdır. Ümid edirəm ki, bu görüş məhsuldar olacaq. Çünki bir neçə görüş olub və biz Azərbaycan ilə Ermənistan arasında sülhə doğru irəliləməliyik, mümkün olduğu qədər qısa müddətdə sülh sazişini imzalamalıyıq. Azərbaycan bizim baxışımıza uyğun olaraq, bu razılaşmanın əsas prinsiplərini təqdim edib. Münaqişə artıq öz həllini tapıb. Azərbaycan bunu özü etdi və indi də Azərbaycan ilə Ermənistan arasında münasibətləri nizamlamaq vaxtıdır. Bizə Ermənistan rəsmiləri tərəfindən müəyyən mesajlar daxil olur. Bu yaxınlarda mənə verilən məlumata görə, bu mesajlardan biri də ondan ibarətdir ki, onlar bizim təklifimizi məqbul hesab edirlər. Bu çox yaxşı xəbərdir və mən ümid edirəm ki, Brüsseldəki görüşdə bu məsələyə daha çox aydınlıq gətiriləcəkdir.

Bizim təqdim etdiyimiz 5 prinsip beynəlxalq hüquq normalarını, yaxşı beynəlxalq davranışı əks etdirir. Necə deyərlər, biz burada velosiped ixtira etmirik. Bütün bu prinsiplər istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləridir. Qarşılıqlı olaraq ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınması, daha sonra sərhədlərin delimitasiyası – hesab edirəm ki, bunun əsasında Qafqaza sülh gələcəkdir. Biz bunu istəyirik. Biz Cənubi Qafqazın üç ölkəsi arasında fəal əmək-

daşlıq üçün potensialın olduğunu görürük və hesab edirəm ki, bu nəinki bu ölkələr üçün, hətta daha geniş region üçün önəmli olacaq. Əlbəttə, bütün bu məsələləri çox ehtiyatla və vaxtında həll etmək lazımdır. Çox şadam ki, bu və digər mühüm məsələləri sizinlə müzakirə etmək imkanımız vardır.

*Prezident İlham Əliyev 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda vəhşiliklər törətdiklərini, tarixi, dini, mədəni abidələri və digər tikililəri dağıtdıqlarını qeyd etdi. İşğaldan azad olunmuş ərazilərdə hazırda ölkəmizin üzləşdiyi ən böyük problemin ermənilər tərəfindən basdırılmış minalar olduğunu dedi.*

*Dövlət başçısı Birinci Qarabağ müharibəsindən indiyədək 4000 soydaşımızın itkin düşdüyünü ATƏT-in fəaliyyətdə olan sədri kimi, Zbiqnev Raunun diqqətinə çatdırdı.*

*Polşanın Xarici İşlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Zbiqnev Rau Bakının gözəlliyinin onu heyran etdiyini dedi.*

*Zbiqnev Rau Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşacağına ümidvar olduğunu bildirərək, qeyd etdi ki, nizamlanmaya aparan indiki mərhələ çox nikbin görünür. ATƏT-in fəaliyyətdə olan sədri bu proseslərin Qafqaz regionu, eyni zamanda, Mərkəzi və Şərqi Avropa üçün də çox sevindirici olduğunu söylədi və bunun gələcək üçün yeni imkanlar yaratdığını bildirdi.*

*Qonaq Azərbaycanın hazırda regionun əsas nəqliyyat-logistika mərkəzlərindən birinə çevrildiyini vurğuladı.*

*Azərbaycanla Polşa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini qeyd edən Zbiqnev Rau iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məqsədilə qarşıdan gələn aylarda hökumətlərarası birgə Komissiyanın iclasının keçiriləcəyini vurğuladı.*

*Zbiqnev Rau Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində Polşa şirkətlərinin də maraqlı olduğunu bildirdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olundu.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*31 mart 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.*

*Telefon danışığı əsnasında Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyət müzakirə olundu.*

*Söhbət zamanı 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların bütün müddəalarının ardıcıl surətdə həyata keçirilməsinin vacibliyi vurğulandı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

Hörmətli Vladimir Vladimiroviç!

Əlamətdar yubiley – Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Sizi və Sizin şəxsinizdə dost Rusiya xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ötən 30 il ərzində xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan–Rusiya münasibətləri qarşılıqlı hörmət və etimad, bir-birinin mənafelərinin nəzərə alınması prinsipləri əsasında strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda uğurla inkişaf edib və möhkəmlənibdir.

Bu gün fəal siyasi dialoq, ticari-iqtisadi, nəqliyyat, energetika, humanitar və digər sahələrdə səmərəli əməkdaşlıqla səciyyəvi olan dövlətlərarası əlaqələrimiz böyük məmnunluq doğurur. Qarşılıqlı ticarətin və investisiyaların davamlı artımı, sanballı müqavilə-hüquq bazası, müxtəlif sahələrdə birgə layihələrin və təşəbbüslərin səmərəli reallaşdırılması ikitərəfli münasibətlərin dinamik inkişafına parlaq sübutdur. Xüsusilə sevindirici haldır ki, diplomatik münasibətlərin qurulmasının budəfəki yubiley ili Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında

müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması ilə eyni vaxta düşüb. Bu mühüm sənəddə 30 illik dövrdə dövlətlərimiz arasında münasibətlərin keyfiyyətcə yeni, ən yüksək səviyyəyə çatması təsbit olunub.

Şübhəsiz, ali və yüksək səviyyədə müntəzəm əlaqələr, qarşılıqlı səfərlər və görüşlər də Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişaf dinamikasına və birgə fəaliyyətin dərinləşməsinə müsbət təsir göstərir. Dərin tarixi köklərlə, mənəvi və mədəni yaxınlıqla bağlı olan xalqlarımız arasında dostluğun, mehriban qonşuluğun və qarşılıqlı anlaşmanın möhkəm-,lənməsində mədəni-humanitar münasibətlərin rolunu xüsusi qeyd etmək istərdim.

Mədəniyyət və təhsil sahələrində əməkdaşlıq, Azərbaycanda rus dilinin və rus mədəniyyətinin dövlət səviyyəsində hərtərəfli dəstəklənməsi, Azərbaycan məktəblərində və ali təhsil müəssisələrində rus dilində təhsil bizim tərəfdaşlığımızın humanitar gündəliyinə verdiyimiz əhəmiyyəti əyani şəkildə təsdiq edir.

Regionlararası kooperasiya da bizim dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsidir. Azərbaycan Rusiya Federasiyasının çoxsaylı subyektləri ilə fəal qarşılıqlı əlaqə saxlayır, bununla da bütün səviyyələrdə əlaqələrimizin genişlənməsinə şərait yaradır. Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da ikitərəfli əməkdaşlığın aktual məsələlərini reallaşdıra, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin xalqlarımızın və ölkələrimizin mənafeyi naminə möhkəmlənməsi üçün yeni imkanlar aça biləcəyik.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Rusiya xalqına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 aprel 2022-ci il*

## İTALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ LUİCİ Dİ MAİONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev**: Cənab nazir, sizi görməyə çox şadam. Azərbaycana xoş gəlmisiniz! Bu, bir-birimizi bir daha görmək üçün yaxşı fürsətdir. Romadakı görüşümüzlə bağlı mənim çox yaxşı xatirələrim var və həmçinin bu, gündəliyimizdə duran məsələləri müzakirə etmək üçün bir imkandır.

Gündəlikdə duran məsələlərin sayı həqiqətən də artır. Bu, əməkdaşlığımızın çox yaxşı əlamətidir. Əlbəttə ki, ölkələrimiz arasında çox güclü siyasi əlaqələr tərəfdaşlığımızın güclü təməlini təşkil edir. 2014-cü və 2020-ci illərdə biz strateji tərəfdaşlıq üzrə iki mühüm Bəyannamə imzalamışıq. Bu, yaxın dost olmaq üçün qarşılıqlı iradənin mövcud olduğunu göstərir və biz artıq yaxın dostuq. Mənim iki il bundan əvvəl İtaliyaya səfərim və 2018-ci ildə Prezident Mattarellanın Azərbaycana səfəri ilə bağlı

çox yaxşı xatirələrim vardır. Səfərlər, müzakirələr və sənədlər – bunlar ölkələrimiz arasında güclü əlaqələrin olduğunu göstərir. Bu yaxınlarda mənim Baş Nazir Mario Draqi ilə telefon söhbətim olub və biz sizin Azərbaycana səfərinizi də müzakirə etmişik.

Beləliklə, bütün işlər uğurla gedir və əlbəttə ki, bizim ticarət tərəfdaşlığımızın yaxşı göstəricilərini görməyə məmnunam. Azərbaycan Cənubi Qafqazda İtaliyanın əsas ticari tərəfdaşıdır və İtaliyanın Cənubi Qafqazla apardığı ticarətin 95 faizi Azərbaycanla aparılır. Rəqəmlər çox yaxşıdır, demək olar ki, ötən il 10 milyard ABŞ dolları olmuşdur. Əminəm ki, bu il İtaliyaya əlavə qaz təchizatına görə bu göstərici daha da artacaqdır. Əlbəttə ki, İtaliyanın bizim əsas ticarət tərəfdaşımız olması çox yaxşı əlamətdir. Enerji əməkdaşlığında yeni imkanlar vardır. Uzun illər ərzində Azərbaycan neft təchiz edən etibarlı mənbə olub və İtaliyaya neft təchizatının bir nömrəli mənbəyidir. İndi isə «Cənub Qaz Dəhlizi» layihəsinin tamamlanması ilə önəmli qaz təchizatçısına çevrildik və biz qaz təchizatında 3-cü yerdəyik. İrəliləmək üçün potensial olsa, əlbəttə ki, biz bunu edəcəyik. Həmçinin ötən il bizim 7 milyard kubmetr qazı təchiz etməyimizlə bağlı göstərici də məni çox məmnun etdi və bu il bundan da çox olacaqdır.

Bütün bunlar əməkdaşlığın çox müsbət əlamətləridir, strateji və uzunmüddətli xarakter daşıyır. Buraya humanitar sahədə əməkdaşlığı da əlavə etməliyik. Bu gün çox mühüm hadisə – İtaliya–Azərbaycan Universitetinin təməlqoyma mərasimi olacaqdır. Yer artıq seçilib, hər şey hazırdır. Əminəm ki,

bu, Azərbaycanda ən yaxşı universitetlərdən biri olacaqdır. Beş italyan universiteti bu layihənin tərəfdaşı qismində çıxış edir. Həmçinin italyan şirkətlərinin azad edilmiş ərazilərin bərpa-quruculuq işlərində fəal iştirakı bizi sevindirir. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da İtaliya şirkətləri tərəfindən həyata keçirilir. Elektrik enerjisi sektorunda işlər gedir.

Beləliklə, qeyd etdiyim kimi, gündəlik genişdir və daha da genişlənir. Mən çox şadam ki, bu bizim əməkdaşlığımızın yaxşı nəticəsidir. Bir daha xoş gəlmisiniz! Sizə Bakıda yaxşı vaxt keçirməyi arzu edirəm.

**Luici Di Maio:** Təşəkkür edirəm, hörmətli cənab Prezident. Bizə vaxt ayırdığınıza görə minnətdaram. Bildiyiniz kimi, ilk dəfədir ölkənizdə səfərdəyəm. Sizi təbrik edirəm, ölkəniz möhtəşəmdir. Mən əsrarəngiz Bakı şəhərini yalnız «Formula-1» Qran-prisi sayəsində görmüşdüm. Şəhər möhtəşəmdir.

Xüsusilə hazırkı vaxtda regionunuzda rəhbərliyiniz münasibətilə Sizi təbrik edirəm. Bildiyiniz kimi, bu il diplomatik münasibətlərimizin 30-cu ildönümüdür. Biz may ayında bu mühüm tədbiri qeyd edəcəyik.

*Qonaq dövlət başçımızın 2020-ci ilin fevralında İtaliyaya səfərini möhtəşəm səfər kimi dəyərləndirdi:*

– Əfsuslar olsun ki, bu, pandemiyadan əvvəl İtaliyada sonuncu rəsmi səfər idi. Biz bunu xatırlayırıq. Bu, pandemiyadan əvvəl sonuncu yaxşı hadisə idi. Sizə bildirmək istərdim ki, qeyd etdiyiniz kimi,

ölkələrimiz arasında mühüm əlaqələr var və iqtisadi əlaqələr çox yaxşı inkişaf edir. Düşünürəm ki, iqtisadi əlaqələr həmişə siyasi əlaqələrlə bağlı olur. İqtisadi əlaqələr artdıqca siyasi və tarixi əlaqələr də artır. Bizim birgə universitetimizin təməlinin qoyulması münasibətilə bu mühüm tədbirdə iştirak etmək imkanı əlaqələrimizin gücləndirilməsi istiqamətində daha bir addım olacaq. Siz TAP-ı qeyd etdiniz. TAP məhz bu dövrdə – sülh dövründə iqtisadi əlaqələrin yaradılmasının əhəmiyyətini nümayiş etdirir.

*Luici Di Maio İtaliya Prezidenti Sercio Mattarellanın ölkəsinə səfərlə bağlı dəvətini dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi.*

## İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSHAK HERSOQA

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Sizi və dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırıram.

Azərbaycan–İsrail əlaqələri xalqlarımız arasında tarixən mövcud olmuş sıx dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Məmnunluqla qeyd etmək istəyirəm ki, ötən 30 ildə siyasi, iqtisadi, hərbi-texniki, səhiyyə, mədəni və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf etmiş, dostluq əlaqələrimiz daha da möhkəmlənmişdir.

Azərbaycanda əsrlərdən bəri mehribanlıq, əmin-amanlıq və harmoniya şəraitində yaşayan yəhudi icması, həm İsraildə, həm də dünyanın digər ölkələrində məskunlaşmış yəhudi əsilli həmvətənlərimiz dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsinə öz töhfələrini verməkdədirlər.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın inkişafı və əhatə dairəsinin genişlənməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, bir-birinə böyük rəğbət bəsləyən xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq, birgə səylərimizlə ənənəvi

dostluq əlaqələrimizin, səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail ola bilərik.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İsrail xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 aprel 2022-ci il*

## AVROPA ŞURASININ BAŞ KATİBİ XANIM MARİYA PEYÇİNOVİÇ BURİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Avropa Şurasının baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Avropa Şurasının baş katibi statusunda Mariya Peyçinoviç Buriçi Azərbaycanda görməkdən məmnun olduğunu bildirərək, 2019-cu ilin aprelində Xorvatiyanın Baş Nazir müavini, Xarici və Avropa İşləri üzrə nazir qismində ölkəmizə səfərini və səfər çərçivəsində görüşlərini qeyd etdi.*

*Dövlət başçısı özünün Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi, vaxtilə AŞPA-dakı fəaliyyətini xatırlatdı. Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının konstruktiv dialoq əsasında inkişaf etməsinin vacibliyi bildirərək, Avropa Şurasına üzvlük çərçivəsində ölkəmizin qanunvericilik bazasının müasirləşdirilməsi istiqamətində ardıcıl addımların atıldığını diqqətə çatdırdı.*

*Ölkəmizə səfər etməkdən məmnunluğunu bildirən Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şu-*

*rasında üzvlüyünün yüksək dəyərləndirildiyini, üzvlük prosesi çərçivəsində ölkəmizin Avropa Şurasının çox sayda konvensiya və müvafiq sənədlərinə qoşulduğunu və bu əsnada işin aparıldığını bildirdi. Söhbət zamanı Azərbaycanla Avropa Şurası arasında 2022–2025-ci illəri əhatə edən Fəaliyyət Proqramının qəbul olunacağı məmnunluqla qeyd edildi və bu proqramda bir sıra sahələrdə əməkdaşlığın nəzərdə tutulduğu vurğulandı.*

*Prezident İlham Əliyev regionda yaranmış yeni vəziyyət, Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması üçün irəli sürdüyü təkliflər, həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud vəziyyət barədə Avropa Şurasının baş katibinə məlumat verdi.*

*Dövlət başçısı Birinci Qarabağ müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşdüyünü qeyd etdi və onların taleyinin müəyyənləşdirilməsi üçün Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri haqqında məlumatın verilməsinin vacibliyini vurğuladı. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın mina problemindən ciddi şəkildə əziyyət çəkdiyini, 2020-ci il 10 noyabr Bəyanatından bəri 200-dən çox insanın minaların partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib. Ancaq buna baxmayaraq, müharibə dövründə Ermənistan tərəfindən çox sayda hərbi cinayətlərin törədildiyini bildirən dövlət başçısı hərbi əməliyyatlar zamanı Ermənistanın şə-*

*hərlərimizi raketlərlə atəşə tutması, nəticədə aralarında uşaq və qadınlar da olmaqla, 100-dən çox mülki şəxsin həlak olması faktını vurğuladı.*

*Prezident İlham Əliyev Avropa Şurasının da iki ölkə arasında etimad quruculuğu prosesinə və inteqrasiya olunmuş Cənubi Qafqaz regionunun qurulması işinə töhfə verə biləcək bir platforma rolunu oynaya biləcəyini qeyd etdi. Avropa Şurasının baş katibi Azərbaycanın bu sahədə nümayiş etdirdiyi yüksək siyasi iradənin təqdir olunduğunu bildirdi.*

*Mariya Peyçinoviç Buriç Avropa Şurasının Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması və iki ölkənin cəmiyyətləri arasında etimadın qurulması prosesində platforma rolunu oynamağa hazır olduğunu qeyd etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## İTKİN DÜŞMÜŞ ŞƏXSLƏR ÜZRƏ BEYNƏLXALQ KOMİSSİYANIN BAŞ DİREKTORU XANIM KATRİN BOMBERGER İLƏ GÖRÜŞ

*4 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul etmişdir.*

*Dövlət başçısı Birinci Qarabağ müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan humanitar xarakter daşıyan bu məsələ ilə bağlı dəfələrlə Ermənistan tərəfinə müraciət etsə də, Ermənistan tərəfindən konstruktiv əməkdaşlıq və xoş niyyət nümayiş olunmayıb.*

*Dövlət başçısı bu yaxınlarda Xocavəndin Edilli kəndində belə bir kütləvi məzarlığın müəyyən olunduğunu, qazıntı işləri apararaq, orada basdırılmış şəxslərin qalıqlarının aşkara çıxarıldığını və bu qalıqların DNT analiz təyinatlı laborator müayinələrə təqdim edildiyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev itkin düşmüş şəxslər məsələsinin daim dövlətimizin gündəliyində olduğunu, bunun Avropa İttifaqı və digər beynəlxalq təsisatlarla da müzakirə edildiyini vurğuladı.*

*Azərbaycanın bu sahədə texniki imkanlarının genişləndirildiyini qeyd edən dövlət başçısı ölkəmizdə yeni modul laboratoriyaların qurulduğunu, xüsusi dron uçuş aparatlarının və digər ləvazimatların alındığını, cəlb olunmuş mütəxəssislərin peşə qabiliyyətlərinin artırıldığını, İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın təcrübəsinin və imkanlarının ölkəmiz üçün çox vacib olduğunu qeyd etdi və bu Komissiyanın dünyanın müxtəlif ölkələrində uğurlu fəaliyyət göstərdiyini diqqətə çatdırdı.*

*Katrin Bomberger itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsində Azərbaycanla yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. O, qeyd etdi ki, təşkilat dünyanın müxtəlif ölkələrində, o cümlədən Qərbi Balkanlarda genişmiqyaslı fəaliyyət göstərib və itkin düşmüş hesab olunan minlərlə insanın taleyini müəyyən edərək, onların ailəsinə məlumat verilməsində öz rolunu oynayıbdır.*

*DNT analiz nümunələrinin toplanılması və laborator analizlər vasitəsilə insanların şəxsiyyətinin müəyyən edilməsinin vacibliyini bildirən Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumat bazasının yaradılması, kütləvi məzarlıqlarda birgə qazıntıların aparılması, yerli mütəxəssislərin peşəkarlıqlarının artırılması kimi işlərə öz töhfəsini verməyə hazır olduğunu söylədi. O, əlavə etdi ki, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi etimadın yara-*

*dılması və davamlı sülhün təmin edilməsi baxımından vacibdir.*

*İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru səfər çərçivəsində bir sıra görüşlər keçirəcəyini və Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə əməkdaşlığa dair niyyət protokolunun imzalanacağını və praktiki işə başlayacaqlarını diqqətə çatdırdı.*

## İSRAİL–AZƏRBAYCAN HÖKUMƏTLƏR-ARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ, İSRAİLİN TURİZM NAZİRİ YOEL RAZVOZOV İLƏ GÖRÜŞ

*5 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də İsrail–Azərbaycan hökumətlər-arası birgə Komissiyasının həmsədri, İsrailin Turizm naziri Yoel Razvozovu qəbul etmişdir.*

*Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək, İsraildə Azərbaycanın ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğuladı. Prezident İlham Əliyev həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirdi. İqtisadi sferada əlaqələrə toxunan dövlət başçısı energetika sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd etdi, Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu söylədi. Prezident İlham Əliyev Azərbaycanda bərpa olunan enerjiyə artıq fəal şəkildə sərmayə qoyulduğunu bildirərək, İsrail şirkətlərinin də ölkəmizdə bu sahəyə maraq göstərdiyini qeyd etdi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı potensialın olduğunu vurğuladı.*

*Dövlət başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidən qurulma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə etdi.*

*Dövlət başçısı hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev əlaqələrimizin inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diasporalarımızın rolundan danışdı, xalqlarımızın nümayəndələrinin əsrlərboyu birgə dostluq şəraitində yaşadıqlarını vurğuladı, yəhudi icması üzvlərinin Birinci və İkinci Qarabağ müharibələrində iştirak etmələrinin və şücaət göstərmələrinin ölkəmizdə ehtiramla qeyd olunduğunu bildirdi.*

*İsrail–Azərbaycan hökumətlərarası birgə Komissiyasının həmsədri, İsrailin Turizm naziri Yoel Razvozov ilk növbədə, Ramazan ayının başlanması münasibətilə dövlət başçısına təbriklərini çatdırdı. Qonaq Azərbaycanın gözəl bir ölkə olduğunu vurğulayaraq, uzun illər xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma əlaqələrinin mövcud olduğunu məmnunluqla bildirdi. O, yəhudi icmasının ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini qeyd etdi və bu baxımdan Azərbaycanın nümunəvi ölkə olduğunu vurğuladı.*

*«İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Biz ölkənizin ərazi bütövlüyünün bərpa olunmasını alqışlayırıq. Bu çox önəmlidir» – deyən qonaq Ermənistanla Azərbaycan arasında danışıqların uğurlu olacağına və bunun da regionda sabitliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.*

*Yoel Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, «ağıllı şəhər», energetika, su təchizatı və digər sahələrdə iştirak etməkdə də maraqlı olduqlarını diqqətə çatdırdı.*

*Azərbaycanın biznes üçün çox yaxşı imicə malik olduğunu vurğulayan İsrailin Turizm naziri ölkəmizdə biznes fəaliyyəti üçün təhlükəsiz və təminatlı şəraitin mövcudluğunun İsrail şirkətləri üçün cəlbedici olduğunu qeyd etdi.*

*Yoel Razvozov bu il Azərbaycanla İsrail arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin də qeyd olunduğunu vurğuladı.*

**SERBİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR VUÇİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Serbiya əlaqələri uğurla inkişaf etməkdədir. İnanıram ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətlərinin daha da genişlənməsi, strateji tərəfdaşlığımızın və qarşılıqlı faydalı əməkdaşlığımızın möhkəmlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Serbiya xalqının rifahı naminə ali fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 aprel 2022-ci il*

**MACARISTANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR ORBANA**

Hörmətli cənab Baş Nazir!

Ölkənizdə keçirilmiş parlament seçkilərində başçılıq etdiyiniz koalisiyanın yenidən qələbə qazanması münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Biz Azərbaycan–Macarıstan əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Dövlətlərarası münasibətlərimizin və əməkdaşlığımızın bugünkü səviyyəsi məmnunluq doğurur.

İnanıram ki, ölkələrimiz arasındakı sıx dostluq və səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək, strateji tərəfdaşlığımız daha da genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Macarıstan xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 aprel 2022-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN İLƏ TELEFONLA GÖRÜŞ

*5 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə aprelin 5-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinken telefonla zəng etmişdir.*

*Telefon danışığı əsnasında Entoni Blinken aprelin 6-da Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirdi.*

*Prezident İlham Əliyev regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlara başlanılması, nəqliyyat bağlantıları və kommunikasiyaların qurulması üçün Azərbaycanın irəli sürdüyü təklifləri və mövqeyini qeyd etdi.*

*Dövlət başçısı humanitar məsələlərə toxunaraq, Birinci Qarabağ müharibəsindən itkin düşmüş hesab olunan 3890 nəfər azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin və kütləvi məzarlıqların yerləri barədə məlumat verilməsinin vacibliyini diqqətə çatdırdı.*

*Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparıldı.*

## BELÇİKA KRALLIĞININ PAYTAXTI BRÜSSELƏ İŞGÜZAR SƏFƏR

*6 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlmişdir.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Brüssel*

*6 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilmişdir.*

*Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Prezident İlham Əliyevi qarşıladı.*

*Görüşdə dövlət başçımız Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirdi və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Brüssel sülh gündəliyinin davamı olaraq, Ermənistan tərəfinin iştirakı ilə bu gün keçiriləcək üçtərəfli formatda görüşün nəticə yönümlü olacağına ümidvarlığını ifadə etdi.*

*Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd etdi. O, Azərbayca-*

*nın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirdi.*

*Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli gündəliyə dair məsələlər müzakirə edildi və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə dinamik şəkildə inkişaf etdiyi qeyd olundu.*

*Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional təhlükəsizliyə dair fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL VƏ ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYAN İLƏ İŞÇİ NAHAR FORMATINDA GÖRÜŞ

*Brüssel*

*7 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formatında görüşü olmuşdur.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*7 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Telefon danışığı əsnasında aprelin 6-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında Brüsseldə keçirilmiş üçtərəfli görüş haqda söhbət aparıldı.*

*Prezident İlham Əliyev görüşün nəticələrini müsbət qiymətləndirdiyini bildirdi.*

*Dövlət başçısı Azərbaycanın təqdim etdiyi baza prinsipləri, o cümlədən ərazi bütövlüyünün qarşılıqlı tanınması və ərazi iddialarından imtina edilməsi daxil olmaq şərti ilə sülh müqaviləsinin hazırlanması üzrə Ermənistan və Azərbaycan arasında İşçi qrupunun yaradılması, həmçinin sərhədlərin delimitasiyası üzrə Komissiyanın təsis edilməsi barədə əldə olunmuş qərarları qeyd etdi.*

*Prezident Rəcəb Tayyib Ərdoğan da öz növbəsində əldə olunmuş nəticələrdən məmnunluğunu ifadə etdi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasının, nəqliyyat-kommunikasiya xətlərinin qurulmasının regionda davamlı sülhün və sabitliyin təmin olunmasına, region ölkələrin inkişafı və firavanlığına xidmət edəcəyi vurğulandı.*

*Dövlət başçıları, həmçinin Azərbaycan və Türkiyə arasında ikitərəfli müttəfiqlik əlaqələrinin müxtəlif aspektlərinə dair fikir mübadiləsi apardılar.*

## MACARISTANDA KEÇİRİLMİŞ GÜLƏŞ ÜZRƏ AVROPA ÇEMPİONATINDA İŞTİRAK EDƏN AZƏRBAYCAN MİLLİSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*8 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Macarıstanda keçirilmiş güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul etmişdir.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Salaməleyküm, əyləşin!

Bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmiş, böyük qələbə ilə Vətənə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırdılar. Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və Yunan-Roma güləşi üzrə komandalarımız. Beləliklə, həm sərbəst güləş, həm də Yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Avropada istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər. Azərbaycan güləşçiləri-

miz bizim güləşimizi təbliğ ediblər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır. Bir müddət bundan əvvəl elə bu otaqda gənc güləşçilərlə görüş zamanı onlara bildirmişdim: yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Mən onları da gənclər arasında Avropa çempionatında 1-ci yerlə bağlı ürəkdən təbrik edərkən demişdim ki, onlar gələcəkdə də bizi sevindirməlidirlər, böyüklər arasındakı yarışlarda çıxış edərkən bu uğurları təkrar etməlidirlər. Həm gənclər, həm də böyüklər arasında Avropada 1-ci yeri tutmaq böyük nailiyyətimizdir və bu onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır, güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti, həm də bütövlükdə ölkəmizin nüfuzu artır.

Əminəm ki, böyüklər arasında keçirilmiş çempionatda bizim idmançılarımız da eyni fikirlə, eyni duyğu ilə yarışlara çıxırdılar və bu yüksək məsuliyyəti dərk edirdilər. Çünki doğrudan da cəmi 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürur, həm də böyük məsuliyyətdir. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı.

Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər əsasında tərbiyə almalıdır və

Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri tarixi-hərbi Zəfərimiz və eyni zamanda, idman uğurlarımızdır. Əminəm ki, Azərbaycan vətəndaşları – həm idmansevərlər, həm də idmanla o qədər də maraqlanmayan vətəndaşlar həmişə idman arenalarında əldə edilmiş qələbələrin xəbəri gələndə sevinirlər. Hamımız sevinirik, çünki siz buna nail olmusunuz. Bu sizin həyatınızda çox əlamətdar və unudulmaz hadisədir. Bu titul – Avropa çempionu, yaxud da ki, gümüş, bürünc mükafatçısı əbədi sizinlə olacaqdır. Həm də biz hamımız sevinirik ki, gənc nəsil yetişir, gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində – idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir. Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır.

Güləş hər birimiz üçün çox əziz idman növüdür, yəqin ki, Azərbaycanda ən populyar, ən məşhur idman növüdür. Ona görə həm məşqçilər, həm idman federasiyasının nümayəndələri, Gənclər və İdman Nazirliyi bu amili nəzərə alaraq, güləşə xüsusi diqqət yetirməlidirlər. Əminəm ki, gələcək yarışlarda biz, əlbəttə, birinci sıralarda olacağıq. Gələcək yarışlara gəldikdə isə iki ildən sonra Yay Olimpiya oyunları keçiriləcək. Vaxt az qalıb və hesab edirəm ki, nəinki güləş, eyni zamanda, bütün idman növlərində li-

senziya qazanacaq idmançılar bu əsas yarışa indidən hazırlaşmalıdırlar, düzgün təlim-məşq toplanışları, yarışlar müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq və Yay Olimpiya oyunlarında da biz bir daha ölkəmizin gücünü, idman gücünü göstərəcəyik. Çünki Yay Olimpiya oyunları bütün idman yarışları arasında xüsusi yer tutur, fərqlənir. Hesab edirəm ki, bütövlükdə növbəti Olimpiya oyunlarında Azərbaycan çox uğurla çıxış edə bilər. İndidən bir şey deyə bilmərəm, çünki hələ iki il vaxt var, amma gərək bütün səylərimiz məhz bu məqsədə çatmaq üçün hesablansın. Bir məsələ də var ki, artıq biz bu qələbələrə öyrəşirik və necə deyərlər, bu yüksək nəticələri saxlamaq çətin olacaq, idmanda hər şey ola bilər – məğlubiyyət də, qələbə də. Ancaq əminəm, gələcək yarışlarda əsas odur ki, nəticələrə baxmayaraq idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etsinlər, necə ki, bu günə qədər ləyaqətlə təmsil ediblər. Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına nəzər yetirirdim, görürdüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilirdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə – dinc insanlara qarşı terror əməllərinə əl atmışdı. Bizim dinc şəhərlərimiz gecə vaxtı ballistik raketlərlə atəşə tutulmuş, 100-dən çox dinc insan, onların arasında uşaq, qadın, yaşlı insan bu namərd atəş nəticəsində həlak olmuşdu. Amma mən o vaxt demişdim, hələ

müharibə gedə-gedə demişdim ki, biz ermənilərin əməllərini heç vaxt təkrar etməyəcəyik. Biz düşmənə döyüş meydanında cavab verəcəyik. Elə cavab verəcəyik ki, onlar əbədi bu dərsi yadda saxlasınlar. Mən keçirilmiş Avropa çempionatında da eyni xasiyyəti gördüm, Azərbaycan xalqına xas olan xasiyyəti. Ədalət, eyni zamanda, mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir. Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik. Bunu görərkən mən bir daha əmin oldum ki, Azərbaycan xalqının gələcəyi bundan sonra da çox parlaq olacaq, istənilən idman növündə. Misal üçün, biz bunu futbol yarışlarında da gördük. Bizim məşhur məşqçimiz Qurban Qurbanov çox ləyaqətli hərəkət etdi və qol sayıla biləcək vəziyyətdə dedi ki, yox, bu bizə lazım deyil, bizə saxta nailiyyət lazım deyil, qazanılmamış uğur lazım deyil. Nəyi qazanmışıqsa, öz əməyimizlə qazanmışıq. O cümlədən Qarabağ məsələsini də öz əməyimizlə, gücümüzlə, zəkamızla həll etmişik. İdman yarışlarında, yəni «feyr-pley» anlayışı unudulmamalıdır və Azərbaycan idmançıları bu prinsiplərə həmişə əməl etməlidir. Çünki bu, qələbədən də vacibdir. Qələbə hər bir idmançı üçün çox önəmlidir, onun həyatında, necə deyərlər, böyük iz buraxır. Ancaq qələbədən daha vacib ləyaqətdir və biz müharibəni ləyaqətlə aparmışıq. Bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır. İdmanda da elə olmalıdır  və elədir. Bu halal qələbəni siz öz iste-

dadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda, bir daha xalqımızın böyüklüyünü göstərmisiniz. Həm qələbə münasibətilə, həm ləyaqətli davranış münasibətilə sizi təbrik edirəm. Əlbəttə ki, biz hamımız, bütün Azərbaycan xalqı sizdən yeni qələbələr gözləyir. Sağ olun.

* * *

**Namiq Abdullayev** (*sərbəst güləş üzrə Azərbaycan milli komandasının baş məşqçisi*): Hörmətli Prezident, əvvəlcə bizi növbəti dəfə dəvət etdiyiniz və bizimlə yenidən görüşdüyünüz üçün Sizə həm Azərbaycan Güləş Federasiyası, həm məşqçilər və idmançılar, həm də bütün güləş ailəsi adından dərin təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, güləş üzrə milli komandalarımız son bir ayda iki Avropa çempionatında ölkəmizi uğurla təmsil ediblər. Bolqarıstanda keçirilmiş 23 yaşadək güləşçilərin Avropa çempionatının ardınca Macarıstanda keçirilmiş böyüklərin Avropa çempionatında da yüksək nəticələr qazanılıb. Komandalarımız ümumilikdə 3 qızıl, 6 gümüş və 7 bürünc medal qazanıblar. Həm sərbəst, həm də Yunan-Roma güləşi üzrə milli komandalarımız komanda hesabında Avropa çempionu olublar. İki komandamızın eyni vaxtda Avropa çempionu olması güləş tariximizdə yeni rekorddur. 23 yaşadək güləşçilərin Avropa çempionatından sonra bizi qəbul etməyiniz güləşçilərimiz üçün böyük stimul oldu. Bunun da nəticəsi olaraq, böyüklərin Avropa çempionatında yüksək nəticə qazana bildik. Qarşıda bizi mötəbər yarışlar gözləyir. Bu il İslam Həmrəyliyi oyunlarında,

dünya çempionatında və dünya kubokunda ölkəmizi uğurla təmsil etmək üçün əlimizdən gələni edəcəyik.

Möhtərəm Prezident, bizi qəbul edib daim bizə diqqət və qayğı göstərdiyiniz üçün Sizə bütün güləş ailəsi adından bir daha təşəkkürümü bildirirəm. Diqqətinizə görə sağ olun.

**H a c ı Ə l i y e v** (*sərbəst güləş üzrə üçqat dünya çempionu, ikiqat olimpiya mükafatçısı*): Cənab Prezident, mən də həm öz adımdan, həm də sərbəst güləş yığma komandasının adından bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Bildiyiniz kimi, Macarıstanda keçirilmiş Avropa çempionatında sərbəst güləşçilərimiz uğurlu nəticələr əldə ediblər. Ümumilikdə 7 medal qazandıq, bunlardan 1-i qızıl, 4-ü gümüş, 2-si isə bürünc medal oldu və biz medal sayına görə komanda hesabında 1-ci olduq. Sözsüz ki, bu uğurlarımız, bu qələbələrimiz Sizin idmana diqqət və qayğınızın nəticəsidir ki, bu gün belə gözəl nailiyyətlər qazanmışıq. Eyni zamanda, biz Güləş Federasiyasının da diqqət və qayğısını hər zaman hiss etmişik və çalışacağıq ki, hər zaman gözəl nəticələr əldə edək.

Cənab Prezident, mənim əsas hədəflərimdən biri Parisdə keçiriləcək Olimpiya oyunlarında iştirak etmək, qızıl medal qazanmaqdır. Siz bilirsiniz ki, mən iki dəfə Olimpiya oyunlarında medal qazanmışam – bir gümüş, bir bürünc. Artıq mənə elə gəlir ki, qızıl medal qazanmağın vaxtıdır. Mən inanıram ki, Parisdə keçiriləcək Olimpiya oyunlarında bizim gənc güləşçilərimiz də, burada olan güləşçilərimiz də yaxşı nəticələr qazanacaqlar, inşallah medallarımızın sayını daha da çoxaldacaqlar. Sizə gələcək iş-

lərinizdə uğurlar arzu edirəm, Allahdan Sizə uzun ömür, cansağlığı arzulayıram. Diqqətinizə görə çox sağ olun.

**İlham Əliyev:** Sağ ol, Hacı, əyləş. Mən hesab edirəm ki, sən artıq Olimpiya oyunlarının qızıl medalını qazanmısan. Çünki sən üçqat dünya çempionusan və dünya çempionatı da Olimpiya oyunları ilə eyni səviyyəli yarışdır. Bəlkə də Olimpiya oyunları daha həyəcanlı bir yarışdır, çünki 4 ildən bir keçirilir və bütün dünya ictimaiyyətinin diqqəti oradadır. Amma təmsilçilik və rəqabət baxımından dünya çempionatları ondan geri qalmır. Sənin dünya çempionu kimi 3 qızıl medalın vardır. İndi təvazökar insan kimi, bir medal taxmısan, amma sənin medalların nə qədərdir, bəlkə özün də sayını itirmisən. Yadındadır nə qədər medalın var sənin?

**Hacı Əliyev:** Çoxdur.

**İlham Əliyev:** 3 dünya çempionu medalı, ondan sonra Olimpiya, 3 dəfə Avropa çempionu. Sən bütün medalları taxsan sinəndə yer qalmaz. Biz hər bir idmançıdan qələbə gözləyirik. Amma əsas odur ki, yarışda iştirak edəcəksən. Mən bilirəm ki, sən gələcək fəaliyyətinlə bağlı son Olimpiya oyunlarında bir az tərəddüd edirdin. Amma yaxşı ki, qalmısan idmanda. Sən lazımsan həm idmana, həm gənclərə və doğrudan da gənclər üçün, gənc idmançılar üçün bir nümunəsən. Çünki üçqat dünya çempionu olmaq çox böyük tarixi nailiyyətdir. Səni bir daha təbrik edirəm.

**Eldəniz Əzizli** (*Yunan-Roma güləşi üzrə ikiqat Avropa və dünya çempionu*): Möhtərəm Prezi-

dent, mən də Yunan-Roma güləşi milli komandası adından bizim qazandığımız qələbələri yüksək qiymətləndirdiyiniz üçün Sizə öz minnətdarlığımı bildirirəm. Bildiyiniz kimi, Budapeştdə keçirilmiş Avropa çempionatında yarışa qatılmış 10 idmançımızdan 8-i medalla Vətənə qayıtdı. Onlardan 2 qızıl, 1 gümüş və 5 bürünc medalla ümumilikdə 165 xal toplayaraq, Yunan-Roma güləşi tarixində yeni bir rekorda imza atdıq. İlk dəfə idi ki, Yunan-Roma güləşi millimiz komanda hesabında Avropa çempionu oldu. Həqiqətən də bu yarış bizim üçün rekordlarla əlamətdar oldu.

Cənab Prezident, Sizin idmana və idmançılara göstərdiyiniz diqqət və qayğı bizi həvəsləndirir, gələcək yarışlara daha da ruhlandırır. Bildiyiniz kimi, noyabrın 5–6-da Bakıda Yunan-Roma güləşi üzrə dünya kuboku keçiriləcək. Biz ilk dəfə 2015-ci ildə İran İslam Respublikasının Tehran şəhərində dünya kubokunun sahibi olmuşduq. Artıq son qələbəmizdən 7 il keçir. Düşünürəm ki, inşallah, biz idmançılar əlimizdən gələni edəcəyik ki, 7 ildən sonra qazandığımız parlaq qələbəni Bakıda təkrarlayaq və var gücümüzlə çalışacağıq ki, kubok Bakıda qalsın, qırağa getməsin. Bizi qəbul etdiyiniz üçün bir daha Sizə öz minnətdarlığımızı bildiririk. Diqqətiniz üçün sağ olun.

**İlham Əliyev:** Çox sağ ol. Eldəniz də bizim görkəmli idmançılarımızdandır, ikiqat dünya çempionu, Avropa çempionudur. Əminəm ki, gələcəkdə də bizi sevindirəcəkdir.

**Aleksandr Tarakanov** (*Yunan-Roma güləşi üzrə Azərbaycan milli komandasının baş məşqçi-*

*si*): Hörmətli Prezident, mənim işimi yüksək qiymətləndirdiyinizə və məni «Tərəqqi» medalı ilə təltif etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. İlham Heydər oğlu, bu medalda Sizin qəlbinizin bir hissəsi də vardır. Siz idman üçün, gənclər üçün nə lazımdırsa edirsiniz ki, biz çalışaq, cəhd göstərək, qalib gələk və ölkəmizi şöhrətləndirək. Sağ olun. Sizə möhkəm cansağlığı arzu edirəm.

**İlham Əliyev:** Çox sağ olun. Medalınız mübarəkdir. Siz onu öz işinizlə, bizim hamımızı sevindirən nəticələrlə qazanmısınız. Hamınıza yeni qələbələr, yeni uğurlar arzu edirəm. Sağ olun.

# RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*9 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.*

*Söhbət əsnasında Ermənistan və Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşdırılması məsələlərinə və aprelin 6-da Brüsseldə keçirilmiş görüşə dair fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Azərbaycanın Ermənistanla dövlətlərarası münasibətlərin qurulması üçün 5 prinsipdən ibarət təqdim etdiyi sənədi və Ermənistan tərəfinin bu prinsipləri qəbul etdiyini xatırlatdı.*

*Telefon danışığı zamanı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə İşçi qrupunun yaradılması, sərhədlərin delimitasiyası üzrə Komissiyanın təsis edilməsi, həmçinin nəqliyyat məsələləri üzrə Azərbaycan, Rusiya və Ermənistanın iştirak etdiyi İşçi qrupunun fəaliyyəti və bu çərçivədə növbəti təmaslar barədə söhbət aparıldı.*

*Tərəflər ikitərəfli münasibətlərin cari gündəliyi üzrə sıx əməkdaşlığın davam etdirilməsi üçün qarşılıqlı niyyəti bir daha ifadə etdilər.*

## DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN TABELİYİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*11 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışı mərasimində iştirak etmişdir.*

*Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət – din münasibətləri yüksək səviyyədədir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmləndirilməsi üçün böyük işlər görülüb və görülür. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən bu gün yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir.*

*Prezident İlham Əliyev yeni binada yaradılmış şəraitlə tanış oldu.*

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlət başçısına məlumat verərək bildirdi ki, İnstitutda İlahiyyat fakültəsi, Dinşünas-*

*lıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. İnstitutda bakalavriat səviyyəsi üzrə «Dinşünaslıq» və «İslamşünaslıq» ixtisasları, magistratura səviyyəsi üzrə («Dinşünaslıq» ixtisası üzrə) «Dinin sosiologiyası», «Dinin psixologiyası», «Dinlərin tarixi» və «İslamşünaslıq» ixtisaslaşmaları, doktorantura səviyyəsi üzrə isə (fəlsəfə doktoru üzrə) «Dinşünaslıq», «Dinin tarixi və fəlsəfəsi» ixtisasları tədris olunur. Hər üç səviyyədə təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.*

*Bakının Yasamal rayonunda inşa olunmuş beşmərtəbəli binada inzibati və sinif otaqları, kitabxana, kişilər və qadınlar üçün ayrı-ayrılıqda namaz otaqları, həmçinin dəstəmaz və mətbəə otaqları yaradılıbdır.*

*Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər.*

# AZƏRBAYCAN PREZİDENTİNİN SƏDRLİYİ İLƏ CARİ İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏ

*12 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprelin 12-də cari ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir.*

*Dövlət başçısı müşavirədə giriş nitqi söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

İlin üç ayı arxada qaldı. Bu gün biz görülmüş işləri təhlil edəcəyik, eyni zamanda, ilin sonuna qədər olan planlar haqqında danışacağıq.

Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik.

Keçən il ölkəmizin həyatında çox əlamətdar bir il oldu. Müharibədən sonra birinci il. Əlbəttə, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti oldu. Bizim əsas məqsədimiz keçən il həm azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək, həm də beynəlxalq müstəvidə yeni reallıqları qəbul etdirmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır. Postmünaqişə dövrünün birinci ilinin nə-

ticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilibdir. Biz ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirdik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etdilər. İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirildi – Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu çox əlamətdar hadisə idi. Bu bir daha göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur. Əlbəttə, biz BMT-yə üzv olandan sonra işğalla üzləşdiyimiz dövrdə gördük ki, BMT, onun Təhlükəsizlik Şurası ədalətli qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, bu qərarlar 30 ilə yaxın bir müddətdə kağız üzərində qalmışdı. Ancaq Qarabağ münaqişəsinin Azərbaycan tərəfindən birtərəfli həlli eyni zamanda, BMT-nin üzərindən bu yükü götürmüş oldu. Şuşa şəhərində bu tədbirin, bir daha demək istəyirəm ki, xüsusi əhəmiyyəti var idi və təsadüfi deyil ki, Ermənistanda bu, növbəti panikaya, isterikaya səbəb olmuşdur.

Digər aparıcı beynəlxalq təşkilatlardakı fəaliyyətimiz də uğurlu idi. BMT-dən sonra ən böyük beynəlxalq təsisat «Qoşulmama Hərəkatı»dır. «Qoşulmama Hərəkatı»na hazırda Azərbaycan sədrlik edir və bildiyiniz kimi, bütün üzv dövlətlərin razılığı və dəstəyi ilə bizim sədrliyimiz daha bir il uzadıldı. Bu bizə göstərilmiş böyük etimadın təzahürüdür. Azərbaycan bu hərəkata üzv olandan dərhal sonra «Qoşulmama Hərəkatı» keçmiş münaqişə ilə bağlı ədalətli mövqe nümayiş etdirib və hesab edirəm ki, müharibədən sonra bu istiqamətdə əlavə önəmli hadisələr

baş veribdir. Birmənalı şəkildə «Qoşulmama Hərəkatı» həm müharibədən əvvəl, işğal dövründə, həm müharibə dövründə, həm də müharibədən sonra Azərbaycanla həmrəy olubdur. Digər böyük beynəlxalq təşkilat İslam Əməkdaşlıq Təşkilatıdır. İslam Əməkdaşlıq Təşkilatı işğal dövründə dəfələrlə ədalətli, bizim mövqemizi əks etdirən qərar və qətnamələr qəbul edib. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər nazirləri səviyyəsindəki toplantıda bir daha bir neçə qətnamə – Azərbaycanın mövqeyini dəstəkləyən, o cümlədən Azərbaycanın tarixi dini abidələrinin ermənilər tərəfindən dağıdılmasına dair önəmli qərar və qətnamələr qəbul edib və təşkilatın rəhbərliyi azad edilmiş torpaqlara səfərlər edibdir.

Minsk qrupuna mandat vermiş ATƏT də yeni reallıqları tam qəbul edib. Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşüm oldu və bu görüş bir daha göstərdi ki, ATƏT də yeni reallıqları qəbul edir. Bu da çox əlamətdar hadisədir. ATƏT-in Minsk qrupuna gəldikdə, müharibədən dərhal sonra Minsk qrupunun həmsədrləri Bakıya gəlmişdilər. Bu onların Azərbaycana müharibədən sonra birinci və sonuncu səfəri idi və o görüşlə bağlı mətbuatda kifayət qədər məlumat var, təkrar etmək istəmirəm. Bizim mövqemiz həmişə birmənalı olub. Biz müzakirə zamanı nəyi demişiksə, rəsmi açıqlamalarda da eyni tezisləri, eyni fikirləri səsləndirmişik. Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələrin nümayəndələri bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmiş-

lər. Nəticə də göz qabağındadır – sıfır. Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Azərbaycan bu münaqişəni özü həll etdi. Hərbi-siyasi yollarla həll etdi. Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat faktiki olaraq, de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər. Müharibədən keçən dövr ərzində – son Rusiya–Ukrayna müharibəsinə qədər olan dövr ərzində biz bu məsələ ilə bağlı öz fikirlərimizi bildirmişdik. Bizim Xarici İşlər nazirimiz Minsk qrupunun həmsədrləri ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşdür və biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq. Siz nə ilə məşğul olmaq istəyirsiniz, deyin, biz də bilək və öz fikrimizi bildirək. Bir ildən çox müddətdə bu məsələ ilə bağlı bizə hər hansı bir təklif verilməmişdir. İndiki şəraitdə isə Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq, qeyri-funksional vəziyyətdədir. Bunu artıq bu həmsədr ölkələrin yüksəkvəzifəli şəxsləri bildirirlər və belə olan halda, hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz. Hesab edirəm ki, ATƏT mötəbər bir beynəlxalq təşkilat kimi öz rolunu oynaya bilər. Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşlər əsnasında bildirmişəm ki, vətəndaş cəmiyyətinin nümayəndələri, media nümayəndələri, digər ictimai rəyə təsir edə bilən şəxslər ATƏT-in fəaliyyəti çərçivəsində, yəni bu format çərçivəsində görüşlər keçirə bilərlər ki, Ermənistan–Azərbaycan əlaqələri normallaşsın. İndi gün-

dəlikdə duran məsələ budur. Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub. İndi məsələ Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasıdır və istənilən beynəlxalq təşkilat, bu sahədə öz töhfəsini verə bilən təşkilat qəbul ediləndir.

Eyni zamanda, Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter alıbdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul edib. Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında üçtərəfli görüşlər keçirilibdir. Görüşlər haqqında məlumat verilib, bu məsələ ilə əlaqədar çox danışmaq istəmirəm. Ancaq həm ekspertlər, həm Azərbaycan ictimaiyyəti gördülər ki, yekun kommünikedə «Dağlıq Qarabağ» adı yoxdur, bu da təbiidir. Çünki Azərbaycan buna etiraz edib və «münaqişə» sözü yoxdur. Bu da təbiidir, çünki münaqişə yoxdur. Münaqişə həll olunub. İndi isə Avropa İttifaqı Azərbaycan–Ermənistan əlaqələrinin normallaşdırılması ilə məşğuldur və son aprel görüşündə – 6 aprel tarixində keçirilmiş görüşdə bu məsələlər müzakirə edilibdir. Bildiyiniz kimi, Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif verib və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşıbdır. Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilibdir. Brüssel görüşündə isə mən bunu özüm üçün sadəcə olaraq, aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Əgər bu 5 prinsipi qəbul edirsə – bu,

aprel görüşündə təsdiqləndi – bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir. Razılaşdırıldı ki, həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı İşçi qrupları yaradılsın. Bildiyiniz kimi, bu günlərdə Azərbaycan və Ermənistanın Xarici İşlər nazirləri arasında hesab edirəm ki, yaxın tarixdə, bəlkə də son 30 il ərzində birinci dəfə telefon söhbəti olmuşdur. Biz bunu müsbət qiymətləndiririk. Çünki iki ölkə arasındakı münasibətləri iki ölkə həll etməlidir. Buna köməklik göstərmək istəyənlər kömək göstərməlidirlər. Mən bunu belə görürəm, bizim mövqemiz bundan ibarətdir. Hesab edirəm ki, sərhədin delimitasiyası ilə bağlı aprelin sonuna qədər formalaşdırılacaq İşçi qruplar, eyni zamanda, sülh müqaviləsinin hazırlanmasına dair İşçi qruplar tezliklə öz işinə başlamalıdır. Bu prosesə biz çox böyük ümidlərlə baxırıq və vaxt itirmək lazım deyil. Hər halda, biz bunun tərəfdarıyıq ki, vaxt itirmədən məsələnin həllinə başlayaq.

Beləliklə, bir daha demək istəyirəm ki, müharibədən dərhal sonra apardığımız siyasət, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ikitərəfli formatda böyük dövlətlərlə əlaqələrimiz, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda baş verən inkişaf və hadisələr bu reallıqlara gətirib çıxarıb. Onu da bildirməliyəm ki, biz beynəlxalq təşkilatlarla yanaşı, qonşu ölkələrlə də sıx əlaqədə idik. Bütün qonşu ölkələr yeni, postmünaqişə reallıqlarını qəbul edib və bu da çox müsbət hal kimi qiymətləndirilməlidir. Eyni zaman-

da, 3+3 əməkdaşlıq formatının işə düşməsi də bizi sevindirir. Birinci belə görüş keçirilibdir. Birinci görüşün gündəliyi yox idi. Bu, sadəcə olaraq, bu formatı yaratmaq üçün bir görüş idi. İkinci görüş üçün gündəliklə bağlı bizim planlarımız var, hansı məsələlər orada müzakirə olunmalıdır. Hesab edirəm ki, yaxın gələcəkdə ikinci görüş də keçirilməlidir. Yəni vaxt itirmək lazım deyil. Bizə bu formatlar sadəcə olaraq, görüntü naminə lazım deyildir. Bu formatlar əgər konkret nəticə verməsə, onda onun əhəmiyyəti də itəcəkdir.

Biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var, biz bilirik nə istəyirik və bundan sonra da öz məqsədlərimizə çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik. Postmünaqişə dövrü ilə bağlı əsas məsələlər bundan ibarətdir və bu işlərin böyük hissəsi 2021-ci ildə, bir hissəsi isə bu ilin üç ayında görülübdür. Əgər bütün bunlar gündəlik həyatda öz əksini taparsa, doğrudan da Cənubi Qafqazda sülh, əmin-amanlıq olar, müharibə riskləri xeyli dərəcədə azalar və beləliklə, biz rahat yaşaya bilərik. Azərbaycan xalqına xas olan yüksək xüsusiyyətləri nəzərə alaraq, qurub yarada bilərik. Bunu edirik və bu haqda da bu gün danışacağıq.

Eyni zamanda, heç vaxt bu işğalı unutmamalıyıq, erməni vəhşiliyini unutmamalıyıq. Onu da unutmamalıyıq ki, bu gün Azərbaycan güclüdür, Ermənistan isə zəifdir. Ermənistan tərəfinin davranışı da məhz bu amillərə söykənir. Biz real həyatda yaşayırıq və ötən əsrin 90-cı illərinin əvvəllərində Ermə-

nistan tərəfindən bizə qarşı aparılmış etnik təmizləmə siyasətini, Xocalı soyqırımını, işğalı heç vaxt unutmamalıyıq, azərbaycanlılar kimi, həmişə bizim yaddaşımızda qalmalıdır. Məsuliyyətli insanlar kimi, biz həmişə hər şeyə hazır olmalıyıq.

Əlbəttə, gələcəyə baxdıqda, tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. İndi hər kəsə aydındır ki, Azərbaycan və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində – baxmayaraq ki, torpaqlarımız işğal altında idi – tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşuq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdən deyirik. Ermənistan üçün bu bəlkə də son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək. İnkişaf üçün də, bir daha demək istəyirəm ki, ilk növbədə, Azərbaycan və Türkiyə ilə əlaqələr beynəlxalq hüquq norma və prinsipləri əsasında normallaşmalıdır.

Qeyd etdiyim kimi, biz heç nəyi unutmamışıq və unutmayacağıq. Ona görə müharibədən dərhal sonra bütün başqa bərpa işləri ilə bərabər, biz həmişə olduğu kimi, hərbi sahəyə də fikir verdik. Bildirməliyəm ki, müharibədən sonra Türkiyə və İsrail şirkətləri ilə yeni, böyük kontraktlar imzalanıb. Bəzi

kontraktların icrası başlanıb, bəzi kontraktların icrası başa çatıb, bəzilərinin isə icrası davam edir.

Müharibənin 44 gününün hər günü dərindən təhlil edilib və əlbəttə, bu təhlil bizə imkan verir ki, biz gələcək ordu quruculuğumuzu real vəziyyətə əsaslanaraq quraq. Bunu nəzərə alaraq, yeni silahların, texnikanın alınması da təşkil edilir. Bununla bərabər, müharibədən sonra Müdafiə Nazirliyində struktur islahatları aparılıb, struktur dəyişikliyi edilib və bu, ordumuzu daha da gücləndirəcək, daha da müasirləşdirəcəkdir. Müharibədən sonra yeni qoşun növü – Komando növü yaradılıb və Hadrutda birinci Komando hərbi bazasının açılışında mən şəxsən iştirak etmişəm. Bu çox güclü bir qoşun növüdür. Əminəm ki, hazırda bu qoşun növü istənilən vəzifəni icra edə bilər. Biz isə sadəcə olaraq, komandoların sayını ildən-ilə artıracağıq. Hesab edirəm ki, onların sayı ilə bağlı məlumat vermək yersizdir, hər kəs bilməlidir ki, minlərlə tam hazırlıqlı döyüşçü artıq hazırlanıb və hazırlanacaq. Bununla paralel olaraq, İkinci Qarabağ müharibəsində xüsusi qəhrəmanlıq göstərmiş Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin sayı artırıldı və artırılacaq. Hərbi məsələlərin həlli üçün nə qədər vəsait lazımdırsa, o qədər də vəsait ayrılacaq və ayrılır. Ermənistanda isə bu, tam fərqlidir. Ermənistanda xaricdən nə qədər maliyyə yardımı, yaxud da qaytarılmayan kreditlər ayrılarsa, onlar da o qədər xərcləyə bilərlər. Mən bu məsələyə də aydınlıq gətirmək istəyirəm. Hesab edirəm ki, bölgədə sülhün bərqərar olunması üçün Ermənistanın silahlanmasına son qoyulmalıdır. Ermənistanın özü-

nün silah almağa pulu yoxdur, heç vaxt da olmayıb. İkinci Qarabağ müharibəsində biz Ermənistanın haradasa 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv etmişik. Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Sual olunur: kasıb ölkədə bu qədər pul haradandır? Bu kreditlər haradandır? Bu kreditlərin pulu sonra qaytarılıbmı, qaytarılmayıbmı? Yoxsa silinib? Əgər o kreditlər verilməsəydi, mən tam əminəm ki, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Ermənistan özü gəlib boynunu büküb razılığa gələrdi, necə ki, kapitulyasiya aktını imzaladı, bütün şərtlərimizi qəbul etdi və müharibədən sonra da, necə deyərlər, tam başqa mövqe sərgiləyir. Ona görə əgər yenidən Ermənistanın silahlanmasına pul ayrılacaqsa, biz bunu qeyri-dost addım kimi qiymətləndirəcəyik və öz addımlarımızı buna uyğun şəkildə atacağıq.

Biz isə öz hesabımıza yaşayan ölkə kimi, bundan sonra da ordu quruculuğuna, bir daha demək istəyirəm, nə qədər pul lazımdırsa, o qədər də ayıracağıq. Postmünaqişə dövründə biz iqtisadiyyatla bağlı, ərazilərin bərpası ilə bağlı bütün addımlarımızı ölçüb-biçilmiş şəkildə atmışıq və nəticələr də göz qabağındadır. Azərbaycanda postmünaqişə dövrü ilə bağlı bütün planlar yerinə yetirilir. Qeyd etdiyim kimi, beynəlxalq ictimaiyyət həm siyasi nöqteyi-nəzərdən bu reallıqları qəbul edib, həm də bizə olan maraq daha da artıb – həm hörmət, həm maraq. Bu marağı biz böyük investisiya layihələrində görürük. Təkcə bu ilin üç ayında iki böyük investisiya

layihəsinə start verilib – bərpa olunan enerji üzrə iki elektrik stansiyasının təməli qoyulub. 470 meqavat gücündə olan stansiyalar xarici investorlar tərəfindən inşa edilir və gələn il istismara veriləcək. Beləliklə, böyük həcmdə təbii qaza qənaət edərək, öz ixrac imkanlarımızı genişləndirə bilərik. Eyni zamanda, bu, digər investorlar üçün də çox önəmli bir məsələdir. Hazırda həm aparılan islahatlar, həm şəffaflıq, həm kadr islahatları nəticəsində, eyni zamanda, İkinci Qarabağ müharibəsindəki Qələbəmiz nəticəsində Azərbaycana çox böyük maraq vardır. İş görmək, biznes əlaqələri qurmaq müraciətləri kifayət qədər çoxdur. Bu gün dünya miqyasında Azərbaycan nadir ölkələrdəndir ki, bu qədər marağı özünə cəlb edə bilib.

Bizim iqtisadi göstəricilərimiz də çox müsbətdir. Birinci rübün yekunları, bu rəqəmlər faktiki olaraq, heç bir şərhə ehtiyac qoymur. Ümumi daxili məhsul 6,8 faiz artıb. Hazırda dünya, əgər belə demək mümkündürsə, postpandemiya dövrünə qədəm qoyur, bəlkə də «postpandemiya» sözünü işlətmək bir qədər tezdir. Amma hər halda, dünyadakı və Azərbaycandakı indiki vəziyyət buna işarə verir. Ona görə 6,8 faiz artan iqtisadiyyatımız hesab edirəm ki, böyük nailiyyət sayıla bilər. Qeyri-neft sektorunda isə bu daha da yüksək rəqəmlərlə ölçülür. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir, ancaq qeyri-neft sənaye istehsalında 18 faizdən çoxdur. Bu rəqəmlər özlüyündə dediyim sözlərin təsdiqidir. Çünki iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektorundan asılılığın azaldılması, həm ümumi daxi-

li məhsuldakı payının, həm ixracdakı payının aşağı düşməsi – bütün bunlar reallıqlardır.

Xarici ticarət dövriyyəmiz 60 faizdən çox artıb. İxracımız təxminən iki dəfə artıb. Əlbəttə, burada neftin artan qiymətləri də nəzərə alınmalıdır. Ancaq qeyri-neft ixracımız da kifayət qədər artıb – 45 faiz. Bu da məhz aparılan islahatlar nəticəsində baş vermiş hadisədir. Mən başqa ölkələrlə Azərbaycanı heç vaxt müqayisə etməmişəm. Amma inanmıram ki, bir çox ölkələrdə buna oxşar statistika olsun. Əlbəttə, xarici ticarət dövriyyəmiz artıb və xarici dövlət borcumuz azalıb. Əgər keçən ilin aprel ayı ilə müqayisə etsək, görərik ki, keçən ilin aprelində xarici dövlət borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edirdi, hazırda cəmi 12,5 faizini təşkil edir. Yəni biz bir il ərzində xarici borcu təqribən 600 milyon dollardan çox bir səviyyədə aşağı sala bilmişik. Bu da xarici borcun idarə edilməsi strategiyasının icrası nəticəsində mümkün olubdur. Mən vaxtilə qarşıya vəzifə qoymuşdum ki, biz kreditlərin alınmasına çox böyük ehtiyatla yanaşmalıyıq. Bəzi dövlət şirkətləri vaxtilə heç kimdən soruşmadan özbaşına müxtəlif kreditlər götürürdülər. Sonra da bu kreditləri qaytara bilməyəndə ödənişlər dövlətin üzərinə düşürdü. Eyni zamanda, çox qeyri-şəffaf mənzərə müşahidə olunurdu. Bunlara son qoyuldu. İndi heç bir dövlət qurumu hökumətin icazəsi olmadan bir manat belə, kredit götürə bilməz. Hər götürülən kredit hökumət tərəfindən təsdiqlənir. Kreditləri biz ancaq vacib olan layihələrə cəlb etməliyik – yüksək texnoloji komponenti olan layihələrə və azad edilmiş

torpaqlarda həyata keçirilən layihələrə. Digər layihələrə kreditlərin verilməsinə ehtiyac yoxdur. Məhz buna görə biz xarici dövlət borcumuzu həm mütləq rəqəmlərlə, həm ümumi daxili məhsula nisbətdə azaltmışıq. Təbii ki, ümumi daxili məhsul da artıb və hələ ki, mən rəqəm səsləndirmək istəmirəm. Amma hesab edirəm ki, əgər biz bu templərlə inkişafı davam etdirsək, ilin sonuna qədər çox əhəmiyyətli bir artım olacaqdır. Xarici ticarətin balansı da çox müsbətdir, müsbət saldo cəmi üç ayda 5 milyard dollardan çoxdur. Yəni bu çox böyük rəqəmdir. Mütəxəssislər onu da bilirlər ki, dünyanın əksər ölkələrində saldo mənfidir. Ölkələr daha çox idxal edir, nəinki ixrac edir. Azərbaycanda isə təkcə üç ayda 5,1 milyard dollar gəlir – bizim ixracımız idxalı üstələyir. İlin sonuna qədər əminəm ki, bu rəqəm daha da artacaq. Həm makroiqtisadi sabitliyə bunun əvəzolunmaz təsiri var, həm də valyuta ehtiyatlarımızın artması göz qabağındadır. Üç ayda valyuta ehtiyatlarımız da artıb. Bütün bu göstəricilərlə biz haqlı olaraq fəxr edə bilərik. Amma bu o demək deyil ki, biz bu nailiyyətlərlə kifayətlənməliyik. Yox. İndi dünyada proseslər mənfi istiqamətdə gedir. Toqquşmalar, müharibələr alovlanır və gələcəkdə sabitliyin təmin edilməsi ilə bağlı müxtəlif fikirlər vardır. Dünyada ərzaq qıtlığı ola bilər, ərzaq məhsullarının qiyməti qalxır. Biz bu gün bu haqda da danışacağıq. Onu da bildirməliyəm ki, biz bütün bu nailiyyətləri öz zəhmətimiz hesabına qazanmışıq. Heç kimdən bir manat dəstək almamışıq. Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik. Bəli, xarici şirkətləri dəvət

etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik. Bunu mən xüsusilə qeyd etmək istəyirəm. Çünki, adətən, belə qanlı müharibələrdən, belə dağıntılardan sonra – Qarabağ və Zəngəzurdakı dağıntıların dünyada bənzəri yoxdur, heç İkinci dünya müharibəsində bu qədər dağıntılar olmamışdı – donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir. İkinci dünya müharibəsinin tarixçəsinə nəzər salmaq kifayətdir. O vaxt «Marşall planı» tətbiq edilmişdi. Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi. Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərir. Bizə isə nə işğal dövründə, nə də sonra heç kim heç bir yardım göstərmir. Hətta ölkələrin əksəriyyəti işğalı işğal kimi adlandırmaq istəmirdi. Mənim yadımdadır, işğal dövründə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, eyni zamanda, ikitərəfli formatda apardığımız danışıqlar əsnasında biz güc-bəla ilə, zorla ölkəmizin ərazi bütövlüyü prinsipini o bəyannamələrə saldırırdıq. Bir çoxları imtina edirdi. Halbuki bu, gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük, Rusiya–Ukrayna müharibəsində görürük. Vaxtilə biz torpaqlarımızı işğaldan azad edəndə və məşhur «Bayraktar» dronlardan istifadə edəndə xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. İndi isə Rusiya–Ukrayna müharibəsində bunu mələk adlandırırlar.

Fərq budur, ikili standartlar budur, bizə qarşı ədalətsizlik budur. Bu reallıqdır. Biz isə öz gücümüzlə yeni reallıq yaratmışıq və yaradırıq. Bir daha demək istəyirəm ki, mən hələ də ümid edirəm, beynəlxalq təşkilatlar, böyük fondlar, xeyriyyəçiliklə məşğul olan beynəlxalq qeyri-hökumət təşkilatları nəzər yetirəcəklər. Ağdam Qafqazın Xirosimasıdır. Bunu mən yox, beynəlxalq mütəxəssislər deyir. Ağdam kimi bütün şəhərlər ermənilər tərəfindən yerlə yeksan edilib. Biz heç kimdən bir manat da almamışıq. Ancaq bu ədalətsizliklə barışmaq da olmaz. Mən hesab edirəm ki, bizim qurumlarımız, hökumət, Prezident Administrasiyası, nazirliklər – hərə öz xətti ilə bu məsələ ilə bağlı gərək ciddi fəaliyyət göstərsin. Yardım göstərmək istəmirlərsə, desinlər ki, biz sizə yardım etməyəcəyik. Biz də işimizi bilək. Yəni müharibədən təxminən bir il yarım keçibdir. Bir fond belə, bizə heç bir yardım göstərməyib. Minaların təmizlənməsi ilə bağlı – müharibədən sonra 200-dən çox insan ya həlak olub, ya da ki, ağır yaralanıb. Dünyada bu məsələ ilə məşğul olan o qədər fondlar var, QHT-lər var. Nə ilə məşğuldurlar? Gəlsinlər, kömək göstərsinlər. Bizim fiziki cəhətdən gücümüz çatmır. Biz nə lazımdırsa, almışıq. Maşın, mexanizm almışıq, texnika almışıq, hətta dronlar almışıq ki, o minalarla çirklənmiş yerləri təsbit edir. Ancaq bizdə mütəxəssis çatışmır, bizdə işçi qüvvə çatışmır. Heç olmasa, bu sahədə bizə kömək göstərsinlər. Yenə də deyirəm, biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik. Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan və-

təndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq. Ancaq mənim sözüm beynəlxalq təşkilatlaradır. İnsan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutanlar heç olmasa, Azərbaycana da diqqət yetirsinlər və ikili standartlardan kənar olsunlar. Bir sözlə, bu mənzərə hər şeyi necə deyərlər, göstərir. Bu ilin üç ayında əldə edilmiş iqtisadi nailiyyətlər əminəm ki, ilin sonuna qədər davam edəcək. Çünki biz görürük ki, buna nail olmaq üçün imkanlar vardır. Beləliklə, biz bu ili də uğurla başa vuracağıq.

İndi isə bəzi məsələlərlə bağlı mən məlumat dinləmək istərdim. Birincisi, ilin üç ayı arxada qaldı, büdcənin icrası ilə bağlı vəziyyət nə yerdədir, Maliyyə naziri məlumat versin.

* * *

**Samir Şərifov** (*Maliyyə naziri*): Möhtərəm cənab Prezident, hörmətli müşavirə iştirakçıları!

2022-ci ilin birinci rübünün nəticələri 2021-ci il ərzində Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlərin davam etdirilməsi kimi qiymətləndirilə bilər. Ötən ilin sosial-iqtisadi yekunları göstərdi ki, Vətən müharibəsində böyük Qələbədən sonra Azərbaycan çox az bir zaman kəsiyində öz qüvvələrini səfərbər edərək, iqtisadiyyatda böyük irəliləyişə nail olubdur. Belə ki, ötən ilin ümumi daxili məhsulu üzrə nəzərdə tutulan artım artıqlaması ilə icra edilibdir, yəni 2,2 faiz artıq, 3,4 faizin əvəzinə 5,6 faiz. Bu ildə də biz bu tendensiyanın davamını görürük.

Həmin bu müsbət meyillər dövlət büdcəsinin cari ilin birinci rübündəki göstəricilərində də özünü büruzə veribdir. Birinci rübdə dövlət büdcəsinin gəlirləri proqnoza qarşı 6,3 faiz və yaxud 418 milyon manat artıqlaması ilə icra olunub və dövlət büdcəsinin gəliri 7 milyard 10 milyon manat təşkil edibdir.

Onu da qeyd etmək istərdim ki, daxilolmalar üzrə proqnoz göstəriciləri Dövlət Vergi Xidməti üzrə 539 milyon manat və yaxud 23,8 faiz, Dövlət Gömrük Komitəsi xətti ilə isə 236 milyon manat və yaxud 23,7 faiz üstələməklə icra edilibdir. Sosial sığorta haqları üzrə isə 961 milyon manat proqnoza qarşı 1 milyard 41 milyon manat icra təmin edilibdir. Qeyd etməliyəm ki, Dövlət Vergi Xidməti üzrə proqnozların artıqlaması ilə icra edilməsinin böyük hissəsi, yəni 90 faizə yaxın hissəsi qeyri-neft sektoru üzrə gəlirlərin artması ilə bağlıdır. Ümumiyyətlə, qeyri-neft sektorundan gəlirlər birinci rübdə 80 faizdən yuxarı, vergi üzrə ümumi daxilolmaların 80 faizdən yuxarı hissəsini təşkil edibdir. Belə vəziyyətdə Dövlət Neft Fondunun dövlət büdcəsinə nəzərdə tutulan transfertləri 3 milyard 180 milyon manata qarşı 2 milyard 757 milyon manat icra olunub, yəni 423 milyon manat az. Bu da onunla bağlıdır ki, dövlət büdcəsinin icra göstəriciləri olduqca yüksək idi.

Möhtərəm cənab Prezident, onu da qeyd etməliyəm ki, birinci rüb üzrə büdcə xərclərinin icrası, adətən, o qədər yüksək olmur. Amma cari ildə bu, 99 faiz olubdur. Hətta belə bir yüksək icra səviyyəsi şəraitində dövlət büdcə gəlirlərinin bir tərəfdən, fiskal orqanlar tərəfindən artıqlaması ilə yerinə yeti-

rilməsi, digər tərəfdən isə Dövlət Neft Fondundan 423 milyon manat məbləğində vəsaitin alınmaması şəraitində dövlət büdcəsinin profisiti 1 milyard 380 milyon manat təşkil edibdir. Bu, olduqca gözəl bir göstəricidir. Dövlət büdcəsinin xərcləri, qeyd etdiyim kimi, həmin dövr üzrə 5 milyard 630 milyon manat və yaxud 99 faiz icra edilibdir. Əsas dövlət vəzifələri, dövlətin büdcədən maliyyə yardımları və digər proqramlarının maliyyələşdirilməsi tam təmin olunub və dövlət büdcə təşkilatları tərəfindən xəzinədarlıq orqanlarına təqdim etdiyi büdcə sifarişləri tam icrasını tapıbdır.

Qeyd etmək istərdim ki, Qarabağın yenidən qurulması proqramının icrası üçün dövlət büdcəsindən ayrılmış vəsait 2,2 milyard manatdır, birinci rüb ərzində 346 milyon manat, yaxud 16 faizə yaxın hissəsi artıq icra olunubdur. Dövlət əsaslı vəsait qoyuluşu proqramının icrası da təxminən eyni faiz nisbətində təmin edilibdir. Möhtərəm cənab Prezident, Sizin tapşırıqlarınızın icrası təmin olunubdur. Ərzaq təhlükəsizliyi proqramı çərçivəsində, əsasən də dünyadakı ərzaq problemləri ilə əlaqədar cari ilin birinci rübündə 220 milyon manat vəsait ayrılıbdır. Bu da kənd təsərrüfatı sahəsinə müəyyən əkin subsidiyalarının verilməsi ilə bağlıdır. Büdcənin icrası ilə bağlı bu qədər.

**İ l h a m  Ə l i y e v:** Aydındır. İndi xarici dövlət borcumuzun gələcək parametri ilə bağlı məlumat verin. Çünki mən qeyd etdim ki, strategiya var və uğurla icra edilir. 12,5 faiz o rəqəmdir ki, hər bir ölkə bu rəqəmlə fəxr edə bilər. Amma bilirsiniz, mən

bir neçə il bundan əvvəl vəzifə qoymuşdum ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizindən çox olmasın. Yəni biz buna yaxınlaşırıq. Bununla paralel olaraq, biz kreditlər də götürməliyik, bundan tam imtina etməməliyik. Builki vəziyyət haqqında məlumat verin. Bu il dövlət büdcəsində xarici borcun qaytarılmasına nə qədər vəsait nəzərdə tutulur, təxminən nə qədər kredit alınacaq və növbəti illər üçün strategiyanın qısamüddətli parametrləri nədən ibarət olacaq? Bu barədə məlumat verin.

**S a m i r Ş ə r i f o v:** Möhtərəm cənab Prezident, qeyd etmək istərdim ki, Sizin 2018-ci il 24 avqust tarixli sərəncamınızla təsdiq edilmiş Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiyanın icrası davam etdirilməkdədir. Xarici dövlət borcunun ümumi daxili məhsula nisbətinin 10 faizə çatdırılması istiqamətində Sizin qarşımızda qoyduğunuz işlər davam etdirilir. Bu istiqamətdə vacib məsələlərdən biri də ümumi dövlət borcunun, yəni xarici və daxili dövlət borcundan ibarət olan dövlət borcunda xarici valyutada ifadə edilmiş borcun məhz Siz dediyiniz həmin istiqamət nəzərə alınmaqla tədricən azaldılması və eyni zamanda, daxili dövlət borcunun xüsusi çəkisinin borc portfelində artırılması istiqamətində işlər görülür. Strategiya qəbul edilən zaman həmin nisbət 94 faiz idi, yəni 94 faiz xarici dövlət borcunun payına düşürdü. Hazırda isə bu, 82 faizə endirilibdir. Bu da onunla bağlıdır ki, daxili borcun xüsusi çəkisi artıbdır. Daxili dövlət borcunun, yəni

daxili maliyyə bazarlarının inkişaf etdirilməsi üçün biz bazara daha çox dövlət qiymətli kağızları, dövlət istiqrazlarını təklif edirik və strategiyanın qəbul edildiyi müddət ərzində həmin borc bazarda 3,2 faiz artıbdır. Hazırda 2,5 milyard manat təşkil edir və proqram davam etdirilməkdədir.

Şübhəsiz ki, dövlət büdcəsinin icrasının göstəriciləri yaxşı olduqda, yəni fiskal orqanlar profisitlə təmin etdikdə büdcə kəsiri yaranmır və nəticə etibarilə biz bir o qədər daxili borcu buraxmırıq. Amma bu proqram davam etdiriləcəkdir.

Möhtərəm cənab Prezident, Sizin bu yaxınlarda imzaladığınız sərəncama əsasən, ümumi dövlət borcunun ortamüddətli dövrdə ÜDM-in 20 faizi səviyyəsində saxlanılması, xarici dövlət borcunun ortamüddətli dövrdə 15 və uzunmüddətli dövrdə 10 faizə endirilməsi nəzərdə tutulub.

Bu gün vacib məsələlərdən biri də bizim borclanma strategiyamızdır – biz nə qədər əlavə borc götürəcəyik. Möhtərəm cənab Prezident, Sizin bu yaxınlarda imzaladığınız sərəncamla Azərbaycan Respublikasının büdcə qaydası üzrə müəyyən göstəricilərin, ilk növbədə, qeyri-neft baza kəsiri üzrə nisbətlərin təsdiq edilməsi bizim üçün müəyyən çərçivəni formalaşdırır. Həmin çərçivə əsasında ümumi borclanma növbəti 3 il üçün 4,3 milyard manat məbləğində nəzərdə tutulur. Yəni buraya borcun yenidən maliyyələşdirilməsi daxil edilmir. Biz borcun yenidən maliyyələşdirilməsini də daxil etsək, söhbət 8,3 milyard manat həcmində borcun cəlb edilməsindən gedir. Yeni cəlb ediləcək borcun 1,3 milyard manatlıq hissəsini

bu günədək imzalanmış kreditlər üzrə əldə edəcəyimiz vəsaitlər təşkil edəcək. Yəni bunlar müəyyən layihələr üzrə imzalanıb, lakin bu kreditlərin tam istifadəsi hələ ki, təmin olunmayıb. Yeni borc 3 milyard manat məbləğində nəzərdə tutulub.

Möhtərəm cənab Prezident, onu da qeyd etmək istərdim ki, bizim bugünkü ümumi daxili məhsul üzrə göstəricilərimiz kifayət qədər yüksəkdir. Bu ilin sonuna gözlənilən nəticələr də nəzərə alınmaqla, növbəti illər üzrə İqtisadiyyat Nazirliyi tərəfindən mart ayında bizə artıq yeni ortamüddətli proqnozlar təqdim edilibdir. Bu proqnozlar nəzərə alınmaqla, hesab edirik ki, borclanma üzrə əlavə imkanlarımız ola bilər.

Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, bizə bu gün kifayət qədər böyük həcmlərdə borc vermək niyyətində olan beynəlxalq qurumlar vardır. Sizin müəyyən çıxışlarınızdan sonra Avropa İttifaqı artıq 2 milyard avro məbləğində borcun bizə verilməsi barədə niyyətini bildirib. Bu borcu iki bank vasitəsilə – Avropa Yenidənqurma və İnkişaf Bankı, eləcə də Avropa İnvestisiya Bankı vasitəsilə verməyə hazırdır. Digər tərəfdən, başqa beynəlxalq maliyyə qurumları, ilk növbədə, Dünya Bankı yenidən qurulma işlərində təcrübələri çox olduğuna görə öz kredit xətlərini bizə təklif edir. Asiya İnkişaf Bankı da Azərbaycan hökumətinin təqdim etdiyi proqramlar əsasında kifayət qədər böyük həcmlərdə borc ayırmağa hazırdır. Burada, belə desək, «top bizim tərəfdədir». Hansı layihələri seçməyimizdən asılı

olaraq, Sizin qarşımızda qoyduğunuz borc çərçivəsi daxilində biz bu vəsaitləri cəlb edə bilərik.

**İlham Əliyev:** Burada hədəflər aydındır. Mən bir daha demək istəyirəm ki, xarici borcumuzu ümumi daxili məhsula nisbətdə 10 faiz səviyyəsinə endirməliyik. Buna yaxınlaşmaq üçün siz gərək təkliflər verəsiniz, biz nə qədər almalıyıq və nə qədər qaytarmaq məcburiyyətindəyik. Avropa İttifaqının kredit vermə təklifləri, əlbəttə ki, müsbət haldır. Çünki bildiyiniz kimi, müharibə başa çatdıqdan sonra Ermənistan üçün kredit və qrant paketi təqribən 2,6 milyard avro səviyyəsində idi. Azərbaycana isə cəmi 140, ya 160 milyon. Əlbəttə, biz buna səssiz qala bilməzdik. Müsbət haldır ki, Avropa İttifaqı Azərbaycana da 2 milyardlıq paket elan edib. Mən bunu çox müsbət hal kimi qiymətləndirirəm. Ancaq mən o təkliflərə də baxdım. Elə layihələr var ki, onları biz borc götürmədən icra edə bilərik, təbii ki. Ancaq bununla yanaşı, bizim istəyimiz və ədalətli mövqemiz ondan ibarətdir ki, Ermənistana hansı şərtlərlə bu borc və ya qrant verilirsə, bu bizə də eyni şərtlərlə təklif edilməlidir. Biz bundan istifadə edəcəyik, yoxsa etməyəcəyik, bu, başqa məsələdir. Ancaq yanaşma eyni olmalıdır. Xüsusilə nəzərə alsaq ki, Ermənistanda dağıntılara məruz qalmış bir koma da yoxdur. Azərbaycanda isə 10 min kvadratkilometr ərazidə bir salamat bina yoxdur. Mən bunu heç vaxt kənara qoya bilmərəm. Bu, nəzərə alınmalıdır. O ki qaldı aparıcı beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığımıza, mən bilirəm ki, bu yaxınlarda Dünya Bankının missiyası gəlmiş-

di. Mənə Baş Nazir məruzə etmişdi. Onların təklifləri vardır. Əlbəttə, ənənəvi tərəfdaşlarımız Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı. Avropa İnvestisiya Bankı nisbətən təzə gəlib Azərbaycan bazarına. Onların birinci layihəsi qaz infrastrukturu ilə bağlı idi. Asiya İnfrastruktur və İnkişaf Bankı ilə də bizim əlaqələrimiz inkişaf edir. Biz o ölkələrdənik ki, bu bankın təsisçisi kimi iştirak etmişik və səhmdarıq orada. Hesab edirəm ki, biz dünyanın bu əsas maliyyə qurumları ilə işləməliyik. Sadəcə olaraq, biz bu strategiyanı vaxtaşırı təftiş etməliyik ki, daha da çox borc götürək və ya az götürək, çox qaytaraq, ya az qaytaraq. Siz buna baxın və təkliflər verin.

Xarici borcla bağlı başqa hansısa fikirlər var, məlumat vermək istəyən var? Buyur.

**S a m i r  Ş ə r i f o v:** Möhtərəm cənab Prezident, mən təkcə bir şeyi qeyd etmək istərdim ki, Dünya Bankı üzrə bu gün bizə xüsusi şərtlər təklif edirlər. Biz onlarla növbəti ilin ortalarına qədər tam razılığa gəlsək, o şərtləri əldə edə bilərik.

**İ l h a m  Ə l i y e v:** Yəni güzəştli şərtlər.

**S a m i r  Ş ə r i f o v:** Güzəştli şərtlər. Yəni onlar bizim Qarabağın yenidən qurulması proseslərini nəzərə alaraq, belə bir qərar qəbul ediblər ki, bizə güzəştli şərtlərlə kreditlər verə bilərlər.

**İ l h a m  Ə l i y e v:** Ondan istifadə etməliyik.

**S a m i r  Ş ə r i f o v:** Bəli. Sizin tamamilə düzgün qeyd etdiyiniz kimi, bu şərtlər çərçivəsində bizə lazım olan layihələri seçə bilərik. Yəni elə layihələr var ki, məsələn, avtomobil yollarının tikintisi, biz

onlara xarici komponentli valyutanı cəlb etməməliyik. Amma biz layihələri seçərkən istənilən halda valyuta xərclərimizi nəzərə almalıyıq. Yəqin ki, bu məqsədlər üçün biz vəsait cəlb edə bilərdik.

**İlham Əliyev:** Bir də dünyanın aparıcı maliyyə qurumları özəl sektora da kreditlər ayırırlar. Hesab edirəm ki, daha da böyük məbləğ ayıra bilərlər. Onlarla təmaslar əsnasında bu məsələ həmişə müzakirə edilməlidir. Bilirəm ki, misal üçün, qeyd etdiyim bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının tikintisinə də aparıcı maliyyə qurumları kredit ayırırlar. Bizə yox, xarici investorlara. Ona görə yerli şirkətlərə, yerli sahibkarlara da onların kreditlərinin ayrılması zəruridir. Düzdür, bizim öz mexanizmimiz var və İqtisadiyyat Nazirliyi bu işləri təşkil edir. Ancaq burada özəl sektora, misal üçün, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, digər bankların daha da böyük həcmdə kreditlərinin verilməsinə mütləq baxmaq lazımdır. Hər kəs yaxşı bilir ki, hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Bu proses bir neçə ay bundan əvvəl başlanıbdır. Əlbəttə, Rusiya–Ukrayna müharibəsi bunu daha da sürətləndirib, xüsusilə nəzərə alsaq ki, Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları arasındadır və digər ərzaq məhsullarını dünya bazarlarına ixrac edir. Artıq təbii qıtlıq hiss olunur və hiss olunacaq. Bizim ərzaqlıq buğda ilə təminatımız diqqət mərkəzində olmalıdır. Hökumətə bu məsələ ilə bağlı göstəriş verilibdir. Operativ tədbirlər görülüb və ehtiyatlar yığılır. Biz daha çox ehtiyat yığmalıyıq.

Bilməliyik ki, belə vəziyyət uzun müddət ərzində davam edə bilər və yəqin ki, davam edəcəkdir. Ona görə ilk növbədə, daxili təminatımız artmalıdır. Bu məsələ ilə bağlı göstərişlər verilib. Həm azad edilmiş torpaqlarda, həm də digər bölgələrdə əkin işlərinin daha da genişmiqyaslı aparılması üçün göstərişlər verilib. Əlbəttə, burada suvarma layihələrinin uğurla icrası böyük nəticələrə gətirib çıxara bilər. Amma hər halda, indiki şəraitdə ərzaq qiymətlərinin artması və süni qiymət artımının qarşısının alınması məsələləri, hesab edirəm ki, ən vacib məsələlərdən biridir. Bu məsələ ilə bağlı vəziyyət nə yerdədir? İqtisadiyyat naziri məlumat versin.

**Mikayıl Cabbarov**(*İqtisadiyyat naziri*): Möhtərəm cənab Prezident, bu istiqamətdə Sizin müvafiq tapşırıqlarınıza və hökumət tərəfindən verilmiş müvafiq qərarlara uyğun olaraq, biz müvafiq strukturlarla birlikdə fəaliyyətimizi əlaqəli şəkildə qurmuşuq. Bu fəaliyyət üç istiqamətdən ibarətdir. Birincisi, daimi monitorinq mexanizmləri mövcuddur və biz gündəlik əsasda ərzaq, un, şəkər tozu və bir sıra digər məhsullar üzrə gündəlik anbar qalıqlarını sahibkarlıq subyektləri və dövlət agentləri ilə birlikdə monitorinq edirik. İkinci istiqamət qanunvericilik tənzimlənməsidir. Bununla bağlı bir sıra qərarlar, son olaraq Nazirlər Kabinetinin qərarı qəbul edilibdir. Biz hazırda belə bir rejim tətbiq edirik ki, o, balansı təmin etsin. Başqa sözlə, Azərbaycanda istehsal olunmayan və bizim idxaldan asılılığımız yüksək olan məhsulların ölkədən ixracı xüsusi nəzarət rejimi ilə həyata keçirilir. Eyni zamanda, sahibkarlıq subyekt-

lərinin ixrac potensialının azalmaması və ixrac bazarlarının itirilməməsi üçün biz ölkədə istehsal olunan və yaxud istehsal potensialı olan məhsullara dair analoji şəkildə həmin çərçivədə fəaliyyəti tənzimləyirik ki, bu fəaliyyət həyata keçirilə bilsin.

Nəhayət, üçüncü istiqamət sahibkarlıq subyektləri ilə fəaliyyətimizdir. Burada da dövlət tərəfindən aidiyyəti təşviq mexanizmləri tətbiq edilir. Xüsusilə mən ən son məlumat olaraq vurğulamaq istəyirəm ki, Baş Nazirin 5 aprel tarixli müvafiq tapşırığına uyğun olaraq, 115 milyon manat vəsaitin sahibkarlıq subyektlərinə yumşaq təşviq kreditləri kimi ayrılması istiqamətində və həmçinin strateji ərzaq məhsullarının pandemiya dövründə uğurla istifadə olunan mexanizmi Sizin müvafiq tapşırığınıza uyğun olaraq, bir sıra sahibkarlıq subyektlərinin kredit borclarının, faizlərinin ödənilməsində dövlət subsidiyaları ayrılmışdı və analoji mexanizmdən istifadə edərək, biz bunu edirik. Bunun məntiqi nədən ibarətdir? Daimi ehtiyatları təmin etmək məqsədilə sahibkarlar tərəfindən həmin ehtiyatların mal qalıqlarının artırılması tələb olunur. Bu da öz növbəsində, onlar tərəfindən daha çox dövriyyə kapitalına ehtiyac yaradır. Biz belə çevik mexanizmlərlə işləyirik ki, bir tərəfdən, sahibkarların maraqlarına toxunulmasın, digər tərəfdən, dövlət qarşısında duran vəzifələr tam həcmdə yerinə yetirilsin.

Möhtərəm cənab Prezident, sualınızla bağlı son olaraq onu da qeyd etmək istəyirəm ki, 2020-ci ilin əvvəlində, pandemiyanın ilk günlərindən biz əsas təchizatçı ölkələrin bir çoxunda məhsul ixracının

qadağan olunmasını, ərzaq məhsullarında bəzi malların olmamasını digər ölkələrdə müşahidə etmişik. Azərbaycanda istər o dövrdə, istərsə də, indiki dövrdə bu istiqamətdə hesab edirik ki, qənaətbəxş nəticələr əldə olunubdur.

Müvafiq tapşırıqlarınıza və mövcud vəziyyətə uyğun olaraq, ərzaq qiymətləri təbii ki, başqa bir prioritetimizdir. Bununla bağlı antiinflyasiya tədbirləri haqqında imzalanmış müvafiq qərara əsasən, fəaliyyət həyata keçirilir. Bu gün münaqişədə, müharibədə olan hər iki dövlət Azərbaycan üçün ərzağın həm ixracı, həm də idxalı nöqteyi-nəzərindən vacib tərəfdaş olduğuna görə, biz çalışırıq ki, bu prosesləri də əlaqələndirilmiş şəkildə quraq. Məruzə etmək istəyirəm ki, Azərbaycan cari ilin ilk rübündə daxili bazarı tam təmin etməklə yanaşı, müxtəlif ölkələrə 60 min ton müxtəlif çeşidli meyvə, 37 min ton tərəvəz, 12 min ton şəkər, 3,5 min ton meyvə-tərəvəz emalı məhsulları ixrac edibdir. Digər tərəfdən isə biz həmin struktur asılılığımız olan məhsullar üzrə idxalın sadələşdirilməsi üçün artıq sadaladığım tədbirləri həyata keçiririk.

İnflyasiyanın təbii olaraq, Mərkəzi Bankla və digər aidiyyəti strukturlarla birlikdə aradan qaldırılması üçün qısamüddətli tədbirlərlə yanaşı, hesab edirik ki, orta və uzunmüddətli tədbirlərə dair də addımlar atıla bilər. Qaldırılan məsələlərin müsbət həllinə görə, xüsusilə də kiçik və orta sahibkarlığa, ərzaq istehsalçılarına güzəştli dövlət maliyyələşməsinin təmin edilməsində, kapital yardımının göstərilməsində verdiyiniz dəstəyə

görə fürsətdən istifadə edərək, Sizə təşəkkürümü bildirmək istərdim.

**İ l h a m Ə l i y e v:** Mənə verilən məlumata görə, son üç ayda inflyasiya 18 faizə qalxıb. Bu, yüksək rəqəmdir. Amma onu da bilməliyik ki, bunun bir hissəsi idxal edilmiş inflyasiyadır. Çünki dünyada ərzaq məhsullarının və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsir edir. Onu da bildirməliyəm ki, 3 ayda əhalinin gəlirləri təxminən 20 faiz artıb və əgər biz inflyasiyanı əhalinin gəlirləri ilə müqayisə etsək, yenə də real gəlirlər artmış olur. Ancaq bu o demək deyil ki, biz buna laqeyd yanaşmalıyıq. Ona görə antiinflyasiya tədbirlərinin görülməsi, gücləndirilməsi zəruridir. Burada əsas məsələ süni qiymət artımının qarşısının alınmasıdır. Çünki belə hadisələrdə, belə geosiyasi vəziyyətdə bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar. Buna xüsusi diqqət göstərilməlidir. Ərzaq təminatı ilə bağlı nə deyə bilərsiniz?

**Ə l i Ə s ə d o v** (*Baş Nazir*): İnflyasiyanı iki hissəyə bölmək olar. Yəni söylədiyiniz 18 faiz ərzaq inflyasiyasıdır. Ümumi inflyasiyamızın göstəricisi üç ay ərzində 12,2 faizdir. İnflyasiyanın tərkibində idxal olunan ərzaq məhsulları 60 faizdən artıqdır. Bunun səbəbini də Sizin tərəfinizdən verilmiş tapşırığa uyğun olaraq İqtisadiyyat naziri ardıcıllıqla dedi. Siz toxunduğunuz məqamlarda çox vaxt qiymətlərin şişirdilməsi və sui-istifadə halları olur. İlin əvvəlindən, biz subsidiyaları çörək üçün saxlayan dövrdə xalq arasında «zavod çörəyi» deyilən çörək-

lərin 5 qəpik artırılmış qiymətlərindən sonrakı proseslər monitorinq olundu və indiyə qədər də davam etdirilir, sahibkarlar da bunu bilirlər. Bu proseslər ciddi şəkildə nəzarətdədir. Ehtiyatlarla əlaqədar iki vacib məqamı icazənizlə, qeyd edim. Hələ pandemiya dövrünün başlanğıcında, mart ayından başlayaraq, Sizin tapşırığınızla bu proseslər, əsasən ərzaq məhsulları və digər defisit məhsullar, o cümlədən respublikanın dərman və tibb ləvazimatları ilə təchiz olunması istiqamətlərində aparıldı. İctimaiyyət də bilir, cənab Prezident, Ukrayna–Rusiya müharibəsi ilə əlaqədar qiymətlər, taxılın qiyməti ən pik həddə qaldırılıb. Söhbət ancaq qiymətdən getmir. Söhbət ondan gedir ki, bu gün ərzaq taxılı idxal etməyin öz prosesi var. Siz dediyiniz kimi, Ukrayna və Rusiyanın dünya taxıl istehsalında aparıcı rolunu, Ukraynada bu il çətinliklərin olacağını nəzərə alaraq, bu ehtiyatları artırırıq. Bir məqamı da demək istəyirəm. Sizin tapşırığınızla yerli istehsal, idxaldan asılılığın azaldılması istiqamətində də konkret layihələr hazırlanır və bu sahədə olan tədbirlər yaxın dövrdə təqdim olunacaq. Siz bu gün işğaldan azad olunmuş ərazilərdə aparılan əkin barədə dediniz. Bizim digər böyük təsərrüfatlarda da bu iş gedir.

Cənab Prezident, Mikayıl Cabbarov qeyd etdi ki, hər məhsulun, əsasən də minimum istehlak bazarına daxil olan, əhali tərəfindən gündəlik istifadə olunan 12 əsas məhsulun həm qiymət baxımından, həm anbarlarda, respublikada olan ehtiyatlar baxımından günbəgün monitorinqi aparılır. Təbii olaraq, bu gün ölkələrin çoxu ancaq özlərinin təmina-

tını ilk prioritet edir. Bunları nəzərə alaraq, biz də ilk növbədə, öz daxili ehtiyatlarımıza baxırıq. Əgər artıq yerli istehsal, planlar varsa, onları ixrac edirlər və sahibkarların İqtisadiyyat Nazirliyinə müraciətinə əsasən, beş gün ərzində operativ qaydada bunlara baxılır. Yəni deyə bilərəm ki, bu gün Azərbaycanda əsas ərzaq məhsulları üzrə kifayət qədər ehtiyatlarımız vardır.

**İ l h a m Ə l i y e v:** Aydındır. Bu məsələ ilə bağlı danışarkən, biz ilk növbədə, ərzaqlıq buğdanın istehsalını artırmalıyıq. Ehtiyatları yığmalıyıq. Çünki bizdə ümumi taxıl istehsalı ölkə tələbatının 60 faizini təşkil edir, ərzaqlıq buğda ilə isə biz özümüzü cəmi 25 faiz təmin edirik. Ona görə məsələ qoyulub ki, ərzaqlıq buğda ilə biz özümüzü ən azı 70–75 faiz təmin edək. Buna nail olmaq üçün potensial var, imkanlar var – həm azad edilmiş torpaqlarda, həm ölkəmizin digər yerlərində. Həm bu il, həm gələn illərdə dövlət investisiya xərcləri artırılmalıdır. Sahibkarlara məqsədyönlü kreditlər, güzəştli kreditlər verilməlidir ki, məhz bu sahə inkişaf etsin. Çünki buğda əsas ərzaq məhsuludur. Bizim həm coğrafi yerləşməyimiz, iqlimimiz, eyni zamanda, bəzi yerlərdə torpağın keyfiyyəti və şərait imkan vermir ki, biz özümüzü bu gün buğda ilə yüz faiz təmin edək. Ancaq buna çalışmalıyıq və altı ay keçməmiş biz indi azad edilmiş torpaqlarda böyük əkin işləri ilə məşğuluq. Təxirəsalınmaz tədbirlər nəticəsində ikinci dəfə əkin aparırıq və bu il təqribən 50 min hektarda əkin aparılacaq. Bu çox yaxşı nəticədir. Həm azad edilmiş torpaqlarda, həm də bütün başqa yerlərdə

məhsuldarlığı artıra biləcək tədbirlərə əlavə vəsait ayrılmalıdır. İlk növbədə, suvarma, suvarma sistemləri, gübrələr və digər məsələlər öz həllini tapmalıdır.

Bizim şəhid ailələri, müharibə əlilləri üçün inşa etdiyimiz evlərin, mənzillərin sayı artır. Bu, işğal dövründə də prioritet məsələlərdən biri idi və İkinci Qarabağ müharibəsindən sonra bu məsələlər öz həllini tapır. Burada məsələ qoyulmuşdur ki, şəhid ailələrinin – həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin şəhid ailələrinin, müharibə əlillərinin yaşayış məsələləri tezliklə öz həllini tapsın. Bu istiqamətdə keçən il və bu il önəmli addımlar atılıbdır. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri məlumat versin, bu işlər nə yerdədir və ilin sonuna qədər hansı işlərin görülməsi nəzərdə tutulur?

**Sahil Babayev** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Möhtərəm cənab Prezident, Sizin ali rəhbərliyiniz ilə Azərbaycan Ordusunun Qələbəsi nəticəsində ərazilərimizin işğaldan azad olunmasından sonra həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də müharibədə iştirak etmiş və həyatını itirmiş şəhidlərimizin ailə üzvlərinə, öz sağlamlığını itirmiş müharibə əlillərimizə, müharibə iştirakçılarına dövlət dəstəyinin genişləndirilməsidir. Bu istiqamətdə Sizin tapşırıqlarınıza uyğun olaraq, tədbirlər bir neçə sahə üzrə aparılır. İlk növbədə, sosial ödənişlərin təminatı üzrə 93 min unikal şəxsə 103 min sosial ödəniş təyin olunubdur. Burada həm şəhid ailələrinin üzvləri, həm müharibə əlilləri, eyni zamanda, müharibə veteranları da əhatə ediliblər. Mən

xüsusi olaraq vurğulamaq istəyirəm ki, Sizin müvafiq fərman və sərəncamlarınızla 2021-ci ilin əvvəllərində bu kateqoriyadan olan insanlara ödənilən Prezident təqaüdünün məbləği 60 faizədək artırılıbdır. Bu ilin əvvəlindən isə əlilliyə görə aldıqları sosial müavinətlər də 60 faizədək artırılıbdır. Ümumilikdə qeyd etdiyim kimi, 93 min şəxsə 103 min sosial ödəniş təyin olunubdur.

Digər bir istiqamət məşğulluq sahəsinə dəstək tədbirləri olubdur. Bu çərçivədə 11 min şəhid ailəsi üzvü və müharibə əlilinə məşğulluq tədbirləri görülübdür. Onların yarısı özünüməşğulluq proqramlarına cəlb edilib və bu çərçivədə onlara kiçik ailə təsərrüfatının qurulması imkanı yaradılıbdır. Digər bir istiqamət isə işədüzəltmə, münasib işlə təminetmə proqramı olubdur ki, burada da məşğulluq marafonu çərçivəsində, xüsusilə sahibkarlarımızın bu proqrama aktiv qoşulması nəticəsində yaradılmış vakansiyalara 2000-dən artıq şəhid ailəsi üzvü və müharibə əlili cəlb edilibdir. Bu proqramın ən önəmli istiqamətlərindən biri Sizin vurğuladığınız kimi, mənzil təminatı məsələləri idi. Ötən il 3000-dək mənzil məhz şəhid ailələri və müharibə əlillərinə, cari ilin birinci rübündə isə 200 mənzil bu kateqoriyadan olan insanlara təqdim edilib. İlin sonunadək şəhid ailələrinə və müharibə əlillərinə 1500 mənzilin təqdim olunması planlaşdırılıb. Bu çərçivədə yaxın dövrlərdə növbəti yaşayış kompleksinin açılışı planlaşdırılır ki, ondan sonra bu proses daha da sürətlənəcəkdir. Cənab Prezident, xüsusi olaraq vurğulayım ki, son 3 il ərzində Sizin fərman və sərəncamlarınızla 6300 mənzil məhz

bu kateqoriyadan olan insanlara təqdim olunub. Ümumilikdə müstəqillik dövrümüzdə bu rəqəm 12500 mənzildir. Bunun 6300-ü məhz son 3 ilin genişləndirilmiş proqramı çərçivəsində icra edilib ki, ilin sonunadək əlavə 1300 mənzilin də təqdim olunması, əlbəttə, bu kateqoriyadan olan insanlarımızın həyat şəraitinin yaxşılaşdırılması üçün çox önəmlidir.

Digər bir istiqamət də reabilitasiya məsələləridir. Bu çərçivədə müharibədə yaralanmış 8000 əsgərimizə nazirlik tərəfindən 23 min reabilitasiya xidməti göstərilib. Bunu xüsusi olaraq vurğulamaq istərdim ki, əzalarını itirən 190 qazimiz bu günədək dördüncü nəsil 200 elektron protezlə təchiz edilib. Əlavə olaraq, müharibədə yaralanmış 3000-dək əsgərimizə 16 min reabilitasiya vasitəsi təqdim olunub. Bu proses də uğurla icra olunur və davamlı şəkildə həyata keçiriləcəkdir. Ümumiyyətlə, Vətən müharibəsində iştirak edib əzalarını itirmiş cəmi 6 qazimiz qalıb ki, onlar protezlə təmin olunmayıblar. Bunun da səbəbi onların müalicə proqramıdır. Çünki müalicənin müəyyən bir nöqtəsindən sonra məhz protezləşməyə təqdim oluna bilərlər. Bu sahədə işlərin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi üçün ötən ilin yayında Sizin verdiyiniz fərmana uyğun olaraq, avqust ayından etibarən Vahid Əlaqələndirmə mərkəzləri yaradılmağa başlandı – həm DOST mərkəzlərində, həm də Dövlət Sosial Müdafiə Fondunun regional filiallarında. Bu günə artıq Bakı şəhəri və 33 rayonumuz Vahid Əlaqələndirmə Mərkəzi ilə əhatə olunub. Yaxın iki ay ərzində 15 rayonu birləşdirən daha 3 mərkəz də yaradılacaq. Ümumiyyətlə,

ötən 6 aylıq dövr ərzində bu mərkəzlərdə 26 min vətəndaşımız – şəhid ailəsi üzvü, müharibə əlili qəbul edilib. Onlara 6 müxtəlif mərkəzi icra hakimiyyəti orqanının və yerli icra hakimiyyəti orqanlarının göstərdiyi 26 xidmət mərkəzləşdirilərək, bu çərçivədə təqdim olunur.

## YEKUN NİTQİ

Bu ilin sonuna qədər görüləcək bəzi işlər haqqında danışmalıyıq. Mən bu gün ancaq Qarabağ və Şərqi Zəngəzurda görüləcək işlərlə bağlı planlarımız haqqında deyəcəyəm. Çünki bütün ölkə üzrə görüləcək işləri dilə gətirsəm, çox vaxt lazım olacaq. Ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir. Vətəndaşlar onları narahat edən məsələlərlə bağlı müraciət edirlər – həm mənə, həm Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur. Ona görə investisiya proqramımızı tərtib edərkən, yerlərdən gələn təkliflərə üstünlük verilir.

O ki qaldı Qarabağ və Şərqi Zəngəzurdakı işlərə, orada hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik. Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi. Mən bu gün onların hamısını sadalasam, yenə də çox vaxt gedəcək.

Bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarımı bir daha vermək istəyirəm. Birincisi şəhərlərin baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin baş planları təsdiqlənib və baş planlar əsasında işlərə start verilib. Mən işlərin gedişatı ilə tanış olmuşam. Digər şəhərlərin baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur, amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olunub. Baş planlar təsdiq olunduqdan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan vətəndaşları o bölgələrə yerləşdirə bilmərik. Ancaq tam əmin olandan sonra ki, o ərazilər minalardan təmizlənib, biz vətəndaşları o ərazilərə yerləşdirə bilərik.

Qeyd etdiyim kimi, yeni texnikanın alınması təmin edilir, o cümlədən ən müasir texnika, dronlar və digər müasir cihazlar alınır. Burada, əlbəttə ki, beynəlxalq mütəxəssislərin dəstəyinə böyük ehtiyac

vardır. Bizim üç qurumumuz – ANAMA, Müdafiə Nazirliyinin bölmələri və Fövqəladə Hallar Nazirliyi minatəmizləmə işləri ilə məşğuldur. Bir müddət bundan əvvəl yerli şirkətlərin buraya cəlb olunması məsələsi müzakirə edilmişdir və bildiyimə görə, yerli şirkətlər də bu işlərə qoşulur. Çünki bu təşəbbüs həm də sahibkarlığın inkişafına təkan verəcək – əfsuslar olsun ki, ölkəmizdə minatəmizləmə prosesi uzunmüddətli olacaq – yerli şirkətlər burada təcrübə toplayıb öz xidmətlərini təqdim edə bilərlər. Xarici şirkətlərə gəldikdə, onların təklifi, əlbəttə ki, bu günə qədər qiymət baxımından bizim üçün o qədər də məqbul olmayıb. Çünki yerli şirkətlərin verdikləri qiymətlə xarici şirkətlərin verdikləri qiymətlər arasında dəfələrlə fərq vardır. Ona görə mən hesab edirəm ki, üç dövlət qurumu ilə bərabər, yerli şirkətlər nə qədər çox yaransa, o qədər yaxşıdır. Bir də ki, dövlət xətti ilə ən müasir maşın və mexanizmlərin alınması təmin edilməlidir. Azad edilmiş ərazilərdə bu il elektrik təchizatı ilə bağlı işlər davam etdiriləcək. Azad edilmiş torpaqlarda keçən il 20 meqavat gücündə 4 su-elektrik stansiyası inşa edilibdir. İkisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcər rayonunda Lev çayı üzərində. Mənfur düşmən torpaqlarımızı tərk edərkən 30-dan çox elektrik stansiyasını dağıdıb, yandırıb, o stansiyaların qalıqları elə orada qalıb. Xüsusilə Kəlbəcər, Laçın rayonlarında olarkən bunu hər kəs görə bilər. Biz keçən il bu stansiyaların bərpasına başladıq. Bu il 5 stansiya «Azərenerji» tərəfindən bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bə-

rabər olacaq. Ancaq qalan stansiyaların bərpası və ondan sonra işlənilməsi sahibkarlar tərəfindən olsa, daha yaxşı olar. Dövlət də bu işi öz üzərinə götürə bilər, ancaq dövlətin digər başqa xərcləri çoxdur – bu, birincisi. İkincisi, bu, sahibkarlar üçün də əlverişli investisiya ola bilər. Çünki azad edilmiş bütün bölgələr bu gün Azərbaycanın digər bölgələri ilə elektrik xətlərilə birləşdirilib, ona görə də orada istehsal olunacaq enerji ümumi sistemə daxil ediləcək. Mən hesab edirəm ki, sahibkarlar üçün bu çox cəlbedici ola bilər. Mən bilirəm ki, İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası bu işlə məşğuldurlar və təkliflər də verilib. Hesab edirəm ki, hər bir stansiya üzrə təkliflər verilsin və bəlkə də bu müşavirədən sonra sahibkarlar bu məlumatı məndən eşidib daha da həvəsli olacaqlar. Yaxşı olar ki, bu məsələ ilə maraqlanan sahibkarlar üçün qalan stansiyaların yerləri ilə bağlı xüsusi bir təqdimat keçirilsin, təkcə ermənilər tərəfindən dağıdılmış stansiyalardan söhbət getmir. Hazırda xüsusilə Kəlbəcər, Laçın rayonlarında külək elektrik stansiyalarının tikintisi ilə bağlı xarici şirkətlər bizə müraciət edir. Əgər xarici şirkətlər üçün bu maraqlıdırsa, deməli, burada mənfəət olacaq. Yerli şirkətləri də cəlb etməliyik, ya xarici şirkətlərlə birlikdə, ya da ki, ayrı-ayrılıqda. Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür. Yəni bütün bunlardan biz səmərəli şəkildə istifadə etməliyik. Həm bərpa olunan enerji növlərinin ümumi enerji balansımızdakı payını 30 faizə qədər artıra biləcəyik – mən bu göstərişi vermişdim, bəlkə

də gələcəkdə daha çox olacaq – həm də ki, təbii qaza qənaət edib onu indiki yüksək qiymətlərlə ixrac edə biləcəyik.

Qeyd etdiyim kimi, artıq bütün bölgələri birləşdirən xətlər vardır. Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilibdir. Bu çox böyük göstəricidir. Ən çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkildi – Daşkəsəndən Kəlbəcərə. Orada dağların hündürlüyü 3500 metrdir, ağır, çətin şəraitdə, qış aylarında biz bunu bacardıq. «Azərenerji»nin mütəxəssisləri yüksək qiymətə layiqdirlər. Bu il «Xudafərin» və «Qız qalası» Su-Elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndirilməlidir. İran İslam Respublikası ilə danışıqlar aparılır və hesab edirəm ki, daha da sürətlə aparılmalıdır ki, biz tezliklə burada da razılığa gələk. Çünki bu stansiyaların potensialı çox böyükdür – 240 meqavat gücündədir və bu stansiyalar inşa ediləndən sonra onun yarısı bizə çatacaq. Beləliklə, biz bu imkanlardan da istifadə edə bilərik. *bp* şirkəti ilə Cəbrayılda Günəş Elektrik Stansiyasının tikintisi üzrə danışıqlar gedir. Ümidvaram ki, yaxın gələcəkdə bir nəticə olacaq. Hesab edirəm ki, bu stansiyanın çox böyük potensialı olacaqdır.

Bütövlükdə mən bu rəqəmi səsləndirmişdim. Təkcə azad edilmiş torpaqlarda bərpa olunan stansiyaların 9000 meqavatdan çox potensialı var və biz dünyanın aparıcı xarici şirkətlərindən çoxlu təkliflər alırıq. Bizim qonşu ölkələrlə elektrik xətlərimizin olduğuna görə ixrac imkanlarımız da genişlənir və keçən

il elektrik enerjisinin ixracatı 2020-ci ilə nisbətdə daha da artıb. Burada doğrudan da həm ölkə üzrə, həm Xəzər dənizini nəzərə almaqla, çox unikal bir potensial vardır. Mən bu gün azad edilmiş torpaqlarda görüləcək işlər haqqında danışarkən məhz bu məsələni diqqətinizə çatdırmaq istərdim. Eyni zamanda, Zəngilandan İran üzərindən Naxçıvana, oradan isə yenə də İranın enerji sisteminə və Türkiyəyə elektrik xətlərinin çəkilişi də gündəlikdə duran məsələlərdəndir.

Keçən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı Memorandum imzalandı. Memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa vardır. Ona görə biz bu işlərə də tezliklə başlamalıyıq. Hər halda, Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlər çəkilməlidir və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra bu xətt artıq İran üzərindən də gedə bilər.

Eyni zamanda, avtomobil körpülərinin və dəmir yolu körpülərinin inşası da nəzərdə tutulur. Əlbəttə, bu, Zəngəzur dəhlizinin açılmasını inkar etmir. Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparıldı. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır.

Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirilib. Əgər bu gün həm limana, həm dəmir yollarına, həm hava limanlarına, avtomobil yollarına və digər infrastruktura bu böyük investisiyalar qoyulmasaydı, Azərbaycan, əlbəttə ki, yeni yaranan bu imkanlardan məhrum ola bilərdi. Ancaq əksinə, biz bu gün öz nəqliyyat infrastrukturumuzu maksimum işə sala bilərik. Gəmiqayırma zavodunda yeni yük gəmiləri, tankerlər inşa edilir. Yəni bütün bunlar vaxtında atılmış addımlardır. Əgər biz Gəmiqayırma zavodunu inşa etməsəydik, bu gün bu imkanlardan istifadə edə bilməzdik. İndi isə biz heç kimdən asılı deyilik. Nə qədər istəsək, o qədər də bərə, tanker, yük gəmisi inşa edə bilərik. Xəzər üzərindən yükdaşımaların həcmini bu il artıracağıq, gələn il daha da artıracağıq.

Onu da bildirməliyəm ki, 100 kilometr uzunluğu olan Horadiz–Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır. Yəni biz sürətlə gedirik. 4 və 6 zolaqlı avtomobil yolu da çəkilir.

Mən bir məsələyə də diqqət yetirmək istərdim. Ermənistan da görməlidir ki, o bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Çünki 10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir. Əgər o öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi

ilə bağlı heç bir məsuliyyət daşımayacağıq. Onlar bunu bilməlidirlər, vaxtı uzatmamalıdırlar. Onsuz da biz istədiyimizə gec-tez nail olacağıq. Daha yaxşı olar ki, onlar özləri də bir az cəld tərpənsinlər. Yoxsa yenə də dalan kimi qalacaqlar.

Digər infrastruktur layihələrinə gəldikdə isə deyə bilərəm ki, Bərdə–Ağdam dəmir yolunun inşası bu il davam edir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Bununla paralel olaraq, Ağdamda və Füzulidə dəmir yolları, vağzallar da inşa edilməlidir. Layihələr təqdim edilməli, aidiyyəti qurumlar tərəfindən nəzərdən keçirilməli və mənə təqdim olunmalıdır. Nəqliyyat infrastrukturu ilə bağlı digər məsələ Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir. Bu da bu il nəzərdə tutulur. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. O ki qaldı Laçın Beynəlxalq Hava Limanının inşasına, bunu biz 2024-cü ilə planlaşdırırıq. Orada işlərin həcmi çox böyükdür, həm dağlar partladılmalıdır, həm ərazi düzəlməlidir. Orada doğrudan da çox böyük torpaq işləri vardır. Amma o da mütləq olacaqdır.

Avtomobil yollarının çəkilişinə gəldikdə, bu il Naftalandan Talış kəndinə qədər yollar tam istismara verilməlidir. Bu, Naftalanı Suqovuşanla birləşdirəcək. Hər iki yaşayış yeri turizm üçün çox əlverişlidir. Naftalan artıq beynəlxalq turizm mərkəzinə çevrilib və Suqovuşana oradan məsafə çox qısadır. Suqovuşanda da turizm imkanları bu yaxınlarda təqdim edildi – həm turizm, həm yaşayış, həm idman. Yəni bu yolun çox böyük əhəmiyyəti

var və biz Suqovuşana həm Naftalan istiqamətindən, həm də Tərtər istiqamətindən rahatlıqla gedə biləcəyik. Ona görə bu il bu yol istismara verilməlidir. Laçın şəhərindən yan keçən yeni alternativ yolun istifadəyə verilməsi də bu ilə planlaşdırılır. Bu yolun da çox böyük əhəmiyyəti var və biz bunu artıq bu il istismara verməliyik. Bu il istifadəyə veriləcək yolların arasında Füzuli–Hadrut avtomobil yolu, Qubadlı–Eyvazlı yolu və digər yollar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında hərbi əhəmiyyətli yolların çəkilişi davam etdiriləcək. Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yol çəkilib. Yəni Azərbaycan–Ermənistan sərhədinə qədər bu yollar çəkilibdir. İndi sərhəddə rahat xidmət etmək mümkündür.

Davam edən layihələrlə bağlı Azərbaycan ictimaiyyətini məlumatlandırmaq istəyirəm. Deməli, avtomobil yolları arasında Bərdə–Ağdam avtomobil yolunda işlər çox sürətlə gedir, Kəlbəcər–Laçın avtomobil yolu və təxminən 4 kilometrlik tunel inşa edilir. Xudafərindən Qubadlıya, oradan isə Laçına gedən magistral yol inşa edilir. Cəbrayıl–Hadrut yolu inşa olunur. Zəfər yolu açıldı, amma indi Füzuli–Şuşa 4 cərgəli magistral yolu, Horadiz–Ağbənd, Ağdam–Füzuli yolları çəkilir. Ən vacib yollardan biri Toğana–Kəlbəcər avtomobil yoludur, çünki bu yol və 12 kilometrlik tunel çəkiləndən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq, biz rahat tunellə keçəcəyik. Kəlbəcər–İstisu avtomobil yolunun tikintisi bu il davam etdirilir. Bu-

nun da böyük rəmzi mənası vardır. İstisu sanatorisi sovet vaxtında çox məşhur idi. Həm Azərbaycan sakinləri, həm də sovet ittifaqının müxtəlif yerlərindən oraya gələnlər çox idi. Amma biz Mehriban xanımla İstisuda olanda dəhşətli mənzərə gördük. Sanatori, su mənbələri tamamilə dağıdılıb. Mən demişəm, bu vəhşi qəbilə hər yerə burnunu soxub, o cümlədən oraya. Keçmiş sanatoridən ancaq bəzi qalıqlar qalıb. Ona görə mən qərara gəldim ki, orada yeni, müasir hotel inşa edilsin. İndi təqribən 150–160 yerlik hotelin layihəsi hazırlanır. Biz müalicəvi içməli suyun istehsalına da başlamalıyıq. Bu göstəriş də verilib, ilkin təmaslar olub və hesab edirəm ki, bu il hər iki vacib və böyük rəmzi məna daşıyan layihələrin təməli qoyula bilər. Əminəm ki, biz tarixi ədaləti bərpa edəcəyik və yenə də beynəlxalq səviyyəli kurort yaranacaq. Çünki Laçın hava limanı istifadəyə veriləndən və Toğana–Kəlbəcər avtomobil yolu, tunel çəkiləndən sonra həm Gəncə, həm də Laçın istiqamətlərindən Kəlbəcərə gəlmək çox rahat olacaq. Əminəm, çox vaxt keçməyəcək ki, İstisu yenə də öz şöhrətini qaytaracaq. Azad edilmiş torpaqlarda indi içməli su mənbələrinin layihələndirilməsi gedir. Onların arasında Şuşa şəhərinin içməli su layihəsi prioritetdir. Çünki artıq Şuşada insanlar yaşayır. Şuşada yaşayış binaları da tikilir və tezliklə insanlar ora qayıdacaqlar. Ona görə Şuşanın içməli su layihəsi bu il tam istifadəyə verilməlidir. Ermənilər müharibə zamanı Şuşadan qaçarkən o su xətlərini də partlatmışdılar, növbəti vəhşilik törətmişdilər və işğal dövründə 17 bulağın 17-sini də yararsız vəziyyətə salıb

qurutmuşdular. Bunlar vəhşiliyin təzahürləridir və bu bir daha onu göstərir ki, Şuşa ermənilər üçün həmişə yad şəhər olub. Həmişə Şuşaya paxıllıq ediblər, öz çirkin arzularını yaşadıblar ki, nə vaxtsa onlar Şuşanı işğal edəcəklər. Əfsuslar olsun ki, 1992-ci ilin mayında Şuşa milli xəyanət nəticəsində işğal olundu. İndi isə biz Şuşaya qayıtmışıq, biz – Şuşanın sahibləri qayıtmışıq və əbədi orada yaşayacağıq. Şuşanın bərpası bütün digər azad edilmiş torpaqlarla yanaşı, çox önəmlidir və hesab edirəm ki, prioritet olmalıdır. Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir. İndi Şuşada artıq bərpa işləri gedir, bəzi tarixi abidələr bərpa edilib və bu il görüləcək işlərlə bağlı tapşırıqlar vermək istəyirəm. Tarixi abidələr bərpa edilir, Heydər Əliyev Fondu 3 məscidi əsaslı şəkildə bərpa edir, yeni məscidin inşası yaxın aylarda başlanacaq. Artıq yer müəyyən olundu, biz onun təməlini qoyduq. Digər tarixi abidələrin bərpası gedir. Bəzi təkliflər, eskizlər var və biz Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı bir tarixi memarlıq ansamblına xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir. Şuşada yeni teleqüllənin təməli qoyuldu və yəqin ki, yaxın gələcəkdə layihə təqdim ediləcək. Təqdim edilən kimi, mütləq vəsait ayrılmalıdır. 960 şagird-yerlik məktəb, 90 çarpayılıq xəstəxana inşa edilir. Bu layihələrin təməli qoyuldu. Keçmiş poçt binasında «ASAN xidmət», DOST Mərkəzi və əhaliyə xidmət göstərən digər qurumlar yerləşəcək. Poçt binası memarlığı saxlanılmaq şərti ilə əsaslı şəkildə təmir olunacaq.

Onu da bildirməliyəm ki, Şuşada yaşayış məhəlləsinin təməli qoyuldu, evlərin inşasına start verildi. Yeni beşulduzlu hotelin inşası üçün yer seçildi. O həmin yerdir ki, o vaxt qondarma qurum orada «parlament» inşa etmək istəyirdi və digər şeytan yuvası orada yerləşmişdi. Müharibə zamanı o da yox oldu. İndi orada beşulduzlu hotelin layihəsi mənə təqdim edilib. Şuşanın memarlığına uyğun gözəl bir bina olacaq. Şəhər meriyasının binası əsaslı şəkildə təmir edilir və onun yanında yeni konfrans zalı inşa olunur. Çünki indi Şuşada böyük tədbir keçirmək üçün yer yoxdur. Ona görə konfrans zalı meriya binasına bitişik olacaq və orada yaxın gələcəkdə ən mötəbər tədbirlər keçiriləcəkdir.

Gələn ay Şuşada «Xarıbülbül» festivalı yenidən keçiriləcək. Keçən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu festivalda Azərbaycanda yaşayan xalqlar öz istedadlarını nümayiş etdirmişlər. Bu il isə biz dünyanın müxtəlif ölkələrindən folklor kollektivlərini dəvət etmişik. Artıq məndə ilkin məlumat var, vaxtından qabaq anons vermək istəmirəm, amma hesab edirəm ki, çox maraqlı festival olacaqdır. Artıq bu ənənəni də biz bərpa etdik. Bildiyiniz kimi, TÜRKSOY Şuşanı 2023-cü ildə «Türk Dünyasının mədəniyyət paytaxtı» elan edibdir.

Bu il azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin icrası nəzərdə tutulur. Bu layihələrin xüsusiyyəti ondan ibarətdir ki, hazırlıq işləri çox vaxt aparır. Çünki layihələndirmə işləri düzgün aparılmalı, yerlər düzgün seçilməlidir. Harada kanal çəkiləcək, harada su anbarı tikiləcək – bu doğrudan da

vaxt aparan məsələdir. Ona görə mən heç kimi tələsdirmirəm. Amma eyni zamanda, artıq təsdiq edilmiş layihələrin icra edilməsi üçün də biz mütləq vəsait tapmalıyıq. Burada da qeyd olundu ki, biz indi büdcəni profisitlə icra edirik. Bu ilin 3 ayında proqnozdan əlavə, vergi orqanları 500 milyon manatdan çox, gömrük orqanları isə 200 milyon manatdan çox vergi toplayıblar. Yəni bizim indi imkanımız vardır.

Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Buna çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki – xüsusilə Kəlbəcər, Laçın, Qubadlı zonasını nəzərdə tuturam – oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik. İşğal dövründə çaylarımız da ekoloji terrora məruz qalmışdı, çaylarımız da işğal altında idi və düşmən bizi çaylarımızdan da məhrum etmişdi. Biz Tərtər çayının suyundan faktiki olaraq, istifadə edə bilmirdik. Tərtər çayı isə Azərbaycanın ən böyük çaylarından biridir. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, bizə qarşı ekoloji terror törədilirdi. Qışda isə buraxırdılar, o da daşqınlara səbəb olurdu. İndi Qarabağda ermənilərin yaşadıqları yerdə qaz xətti nasaz vəziyyətə düşmüşdü və bir müddət qaz yox idi. Dünyaya hay-haray salmışdılar ki, Azərbaycan bura-

da humanitar fəlakət törədir. Onlar Naxçıvanın qazını 15 il kəsib belə vəziyyətdə saxlamışdılar. Naxçıvanda isə qış daha sərtdir. Haradasa şaxta mənfi 30 dərəcəyə çatır. Naxçıvanlılar 1990-cı ildən 2005-ci ilə qədər qazsız yaşamışlar. Kim məhrum etmişdi onları? Ermənilər və Ermənistan rəhbərliyi, Ermənistan dövləti. Bir adam, bir təşkilat, bir ölkə səsini qaldırmışdı? Yox! Biganə idilər. Amma bir həftə Xankəndidə qaz olmadı, adam qalmadı ki, bizə zəng etməsin – Amerikadan tutmuş Avropaya qədər. Birincisi, Avropanın özündə elə ölkələr var ki, orada qaz yoxdur, ümumiyyətlə, yoxdur, qazlaşdırılma aparılmayıb. Mən ad çəkmək istəmirəm, elə ölkələr var ki, qazlaşdırılmanın səviyyəsi 3–5 faizdir. Orada humanitar fəlakət hökm sürür? Bunlar bir həftə qazsız qaldılar, bu, humanitar fəlakətdir? Bəs Naxçıvan 15 il qazsız qalanda niyə humanitar fəlakət deyildi?! Sualdır bu. Bu suala cavab var? Var! İkili standartlar və ayrı-seçkilik. Biz qazı bərpa etdik və ermənilər bunu qiymətləndirməlidirlər. Biz sadəcə olaraq, xoş niyyət göstərdik. İstəməsəydik, bərpa etməzdik. Kim bizə söz deyə bilər? Biz borclu idik onu bərpa etməyə? Yox! Bərpa etdik, ümid edirik, onlar da anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar. Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər yaxşı olacaq. Ona görə etdik, humanizm göstərdik. Amma Naxçıvanı qazsız qoyan o hadisəni heç vaxt unutmamışıq. Biz 2005-ci ildə İranla razılaşma əsasında İrandan Naxçıvana qaz çəkdik, Astaradan İran

Astarasına qaz xətti çəkdik və «svop» əməliyyatları keçiririk. O vaxtdan bu günə qədər Naxçıvan belə təmin edilir, İrandan qaz alır. Amma bizim qazımız da, suyumuz da kəsilmişdi.

Avropa Şurası Parlament Assambleyasında bir neçə il bundan əvvəl Ermənistanın Azərbaycana qarşı ekoloji terroru ilə bağlı xüsusi məruzə hazırlandı və qəbul edildi. Orada hər şey açıq-aşkar deyilmişdi. Tərtər çayının suyundan bizi məhrum etmişdilər. Halbuki Heydər Əliyev Suqovuşan su anbarını inşa edəndə Bərdə, Ağdam, Goranboy, Yevlax, Ağcabədi və digər rayonların 100 min hektar torpağını suvarması nəzərdə tutulurdu və su gedirdi. İndi biz Suqovuşana qayıtmışıq, indi suyu bərpa etmişik və yeni kanallar da çəkiləcək. Digər çaylar – qoy bunu həm Azərbaycan vətəndaşları, həm dünya bilsin ki, ermənilər bizi nədən məhrum etmişdilər – Həkəri çayı – ən böyük çaylardan biri, istifadə edə bilmirdik. Bazarçay – ona Bərgüşad çayı da deyilir. Lev çayı, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay, Oxçuçay. Bütün bu çayları ermənilər işğal etmişdilər, vəhşicəsinə istismar edirdilər. Oxçuçay çayının fəlakəti indi dünyanın gözü qabağındadır. Biz bu məsələni qaldırmışıq. Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən «Cronimet» şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta reji-

minin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıb. Ancaq bu fəlakəti törədən «Cronimet» şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şeyi demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunub. Biz erməniləri törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən bizim təbii yataqlarımızı istismar edən xarici şirkətləri. Qızıl yataqlarımızı, digər təbii yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçayın suyunu sarı rəngə boyayan «Cronimet» şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq?! Biz heç nəyi unutmamışıq və unutmayacağıq. Görün işğal altında qalan su anbarları nə qədər idi. Xudafərin – 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı, Qız qalası, Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd – bu su anbarları işğal altında idi. İndi biz onları bərpa edirik və bərpa edəcəyik. Konkret layihələrə gəldikdə, mən bu sahədə də hansı işlərin görüləcəyini bildirməliyəm. Həkəriçay su anbarının tikintisi nəzərdə tutulur, yeni su anbarı olacaq. Suqovuşan su anbarı və kanalın təmiri. Kanalın

uzunluğu 5,2 kilometrdir, təmirdən sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarı və 7 kilometr uzunluğunda kanalın təmiri. Onu da bildirməliyəm ki, Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır. Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti vardır. Ondan sonra Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur. Tərtərçay Sol Sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi nəzərdə tutulur. Çünki sovet vaxtında olan su mənbələri bəzi səbəblərə görə uyğun olmaya bilər. Ona görə bu kompleks tədbirlər nəzərdə tutulur və Bərgüşad su anbarının layihəsinin hazırlanması bu il öz həllini tapmalıdır. Bu yaxınlarda verilmiş yeni təklif əsasında Zəngilan, ya da Qubadlı rayonlarının birində yeni su anbarının tikintisi nəzərdə tutulur və bu kanalların inşası bizə imkan verəcək ki, yaxın zamanlarda 10 min hektarı suvarma ilə təmin edək. Yenə də demək istəyirəm ki, bütün bu işlər ümumi su təsərrüfatı sistemimizə inteqrasiya edilməlidir.

Digər layihələrə gəldikdə bildirməliyəm ki, Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanılacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik.

Üç məktəbin inşası bu il başa çatmalıdır – Ağdamda 1 saylı məktəb, Cəbrayıl şəhərində məktəb və qeyd etdiyim kimi, Şuşa şəhərində məktəb. Hər üç məktəb 960 şagird-yerlikdir. Dörd xəstəxana inşa edilir. Şuşa şəhərində xəstəxana bu il istismara veriləcək, Ağdamda 210, Füzulidə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaqdır.

Mən Ağdam və Cəbrayıl rayonlarında iki sənaye parkının təməlini qoymuşam və bu yaxınlarda İqtisadiyyat naziri mənə orada görüləcək işlər barədə məruzə etdi. Maraq böyükdür, yerli şirkətlər çox böyük maraq göstərirlər. Əminəm ki, bəlkə də 1-2 ilə, 3 ilə o parklar üçün nəzərdə tutulmuş çox böyük ərazi çatmaya da bilər. Çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar. Başa düşürəm ki, bəlkə də ilkin mərhələdə iqtisadi cəhətdən o qədər də böyük səmərə olmayacaq. Ancaq mən bunu onların, necə deyərlər, vətəndaşlıq borcu kimi qəbul edirəm və şadam ki, onlar mənim çağırışıma cavab verdilər. Eyni zamanda, azad edil-

miş bölgələrin potensialını, nəqliyyat yollarını nəzərə alaraq əminəm ki, bura qoyulan hər bir manat xeyir gətirəcəkdir.

Beləliklə, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları – biz planlı şəkildə bu işləri görəcəyik. Bu ancaq azad edilmiş torpaqlarda bu il görüləcək işlərin siyahısıdır və əminəm ki, bütün planlar həyatda öz əksini tapacaqdır. Biz istədiyimizə nail olacağıq. Azad edilmiş torpaqlarda görülən işlərlə bağlı Azərbaycan xalqına bundan sonra da müntəzəm məlumat veriləcəkdir.

Sağ olun.

**PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAHBAZ ŞƏRİFƏ**

Hörmətli cənab Baş Nazir!

Pakistan İslam Respublikasının Baş Naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Möhkəm dostluq və qardaşlıq, strateji tərəfdaşlıq səviyyəsində olan Azərbaycan–Pakistan əlaqələrinin bugünkü səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik, qardaş Pakistan İslam Respublikasının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 aprel 2022-ci il*

## ÖLKƏMİZDƏ RƏSMİ SƏFƏRDƏ OLAN ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ EDİ RAMA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*14 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 14-də ölkəmizdə rəsmi səfərdə olan Albaniya Respublikasının Baş Naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev Baş Nazir Edi Ramanı qarşıladı.*

**İlham Əliyev:** Cənab Baş Nazir, Azərbaycana xoş gəlmisiniz! Sizi Azərbaycanda görməyimə çox şadam. Bu, bir-birimizi görmək və gündəliyimizdə duran bir çox vacib məsələləri müzakirə etmək üçün olduqca yaxşı fürsətdir. Sizin səfəriniz ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyəsini bir daha nümayiş etdirir. Biz dəfələrlə görüşmüşük, bir çox hallarda telefon əlaqəsi yaradırıq. Eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində də bir-birimizi görmək imkanından hər zaman istifadə edirik. Əminəm ki, bu səfər ikitərəfli əlaqələrimizə yeni təkan verəcəkdir. Biz regional inkişaf və dünyanın gündəliyində olan başlıca məsələləri müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə gəldikdə, mən məlumatla tanış oldum və biz ticarət dövriyyəmizin artırılması

üzərində çalışmalıyıq. Rəqəm olduqca kiçikdir, lakin hesab edirəm ki, burada artım potensialı var və biz bunu bu gün müzakirə edəcəyik. Əlbəttə, enerji sektorunda əməkdaşlığımız haqqında da danışacağıq. Bir ildən artıq müddətdir ki, Azərbaycan Avropaya təbii qazın ixracatçısına çevrilib və Albaniya hər zaman bu təşəbbüsü dəstəkləyib. Ölkənizin yüksək səviyyəli nümayəndələri «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iclaslarında hər zaman iştirak edib və həmin layihənin icrasına öz böyük töhfələrini veriblər. Yəni biz bu tarixi layihəni icra etmiş ölkələrdən ibarət olan komandadayıq. Hesab edirəm ki, bu gün «Cənub Qaz Dəhlizi», xüsusilə də Trans-Adriatik boru kəmərinin əhəmiyyəti daha qabarıq görünür.

Bu, əməkdaşlığımızın ən yaxşı sahələrindəndir ki, burada böyük artım potensialı vardır. Bizim nümayəndələrimiz enerji əməkdaşlığımız ilə bağlı daha geniş portfelə malik olmaq istiqamətində görüşlər keçirirlər. Buraya təbii qaz, tranzit, təchizat, elektrik enerjisi daxildir və bu həqiqətən də bizim ikitərəfli gündəliyimizin əhəmiyyətli hissəsini təşkil edə bilər. Əminəm ki, hazırda danışıqlar mövzusu olan məsələlər yeni inkişafla nəticələnəcəkdir.

Hesab edirəm ki, qarşılıqlı sərmayə qoyuluşu imkanlarını müzakirə edə bilərik. Biz vətəndaşlarımıza turizm sahəsində müxtəlif imkanlar yarada bilərik. Ümumilikdə isə bu görüş tərəfdaşlığımıza daha geniş mənada nəzər salmaq və gələcəkdə yüksək nəticələr əldə etmək baxımından təkan vermək üçün yaxşı fürsətdir. Sizi görməyimə şadam. Bir daha xoş gəlmisiniz!

**E d i  R a m a:** Təşəkkür edirəm, cənab Prezident. İlk növbədə, uzun illərdən sonra vəziyyətin dözülməz həddə çatması nəticəsində ölkə ərazinizin bir hissəsini uğurla geri qaytardığınız dövrdə burada olmağımdan çox məmnunam. Albaniya ATƏT-in sədri və hazırda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi, hər zaman Azərbaycanı, həqiqəti və ölkənizin tarixi hüquqlarını dəstəkləyir və bunu etməyə davam edəcəkdir. Biz Sizin qonşunuz Ermənistanla sülhə və uzunmüddətli əməkdaşlığa yönəlmiş olduqca nümunəvi səylərinizi alqışlayırıq. Xoşbəxtlikdən Türkiyə kimi dövlətin simasında güclü körpüyə malikik. Biz daha çox işlər görə bilərik. Əməkdaşlığımızın artırılması potensialına malik sahələr var və mən bununla bağlı Sizin fikirlərinizi öyrənmək, perspektivləri müzakirə etmək arzusundayam. Bundan əlavə, heyətlərimiz müzakirələr aparır və görək, istər enerji, istərsə də turizm sahəsində hansı nəticələr əldə olunacaq. COVID artıq bir növ sakitləşib və ümid edirəm ki, Siz Albaniyaya səfərə gələcəksiniz.

Cənab Prezident, gözəl paytaxtınıza ilk qədəmlərimizdən bizə göstərilən yüksək qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

*Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş Naziri Edi Rama ilə işçi naharı oldu.*

## GÜRCÜSTANIN BAŞ NAZİR MÜAVİNİ, İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF NAZİRİ LEVAN DAVİTAŞVİLİ İLƏ GÖRÜŞ

*15 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Gürcüstanın Baş Nazir müavini, İqtisadiyyat və Davamlı İnkişaf naziri Levan Davitaşvilini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan–Gürcüstan əlaqələrinin geniş gündəliyə malik olduğunu qeyd edərək, həm ikitərəfli, həm də çoxtərəfli formatda əldə olunmuş razılıqların uğurla həyata keçirildiyini bildirdi və bu baxımdan, ilk növbədə, ölkələrimizin icra etdiyi birgə nəqliyyat və enerji layihələrinin önəmini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanla Gürcüstan arasında yükdaşımaların həcminin, mövcud infrastrukturun buraxılış qabiliyyətinin artırılmasının zəruriliyini qeyd etdi və bunun üçün yaxşı əsasın yaradıldığını bildirdi. Dövlət başçısı eyni zamanda, ticarət dövriyyəsinin artımından məmnunluğunu ifadə edərək, onun həcminin daha da çoxaldılması perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.*

*Ölkələrimiz arasında sıx əlaqələrin mövcudluğunu vurğulayan Gürcüstanın Baş Nazir müavini, İqtisadiyyat və Davamlı İnkişaf naziri Levan Davitaşvili bütün sahələrdə, o cümlədən iqtisadi sferada əlaqələ-*

*rin uğurla inkişaf etdiyini bildirdi, ölkələrimiz arasında həyata keçirilən enerji və nəqliyyat layihələrinin həm regional, həm də qlobal əhəmiyyətini qeyd etdi. Qonaq eyni zamanda, ticarət dövriyyəsinin artırılması üçün də böyük potensialın mövcud olduğunu vurğuladı.*

*Görüşdə kənd təsərrüfatında və iqtisadiyyatın digər sahələrində birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti, Azərbaycan–Gürcüstan iqtisadi əməkdaşlığının hər iki ölkənin iqtisadi inkişafında vacib rolu qeyd edildi.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏNAYE VƏ QABAQCIL TEXNOLOGİYALAR NAZİRİ, ABU-DABİ MİLLİ NEFT ŞİRKƏTİNİN İDARƏEDİCİ DİREKTORU SULTAN ƏHMƏD ƏL-CABER İLƏ GÖRÜŞ

*15 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, «Masdar» şirkətinin sədri Sultan Əhməd əl-Caberi qəbul etmişdir.*

*Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi.*

*Prezident İlham Əliyev bu yaxınlarda Abu-Dabi vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələri Ali Baş Komandanının müavini Məhəmməd bin Zaid əl-Nəhəyyanla telefon danışığını xatırladaraq, həmin söhbət zamanı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün birgə səylərin artırılmasının vacibliyinin qeyd olunduğunu bildirdi.*

*Bu ilin mart ayında Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stan-*

*siyasının təməlqoyma mərasimini xatırladan dövlət başçısı həmin layihənin gələn ilin sonuna yaxın işə düşəcəyinə ümidvarlığını ifadə etdi. Prezident İlham Əliyev bu layihənin icrasını qarşılıqlı maraqların və imkanların təmin edilməsinin yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Dövlət başçısı bildirdi ki, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu nəzərə alınaraq, birgə müəssisələrin yaradılması, investisiya imkanlarının müəyyənləşdirilməsi və digər müxtəlif layihələrdə iştirakın da daxil olduğu gələcək birgə iqtisadi gündəliyin reallaşdırılması mövcud potensialın maksimum dərəcədə təmin edilməsi işinə xidmət edə bilər.*

*Prezident İlham Əliyev Sultan Əhməd əl-Caberin ölkəmizə səfərinin uğurlu və səmərəli keçəcəyinə ümidvar olduğunu söylədi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş Naziri, Dubay Əmiri Məhəmməd bin Rəşid Al Maktumun və Abu-Dabi vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələri Ali Baş Komandanının müavini Məhəmməd bin Zaid əl-Nəhəyyanın salamlarını və xoş arzularını dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev salamlara və xoş arzulara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məhəmməd bin Rəşid Al Maktuma və Məhəmməd bin Zaid əl-Nəhəyyana çatdırmağı xahiş etdi.*

*Qonaq vurğuladı ki, Məhəmməd bin Zaid əl-Nəhəyyan ölkələrimiz arasında münasibətlərdə əldə edilmiş inkişafı yüksək qiymətləndirir, bu əlaqələrin önəmini xüsusi qeyd edir və tərəfdaşlığımızın daha da gücləndirilməsi əzmindədir.*

## KUBA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KARLOS ENRİKE VALDES DE LA KONSEPSYON İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyonun etimadnaməsini qəbul etmişdir.*

*Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

*Dövlət başçısı ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq, Kuba Prezidentinin «Qoşulmama Hərəkatı»nın Bakıda keçirilmiş Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfərini və onunla görüşünü məmnunluqla xatırlatdı, görüş zamanı əlaqələrimizin geniş gündəliyi ilə bağlı məhsuldar danışıqların aparıldığını bildirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanla Kubanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT və «Qoşulmama Hərəkatı»nda əməkdaşlığı ölkələrimizin bir-birini həmişə dəstəkləməsinin yaxşı nümunəsidir.*

*Dövlət başçısı iqtisadi, mədəni, tibb, idman və digər sahələrdə ikitərəfli münasibətlərimizin inkişafı*

*üçün yaxşı perspektivlərin olduğunu vurğuladı və ənənəvi sahələrdən başqa, yeni sahələrin, investisiya imkanlarının müəyyənləşdirilməsinin də önəmini qeyd etdi. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Enrike Valdes de la Konsepsyon ilk növbədə, Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesin salamlarını dövlət başçımıza çatdırdı. Səfir qeyd etdi ki, Kuba Prezidenti dövlət başçımız ilə Bakıda keçirdiyi görüşü və Azərbaycan Prezidentinin sədrliyi ilə «Qoşulmama Hərəkatı»nın Bakı Sammitini məmnunluqla xatırlayır.*

*Dövlət başçımız salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kuba Prezidentinə çatdırmağı xahiş etdi.*

*Səfir ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli siyasi əlaqələrə əsaslanaraq iqtisadi, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.*

## MİSİR ƏRƏB RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ HİŞAM MƏHƏMMƏD NAĞI ABDEL HƏMİD İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Hişam Məhəmməd Nağı Abdel Həmidin etimadnaməsini qəbul etmişdir.*

*Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

*Dövlət başçısı Azərbaycanla Misir arasında siyasi və mədəni sahələrdə sıx əlaqələrin mövcud olduğunu vurğulayaraq, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın «Qoşulmama Hərəkatı»-na sədr seçilməsi və sədrlik müddətinin uzadılması ilə bağlı Misirin dəstəyini yüksək qiymətləndirdi. Dövlət başçısı İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlığımızı qeyd etdi və ölkə ərazimizin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələrə verdiyi davamlı dəstəyə görə də Misirə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bu yaxınlarda İslam Əməkdaşlıq*

*Təşkilatının nazirlər səviyyəsində görüşündə Azərbaycanın mədəni irsi və ərazi bütövlüyünün bərpası ilə bağlı qətnamələrin qəbul olunmasında təşkilatın güclü dəstəyini xüsusi olaraq vurğuladı. Dövlət başçısı Azərbaycanın da Misiri beynəlxalq arenada dəstəklədiyini bildirdi. İqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı ticarət həcminin artırılmasının zəruriliyini qeyd etdi. Dövlət başçısı vurğuladı ki, biznes dairələri arasında qarşılıqlı səfərlərin təşkili bu işə öz töhfəsini verə bilər.*

*Prezident İlham Əliyev nəzərə çatdırdı ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidən qurulma işlərində Misir şirkətlərinin iştirakından məmnun olar və bu, əməkdaşlığımızın yaxşı nümunəsi ola bilər. Dövlət başçısı qeyd etdi ki, işğaldan azad olunmuş ərazilərdə böyük həcmdə görüləsi işlər var və ermənilər tərəfindən 10 min kvadratkilometrdən çox sahəsi olan dağıdılmış ərazilərdə hazırda yenidən qurulma və bərpa işləri aparılır. Prezident İlham Əliyev digər sahələrdə də əlaqələrimizin inkişafı üçün yaxşı perspektivlərin olduğunu bildirdi, səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkəsinin əlaqələrimizin inkişaf etdirilməsi istiqamətində fəaliyyətdə maraqlı olduğunu vurğuladı.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MƏHƏMMƏD ƏL-BLUŞİ İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd əl-Bluşinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Məhəmməd əl-Bluşi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

*Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə dinamik şəkildə uğurla inkişaf etdiyini bildirdi. Abu-Dabi vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələri Ali Baş Komandanının müavini Məhəmməd bin Zaid əl-Nəhəyyanla telefon söhbətini xatırladan Prezident İlham Əliyev həmin söhbət zamanı əlaqələrimizin daha da intensivləşdirilməsinin vacibliyini bildirdiyini vurğuladı. Dövlət başçısı məmnunluqla qeyd etdi ki, bu telefon danışığından sonra Birləşmiş Ərəb Əmirliklərinin Sənaye və Qabaqcıl Texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, «Masdar» şirkətinin sədri Sultan Əhməd əl-Caber Azərbaycanda sə-*

*fərdə oldu və səfər zamanı əməkdaşlığımızın strateji əhəmiyyəti qeyd edildi, həmçinin BƏƏ-nin ölkəmizdə konkret investisiya layihələri ilə bağlı səmərəli müzakirələr aparıldı. Prezident İlham Əliyev bu baxımdan Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlinin qoyulmasının önəmini vurğuladı, hazırda ölkələrimiz arasında bərpa olunan enerji sahəsində çoxmilyardlı investisiya portfeli üzərində iş aparıldığını bildirdi və bunu iki ölkə arasında dostluq, qardaşlıq və böyük qarşılıqlı marağın göstəricisi kimi dəyərləndirdi.*

*Dövlət başçısı vurğuladı ki, Azərbaycanda çox əlverişli investisiya iqlimi, cəlbedici enerji sektoru mövcuddur və bu, BƏƏ Hökuməti tərəfindən də yüksək qiymətləndirilir. Prezident İlham Əliyev ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin olduğunu bildirdi, eyni zamanda, digər sahələrdə, o cümlədən nəqliyyat sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğunu və artıq ölkəmizin nəqliyyat infrastrukturuna BƏƏ tərəfindən investisiya qoyulduğunu qeyd etdi. Azərbaycanın müxtəlif istiqamətlərə yönəlmiş çoxşaxəli mühüm regional nəqliyyat habına çevrildiyini vurğulayan dövlət başçısı bu sahədə əməkdaşlığımızın genişləndirilməsi üçün çox yaxşı perspektivlərin olduğunu nəzərə çatdırdı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən səfir BƏƏ Prezidenti şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan, BƏƏ-nin vitse-prezidenti şeyx Məhəmməd bin Rəşid Al Məktum və Abu-Dabi vəliəhdi şeyx Məhəmməd bin*

*Zaid əl-Nəhəyyanın salamlarını dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan, şeyx Məhəmməd bin Rəşid Al Məktum və şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyana çatdırmağı xahiş etdi.*

*Ölkələrimiz arasında güclü qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayan səfir BƏƏ-nin siyasi, iqtisadi, sosial, mədəni sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində böyük səylər göstərdiyini bildirdi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi bir daha görməyə çox şadam. Şadam ki, Brüsseldəki görüşümüzdən sonra bizi ziyarət edirsiniz. Çox konstruktiv, yaxşı nəticələri və nailiyyətləri olan üçtərəfli görüşdən sonra artıq iki həftə keçib. Səylərinə, bizə çox mühüm məsələləri müzakirə etmək və normallaşma prosesinin başlanğıcı ilə bağlı razılığa gəlmək imkanı verən şərait yaratdığına görə Prezident Şarl Mişelə minnətdarlığımı çatdırmağı sizdən xahiş edirəm. Düşünürəm ki, bu, başlanğıc nöqtəsi idi. Çünki biz sərhəd üzrə komissiyaların və eyni zamanda, sülh sazişi üzrə İşçi qrupların yaradılması barədə razılığa gəldik. Biz bununla bağlı əvvəllər də danışırdıq və bildiyiniz kimi, İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Azərbaycanın mövqeyi həmişə ondan ibarət idi ki, biz sülh sazişi ilə bağlı danışıqlara başlamalıyıq. Hesab edirəm ki, rəsmi başlanğıc nöqtəsi aprelin 6-da Brüsseldə baş tutdu. O vaxtdan bəri biz işləyirdik, Xarici İşlər Na-

zirliyi çalışırdı və mənim administrasiyam sizin komandanızla təmasda idi. Biz razılaşdığımız kimi, başlamağa hazırıq. Hesab edirəm ki, bu irəliləyişi davam etdirməyimiz və hər iki tərəfin razılaşmalara riayət etməsi mühüm əhəmiyyət kəsb edir. Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycan və Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir. Mən həm dəmir yolunu, həm də avtomobil yolunu nəzərdə tuturam. Çünki dəmir yolu ilə bağlı mən Prezident Mişelə məlumat verdim ki, biz dəmir yolunun Azərbaycan ərazisində 100 kilometrdən artıq 60 kilometrlik hissəsini tikmişik və tikintini gələn il tamamlayacağıq. Lakin əfsuslar olsun ki, Ermənistanda onlar heç bu işin texniki-iqtisadi əsaslandırılmasına başlamayıblar, bu da prosesin ləngiyə bilməsini göstərir.

Avtomobil yoluna gəldikdə, Azərbaycan tərəfindən fəal tikinti işləri gedir və yolun böyük hissəsi artıq inşa olunub. Biz həmçinin ümid edirik ki, növbəti ilin sonuna kimi avtomagistralı Ermənistan sərhədinə çatdıracağıq. Təəssüf ki, Brüssel görüşü zamanı Ermənistanın baş naziri coğrafi koordinatları qeyd etməmişdir. Mən fevralın 4-də videokonfrans vasitəsilə keçirilmiş görüşdə bu məsələni qaldırdım, lakin cavab olmadı. Aprelin 6-da mən yenidən yolun coğrafi koordinatlarının təqdim edilməsini istədim, lakin yenə də cavab olmadı. Ümidvaram ki, tezliklə onu əldə edəcəyik.

Lakin mən ümumilikdə Brüsseldəki görüşün nəticələrini müsbət hesab edirəm. Mən bunu aprelin

12-də ictimaiyyətə açıqladım. Növbəti gün Ermənistanın baş naziri də normallaşma prosesi və Ermənistanın Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul etməsi barədə açıq şəkildə danışdı. Bu, prosesdə həqiqətən də daha bir dönüş nöqtəsidir. Düşünürəm ki, müsbət şərhlərdir. İndi hər iki tərəfin bu rəsmi açıqlamasından sonra biz ciddiyyətimizi masa üzərində sübuta yetirməliyik. Burada biz Avropa İttifaqının, xüsusilə də artıq prosesə dərindən cəlb olunmuş Prezident Şarl Mişelin səylərinə çox ümid edirik. O, prosesə çox yaxşı bələddir. Düşünürəm ki, bu, uğurlu danışıqlar üçün çox ümidverici mühit yaradır. Beləliklə, biz bu gün bunu daha ətraflı şəkildə müzakirə edəcəyik. Sadəcə, Brüsseldə baş verənlərlə və aprelin 6-dan sonra baş verən hadisələrlə bağlı rəsmi mövqemizi ifadə etmək istədim.

**T o i v o  K l a a r:** Təşəkkür edirəm, cənab Prezident. Həmçinin Prezident Mişel də Sizə ən xoş arzularını çatdırır. Qeyd etdiyiniz kimi, o, prosesə və prosesin dəstəklənməsinə çox sadiqdir. Onun fikri, bizim fikrimiz ondan ibarətdir ki, Brüsseldəki görüş çox uğurlu oldu. Qeyd etdiyiniz kimi, biz razılaşdırılmış məsələlərin həyata keçirilməsi və davam etdirilməsinin təmin olunması üzərində işləməliyik. Mənim səfərimin məqsədi bundan ibarətdir.

Mən Sizin növbəti addımları nədə gördüyünüzü eşitmək və Avropa İttifaqı olaraq, normallaşma prosesini dəstəkləmək, əhatəli nizamlanma istiqamətində çalışmaq üçün nə edə biləcəyimizi öyrənmək üçün bu gün buradayam, həftənin ikinci yarısında isə Yerevana gedəcəyəm.

## ÖLKƏMİZƏ RƏSMİ SƏFƏRƏ GƏLMİŞ QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROVUN QARŞILANMA MƏRASİMİ

*20 aprel 2022-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprelin 20-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qırğız Respublikası Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarovu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Qırğız Respublikasının Prezidentinə raport verdi.*

*President Sadır Japarov Azərbaycan əsgərlərini salamladı.*

*Prezident İlham Əliyev və Prezident Sadır Japarov Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Qırğız Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan nümayəndə heyəti Qırğız Prezidentinə, Qırğız nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun qarşısından keçdi.*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*20 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 20-də rəsmi qarşılanma mərasimindən sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident, Sizi Azərbaycanda salamlamağa şadam. Bizim ölkəmizə xoş gəlmisiniz! Əminəm ki, səfər çox səmərəli olacaq, yaxşı nəticələr verəcək. Biz bütün sahələrdə fəal qarşılıqlı əlaqə saxlamaq əzmindəyik. Əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edəcək, çoxlu sənədlər imzalanacaq. Əlbəttə, hesab edirəm ki, həmin sənədlərdən ən əsası Strateji Tərəfdaşlıq haqqında Bəyannamədir. Bu bizim münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdıracaq. Biz buna görə çox şadıq. Münasibətlərimizin möhkəm təməli vardır. Bu, xalqlarımızın qardaşlıq əlaqələridir. Bu gün biz dövlətlərarası münasibətləri belə bir möhkəm təməl üzərində, bu prinsiplər əsasında qururuq.

Gələn il biz diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəyik. Bu, böyük tarixdir, çox iş görülüb, lakin hələ çox iş görülməlidir. Əmi-

nəm ki, həm beynəlxalq qurumlarda əməkdaşlıq çərçivəsində, həm də ikitərəfli formatda yeni nailiyyətlər, yeni nəticələr olacaqdır. Bu gün biz qarşılıqlı iqtisadi fəaliyyət, nəqliyyat, ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması və əlbəttə, müasir dünyada xüsusi diqqət tələb edən regional təhlükəsizlik məsələləri barədə ətraflı danışacağıq. Düşünürəm ki, bu məsələlərə dair fikir mübadiləsi də çox faydalı olacaqdır.

Sizi bir daha salamlamaq istəyirəm. Təşəkkür edirəm ki, Azərbaycana rəsmi səfər barədə dəvətimi qəbul etmisiniz. Ölkəmizdə vaxtınızın yaxşı və xoş keçməsini arzu edirəm.

**S a d ı r J a p a ro v:** Sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, məni Azərbaycana rəsmi səfərə dəvət etdiyinizə görə Sizə səmimi-qəlbdən minnətdaram. Qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürümü bildirirəm.

Vurğulamaq lazımdır ki, Qırğızıstan–Azərbaycan münasibətlərinin əsası beynəlxalq miqyaslı tarixi şəxsiyyət, Sizin atanız, möhtərəm Heydər Əliyev tərəfindən qoyulub. O vaxtdan bizim aramızda, Qırğızıstan ilə Azərbaycan arasında çox yaxşı münasibətlər vardır. Biz azərbaycanlı qardaşlarımızla əməkdaşlığa hazırıq. İcazə verin, qonaqpərvərliyə və Sizinlə görüşmək imkanı yaratdığınıza görə bir daha təşəkkürümü bildirim. Sağ olun.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*20 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprelin 20-də geniş tərkibdə görüşü keçirilmişdir.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident, hörmətli qonaqlar! Sizi Azərbaycanda bir daha salamlayıram. Bu gün bizim ikitərəfli münasibətlərdə əlamətdar gündür – Qırğız Prezidenti Azərbaycanda rəsmi səfərdədir. Biz Sizi salamlamağa və münasibətlərimizin inkişaf perspektivlərini müzakirə etmək imkanına görə çox şadıq.

Cənab Prezidentlə biz ikitərəfli gündəlik, regional məsələlər barədə fikir mübadiləsi apardıq və bu səfərdən istifadə edərək, maksimum nəticəyə nail olmaq əzmindəyik. Bu gün çoxlu sənədlər imzalanacaq. Bu barədə biz artıq danışmışıq. Bizim münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatır. Bu çox əlamətdar hadisədir, çünki qarşılıqlı fəaliyyətdə olduğumuz 29 il ərzində biz, əlbəttə, bir sıra istiqamətlər üzrə fəal işləmişik, lakin münasibətlərimiz bu səviyyədə olmayıb. Strateji tərəfdaşlıq həm böyük üstünlüklər, həm də böyük məsuliyyət deməkdir. Əminəm ki, gələcəkdə də həmişə beynəlxalq qurumlarda bir-birimizi dəstəkləyəcək, ikitərəfli planda fəal işləyəcəyik.

Bu gün biz investisiya layihələri ilə bağlı çox məsələləri müzakirə etdik. Bu gün geniş tərkibdə görüşdə bu barədə daha ətraflı danışacağıq – nəqliyyat infrastrukturu ilə bağlı məsələlər, bizim nəqliyyat imkanlarımızı birləşdirməyin mümkünlüyü. Biz Qırğızıstanda və Azərbaycanda həyata keçirilmiş layihələr və onları qarşılıqlı faydalı şəkildə necə əlaqələndirməyin mümkün olması barədə fikir mübadiləsi apardıq. Kənd təsərrüfatında əməkdaşlığın inkişafı ilə bağlı məsələləri də müzakirə etdik. Burada da böyük perspektivlər vardır. Yəni məsələlərin əhatə dairəsi genişdir.

Əminəm ki, biz səfərin yekunlarına əsasən əldə edilmiş razılaşmaların reallaşması üçün konkret proqram müəyyən edəcəyik. Əlbəttə, düşünürəm ki, lap yaxın vaxtlarda hökumətlərarası birgə Komissiyanın iclasını keçirmək lazım olacaq. Həmin Komissiya sonuncu dəfə üç il bundan əvvəl iclas keçirib. Fikrimcə, səfərin yekunlarına əsasən, prezidentlərin verəcəyi tapşırıqlar da məhz həmin hökumətlərarası birgə Komissiyanın iclası çərçivəsində nəzərdən keçirilməlidir.

Beləliklə, hörmətli cənab Prezident, Sizi bir daha ürəkdən salamlayıram. Xoş gəlmisiniz! Azərbaycanda vaxtınızın yaxşı və xoş keçməsini arzu edirəm.

**Sadır Japarov**: Sağ olun, hörmətli İlham Heydər oğlu. Hörmətli nümayəndə heyətinin üzvləri! İlk növbədə, məni Azərbaycana rəsmi səfərə dəvət etdiyinizə görə Sizə səmimi-qəlbdən minnətdaram. Azərbaycanlı qardaşlarımız tərəfindən ənənəvi qonaqpərvərliyə və səmimi qəbula görə bizim nümayəndə

heyəti adından təşəkkürümü bildirirəm. Fikrimcə, rəmzi haldır ki, bizim bugünkü görüşümüz «Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında Dostluq və Əməkdaşlıq haqqında Müqavilə»nin 25 illiyi və Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər qurulmasının 30-cu ildönümü ərəfəsində keçirilir. Vurğulamaq lazımdır ki, Qırğızıstan–Azərbaycan qarşılıqlı münasibətlərinin əsası beynəlxalq miqyaslı tarixi şəxsiyyət, Azərbaycanın ümummilli lideri möhtərəm Heydər Əliyev tərəfindən qoyulubdur.

Hörmətli İlham Heydər oğlu, icazə verin, varisliyi qoruyub saxladığınıza görə Sizə minnətdarlığımı bildirim. Bu varislik sayəsində bizim münasibətlərimiz bu gün də uğurla inkişaf edir. Hesab edirəm ki, bizim müasir Qırğızıstan–Azərbaycan münasibətlərinin qurduğumuz etibarlı təməli olmasaydı, qarşılıqlı əlaqələrimizin fəallığı mümkün olmazdı. Bu, xalqlarımız arasında dərin tarixi və mənəvi əlaqələrdir. Bu baxımdan məmnunluqla qeyd edirik ki, iki ölkə arasında hər hansı siyasi ziddiyyət yoxdur. Buna görə biz bu əlverişli şəraitdən istifadə etməyə və qurucu səylərimizi birləşdirərək, iki ölkənin qardaş xalqları naminə əməkdaşlığımızı genişləndirməyə borcluyuq.

Bu gün dünyada baş verən dərin dəyişikliklər bizə yeni tipli münasibətlər qurmaq üçün tarixi şans verir. Bu münasibətlərin əsası ləyaqət və şərəf kimi əzəli türk dəyərləridir.

Hörmətli İlham Heydər oğlu, Sizin fikrinizə şərikəm ki, bizim ticari-iqtisadi sahədə əməli əməkdaş-

lıq üçün geniş imkanlarımız vardır. Bu gün biz iqtisadiyyatımızın liberallaşdırılmasına yönəlmiş addımlar atırıq. İnvestisiya qanunvericiliyi təkmilləşdirilir, bununla əlaqədar Qırğız Respublikasının digər ölkələrlə investisiya əməkdaşlığı fəallaşır. Odur ki, biz Azərbaycanın biznes dairələrini bizim ölkədə investisiya imkanlarını fəal öyrənməyə və azad iqtisadi zonaların, güzəştli vergi və gömrük rejimlərinin öyrənilməsinə diqqəti artırmağa dəvət edirik. Şübhəsiz, bu, ölkələrimiz arasında işgüzar əməkdaşlığın fəallaşmasına kömək edəcəkdir.

Fəal mədəni-humanitar əməkdaşlıq vasitəsilə xalqlarımızın qarşılıqlı zənginləşməsini qeyd etməyə şadam. Mədəniyyət xadimləri müntəzəm mübadilələr edir, xalqlarımız arasında əsl dostluq körpülərinin möhkəmləndirilməsinə kömək edirlər. Bundan əlavə, ölkələrimiz BMT, ATƏT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, MDB və «Qoşulmama Hərəkatı» kimi beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli formatda sıx qarşılıqlı fəaliyyət göstərir. Qırğızıstan Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun müşahidəçi səviyyəsinə qədər artırılmasını hərtərəfli dəstəkləyir.

Hörmətli İlham Heydər oğlu, bu gün bizim qarşılıqlı münasibətlərimizin keyfiyyətcə yeni səviyyəyə çatdırılması üçün hər cür şərait yaranıb. Bununla əlaqədar, Qırğızıstanın iki dövlət arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulması barədə təşəbbüsünü dəstəklədiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Əminəm ki, bu gün yaradılan Dövlətlərarası Şura hökmən ölkələrimiz arasında əmək-

daşlığın daha da genişlənməsinə və möhkəmlənməsinə şərait yaradacaqdır.

Bizim böyük yazıçımız Çingiz Aytmatov deyirdi: «Okeana bənzəyən» «Manas» eposu əsrlərin dərinliyindən gələn qırğız mənəvi irsinin parlaq zirvəsidir. Bu, dünya miqyaslı ən böyük eposdur, onun aparıcı mövzusu isə birlikdir. Onun dəyərləri bizim şüurumuzda dərin kök salıb, buna görə də biz birliyi, şərəfi, ədaləti dərindən qiymətləndirir və ona ehtiram bəsləyirik». Biz bu dəyərlər əsasında azərbaycanlı qardaşlarımızla səmərəli işə hazırıq və inanırıq ki, birlikdə daha yaxşı dünya qurulmasına öz töhfəmizi verəcəyik. Bunun üçün bizim hər cür ilkin şəraitimiz vardır. «Manas» eposunun 1000 illik yubileyi ilə bağlı şənliklərdə möhtərəm Heydər Əliyev demişdi: «Biz bir-birimizi qəlbən hiss edir və başa düşürük».

İcazə verin, qonaqpərvərliyə və Sizinlə geniş tərkibdə görüşmək imkanına görə bir daha səmimi təşəkkürümü bildirim. Çox sağ olun.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*20 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə aprelin 20-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Qırğızıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyanna-mə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov imzaladılar.*

*«Azərbaycan Respublikası və Qırğız Respublikası-nın Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum»unu Azərbaycan Respublikasının Pre-zidenti İlham Əliyev və Qırğız Respublikasının Prezi-denti Sadır Japarov imzaladılar.*

*«Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Qırğız Respubli-kası Prezidenti yanında İdarəçilik Akademiyası ara-sında əməkdaşlıq haqqında Memorandum»unu Azər-baycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov və Qırğız Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Almazbek Akma-taliyev imzaladılar.*

*«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti ilə Qırğız Respublikası İctimai Teleradio Yayımları Korporasiyası arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Qırğızıstandakı Fövqəladə və Səlahiyyətli səfiri Lətif Qəndilov və Qırğız Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Kayrat Osmonaliyev imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Qırğız Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında Kənd Təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov və Qırğız Respublikasının Kənd Təsərrüfatı naziri Askarbek Canibekov imzaladılar.*

*«Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Qırğız Respublikası İqtisadiyyat və Kommersiya Nazirliyi yanında Antiinhisar Tənzimlənməsi Xidməti arasında əməkdaşlıq haqqında Memorandum»unu Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov və Qırğız Respublikasının İqtisadiyyat və Kommersiya naziri Daniyar Amangəldiyev imzaladılar.*

*«Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığın inkişafı haqqında Memorandum»unu Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğız Respubli-*

*kasının Rəqəmsal İnkişaf naziri Talantbek İmanov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında hava əlaqəsi haqqında Saziş»i Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğız Respublikasının Nəqliyyat və Kommunikasiya naziri Erkinbek Osoyev imzaladılar.*

*«Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi ilə Qırğız Respublikasının Nazirlər Kabineti yanında Əqli Mülkiyyət və İnnovasiya Dövlət Agentliyi arasında əqli mülkiyyətin qorunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandum»unu Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Qırğız Respublikasının Xarici İşlər naziri Ruslan Kazakbayev imzaladılar.*

*«Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Qırğız Respublikasının Xarici İşlər naziri Ruslan Kazakbayev imzaladılar.*

# QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*20 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 20-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, hörmətli qonaqlar!

Cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Şadam ki, Siz mənim dəvətimi qəbul edib ölkəmizə rəsmi səfərə gəlmisiniz. Biz Sizinlə ötən ilin sonunda görüşmüşük. Bizim ilk görüşümüzdə mən Sizi Azərbaycana səfərə dəvət etdim. Şadam ki, qısa vaxtdan sonra – heç 6 ay keçməmiş Siz Azərbaycana gəlmisiniz. Biz buna dostluğumuzun və qardaşlıq münasibətlərimizin əlaməti kimi baxırıq. Bu gün Qırğız Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində biz ikitərəfli qarşılıqlı fəaliyyətin geniş spektrini gözdən keçirdik, əməkdaşlığımızın gündəliyindəki məsələlərə ətraflı nəzər saldıq.

Həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə münasibətlərimizi intensivləşdirmək əzmində olduğumuzu bildirdik. Biz dost və qardaş dövlətlərik. Bu gün bizim münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə çatıb. 10 sənəd imzalanıb, mən onların arasında ikisini – Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumu xüsusi vurğulamaq istərdim. Hər iki sənəd bizim münasibətlərin xarakterini və formasını qabaqcadan müəyyən edəcək. Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və bizi məhz strateji xarakterli əməkdaşlığa kökləyir. Biz Dövlətlərarası Şura çərçivəsində həm ikitərəfli gündəliyə aid məsələləri, həm də regional və beynəlxalq problemləri daha effektli və fəal surətdə müntəzəm müzakirə edəcəyik.

Beynəlxalq sahəyə gəlincə, deməliyəm ki, Qırğızıstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ənənəvi olaraq həmişə bir-birini dəstəkləyir. Biz «Qoşulmama Hərəkatı»nda Azərbaycanın sədrlik müddətinin uzadılmasında Qırğızıstanın dəstəyinə görə minnətdarıq. Biz BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ECO çərçivəsində həmişə bir-birimizi dəstəkləyirik.

Ticari-iqtisadi sahəyə gəlincə, bu gün bu məsələyə xüsusi diqqət yetirildi. Çünki Prezidentlə fikir mübadiləsi apardıq ki, əmtəə dövriyyəsinin mövcud səviyyəsi bizi qane edə bilməz. Fikrimcə, nümayəndə heyətlərinin üzvlərinə verilən tapşırıqlar qarşılıqlı ticarətin həcmini qısa müddət ərzində artırmağa imkan verəcəkdir.

Bu gün nəqliyyat infrastrukturu ilə və Şərq–Qərb nəqliyyat dəhlizinin daha səmərəli fəaliyyət göstərməsi üçün səylərimizi necə birləşdirməklə bağlı məsələlər ətraflı müzakirə olundu. Azərbaycanda yüklərin bütün istiqamətlərə – həm şimala, həm cənuba, həm də qərbə göndərilməsinə imkan verən müasir nəqliyyat infrastrukturu yaradılıb. Əlbəttə, bu imkanlar, bizim liman infrastrukturunun imkanları qırğız qardaşlarımızın sərəncamındadır.

Bu gün biz Qırğızıstanın investisiya imkanları barədə də ətraflı danışdıq. Bildiyimiz kimi, Qırğız Prezidenti enerji infrastrukturu məsələləri ilə çox fəal məşğul olur. Fikrimcə, Qırğızıstan iqtisadiyyatının bu sektoru Azərbaycan şirkətlərinə maraqlı olardı. Bizim şirkətlərimizin müasir enerji müəssisələrinin, elektrik stansiyalarının, o cümlədən istilik elektrik stansiyalarının yaradılmasında müəyyən təcrübəsi vardır. Fikrimcə, burada səylərin birləşdirilməsinə və Azərbaycanın investisiya potensialına çox ehtiyac olardı.

Mən əminəm ki, bu və digər məsələlər bu gün cənab Prezidentin Azərbaycanın aparıcı şirkətləri ilə görüşü zamanı daha ətraflı müzakirə ediləcək. Dediyim kimi, Azərbaycan şirkətlərinin bu görüşə çox böyük marağı vardır. Bu məhz onunla bağlıdır ki, Qırğız Prezidentinin rəhbərliyi ilə həm xarici investisiyaların cəlb edilməsi, həm də əlverişli investisiya şəraitinin yaradılması üçün çox mükəmməl investisiya siyasəti həyata keçirilir. Bu, əlbəttə ki, Qırğız Prezidentinin nəzərdə tutduğu bütün planların qısa müddət ərzində yerinə yetirilməsinə imkan verəcəkdir.

Biz ticari-iqtisadi münasibətlər məsələləri ilə yanaşı, kənd təsərrüfatı ilə bağlı məsələləri də müzakirə etdik. Burada müvafiq nazirlərə konkret tapşırıqlar verdik. Fikrimcə, Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti prezidentlərin tapşırıqlarının əməli surətdə yerinə yetirilməsi məqsədilə yerində iş aparmaq üçün yaxın vaxtlarda Qırğızıstana səfər edəcək. Əlbəttə, bizi birləşdirən humanitar sahə, bizim mədəni irsimiz, bizim ortaq tarixi, mənəvi köklərimizdir. Bütün bunlar bizim dövlətlərarası münasibətlərdə həmişə mövcud olmuş və olacaq amildir. Biz Azərbaycanın qədim Şuşa şəhərinin gələn il Türk Dünyasının mədəniyyət paytaxtı elan olunması təşəbbüsünü dəstəklədiyinə görə Qırğızıstana təşəkkür edirik. Biz bütün türk dövlətlərinin, o cümlədən Qırğızıstanın bu qərarını çox yüksək dəyərləndiririk. Şuşa şəhərinin bərpası üzrə planlarımız fəal icra olunur və icra olunacaq. Bu səbəbdən Türk Dünyasının mədəniyyət paytaxtı adını daşımaq kimi yüksək şərəf bizim üzərimizə qədim, gözəl şəhərimizi daha fəal bərpa etmək öhdəliyi qoyur.

Başqa sözlə desək, bu gün müzakirə etdiyimiz bütün məsələlərə dair – nümayəndə heyətinin üzvləri hələ dünən ünsiyyətdə olublar – aramızda tam qarşılıqlı anlaşma var və biz imzalanmış sənədlərdə bunu təsbit etmişik. Təbii ki, bir daha qeyd etmək istəyirəm, bu sənədlər arasında ən əsası Strateji Tərəfdaşlıq haqqında Bəyannamədir. Biz bundan sonra da bütün məsələlərdə bir-birimizi dəstəkləyəcək, əməkdaşlıq edəcək və müvafiq strukturlarımızın fəaliyyətində konkret nəticələrə nail olacağıq.

Mən Qırğız Prezidentinə dəvətimi qəbul edərək, bu gün ölkəmizdə səfərdə olduğuna görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bir daha xoş gəlmisiniz!

**Qırğız Prezidenti Sadır Japarovun bəyanatı**

Çox sağ olun, hörmətli İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, hörmətli xanımlar və cənablar!

İlk növbədə, icazə verin, səmimi qəbul və ənənəvi qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Heydər oğlu Əliyevə və bütün Azərbaycan xalqına Qırğız Respublikasının nümayəndə heyəti adından dərin minnətdarlığımı bildirim. Çox rəmzi haldır ki, mənim Azərbaycan Respublikasına ilk rəsmi səfərim qardaş ölkələrimiz arasında «Dostluq və Əməkdaşlıq haqqında Müqavilə»nin 25 illiyi və diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ərəfəsində keçir.

Biz indicə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələlərinə dair məzmunlu danışıqlar apardıq, beynəlxalq və regional mövzulara dair fikir mübadiləsi etdik. Danışıqlar dövlətlərimiz arasında qardaşlıq münasibətlərini səciyyələndirən tam qarşılıqlı anlaşma, səmimiyyət və etimad şəraitində keçdi. Biz dostluq əlaqələrinin fəallaşması və genişləndirilməsi kursunun dəyişməzliyini təsdiq etdik. Bu gün biz Qırğızıstan ilə Azərbaycan

arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatdırdıq. İndicə müvafiq Bəyannaməni imzaladıq. Bu, tarixi xarakterli mühüm sənəddir və tamamilə aşkardır ki, bizim münasibətlərimizin inkişafında yeni mərhələyə hər iki tərəfin səyləri sayəsində çatmışıq. Bizim hədəfimiz beynəlxalq məkanlarda fəal qarşılıqlı əlaqə, siyasi dialoqun möhkəmləndirilməsi, daha sıx iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi, iri investisiya layihələrinin birgə həyata keçirilməsi, habelə humanitar əməkdaşlığın daha da genişləndirilməsidir. Əlbəttə, bu, etibarlı təməl, xalqlarımız arasında dərin tarixi və mənəvi əlaqələr olmadan mümkün olmazdı.

Bu gün biz Dövlətlərarası Şuranı da təsis etdik. Onun iclaslarında ölkələrimiz arasında münasibətlərin inkişafının ən mühüm məsələlərinə baxılacaqdır. Bütövlükdə cəmi 10 mühüm sənəd və saziş, o cümlədən kənd təsərrüfatı, informasiya texnologiyaları, aviasiya nəqliyyatı, antiinhisar nizamlama və intellektual mülkiyyətin qorunması kimi sahələrdə əməkdaşlıq haqqında sənədlər imzalanıb. Ticari-iqtisadi sahədə praktiki əməkdaşlıq üçün geniş imkanlarımız vardır. Bu gün biz öz iqtisadiyyatımızın liberallaşdırılmasına yönəlmiş addımlar atırıq. İnvestisiya qanunvericiliyi təkmilləşdirilir, bununla əlaqədar Qırğız Respublikasının bir çox ölkələrlə investisiya əməkdaşlığı fəallaşır. Ona görə də biz Azərbaycanın biznes dairələrini ölkəmizdə investisiya imkanlarını fəal öyrənməyə dəvət edirik.

Bunu qeyd etməyə şadam ki, xalqlarımız fəal mədəni-humanitar əməkdaşlıq vasitəsilə qarşılıqlı surət-

də zənginləşir. Mədəniyyət xadimləri müntəzəm mübadilələr edir, xalqlarımız arasında əsl dostluq körpülərinin möhkəmlənməsinə şərait yaradırlar. Biz Azərbaycan ilə həm ikitərəfli əlaqələrin möhkəmləndirilməsində, həm də çoxtərəfli əməkdaşlığın genişləndirilməsində maraqlıyıq. Məlum olduğu kimi, ölkələrimiz BMT, Türk Dövlətləri Təşkilatı, MDB, İslam Əməkdaşlıq Təşkilatı və «Qoşulmama Hərəkatı» çərçivəsində sıx qarşılıqlı əlaqə saxlayır. Qırğızıstan öz tərəfindən Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın statusunun müşahidəçi səviyyəsinə qədər artırılmasını hərtərəfli dəstəkləyir.

Hörmətli xanımlar və cənablar, bu gün dünyada baş verən dərin dəyişikliklər bizə yeni tipli münasibətlər qurmaq, onları daha humanist etmək, ləyaqət və şərəf kimi əzəli türk dəyərlərini əsas götürmək üçün tarixi şans verir. Türk məkanında bu yeni münasibətlər yeni dövrün dövlətlərarası qarşılıqlı münasibətlərinin nümunəsi olmalıdır. Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin bizim baxışlarımıza şərik olmasını və onları tamamilə dəstəkləməsini dərk etmək mənə böyük məmnunluq verir.

Mürəkkəb dövrlərdə güclü liderlər tələb olunur. Öz ölkəsini daha güclü, dünyanı isə daha yaxşı etmək üçün məsuliyyət onların üzərinə düşür. Buna görə də fürsətdən istifadə edərək, Prezident Əliyevə səmimi-qəlbdən hər bir işində uğurlar, Azərbaycan xalqının rifahı və ümumbəşəri dəyərlər naminə ali məqsədlərə çatmaq üçün tükənməz enerji arzu etmək istərdim. Biz bu dəyərlər əsasında azərbaycanlı qar-

daşlarımızla səmərəli işə hazırıq və inanırıq ki, birlikdə bütün çətinlikləri aradan qaldıracaq, daha yaxşı dünya qurulmasına öz töhfəmizi verəcəyik. Bunun üçün bizim hər cür şəraitimiz vardır.

Diqqətinizə görə təşəkkür edirəm.

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV VƏ XANIMI AYQUL JAPAROVANIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*20 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın adından aprelin 20-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov və xanımı Ayqul Japarovanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ziyafətdə iştirak etdilər.*

## ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*21 aprel 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Şuşa şəhərinə səfər etmişdir. Səfər çərçivəsində Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olmuşdur.*

*İşğaldan azad olunmuş ərazilərin bərpasını öz maliyyə imkanları hesabına həyata keçirən Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda, pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidən qurulma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük Qayıdışın tərkib hissəsidir.*

*Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış oldu. Bildirildi ki, işğal dövründə on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq, bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olub. Mövcud su anbarlarının qəsdən məhv edilməsi isə Ermənistanın Qarabağda aqrar sahədə dağıdıcı fəaliy-*

*yətinin nəticəsidir. Köndələnçay su anbarı buna bariz misaldır. Ümumi sistemə daxil olan Köndələnçay-1, Köndələnçay-2 və Aşağı Köndələnçay su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaqdır.*

*İşğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı tikilir və ya təmir olunur. Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcəkdir.*

*İşğaldan azad olunmuş ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək. Su ehtiyatlarının düzgün idarə edilməsi və səmərəli istifadəsi isə Qarabağda aqrar sahənin inkişafına töhfə verəcək. Hazırda bərpası nəzərdə tutulan su anbarlarının istifadəyə verilməsi ilə bu məsələ həllini tapacaqdır.*

*İşğal dövründə Ermənistan məqsədli şəkildə su ehtiyatlarından təzyiq vasitəsi kimi istifadə edirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin strateji kursuna əsasən, bərpa prosesi zamanı sudan məqsədyönlü istifadə üçün infrastruktur imkanları təkmilləşdirilir. Bu eyni zamanda, keçmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğun artırılması, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanıbdır.*

* * *

*Sonra dövlət başçısı Şuşanın Daşaltı kəndində Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış oldu. Qa-*

*rabağın dirçəlişinə aparan Böyük Qayıdış proqramının əsas tərkib hissələrindən biri yol infrastrukturunun qurulmasıdır. Şuşaya çəkilmiş Zəfər yolunun cığırı qəhrəman əsgər və zabitlər tərəfindən açılıb. Hazırda bu yolda işlər davam etdirilir – məqsəd Şuşaya avtomobillə daha tez və rahat çatmaqdır. Cəmi 10 ay əvvəlki vəziyyətlə hazırkı mərhələni müqayisə etdikdə mübaliğəsiz demək olar ki, dünyada bu sürət və keyfiyyətlə görülən işlərə rast gəlmək mümkün deyil.*

*Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun digər önəmi onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir. Yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4–6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda tunellərin inşası ilə yanaşı, yolboyu müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də layihəyə uyğun şəkildə icra olunur. Prezident İlham Əliyev avtomobili tuneldə idarə etdi.*

*Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol-nəqliyyat infrastrukturu işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.*

* * *

*Daha sonra Prezident İlham Əliyev Şuşa şəhərinə gəldi. Aparılan kompleks işlər çərçivəsində Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin qaytarılması, ənənəvi mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri davam etdirilir.*

*Dövlət başçısı əvvəlcə Şuşa şəhərində tullantıların idarə olunması poliqonunda gedən işlərlə tanış oldu. Bildirildi ki, burada məişət tullantıları Avropa standartlarına uyğun xüsusi yeraltı konteynerlərdə yerləşdiriləcək. Poliqonda 4 çeşid üzrə 600 ədəd «smart» yeraltı konteyner və 11 ədəd xüsusi texnika nəzərdə tutulub. Ərazidə söküntü materiallarının çeşidlənməsi də aparılacaq. Şəhərin su təchizatı sisteminin dayanıqlığının təmini də iki mərhələdə paralel layihələrlə həyata keçiriləcək.*

*Sonra Prezident İlham Əliyev Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış oldu.*

*Məlumat verildi ki, hazırda binada işlər tamamlanmaq üzrədir. Şəhərin arxitekturasına uyğun tikilən binada hər cür şərait yaradılacaqdır.*

## QEYDLƏR

**1. TASS informasiya agentliyi** – Rusiyanın informasiya agentliyi. Dünyanın ən böyük 4 informasiya agentliyindən biri. – 5, 6, 25, 34, 42, 46, 48, 50.

**2. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–10, 12, 15, 17, 20, 23–28, 31, 33, 34, 37, 41, 43–45, 49, 50, 68, 187–190, 225, 231, 241, 251, 256.

**3. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən

fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər

Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 17, 18, 20, 34, 35, 39, 59, 64, 92, 144, 146–153, 178, 270, 318.

**4. Vladimir Putin** (d.1952) –2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 7, 20, 28, 29, 43, 45, 68, 187, 188, 190, 225.

**5. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və

ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyət-

sizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 8, 13, 17, 28, 32, 35, 41, 42, 46, 47, 50, 64, 150, 151, 224, 226, 275, 301, 303–306, 314, 316.

**6. Avropa Şurası Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. Üzv dövlətlərin məclis üzvlərinin təmsil olunduğu Parlament Assambleyası 324 deputatdan ibarətdir. Assambleya baş katibi, İnsan hüquqları üzrə komissarı və Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərini seçir. Mənzil-qərargahı Strasburqda yerləşir. – 9, 197, 275.

**7. «İnterfax» informasiya agentliyi** – Rusiyanın müstəqil xəbər agentliyi. Agentlik «İnterfaks Xəbər

Agentliyi» səhmdar cəmiyyətinə məxsusdur və baş ofisi Moskvada yerləşir. – 10.

**8. Şanxay Əməkdaşlıq Təşkilatı –** Şanxay Əməkdaşlıq Təşkilatı, həmçinin Şanxay Paktı kimi tanınan transkontinental siyasi, iqtisadi, təhlükəsizlik və hərbi ittifaq. Coğrafi əhatə dairəsi və əhalisi baxımından dünyanın ən böyük regional təşkilatlarından biridir. Ali qəbuledici orqanı ildə bir dəfə toplanan Dövlət Başçıları Şurasıdır. – 10, 305, 316.

**9. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. –10, 37, 40, 157, 179, 180.

**10. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tu-

tulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 11, 12, 305, 316.

**11. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 11.

**12. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir Yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar

atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 11, 27, 31, 44, 174, 204, 218, 230, 236–238, 258, 295.

**13. Avrasiya İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı** – əsas məqsədi üzv dövlətlərdə maliyyə sabitliyini qorumaq şərti ilə davamlı iqtisadi artım, məşğulluq və həyat şəraitini artırmaqla dünya iqtisadiyyatının inkişafına yardım etməkdən ibarət olan təşkilat. 1961-ci ildə yaradılmışdır. Baş qə-

rargahı Paris şəhərində yerləşir. Azərbaycanın təşkilatla əməkdaşlığı 2009-cu ildən Avrasiya Rəqabətqabiliyyətlilik Proqramının bir hissəsi olan Şərqi Avropa və Cənubi Qafqaz Təşəbbüsü çərçivəsində həyata keçirilir. – 12.

**14. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 44,13 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. –14, 22, 26, 43–45, 68, 69, 98, 104, 116, 130, 167, 175, 231, 241, 251, 256.

**15. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən, yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. –15, 83, 87, 103, 241, 242, 266, 267.

**16. Polad Bülbüloğlu,** P o l a d M u r t u z a o ğ l u (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2006-cı illərdə Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 15.

**17. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq, ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII– IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şah (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 15, 21.

**18. Mixail Qusman** (d.1950) – jurnalist. TASS informasiya agentliyi baş direktorunun birinci müavini. Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 16, 25, 34, 35, 39, 41, 46–48.

**19. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 17, 69, 92–94.

**20. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. –17, 37, 56, 65, 130, 158–160, 192, 208, 241, 274.

**21. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 km$^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 18, 30, 60, 62, 85, 148, 242, 262, 268, 269, 273, 275, 277.

**22. «Şərq Tərəfdaşlığı» Proqramı** – Avropa İttifaqının üzv ölkələri Polşa və İsveçin MDB-yə daxil olan Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukrayna ilə qonşuluq siyasəti çərçivəsində münasibətlərin yaxşılaşdırılmasına aid layihə. – 21.

**23. Sergey Lavrov** (d.1950) – Rusiyanın dövlət və siyasi xadimi. 2004-cü ildən Rusiya Federasiyasının Xarici İşlər naziridir. – 22.

**24. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi başa çatdı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkə-

lərin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 22, 63, 241.

**25. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 22.

**26. Slavyan Universiteti** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan dövlət təhsil müəssisəsi. Slavyan və german qrupuna aid dillərin, ədəbiyyatının, mədəniyyətinin, coğrafiyasının, tarixinin, siyasətinin öyrənilməsində ixtisaslaşan universitetdə rus, polyak, çex, ingilis, alman, bolqar, ukrayn, yunan, slovak, belarus, serb, xorvat, bosniya, fransız, türk dilləri və ədəbiyyatı üzrə müəllimlər, filoloqlar, tərcüməçilər, həmçinin diplomatlar, jurnalistlər, eləcə də bu ölkələrin beynəlxalq münasibətləri, mədəniyyəti, coğrafiyası, tarixi üzrə mütəxəssislər hazırlanır. – 23.

**27. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 84,34 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 24–28, 32, 33, 44, 67, 81–83, 90, 102–105, 213, 214, 235, 283.

**28. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 26–28, 67, 82, 83, 90, 102–104, 213.

**29. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dek-

retinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 26, 30, 60–62, 146–148, 154, 193, 262, 269–272, 278, 319–322.

**30. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları** – 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilib. – 27, 30, 107, 111, 155, 156, 180, 233, 261, 262, 321.

**31. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya

üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 28, 159, 182.

**32. Livan,** Livan Respublikası – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Beyrut şəhəridir. – 29.

**33. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 km$^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 29, 60, 148, 262–264, 266, 268, 277.

**34. Gəncə** – Azərbaycan Respublikasında əhalisinə görə Bakıdan sonra ikinci böyük şəhər. Gəncə şəhəri Kiçik Qafqazın şimal-şərqində, Gəncə–Qazax düzənliyində yerləşir. Sahəsi 173 km$^2$, əhalisi 360,4 min nəfərdir. – 30, 177.

**35. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildən ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 30, 60, 148, 262, 268, 269, 277, 319–321.

**36. Birinci Qarabağ müharibəsi** – 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər əsasən 1992-ci ildə başlanmışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, keçmiş Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 32, 185, 198, 200, 204, 208, 258.

**37. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 32, 72, 93, 94, 116, 168, 169, 184, 208–213, 232, 248, 249, 295, 297.

**38. Trans-Adriatik boru kəməri** (TAP) –Azərbaycan qazını Yunanıstandan Albaniyaya, oradan Adriatik dənizindən keçərək İtaliyaya, daha sonra qərbi Avropaya nəql edən boru kəməri. – 32, 33, 97, 194, 282.

**39. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 32, 97, 191–194.

**40. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km², əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 32, 33, 112, 284, 285.

**41. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km², əhalisi 10,7 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 33, 165.

**42. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km², əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 33, 131.

**43. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 35, 38, 53–57, 283.

**44. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mü-

barizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 35, 40, 54, 57.

**45. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkatda sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 40, 41, 53–57, 170, 229, 230, 288–290, 305, 316.

**46. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya Baş Assambleyanın sessiyalararası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 40, 53, 54, 57, 63, 86.

**47. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fran-

sisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 42, 54, 55, 57, 84, 87–89, 229, 288, 305, 311, 316.

**48. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u (DİF) – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. 1971-ci ildə yaradılmışdır. Ötən əsrin 70-ci illərinin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlandı. 1987-ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos forumu üçün ənənəvi şəkildə illik keçirilən görüşlər xarakterikdir. DİF-in hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 27–31 yanvar 1995-ci ildə Heydər Əliyev ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib. – 51, 52.

**49. «Facebook»** – dünyanın ən böyük sosial şəbəkəsi. Sosial əlaqə və informasiya mübadiləsinin möhkəmləndirilməsi məqsədilə 2004-cü ildə Mark Zukerberq tərəfindən yaradılmışdır. – 58.

**50. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 58, 59, 60–64, 66, 235.

**51. Əli Əsədov,** Əli Hidayət oğlu (d.1956) – iqtisadçı. Azərbaycanın dövlət və siyasi xadimi. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. 1998–2019-cu illərdə Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi, 2012–2017-ci illərdə Azərbaycan Respublikası Prezident Administrasiyası rəhbərinin müavini, 2019-cu il oktyabrın 8-dən isə Azərbaycan Respublikasının Baş Naziridir. – 59, 255.

**52. Sahibə Qafarova,** Sahibə Əli qızı (d.1955) – siyasi xadim. Filologiya elmləri doktoru, professor, Əməkdar müəllim. 2020-ci il martın 10-dan Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. – 59.

**53. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi

1050 km$^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 60, 148, 262, 264, 269, 277, 278.

**54. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Əhalisi 40,2 min nəfər, sahəsi 802 km$^2$-dir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 60, 148, 262, 269, 273, 277.

**55. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 60, 122, 123, 148, 263, 268–270, 273.

**56. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 km$^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. – 60, 122, 123, 262–265, 269, 270, 273.

**57. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESCO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 64, 108, 178, 271, 272.

**58. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər

arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 65, 230, 290, 305, 311, 316.

**59. Emmanuel Makron** (d.1977) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransa Respublikasının Prezidentidir. «İrəli, Respublika» siyasi partiyasının yaradıcısı və lideridir. – 69, 92.

**60. Klaus Yohannis** (d.1959) – Rumıniya dövlət xadimi və siyasətçisi. 2014-cü ildən Rumıniyanın Prezidentidir. – 70, 127.

**61. İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və digər abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikil-

mişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsr və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir. Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. 2000-ci ildə UNESCO Ümumdünya irs siyahısına salınmışdır. – 72–74, 76, 77.

**62. Qız qalası** – Azərbaycanda tarixi-memarlıq abidəsi. Bakıda, İçərişəhərdə yerləşir. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 72.

**63. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir.

Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası və ona bitişik Divanxana, aşağı həyətdə türbə və minarəli Şah məscidi, yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 73.

**64. Tacikistan,** Tacikistan Respublikası– Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 9,3 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayət və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 78, 79.

**65. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 79.

**66. Moldova,** Moldova Respublikası– Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölü-

nür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 80.

**67. Maya Sandu** (d.1972) – Moldovanın dövlət və siyasi xadimi. 2012–2015-ci illərdə Moldovanın Təhsil naziri, 2014–2019-cu illərdə Moldova Parlamentinin üzvü, 2019–2020-ci illərdə isə Baş Naziri olmuşdur. 2020-ci ildən Moldova Respublikasının Prezidentidir. – 80.

**68. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı olmuşdur. 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 81, 82.

**69. Ceyhun Bayramov,** C e y h u n Ə z i z o ğ l u (d.1973) – iqtisadçı-hüquqşünas. 2018–2020-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. 16 iyul 2020-ci ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 82, 309.

**70. Şuşa Bəyannaməsi** – 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşa şəhərində imzalanmış bəyannamə. – 82, 83, 103.

**71. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstə-

rən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 86, 93, 159, 161, 229, 283.

**72. UNESCO** – BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESCO-nun üzvüdür. – 94.

**73. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 97, 104, 168, 192, 282.

**74. Boris Conson** (d.1964) – Britaniya siyasətçisi. 2019-cu ildən Mühafizəkarlar Partiyasının lideri və Böyük Britaniyanın Baş Naziridir. – 99, 181.

**75. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İr-

landiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 99, 100, 181.

**76.** ***bp*** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 100, 265.

**77. Fatih Dönməz** (d.1965) – Türkiyə siyasətçisi. 2018-ci ildən Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziridir. – 102.

**78. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 $km^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçı-

van MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. –103, 266, 274, 275.

**79. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 106, 107, 110, 111, 223, 265, 266, 274, 275.

**80. İbrahim Rəisi** (d.1960) – siyasətçi və dövlət xadimi. 2021-ci ildən İran İslam Respublikasının Prezidentidir. – 106, 110.

**81. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 107, 111, 117, 267, 296.

**82. Fransisk** (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 108.

**83. Vatikan,** Vatikan Şəhər Dövləti – İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsində Monte-Vatikano adlanan təpə üzərində yerləşən mikrodövlət. Ölkənin ümumi sahəsi 0,44 kvadrat kilometr, əhalisinin sayı isə min nəfərdən çoxdur. Şəhər-dövlətin sərhədlərinin ümumi uzunluğu 2600 metrdir. Vatikan həm ərazisi, həm də əhalisinin sayına görə, dünya dövlətlərinin ən kiçik, eyni zamanda müstəqil və suveren ölkəsidir. Roma Papası tərəfindən idarə edilən teokratik monarxiya olan Vatikan 11 fevral 1929-cu il tarixində Roma Katolik kilisəsi və İtaliya rəhbərliyi arasında imzalanmış Lüteran sazişi əsasında yaradılıb. – 108.

**84. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 113.

**85. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 114, 207, 215, 220, 221.

**86. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 115.

**87. Sərdar Berdıməhəmmədov** (d.1981) – Türkmənistan dövlət xadimi və siyasətçisi. 19 mart 2022-ci ildən Türkmənistan Prezidentidir. – 115, 128, 129.

**88. Şarl Mişel** (d.1975) – belçikalı siyasətçi. 2014–2019-cu illərdə Belçikanın Baş Naziri olmuşdur. 2019-cu ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 116, 168, 184, 209–213, 232, 295–297.

**89. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Abu-Dabi şəhəridir. – 117, 119–121, 124–126, 166, 286, 287, 292–294.

**90. OPEC+** (Neft ixrac edən ölkələr təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 118.

**91. Pərviz Şahbazov,** P ə r v i z O q t a y o ğ l u (d. 1969) – mühəndis, diplomat. 2005–2016-cı illərdə Azərbaycanın Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Energetika naziridir. – 125.

**92. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007–2022-ci illərdə Türkmənistanın Prezidenti olmuşdur. – 128, 129.

**93. Entoni Blinken** (d.1962) – siyasətçi və diplomat. 2021-ci ildən Amerika Birləşmiş Ştatlarının Dövlət katibidir. – 130, 208.

**94. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21–22-də) keçirilir. Qədim zamanlardan başlayaraq, İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırdı. Respublikamız müstəqillik qazandıqdan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir. – 141, 153, 154, 156.

**95. Suqovuşan** – Azərbaycan Respublikası Tərtər rayonu Çaylı kənd inzibati ərazi dairəsində kənd. Suqovuşan ilk dəfə 1991–92-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında isə yenidən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

3 oktyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən tarixi adı bərpa edilərək Suqovuşan adlandırılmışdır. – 144, 146–154, 268, 269, 275.

**96. Zakir Həsənov,** Zakir Əsgər oğlu (d.1959) – general-polkovnik. 2003–2013-cü illərdə Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların Komandanı vəzifəsində çalışmışdır. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı», «Rəşadət», «Şöhrət», «Zəfər» ordenləri ilə təltif edilmişdir. – 149.

**97. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 157, 179.

**98. Cozef Bayden** (d.1942) – Amerika siyasətçisi və dövlət xadimi. ABŞ Demokrat Partiyasının üzvü, Amerika Birləşmiş Ştatlarının 46-cı Prezidenti. – 158.

**99. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 161–164, 280.

**100. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 161.

**101. İmran Xan** (d.1952) – Pakistanın dövlət xadimi. 2018–2022-ci illərdə Pakistan İslam Respublikasının Baş Naziri olmuşdur. – 163.

**102. Volodimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi, siyasətçi, rejissor, bədii direktor, aktyor. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 175.

**103. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 183.

**104. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,3 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 183, 184, 186.

**105. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropa-

nın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 183, 185, 230, 283, 305, 311.

**106. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 191, 194.

**107. İsrail Dövləti –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail Dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 195, 196, 203–205, 235.

**108. İshak Hersoq** (d.1960) –İsrail siyasətçisi və dövlət xadimi. 2021-ci ildən İsrail dövlətinin Prezidentidir. – 195.

**109. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şu-

rasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-ın bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsində məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. 2 palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 197–199.

**110. Aleksandr Vuçiç** (d.1970) – Serbiyanın dövlət və siyasi xadimi. 2017-ci ildən Serbiya Respublikasının Prezidentidir. – 206.

**111. Serbiya,** Serbiya Respublikası – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 206.

**112. Samir Şərifov,** Samir Rauf oğlu (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru ol-

muşdur. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təmsilçi direktordur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 243, 246, 250.

**113. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 245.

**114. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 248, 250, 251.

**115. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. Mənzil-qərargahı Manilada yerləşir. – 248, 250.

**116. Mikayıl Cabbarov,** M i k a y ı l Ç i n g i z o ğ l u (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illər-

də Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 23 oktyabr 2019-cu ildən İqtisadiyyat naziridir. – 252, 256, 308.

**117. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin Hüquq Departamentinin baş mütəxəssisi və müdiri vəzifələrində çalışmışdır. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin, 2011–2014-cü illərdə isə Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq şöbəsinin müdiri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə isə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir. 2018-ci ildən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 258.

**118. Ağoğlan** (*Hadrut*) – Azərbaycan Respublikasının Xocavənd rayonu inzibati ərazi dairəsində qəsəbə. Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğal edilmişdir.

9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir. – 269.

**119. «Xarıbülbül» festivalı** – 1989-cu ildən Şuşa şəhərində keçirilən beynəlxalq musiqi festivalı. «Xarıbülbül» beynəlxalq musiqi festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Dağlıq Qarabağ münaqişəsinin başlaması və Şuşa şəhərinin işğal olunması ilə festivalın keçirilməsi mümkün olmamışdır. Şuşa şəhəri Ermənistan işğalından azad olunduqdan sonra festivalın keçirilməsi bərpa edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və «Xarıbülbül» festivalı da bərpa olunmuşdur. 2021-ci il mayın 12-si və 13-ündə Şuşa şəhərində yenidən «Xarıbülbül» festivalı keçirilmişdir. – 272.

**120. Şahbaz Şərif** (d.1951) – Pakistanın dövlət xadimi və siyasətçisi. 11 aprel 2022-ci ildən Pakistan İslam Respublikasının Baş Naziridir. – 280.

**121. Sadır Japarov** (d.1968) – qırğız siyasətçisi və dövlət xadimi. 2021-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 298–303, 307, 310, 314, 318.

**122. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayət və 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 298–305, 307–315, 318

**123. Çingiz Aytmatov,** Ç i n g i z T o r e k u l o v i ç (1928–2008) – görkəmli qızğız yazıçısı. Qırğızıstan Respublikasının Xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976–1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazların daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusu olmuşdur, Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 306.

**124. İnam Kərimov,** İ n a m İ m d a d o ğ l u (d.1977) – 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 308.

**Şəxsi adlar göstəricisi**


| | |
|---|---|
| **Abdullayev Namiq** | – 139, 220 |
| **Akmataliyev Almazbek** | – 308 |
| **Al Maktum bin Rəşid** | – 287, 293, 294 |
| **Al Suhail Mazrui** | – 117, 118, 124, 126 |
| **Alvi Arif** | – 161 |
| **Amangəldiyev Daniyar** | – 308 |
| **Askarbek Canibekov** | – 308 |
| **Aytmatov Çingiz** | – 306 |
| **Babayev Sahil** | – 258 |
| **Bayden Cozef** | – 158 |
| **Bayramov Ceyhun** | – 82, 309 |
| **Bekasov Yevgeni** | – 32 |
| **Berdıməhəmmədov Qurbanqulu** | – 128, 129 |
| **Berdıməhəmmədov Sərdar** | – 115, 128, 129 |
| **Bermudes Migel** | – 289 |
| **Birçal Ana** | – 70 |
| **Blinken Entoni** | – 130, 208 |
| **Bomberger Katrin** | – 200, 201 |
| **Borge Brende** | – 51, 52 |
| **Breqadze Rati** | – 112 |
| **Bülbüloğlu Polad** | – 15 |
| **Cabbarov Mikayıl** | – 252, 256, 308 |
| **Cinpin Si** | – 157, 179 |
| **Conson Boris** | – 99, 181 |
| **Çavuşoğlu Mövlud** | – 81, 82 |

**Davitaşvili Levan** – 284
**Dobrodeyev Oleq** – 28
**Dönməz Fatih** – 102
**Duda Andjey** – 183
**Draqi Mario** – 97, 192
**Emoməli Rəhmon** – 79
**Emoməli Rüstəm** – 78, 79
**Enrike Karlos** – 288, 289
**Əhmədov Vüqar** – 144, 151
**Əl Bluşi Məhəmməd** – 292
**Əl-Caber Əhməd** – 286, 287, 292
**Əl-Nəhəyyan bin Zaid** – 166, 286, 292–294
**Ələkbərov Urxan** – 307
**Əliyev Hacı** – 221, 222
**Əliyev Heydər** – 8, 13, 17, 28, 32, 35, 41, 42, 46, 47, 50, 64, 150, 151, 224, 226, 275, 301, 303–306, 314, 316
**Əliyeva Mehriban** – 5, 17, 18, 20, 34, 35, 39, 59, 64, 92, 144, 146–153, 178, 270, 318
**Ərdoğan Bilal** – 90
**Ərdoğan Rəcəb Tayyib** – 26–28, 67, 82, 83, 90, 102–104, 213
**Əsədov Əli** – 59, 255
**Əzizli Eldəniz** – 222, 223
**Fransisk** (*Roma Papası*) – 108
**Fronin Vladislav** – 7
**Hersoq İshak** – 195
**Həmid Abdel** – 290
**Həsənov Zakir** – 149

**Hippi Ceyms** – 181
**Hüseynov Emin** – 146
**Xan İmran** – 163
**İmanov Talantbek** – 309
**Japarov Sadır** – 298–303, 307, 310, 314, 318
**Japarova Ayqul** – 318
**Kazakbayev Ruslan** – 309
**Kərimov İnam** – 308
**Kiselyov Dmitri** – 8
**Klaar Toivo** – 295, 297
**Komissar Mixail** – 10
**Konstantin Ernest** – 31
**Konstantinoviç Dmitri** – 49
**Qafarova Sahibə** – 59
**Qasimi Rüstəm** – 110
**Qəndilov Lətif** – 308
**Qurbanov Qurban** – 219
**Qurbanlı Mübariz** – 226
**Qusev Pavel** – 24
**Qusman Mixail** – 16, 25, 34, 35, 39, 41, 46–48
**Lavrov Sergey** – 22
**Maio di Luici** – 191, 193, 194
**Makron Emmanuel** – 69, 92
**Mattarella Sercio** – 191, 194
**Mişel Şarl** – 116, 168, 184, 209–213, 232, 295–297
**Mixaylov Sergey** – 5, 7, 47, 48
**Nağıyev Fuad** – 150
**Nəbiyev Rəşad** – 309

**Nikolayeviç Pavel** – 34
**Nikolson Emma** – 99, 100
**Novak Katalin** – 114
**Nudirəliyev Zaur** – 172
**Nuriyev Samir** – 59, 172
**Orban Viktor** – 207
**Osmonaliyev Kayrat** – 308
**Osoyev Erkinbek** – 309
**Petrov Mixail** – 42
**Peyçinoviç Mariya** – 197, 199
**Popesku Virgil-Daniel** – 70
**Putin Vladimir** – 7, 20, 28, 29, 43, 45, 68, 187, 188, 190, 225
**Rama Edi** – 281, 283
**Rau Zbiqnev** – 183, 185, 186
**Razvozov Yoel** – 203–205
**Remçikov Konstantin** – 25
**Rəisi İbrahim** – 106, 110
**Sakellaropul Katerina** – 165
**Sandu Maya** – 80
**Sayid Kays** – 143
**Seyidzadə Şahin** – 72, 77
**Sisi Əbdülfəttah** – 170
**Şahbazov Pərviz** – 125
**Şahid Abdulla** – 53
**Şərif Şahbaz** – 280
**Şərifi Mohd** – 84, 88, 89
**Şərifov Samir** – 243, 246, 250
**Şvab Klaus** – 52
**Tarakanov Aleksandr** – 224
**Val de Tomas** – 65

**Vanşteyn Timur** – 20, 24
**Vuçiç Aleksandr** – 206
**Yohannis Klaus** – 70, 127
**Yol Yun Sok** – 113
**Zelenski Volodimir** – 175

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 17
**Abu-Dabi** – 166, 286, 292
**Afrika** – 31
**Ağalı** – 278
**Ağbənd** – 267
**Ağcabədi** – 275
**Ağdam** – 18, 30, 60, 62, 85, 148, 242, 262, 268, 269, 273, 275, 277
**Ağoğlan** (*Hadrut*) – 269
**Albaniya** – 281, 283
**Amerika Birləşmiş Ştatları** – 17, 37, 56, 65, 130, 158–160, 192, 208, 241, 274
**Ankara** – 102, 103
**Astara** – 274
**Aşqabad** – 161
**Avropa** – 13, 14, 25, 32–34, 40, 104, 118, 123, 131, 132, 134, 135, 139, 185, 211, 216, 217, 220, 222, 223, 241, 274
**Belarus** – 22
**Belçika** – 209
**Bərdə** – 268, 269, 273, 275
**Bəsitçay** – 275

**Birləşmiş Ərəb Əmirlikləri** – 117, 119–121, 124–126, 166, 286, 287, 292–294
**Bolqarıstan** – 33, 131
**Böyük Britaniya** – 99, 100, 181
**Brüssel** – 82, 208–210, 212, 213, 225, 232, 266, 296, 297
**Budapeşt** – 218
**Cəbrayıl** – 60, 148, 262, 264, 269, 277, 278
**Çin** – 10, 37, 40, 157, 179, 180
**Daşaltı** – 319, 320
**Daşkəsən** – 265
**Davos** – 183
**Donetsk** – 43
**Dubay** – 287
**Düşənbə** – 79
**Edilli** – 200
**Eyvazlı** – 269
**Əfqanıstan** – 159, 182
**Əhmədbəyli** – 319–321
**Əsgəran** – 62, 63
**Fərrux** – 277
**Fransa** – 17, 69, 92–94
**Füzuli** – 30, 60, 148, 262, 268, 269, 277, 319–321
**Gəncə** – 30, 177
**Goranboy** – 275
**Güləbird** – 263
**Gürcüstan** – 32, 33, 112, 284, 285
**Həkəri çayı** – 275, 276
**Horadiz** – 267

**Xaçınçay** – 277
**Xankəndi** – 60, 62, 274
**Xirosima** – 242
**Xocalı** – 60, 62, 63, 65
**Xocavənd** – 62, 200
**Xorvatiya** – 197
**Xudafərin** – 269
**İğdır** – 104
**İran** – 106, 107, 110, 111, 223, 265, 266, 274, 275
**İrəvan** – 15, 21
**İsrail** – 195, 196, 203–205, 235
**İtaliya** – 32, 97, 191–194
**Kəlbəcər** – 60, 122, 123, 262–265, 269, 270, 273
**Koreya** – 113
**Köndələnçay** – 275, 319, 320
**Kuba** – 288, 289
**Qafqaz** – 11, 116, 130, 168, 184, 185, 192, 199, 234, 242
**Qarabağ** – 10, 15, 32, 49, 61, 62, 66, 87, 138, 153–156, 182, 219, 229, 231, 232, 241, 242, 245, 273, 319, 320
**Qaradağ** – 119, 124, 166, 167, 286, 293
**Qaradağlı** – 62
**Qarqarçay** – 275
**Qars** – 103
**Qazaxıstan** – 11

**Qırğızıstan** – 298–305, 307–315, 318
**Qubadlı** – 60, 148, 262, 269, 273, 277
**Quruçay** – 275
**Quşçular** – 62
**Laçın** – 60, 122, 123, 148, 263, 268–270, 273
**Lev çayı** – 263, 275
**Lənkəran** – 177
**Livan** – 29
**Macarıstan** – 114, 207, 215, 220, 221
**Malıbəyli** – 61, 62
**Mingəçevir** – 152
**Misir** – 170, 171, 290, 291
**Moldova** – 80
**Moskva** – 18, 22, 23
**Murov** – 269
**Naftalan** – 268, 269
**Naxçıvan** – 103, 266, 274, 275
**Naxçıvan Muxtar Respublikası** – 107, 111, 117, 267, 296
**Naxçıvanik** – 63
**Oxçuçay** – 275
**Pakistan** – 161–164, 280
**Paris** – 221
**Polşa** – 183, 184, 186
**Roma** – 191
**Ruan** – 64
**Rumıniya** – 70, 127

**Rusiya** – 5–10, 12, 15, 17, 20, 23–28, 31, 33, 34, 37, 41, 43–45, 49, 50, 68, 187–190, 225, 231, 241, 251, 256
**Serbiya** – 206
**Smolensk** – 22
**Suqovuşan** – 144, 146–154, 268, 269, 275
**Sumqayıt** – 30
**Suriya** – 26
**Şəki** – 177
**Şuşa** – 26, 30, 60–62, 146–148, 154, 193, 262, 269–272, 278, 319–322
**Tacikistan** – 78, 79
**Talış** – 268
**Tərtər** – 144, 146, 148–151, 153, 269, 273
**Toğana** – 269, 270
**Tunis** – 143
**Turqay** – 275
**Tutqun** – 275
**Türkiyə** – 24–28, 32, 33, 44, 67, 81–83, 90, 102–105, 213, 214, 235, 283
**Türkmənistan** – 115
**Ukrayna** – 14, 22, 26, 43–45, 68, 69, 98, 104, 116, 130, 167, 175, 231, 241, 251, 256
**Varşava** – 183
**Vatikan** – 108

**Yevlax** – 275
**Yuqoslaviya** – 64
**Yunanıstan** – 33, 165
**Zabrat** – 177
**Zabux** – 275
**Zəngəzur** – 15, 83, 87, 103, 241, 242, 266, 267
**Zəngilan** – 29, 60, 148, 262–264, 266, 268, 277

# MÜNDƏRİCAT

TASS AGENTLİYİNDƏ RUSİYA FEDERASİYASININ APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*23 fevral 2022-ci il ............................................................. 5*

DÜNYA İQTİSADİ FORUMUNUN PREZİDENTİ BORGE BRENDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 fevral 2022-ci il ........................................................... 51*

BMT BAŞ ASSAMBLEYASI SƏDRİNİN «UNİVERSAL PEYVƏNDLƏNMƏ ÜÇÜN SƏYLƏRİN ARTIRILMASI» MÖVZUSUNDA TƏŞKİL ETDİYİ YÜKSƏK SƏVİYYƏLİ TEMATİK MÜZAKİRƏLƏRDƏ VİDEOFORMATDA ÇIXIŞ

*25 fevral 2022-ci il .......................................................... 53*

AZƏRBAYCAN PREZİDENTİNİN RƏSMİ «FACEBOOK» SƏHİFƏSİNDƏN

*25 fevral 2022-ci il .......................................................... 58*

XOCALI FACİƏSİNİN 30-cu İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA KEÇİRİLMİŞ ÜMUMXALQ YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2022-ci il .......................................................... 59*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*26 fevral 2022-ci il* ............................................................ *67*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*27 fevral 2022-ci il* ............................................................ *68*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ EMMANUEL MAKRON İLƏ TELEFONLA GÖRÜŞ

*1 mart 2022-ci il*.................................................................. *69*

RUMINİYANIN ENERGETİKA NAZİRİ VİRGİL-DANİEL POPESKU VƏ STRATEJİ LAYİHƏLƏR ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏ ANA BİRÇAL İLƏ GÖRÜŞ

*2 mart 2022-ci il*.................................................................. *70*

«İÇƏRİŞƏHƏR» DÖVLƏT TARIX-MEMARLIQ QORUĞU İDARƏSİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ ŞAHİN SEYİDZADƏ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 mart 2022-ci il*.................................................................. *72*

TACİKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ MİLLİ MƏCLİSİNİN SƏDRİ RÜSTƏM EMOMƏLİ İLƏ GÖRÜŞ

*3 mart 2022-ci il*.................................................................. *78*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
MAYA SANDU İLƏ TELEFONLA GÖRÜŞ

*3 mart 2022-ci il............................................................... 80*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ
İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU
İLƏ GÖRÜŞ

*5 mart 2022-ci il............................................................... 81*

BMT-nin MƏSKUNLAŞMA PROQRAMININ
İCRAÇI DİREKTORU MAİMUNA MOHD
ŞƏRİF İLƏ GÖRÜŞ

*5 mart 2022-ci il............................................................... 84*

DÜNYA ETNOİDMAN KONFEDERASİYA-
SININ SƏDRİ BİLAL ƏRDOĞAN İLƏ GÖRÜŞ

*5 mart 2022-ci il............................................................... 90*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL
MAKRONA

*7 mart 2022-ci il............................................................... 92*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ
MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA
TƏBRİK

*7 mart 2022-ci il............................................................... 95*

İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ SƏDRİ MARİO DRAQİ İLƏ TELEFONLA GÖRÜŞ

*8 mart 2022-ci il.............................................................. 97*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*9 mart 2022-ci il.............................................................. 99*

TÜRKİYƏ RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*10 mart 2022-ci il.......................................................... 102*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*10 mart 2022-ci il.......................................................... 103*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD İBRAHİM RƏİSİYƏ

*11 mart 2022-ci il.......................................................... 106*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*11 mart 2022-ci il.......................................................... 108*

İRAN İSLAM RESPUBLİKASININ YOL VƏ ŞƏHƏRSALMA NAZİRİ, AZƏRBAYCAN İLƏ İRAN ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ HƏMSƏDRİ RÜSTƏM QASİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2022-ci il.......................................................... 110*

GÜRCÜSTANIN ƏDLİYYƏ NAZİRİ RATİ BREQADZENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 mart 2022-ci il* ........................................................... *112*

KOREYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YUN SOK YOLA

*14 mart 2022-ci il*............................................................ *113*

MACARISTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM KATALİN NOVAKA

*14 mart 2022-ci il*............................................................ *114*

TÜRKMƏNİSTANIN YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SƏRDAR BERDIMƏHƏMMƏDOVA

*14 mart 2022-ci il*............................................................ *115*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*14 mart 2022-ci il*............................................................ *116*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ENERGETİKA VƏ İNFRASTRUKTUR NAZİRİ SUHAİL AL MAZRUİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2022-ci il* ........................................................... *117*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN «MASDAR» ŞİRKƏTİ TƏRƏFİNDƏN AZƏRBAY-

CANDA İNŞA EDİLƏCƏK 230 MVt GÜCÜNDƏ QARADAĞ GÜNƏŞ ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ İLƏ ƏLAQƏDAR GÜLÜSTAN SARAYINDA KEÇİRİLMİŞ TƏDBİRDƏ İŞTİRAK

*15 mart 2022-ci il* ............................................................ *119*

RUMINİYA PREZİDENTİ KLAUS YOHANNİS İLƏ TELEFONLA GÖRÜŞ

*15 mart 2022-ci il*............................................................. *127*

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ TELEFONLA GÖRÜŞ

*15 mart 2022-ci il*............................................................. *128*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN İLƏ TELEFONLA GÖRÜŞ

*15 mart 2022-ci il*............................................................. *130*

23 YAŞADƏK İDMANÇILARIN BOLQARISTANDA KEÇİRİLMİŞ GÜLƏŞ ÜZRƏ 7-ci AVROPA ÇEMPİONATININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*17 mart 2022-ci il*............................................................. *131*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*18 mart 2022-ci il*............................................................. *141*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ KAYS SAYİDƏ

*18 mart 2022-ci il............................................................ 143*

TƏRTƏR RAYONUNA SƏFƏR

*20 mart 2022-ci il............................................................ 144*

SUQOVUŞANDA BAYRAM TONQALININ
BAŞINDAN NOVRUZ BAYRAMI MÜNASİ-
BƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
MÜRACİƏTİ

*20 mart 2022-ci il ........................................................... 153*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*21 mart 2022-ci il............................................................ 157*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
COZEF BAYDENƏ

*22 mart 2022-ci il............................................................ 158*

PAKİSTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
ARİF ALVİYƏ

*22 mart 2022-ci il............................................................ 161*

PAKİSTAN İSLAM RESPUBLİKASININ
BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB
İMRAN XANA

*22 mart 2022-ci il............................................................ 163*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ XANIM KATERİNA SAKELLAROPULUYA

*22 mart 2022-ci il............................................................ 165*

ABU-DABİ VƏLİƏHDİ, BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANININ MÜAVİNİ MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHƏYYAN İLƏ TELEFONLA GÖRÜŞ

*22 mart 2022-ci il............................................................ 166*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞARL MİŞELƏ

*26 mart 2022-ci il............................................................ 168*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH SİSİYƏ

*27 mart 2022-ci il............................................................ 170*

PREZİDENT ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*28 mart 2022-ci il ......................................................... 172*

UKRAYNA PREZİDENTİ VOLODİMİR ZELENSKİ İLƏ TELEFONLA GÖRÜŞ

*28 mart 2022-ci il ........................................................... 175*

QADIN VƏ YETKİNLİK YAŞINA ÇATMAYAN MƏHKUMLAR ÜÇÜN BAKIDA YENİ

İNŞA OLUNMUŞ MÜASİR PENİTENSİAR MÜƏSSİSƏLƏRDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*29 mart 2022-ci il* ............................................................ *176*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*29 mart 2022-ci il* ............................................................ *179*

BÖYÜK BRİTANİYANIN SİLAHLI QÜVVƏLƏR NAZİRİ, BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ CEYMS HİPPİ İLƏ GÖRÜŞ

*30 mart 2022-ci il* ............................................................ *181*

POLŞA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ ZBİQNEV RAUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 mart 2022-ci il* ............................................................ *183*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*31 mart 2022-ci il* ............................................................ *187*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*1 aprel 2022-ci il* ............................................................ *188*

İTALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ

LUİCİ Dİ MAİONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 aprel 2022-ci il .......................................................... 191*

İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSHAK HERSOQA

*4 aprel 2022-ci il .......................................................... 195*

AVROPA ŞURASININ BAŞ KATİBİ XANIM MARİYA PEYÇİNOVİÇ BURİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 aprel 2022-ci il .......................................................... 197*

İTKİN DÜŞMÜŞ ŞƏXSLƏR ÜZRƏ BEYNƏLXALQ KOMİSSİYANIN BAŞ DİREKTORU XANIM KATRİN BOMBERGER İLƏ GÖRÜŞ

*4 aprel 2022-ci il .......................................................... 200*

İSRAİL–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ, İSRAİLİN TURİZM NAZİRİ YOEL RAZVOZOV İLƏ GÖRÜŞ

*5 aprel 2022-ci il .......................................................... 203*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR VUÇİÇƏ

*5 aprel 2022-ci il .......................................................... 206*

MACARISTANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR ORBANA

*5 aprel 2022-ci il .......................................................... 207*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN
İLƏ TELEFONLA GÖRÜŞ

*5 aprel 2022-ci il* ............................................................ *208*

BELÇİKA KRALLIĞININ PAYTAXTI
BRÜSSELƏ İŞGÜZAR SƏFƏR

*6 aprel 2022-ci il* ............................................................ *209*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ
ŞARL MİŞEL İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*6 aprel 2022-ci il* ............................................................ *210*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ
ŞARL MİŞEL VƏ ERMƏNİSTAN RESPUBLİKA-
SININ BAŞ NAZİRİ NİKOL PAŞİNYAN İLƏ İŞÇİ
NAHAR FORMATINDA GÖRÜŞ

*7 aprel 2022-ci il* ............................................................ *212*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA
GÖRÜŞ

*7 aprel 2022-ci il* ............................................................ *213*

MACARISTANDA KEÇİRİLMİŞ GÜLƏŞ
ÜZRƏ AVROPA ÇEMPİONATINDA
İŞTİRAK EDƏN AZƏRBAYCAN
MİLLİSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*8 aprel 2022-ci il* ............................................................ *215*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*9 aprel 2022-ci il* .......................................................... *225*

DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN TABELİYİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNUN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*11 aprel 2022-ci il* ....................................................... *226*

AZƏRBAYCAN PREZİDENTİNİN SƏDRLİYİ İLƏ CARİ İLİN BİRİNCİ RÜBÜNÜN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏ

*12 aprel 2022-ci il* ....................................................... *228*

YEKUN NİTQİ

*12 aprel 2022-ci il* ....................................................... *261*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAHBAZ ŞƏRİFƏ

*14 aprel 2022-ci il* ....................................................... *280*

ÖLKƏMİZDƏ RƏSMİ SƏFƏRDƏ OLAN ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ EDİ RAMA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*14 aprel 2022-ci il* ....................................................... *281*

GÜRCÜSTANIN BAŞ NAZİR MÜAVİNİ, İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF NAZİRİ LEVAN DAVİTAŞVİLİ İLƏ GÖRÜŞ

*15 aprel 2022-ci il* ............................................................ *284*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏNAYE VƏ QABAQCIL TEXNOLOGİYALAR NAZİRİ, ABU-DABİ MİLLİ NEFT ŞİRKƏTİNİN İDARƏEDİCİ DİREKTORU SULTAN ƏHMƏD ƏL-CABER İLƏ GÖRÜŞ

*15 aprel 2022-ci il* ............................................................ *286*

KUBA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KARLOS ENRİKE VALDES DE LA KONSEPSYON İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il* ............................................................ *288*

MİSİR ƏRƏB RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ HİŞAM MƏHƏMMƏD NAĞI ABDEL HƏMİD İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il* ............................................................ *290*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MƏHƏMMƏD ƏL-BLUŞİ İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il* ............................................................ *292*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO

KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 aprel 2022-ci il* ........................................................ *295*

ÖLKƏMİZƏ RƏSMİ SƏFƏRƏ GƏLMİŞ QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROVUN QARŞILANMA MƏRASİMİ

*20 aprel 2022-ci il* ........................................................ *298*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*20 aprel 2022-ci il* ........................................................ *300*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*20 aprel 2022-ci il* ........................................................ *302*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*20 aprel 2022-ci il* ........................................................ *307*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*20 aprel 2022-ci il* ........................................................ *310*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV VƏ XANIMI AYQUL JAPAROVANIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*20 aprel 2022-ci il* ........................................................ *318*

ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*21 aprel 2022-ci il ........................................................... 319*

QEYDLƏR ...................................................................... *323*

*Şəxsi adlar göstəricisi......................................................... 368*

*Coğrafi adlar göstəricisi.................................................... 373*

**Texniki redaktor** *Zoya Nəcəfova*

**Yığım üzrə operator** *İlhamə Kərimova*

**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.